ZAUR ƏLİYEV

# DİASPOR

## İZAHLI SÖZLÜK VƏ MƏLUMAT KİTABI

*BAKI - 2007*

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Az
Ə 50

**Məsləhətçilər:**
**Mahmud Kərimov.** Akademik, AMEA-nın prezidenti, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının İdarə Heyətinin sədri.
**Nazim İbrahimov.** Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri.

**Elmi Redaktor:**
Əlikram Tağıyev. F.e.d., professor

**Redaktor:**
Elşad Miraləm

**Rəyçilər:**
Nəriman Qurbanov. Dövlət qulluğunun baş müşaviri
Musa Qasımlı. T.e.d., professor
Azər Mustafayev. F.e.d., professor
Rəna Mirzəzadə. F.e.d.
Məryəm Seyidbəyli. T.e.n.
Kəmalə İsmayılova. S.e.n.

**Kitab Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə çap olunmuşdur.**

Kitab AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitunun Elmi Şurasının 30 oktyabr 2006-cı il tarixli iclasının qərarı ilə (protokol №11) çapa məsləhət görülmüşdür.

Ə 50 **Zaur Əliyev. Diaspor: izahlı sözlük və məlumat kitabı.**
Bakı, «Yurd» Nəşriyyat-Poliqrafiya Birliyi, 2007, 376 səh.

Kitabda diasporla bağlı önəmli olan söz və ifadələr, termin və anlayışlar öz əksini tapmışdır. Diaspora aid nəzəri və təcrübi məlumatlar eyni zamanda, lobbiçilik, miqrasiya və bu kimi termin və anlayışlar barədə də geniş izahlar verilmişdir. Vəsait diaspor mövzusu ilə maraqlanan bütün oxucular üçün nəzərdə tutulub.

Ə $\frac{5001000000}{082-07}$ Qrifli nəşr

ISBN 9952-407-05-3

© Zaur Əliyev

# ÖN SÖZ

Təqdim edilən kitab ilk hazırlanması prosesində "Diaspor terminlərinin izahlı lüğəti" başlığında və məzmununda hazırlanmalı idi. Sonra mövzunun daha qlobal xarakter daşıdığını, diaspor və onunla bağlı olan terminlərin və anlayışların izahına ölkəmizdə olan ehtiyacdan irəli gələrək kitabın təqdim edilən formada tərtib edilməsi qərara alındı. Niyə "Diaspor: izahlı sözlük-məlumat kitabı" sualına cavab olaraq qeyd etmək olar ki, bu gün mövzu ilə bağlı Azərbaycanda nəzəri və təcrübi aspektləri özündə birləşdirən elmi əsərlər azlıq təşkil edir.

Etiraf etmək lazımdır ki, diaspor mövzusunun ölkəmizdə elmi səviyyədə öyrənilməsi çox ləng aparılır. Ədəbiyyat qıtlığı, mövzuya müxtəlif aspektlərdən yanaşma halları, KİV-də analitik yazıların azlığı, xarici ədəbiyyatların ana dilimizə tərcümə edilməməsi və s. səbəblər tədqiqatçılar üçün ciddi əngəllər yaradır.

Bunu nəzərə alaraq, diaspor mövzusu və onunla bağlı terminləri, anlayışları, nəzəri və təcrübi cəhətləri özündə əks etdirən bir kitabın elmi ictimaiyyətə təqdim edilməsinə ehtiyac duyulurdu. Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Rusiya, Fransa, Skandinav ölkələri, İsrail və s. ölkələrin kitabxanaları, internet saytları və ali məktəb dərslikləri arasında diaspor və onunla bağlı anlayışları özündə cəmləşdirən bir kitabın olmamasını nəzərə alaraq tərtib edilən kitabın xüsusi maraq kəsb edəcəyini düşündük.

Kitabda toplanmış termin və anlayışlar birbaşa və dolayısı olaraq diaspor tədqiqatında və işində istifadə edilir. Müraciət etdiyimiz hər bir kitab, mənbə, fikir və sitatda diaspor mövzusunu tədqiq edən alimlər qeyd edilən termin və anlayışlardan istifadə ediblər.

Çalışmışıq ki, Azərbaycan tədqiqatçıları və problemlə məşğul olan şəxslər diaspor barəsində nəzəri və praktik məlumatları əldə etsinlər. Tədqiqatçıları maraqlandıran məsələlərin konkret formada kitabda öz əksini tapması mövzunu daha da aktual edir. Kitabda özündə terminləri, anlayışları, xaricdəki diaspor təşkilatları, "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər), mövzu ilə bağlı Azərbaycanda nəşr edilən kitabların adları, Azərbaycan diasporuna məxsus internet saytlarının ünvanları, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının tərkibi, Ginnesin rekordlar kitabına düşən soydaşlarımızın adları, müxtəlif xalqların diaspor təşkilatları, diaspor quruculuğu barədə nəzəri fikirləri, təcrübi işləri və digər məsələləri birləşdirir.

Kitabın hazırlanması prosesində Azərbaycan, rus, ingilis, fransız, yəhudi, alman, türk, ərəb, ispan və ukrayn dillərində olan ədəbiyyatlardan, mənbələrdən və analitik yazılardan istifadə edilib. Kitab ali məktəblər, elmi müəssisələr, müfaviq dövlət qurumlarının əməkdaşları və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.



# TERMİNLƏR

## -A-

**AAC**

Dünya azərbaycanlılarının ilk təşkilatlarından biri sayılan Amerika-Azərbaycan Cəmiyyəti (AAC) 1958-ci ildə Nyu-Cersi şəhərində təsis olunub. Təşkilatın əsası 1942-ci ildə Türkiyədən ABŞ-a köçən soydaşlarımız tərəfindən qoyulub. Təşkilatı struktur kimi 1958-ci ildən fəaliyyətini genişləndirən AAC-ın əsas üzvləri Azərbaycan Demokratik Respublikasının banilərinin nəvə və nəticələridir. Təşkilatın hazırkı sədri Tomris Azəridir. T.Azəri Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurası İdarə Heyəti sədrinin müavinidir. 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Şöhrət Ordeni" ilə təltif olunub.

**AAS**

Ərəb-Amerika Komitəsi: – 1980-ci ildə yaradılmış komitə əsas məqsəd kimi qarşısına lobbiçilik və təbliğatçılıq qoymuşdur. Lobbi təşkilatı kimi qeydə alınmamasına baxmayaraq, AAS-ın Amerikanın siyasi və iqtisadi dairələrində böyük nüfuzu var. 35.000-ə yaxın üzvü olan AAS mütəmadi olaraq təbliğat xarakterli konfrans, forum və digər tədbirlər keçirir.

**AAK**

Avropa Azərbaycanlıları Konqresi 2004-cü ilin aprel ayının 17-də Almaniyanın Berlin şəhərində təsis olunub. AAK-ın əsasnaməsinə daxil olan məqsəd və vəzifələrə aiddir: Avropada

yaşayan azərbaycanlıların milli-mədəni xüsusiyyətlərini qorumaq, onların sosial-siyasi və hüquqi maraqlarını təmin etmək; bu qitədə çoxtirajlı dövrü mətbuat və elektron kütləvi informasiya vasitələrində təbliğat işini aparmaq; müxtəlif mövzulara aid konfrans, seminar, diskussiya, mətbuat üçün brifinqlər, musiqili tədbirlər, sərgilər və başqa istiqamətli tədbirlər həyata keçirmək; Azərbaycan və türk dünyası ilə bağlı elmi işlər və kitabların dəstəklənməsi; lobbiçilik və s. 2007-ci ilin mart ayının 10-da Bakı şəhərində AAK-ın II qurultayı keçirilib. Qurulayın qərarlarına uyğun olaraq təşkilatın fəaliyyət Proqramı hazırlanıb. 2004-cü ildən 2007-ci ilə qədər AAK-a Almaniyada yaşayan iş adamı, Alman Türk İş adamları Birliyinin sədri, Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının üzvü Bahəddin Kaya rəhbərlik edib. II qurultayda Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti, AAK-ın birinci vitse-prezidenti Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurası İdarə heyətinin üzvü Natiq Ağamirov AAK Prezidenti seçilib.

**Aborigen**
*(Lat: aborigenes-əvvəldən)*
Hər hansı bir ərazidə tarixin ilk zamanlarından yaşayanlar, sadə dillə yerli əhali. Misal üçün, türk xalqları Sibirin, Azərbaycanın, Orta Asiyanın, hindular Amerika qitəsinin aborigen xalqları sayılır.

**Adstrat**
İki dilin eyni ərazidə uzun müddət yanaşı işlənməsi nəticəsində yaranan ikidilliyin bir növü. Miqrantların dilinin aborigenlərin dilinə təsiri. Bu zaman təsir leksika, fonetika və qrammatikada da hiss olunur.

**Ağ mühacirət**
Bolşevik çevrilişindən əvvəl və sonra Rusiyadan xarici dövlətlərə mühacirət etmiş dvoryanlar, ziyalılar, hərbiçilər və





bank sahibləri. "Ağ mühacirət" - adlanan birinci dalğa, əsasən, Avropa və Çində məskunlaşırdılar. Almaniya, Fransa, Türkiyə, Polşa, Bolqarıstan, Baltikyanı dövlətlər və Çində rus mədəni və dini mərkəzləri yaradan Ağ mühacirlərin təxmini sayı 1,5-2 milyona çatırdı.

**AHMA**
Amerika Hindlilərinin Milli Assosiasiyası - 1982-ci ildə təsis olunub. Amerikada fəaliyyət göstərən bütün Hind diaspor təşkilatlarını birləşdirməyə nail olan Assosiasiya ABŞ Konqresində lobbiçiliklə də məşğul olur. Hind varlı təbəqəsi tərəfindən himayə olunan Assosiasiya Amerika-Hindistan münasibətlərinin inkişaf etdirilməsini vacib hesab edir.

**Ailə**
Ailə, soy və etnos ilə yanaşı, insan birliyinin ilkin və ən qədim quruluş formasıdır. Son əsrdə ailənin əsaslı dəyişikliklərə uğramasına baxmayaraq, hələ də ən vacib ictimai institut olaraq qalmaqdadır. Məhz ailədə insan sosial rollarını öyrənir, təhsilin əsaslarına və davranış qaydalarına yiyələnir.

**Akkresiya**
İnsan resurslarının mərkəzə konsentrasiyası. Bu eyni zamanda demoqrafik partlayışa və sərhədlərin dəyişməsinə şərait yaradır.

**Akkulturasiya**
Bir etnik qrup və ya tamamilə bir xalq tərəfindən inkişaf etmiş güclü xalqa qaynayıb-qarışmaq istəyindən irəli gəlir. Assimliyasiyadan fərqli olaraq Akkulturasiya adlanan bu proses iki mədəniyyətli, iki dinli və harmonik olaraq iki xalqlı kimi anlayışın yaranmasına şərait yaradır. Proses çox zaman müvəqqəti xarakter daşıyır. Buna misal olaraq, Hind diasporunu

göstərə bilərik. Müstəmləkə illərində xaricə miqrasiya edən hindlilər Britaniya təhsilini və dilini mənimsəməyə çalışırdılar.

**Almaniyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının Məşvərət Şurası**

2007-ci ildə təsis edilmişdir. Şuranın yaradılmasının əsas məqsədi Azərbaycanın Avropaya inteqrasiya siyasətini dəstəkləmək, Azərbaycan həqiqətlərinin, o cümlədən xalqımızın məruz qaldığı terror və soyqırım aktları, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəbləri və nəticələri barədə məlumatların Almaniya və bütün Avropa ictimaiyyətinə çatdırılmasına yardım etmək, Almaniyada və digər Avropa ölkələrində Azərbaycan xalqının qədim tarixi, zəngin mədəni irsinin təbliği ilə məşğul olmaq, Almaniyadakı Azərbaycan icmalarının fəaliyyətinin koordinasiya edilməsi üçün səyləri birləşdirməkdir. Qeyd edək ki, Məşvərət Şurası Almaniyadakı Azərbaycan icmalarının fəaliyyətini əlaqələndirmək üçün onların könüllü şəkildə iştirak etdikləri məşvərətçi orqandır və bu əlaqələndirmə missiyanı həyata keçirmək məqsədilə Berlində işçi qrup fəaliyyət göstərir. Şura 6 aydan az olmamaq şərtilə toplanır və üzv təşkilatların növbəti toplantıya qədərki dövr ərzində həyata keçirəcəyi tədbirləri müzakirə edir. Quruma sədrlik rotasiya qaydası ilə həyata keçirilir. Sədr Məşvərət Şurasına üzv təşkilatların adlarına uyğun olaraq Azərbaycan əlifba sırası ilə onların rəhbərləri arasından 6 ay müddətinə seçilir.

**Altruizm**

Öz mənafeyindən imtina edib, başqasına təmənnasız xidmət göstərmək.

**Amerika Azərbaycan Tədqiqatlar İnstitu**

2006-cı ildə ABŞ-da Amerika Türk Assosiasiyaları Assambleyasının keçmiş sədri Vural Cengiz tərəfindən təsis





edilmişdir. Amerika Azərbaycan Tədqiqatlar İnstitunun yaradılmasının əsas məqsədi Azərbaycanla ABŞ arasında münasibətlərin inkişafına dəstək vermək, Amerika ictimaiyyətini Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti və müasir ictimai-siyasi həyatı barədə məlumatlandırmaqdan ibarətdir.

**Amerika Ellin İnstitutu - (ANİ)**

Yunan diasporunun 3 əsas aparıcı təşkilatlarından biri hesab olunur. Lobbiçilik və təbliğatçılıq işlərilə məşğul olan ANİ 1974-cü ildə təsis edilib. ABŞ və Yunanıstanda çox sayda filialları olan ANİ-in hər iki dövlətin hakimiyyət orqanları ilə sıx əlaqələri var. Müxtəlif KİV orqanları olan ANİ ətrafında yunan diasporunun bütün təbəqələrini birləşdirmişdir. ANİ Amerikada güclü mövqeyə malikdir.

**Amerika Ərəbləri**

<u>Amerika ərəbləri kimlərdir?</u>

Amerika ərəblərinin 82%-i ölkə vətəndaşlarıdır. Onların 63%-i Amerikada anadan olub. 51%-i məişət dili kimi ərəb dilindən istifadə edir. Amerika ərəbləri öz mədəniyyətlərini unutmurlar.

<u>Amerika ərəbləri harada yaşayırlar?</u>

Bütün ştatlarda yaşayan ərəblərin əksəriyyəti Kaliforniyada çoxluq təşkil edir. Los-Ancelos, Arizona, Detroyt və Çikaqo ərəblərin kompakt halda yaşadığı şəhərlərdir.

<u>Amerika ərəblərinin təhsili varmı?</u>

Əsasən, orta təhsilli olan ərəblər içərisində seçilən şəxslər də var. Tibb, hüquq, texnologiya sahələrində tanınmış ərəblər də diasporda nüfuz sahibləridir. Amerikada yaşayan ərəblərin 40%-i ali təhsillidir.

<u>Ərəblər harada işləyirlər?</u>

60% - kommersiya sahəsində çalışan ərəblər normal gəlirli təbəqəyə daxildir. 40% - ərəb isə müxtəlif peşə sahibləri olmaqla ağır və dövlət işlərində çalışırlar.

Ərəblərin illik gəliri nə qədərdir?

1990-1999-cu illərin statistikasına görə, ərəblərin illik gəliri 53337 dollara yaxındır. Bu orta təbəqəni təmsil edən ərəblərə aiddir. Daha çox qazanan ərəblər milyonçular sırasına daxildirlər.

Ərəblər hansı dildə danışırlar?

Ərəblərin 75%-i həm ingilis, həm də ərəb dilində gözəl danışır. 25%-i başqa dillərdə danışır. Diasporda 60-70% ərəb məişətdə öz dillərindən istifadə edir.

Ərəblər hansı dinə sitayiş edirlər?

Ərəblərin 65%-i İslam dininə, 25%-i xristian, 10%-i isə başqa dinlərə aiddirlər.

Ərəblər niyə irqçi ayrıseçkiliyə məruz qalırlar?

Digər etik qruplar kimi ərəblərin də milli ənənələrə uyğun geyimləri, musiqiləri, bayramları, xörəkləri amerikalıların çoxu üçün yaddır. Ərəb dövlətlərində olan durum, onların apardıqları siyasət ərəblərə münasibətdə həyata keçirilir. Ərəblərin Amerikada imici ürəkaçan deyil.

Ərəblər hansı irqə aiddirlər?

Şərqli xarici görünüşə malik olan ərəblər qarabuğdayı, boz və qara gözləri ilə seçilirlər. Milli geyimləri, saç düzümü, saqqal saxlayanları və üz görünüşləri əsl şərq insanına məxsusdur.

Ərəblərin Amerika iqtisadiyyatında rolu varmı?

Amerikanın sosial-iqtisadi sahələrində çalışan ərəblərdən əlavə bizneslə məşğul olan ərəblər ölkədə vergiləri vaxtında ödəyirlər. Ərəb ölkələri ilə Amerika arasında iqtisadi münasibətlərin inkişaf etməsində ərəb diasporunun da xüsusi rolu var.

Ərəblərin Amerikada siyasi mövqeyi varmı?

Ərəblər seçkilər zamanı fəallıq göstərirlər. Amerika ərəblərinin 84%-i 2000-ci ilə qədər Respublikaçılar partiyasının tərəfdarları idilər. Onlar bu ilə qədər hər seçki zamanı bu partiyanın seçki marafonuna maliyyə yardımı göstərirlər. Lakin son illər respublikaçıların hakimiyyəti dövründə ABŞ və ərəb dünyası arasında yaşanan qarşıdurmalar ərəblərin Demokratlar Partiyasını dəstəkləməsinə zəmin yaradıb.





Amerikada ərəb lobbisi varmı?

II Dünya müharibəsindən sonra Yaxın Şərq regionu ABŞ-ın xarici siyasətində xüsusi əhəmiyyət daşımağa başladı. Bu dövrə qədər Amerikada ərəb ölkələrinin maraqlarını müdafiə edən qrup və ya təşkilat yox idi. Zamanla ərəb dövlətlərinin neft siyasətlərində dəyişikliklərin olması yeni əməkdaşlıq məsələlərinin meydana çıxmasına səbəb oldu.

1946-cı ildə Yaxın Şərq İnstitutunun fəaliyyətə başlaması, Corcstaun Universitetində müasir ərəb dünyasının öyrənilməsi ilə məşğul olan mərkəzin yaradılması Amerikanın ərəb ölkələrinə artan marağını göstərirdi.

Hazırda Amerikadakı ərəb lobbisi Ərəb-İsrail münaqişəsinin tənzimlənməsi və Fələstin probleminin çözülməsi istiqamətində iş aparır.

## Amerikada ərəb diasporunun tərkibi

**1.Livan ərəbləri** - Xristian, müsəlman və druzlardan ibarət ərəblər Amerikada ən çoxsaylı qrup hesab olunur. İlk əvvəllər Amerikaya köçən zaman livanlılar burada uzun müddət yaşamaq fikirində olmayıblar. Sonradan baş verən proseslər səbəbilə onların çox hissəsi amerikalı olmağı qərara alıblar. Amerika mətbuatına verdiyi açıqlamalarda livanlılar əsas məqsəd kimi iqtisadi maraqlarının olmasını bildiriblər.

Dini baxışlarına görə güzəştlər alan livanlıların sayı 1924-1965-ci illər arası azalmışdı.

1965-ci ildən etibarən mühacirət qanunlarını liberallaşdıran Amerika hökuməti livanlı ərəblərə geniş imkanlar yaratdı. Ancaq livanlıların bu ölkəyə kütləvi axını 1976-cı ildən başlandı. Ərəb-İsrail münaqişəsi zamanı zərər çəkənləri ölkədə qəbul edən Amerika onları yaşayış və iş yeri ilə təmin edirdi. 1977, 1979, 1982-ci illər livanlıların Amerikada saylarının çoxalması səbəbilə icmalarını yaratması kimi qeyd olunur.

Hal-hazırda livan ərəbləri mövqe baxımından yaxşı təmin olunub. Onların fəaliyyəti daha yadda qalandır. Onlar zamanla assimilyasiya olunaraq amerikanlaşmış etnik qruplara çevriliblər.

**2. Fələstin ərəbləri** - Bu qrup ərəb diasporunun ikinci böyük qanadını təşkil edir. Şərq sahili boyu məskunlaşan fələstinlilər ilk əvvəllər Amerikada xırda ticarətlə məşğul olurdular. Qara bazar və səyyar ticarət onların əsas məşğuliyyət sahələri idi.

1965-ci ilə qədər fələstinlilər bir o qədər də böyük saya malik deyildilər. 1965-1992-ci illər arası isə onların bu ölkəyə kütləvi axını nəticəsində fələstinlilər diasporda ikinci qanada çevrildilər.

Yaxın Şərqdə "İntifadanın" güclənməsi fələstinliləri Amerikada ən fəal ərəb diaspor qruplarından birinə çevirdi. Onlar etiraz çıxışları edir, gəlirlərinin müəyyən qismini FAT-ın hesabına köçürürlər. Zamanla Qərb mədəniyyətinə adaptasiya olunmaları, onların elmə, təhsilə maraq göstərmələrinə baxmayaraq, milli kimliklərini unutmayan fələstinlilər daha barışmaz qüvvə hesab olunur. Fələstinli gənclər müxtəlif sahələrdə mütəxəssis olmağa can atır. Amerikalı qızlarla ən çox nikaha girən də fələstinlilər hesab olunur.

**3. İordan ərəbləri** - 1950-ci illərdən başlayaraq, Amerikada məskunlaşmağa başlayan iordanlılar digər qruplara nisbətən, Amerikaya asanlıqla adaptasiya olunurlar. Əsasən Sali, Karan, Ajladi rayonlarından olan Amerika iordanları özlərinin iqtisadi durumlarını yaxşılaşdırmaqdan ötrü müxtəlif sahələrdə çalışırlar.

Orta səviyyəli yaşayış tərzinə malik olan iordanlar xırda və orta biznesmenlər kimi fəaliyyət göstərməklə təhsilə fikir verir, fabrik və zavodlarda çalışırlar. Onların fəaliyyəti bir o qədər də aktiv deyil.

**4. Misir ərəbləri** - 1965-1992-ci illər arası 80884 misirlinin Amerikada məskunlaşması onların ərəb diasporunda 4-cü böyük qrupa çevrilməsinə səbəb oldu. 1967-ci ildən İsrail və Misir





arasında başlanan münaqişə zonasından Amerikaya köçən ərəblər həkim, vəkil, elm xadimləri kimi daha çox tanınıblar. Onlar digər ərəblər içərisində bir çox xüsusiyyətlərinə görə seçilirlər. Özlərini qədim sivilizasiyanın davamçıları hesab edən misirlilərə Amerikada xüsusi rəğbət var. Öz işlərinin mütəxəssisləri olan misirlilərin gəliri normaldır.

**5. Suriya ərəbləri** - Böyük köç dövründə, XIX əsrin sonu XX əsrin əvvəllərində Amerikaya köçən suriyalılar burada ipəkçi, dulgər, dərzi peşələrində çalışırdılar. İlk dəfə olaraq səyyar ticarətlə məşğul olan suriyalılar ailə biznesi qurublar. Onlar yaşadıqları yerlərdə kiçik dükan açaraq meyvə-tərəvəz alveri ilə məşğul olurlar.

1965-ci ildən başlayaraq, Suriyadan Amerikaya axını güclənən ərəblər təhsillə yanaşı müxtəlif işlərdə çalışırlar. Suriyalı gənclər ailə prinsiplərinə üstünlük verirlər.

**6. Yəmən ərəbləri** - Ərəb diasporunda özünəməxsus yeri olan yəmənlilərin Amerikaya ilk köç dalğası dənizçilərlə bağlıdır. XIX əsrin sonundan Amerikada məskunlaşaraq fermer təsərrüfatlarında və ağır işlərdə çalışan yəmənlilər maliyyə durumları düzələndən sonra vətənlərindən öz ailələrini yanlarına gətirirdilər. 1965-1992-ci illər arasında 10097 yəmənli Amerikada məskunlaşıb.

Sakit ərəblər hesab edilən yəmənlilər çalışdıqları işlərdə fəallıq göstərirlər. 1990-cı illərdən başlayaraq özlərini biznesdə sınayan yəmənlilər orta tacirlər kimi tanınmağa başlayıblar. Öz qohum əqrəbalarını ətraflarına toplayaraq ailə biznesi qurublar.

**7. İraq ərəbləri** - iraqlıların da ABŞ-a kütləvi axını 1965-ci ildən sonra başlayıb. İraqlılar ilk günlərdən Amerikaya adaptasiya olmaqla öz icmalarını tezliklə formalaşdırmışlar. İlk vaxtlar ağır işlərdə çalışan iraqlılar zamanla digər sahələrdə bir sıra uğurlar əldə etdilər.

**Amerikanın Əsas Yəhudi Təşkilatları Prezidentlərinin Konfederasiyası (Ci-Pi-Em-Ci-Ou)**

1954-cü ildə Amerikada təsis edilib. 45-dən çox yəhudi təşkilatını ətrafında birləşdirir. Amerika yəhudi təşkilatlarının idarə funksiyasın daşıyır. Əsas fəaliyyət istiqaməti ümumdünya yəhudi diasporuna rəhbərlik etmək və onları nəzarətdə saxlamaqdan ibarətdir.

**AMM**

Azərbaycanlıların Milli Məclisi - 1952-ci il sentyabrın 12-19-u arası Almaniyanın Ştarnberq və Münhen şəhərlərində keçirilən konfransda Türkiyə, İran, Fransa, Avstriya və Almaniyadan olan azərbaycanlıların təsis etdiyi qurum. AMM əsasən, Stalin rejiminin alman əsirliyində olmuş hərbiçilərə qarşı kəskin müna-sibəti və sərt mövqeyi səbəbilə Vətənlə əlaqə saxlamaqdan çəkinən azərbaycanlıların birləşdiyi təşkilat olub. Azərbaycançılıq dəyərlərinin və milli əlaqələrin saxlanıb inkişaf etdirilməsi AMM-ın əsas məqsədlərindən biri idi.

**Amerika Ruslarının Konqresi**

1973-cü ildə yaradılmışdır. Konqres birinci və ikinci mühacirət dalğasının nümayəndələri tərəfindən təsis olunub. 30 ştatda bölməsi olan Konqres rus mədəni irsinin qorunub saxlanılması, rusların siyasi hüquqlarının qorunması, onların maraqlarını müdafiə etməyi qarşısına məqsəd qoyub. Amerika və Rusiya arasında ikitərəfli əlaqələrin inkişaf etməsi üçün çalışan Konqres digər diaspor təşkilatları ilə əlaqələr qurmuşdur.

**Anaspora**

Miqrasiya edərək xaricdə diaspor formalaşdıran ailənin vətəndə - evdə qalan üzvü.





**Anniqilyasiya**

Cəmiyyətin parçalanmasından sonra yeni etnosun yaranması. Bunu məhşur rus tədqiqatçısı Lev Qumilyov etnogezin əsas hərəkətverici qüvvəsi kimi qeyd edir. Bu proses zamanı "ana mədəniyyət" tamamilə məhv olmur.

**Anomiya**

Vahid mədəniyyət birliyinin dağılması, sosial normaların olmaması.

**Antropotok**

Zamanla bağlı olan, qlobal və lokal xarekterli "insan axını". Bu proses zamanı insanlar bir ərazidən başqa birisinə, rayondan mərkəzə və bir ölkədən başqasına axın edirlər.

**Antrosəhra**

İnsanların əvvəl məskunlaşdığı ərazini tərk etdikdən sonra yaranmış ərazi tipi. Çox zaman diasporların kompakt halda yaşadıqları ərazidən çıxarılmasından sonra yaranır. Məs. ABŞ-da əsrin əvvəllərində çinlilərin məskunlaşdığı Texasın bəzi ərazilərindən çıxarılmasından sonra yaranan səhra tipli yerlər.

**Anti mühacir**

Hər hansı bir ölkədə mühacirlərə qarşı yönəlmiş hərəkat. ABŞ-da XX əsrin əvvəllərində çinlilər, irlandlar, yunanlar və başqaları belə münasibətə düçar olublar.

**Antidiffamision Liqa (Ey-Di-Ei)**

1913-cü ildə hüquq müdafiəçisi Ziqmund Kivinqston tərəfindən Amerika Birləşmiş Ştatlarında yaradılıb. Əsas məqsədi Amerikada və dünyada antisemitizmlə mübarizə etməkdir. Mərkəzi ofisi Nyu-Yorkda yerləşir. ABŞ-da 30 regional mərkəzi

və Vyana, Moskva və Yerusəlimdə nümayəndəlikləri var. Amerika və dünyanın digər ölkələrində antisemit qüvvələrə və birliklərə qarşı mübarizə aparır. Xüsusilə ku-klus-klan və rasist yönümlü qruplara qarşı güclü müdafiə və əks tədbir qüvvəsinə malikdir.

**Antisemitizm**

Yəhudilərə qarşı milli və dini ayrı-seçkiliyin ifrat formalarından biri. Antisemitizmin tarixi yəhudilərin ta qədimdən diaspor nəticəsində yeni məskən saldıqları ölkələrdə milli dini azlıq vəziyyətində yaşadıqları dövrlərdən başlanır.

**Aparteyd**
*(Aparteid-afrikan dilində ayrı yaşamaq)*

CAR-da Afrikanın başqa xalqlarına və qeyri-avropalı, yaxud qarışıq mənşəli digər etnik qruplara qarşı qəddar ayrı-seçkilik siyasətinə əsaslanan irqi seqriqasiya prinsipi. CAR-da yaşamış Avropa və Asiya diasporları belə siyasətə məruz qalıblar.

**Aparıcı icma**

Bir ölkə ərazisində yaşayan və digər diasporlar içərisində inkişaf fəaliyyəti ilə fərqlənən icma.

**Apatrid**
*(yun.apatais-vətəndən məhrum olma)*

«Apatrid» termini altında hər hansı dövlət tərəfindən onun qanuna görə vətəndaş sayılmayan şəxs nəzərdə tutulur.

**Apolidlər**

Beynəlxalq hüquqda vətəndaşlığı olmayan şəxslər çox zaman apolidlər adlanırlar.





**Ari irq**

XIX əsrin ortalarında, mürtəce irqçilik "nəzəriyyələrində" irəli sürülmüş qeyri-elmi termin. Alman faşistlərinin apardığı belə siyasətdə ölkə ərazisində yaşayan diasporlar əziyyət çəkirlər.

**Assimilyasiya**

Latınca "Assimilate" - uyğunlaşma, oxşatma sözündən əmələ gələn assimilyasiya bir xalqın öz daxilini, mədəniyyətini, dilini, dinini, milli şüurunu itirərək başqa xalqa qarışmasına deyilir.

Diasporun həyatında assimliyasiya prosesi başlıca rol oynayır. Həlledici əhəmiyyətə malik olan assimliyasiya prosesi etnik qrup və ya xalqın adaptasiya və məşğullaşma tempini nizamlayır.

Assimilyasiya prosesinin öyrənilməsi əsasən qarışıq nigah barədə statistik göstəricilərdə diasporların say dinamikası və onların tarixi vətənlərinə bağlılığı ilə həyata keçirilir. Bir sıra tədqiqatçılar qeyd edirlər ki, assimilyasiya bir siyasət kimi iri dövlətlər tərəfindən azsaylı xalq və ya etnik qruplara qarşı yeridilən əsas siyasi fəaliyyətdir ki, dövlət bununla öz milli və dini maraqlarını təmin etmiş olur.

6555

**Assimelyatorluq siyasəti**

İri dövlətlərin hakim millətin dilini, mədəniyyətini, dinini və s. zorla məhkum etdirmək yolu ilə onun milli siyasətini yox etmək siyasəti.

**Aşkenazlar**

Şimali Fransa, Almaniya və Slavyan ölkələrində yaşayaraq, buranın sosial-mədəni ictimaiyyətinin daşıyıcısı olan yəhudilər. Onların danışıq dili idişdir. Coğrafi baxımdan yəhudilər Qərbi Avropa və Şərqi Avropada çoxluq təşkil edirlər.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**ATAA**

Amerika Türk Assosiasiyaları Assambleyası; Türkiyə-Amerika münasibətlərinin inkişafı, Türkiyə maraqlarının ABŞ-ın icraedici və qanunverici hakimiyyətində təmin olunması və digər istiqamətlərdə iş aparır. 1929-cu ildə Amerikada yaşayan türklər tərəfindən təsis olunan bu assambleya gəlir məqsədi güdməyən təşkilat kimi Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Özündə 55-ə qədər diaspor təşkilatını birləşdirir. ATAA əsasən aşağıdakı işlərlə məşğul olur:

- ABŞ-da yaşayan türklər arasında əlaqələrin qurulması,
- Türk tarixini, mədəniyyətini, musiqisini, milli adət-ənənələrini təbliğ etmək,
- Türkiyə və türklərə qarşı böhtan dolu informasiyalara layiqli cavab vermək,
- Amerikalı iş adamlarının Türkiyəyə kapital qoyuluşunu təmin etmək.

**Avtostreotip**

Diaspor nümayəndələrinin oz dəyərləri barəsində dayanıqlı təsəvvürləri.

**Avtoxon əhali**

Hər hansı bir ərazinin qədim sakinləri.

**AZERROS**

Rusiya Federasiyasında fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatı. 1999-cu ildən fəaliyyətə başlayan AZERROS həmin ilin 1 oktyabrında Rusiya Federasiyası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Qurum Rusiya hökuməti və Dövlət Duması yanında ölkə prezidenti V. Putinin fərmanı ilə yaradılan Məsləhət Şurasının üzvüdür. Bununla Dövlət Dumasında daimilik qaydasında səs hüququ əldə edən AZERROS - ekstermizm, cinayətkarlıq, milli məsələlər və s. məsələlərin müzakirəsi zamanı öz əlavələr və düzəlişlər etməsi, yeni məsələ təşəbbüsü ilə çıxış etmək hüququna malikdir. AZERROS-un məqsəd və vəzifələri aşağıdakı kimi qəbul olunub: Rusiyada Azərbaycan mədəniyyətini təbliğ etmək; Rusiya azərbaycanlıları arasında həmrəyliyə nail olmaq; Rusiya azərbaycanlılarının hüquqlarının müdafiəsi; Rusiya-Azərbaycan arasında ikitərəfli əlaqələrin inkişafı; Rusiyada informasiya işi qurulması və lobbiçilik.

Hazırda AZERROS - "AZERROS Азербайджанцы России" qəzetini və www.azerros.ru və www.fnka.ru internet saytlarını himayə edir. Moskvada Beynəlxalq uşaq yaradıcılıq akademiyası yaratmaq və KİV orqanlarının sayını artırmağı planlaşdırır.





**Azərbaycan diasporunun yayılma coğrafiyası:**

İlk növbədə onu qeyd etmək vacibdir ki, Azərbaycan diasporunun yayılma coğrafiyası və konkret sayını müəyyənləşdirməkdən ötrü say-statistika problemi düzgün həll edilməlidir. Hazırda bu istiqamətdə konkret təqdimat və statistik göstəricilər olmadığından ümumi məlumatlar əsasında Azərbaycan diasporunun yayılma coğrafiyası və təqribi sayını bilmək olar.

Bu istiqamətdə konkret bilgilərin olmaması tarixi, ictimai-siyasi hadisələrlə əlaqəlidir. Hələ ötən əsrin əvvəllərinə, konkret olaraq, Azərbaycan Demokratik Respublikası qurulana qədər ölkədən xaricə mühacirət edən soydaşlarımızın şəxsiyyət vəsiqələrində "rus təbəəsi" yazılması onların millətinin rus kimi qəbul edilməsilə nəticələnirdi. Təəssüf ki, Sovet dövründə də soydaşlarımızın xarici ölkələrdə "sovet vətəndaşı" kimi ümumi halda təqdim olunmaları da bu tendensiyanın davamı idi.

Qonşu Rusiyaya köçən azərbaycanlılar tatar, Türkiyəyə köçənlər türk, Azərbaycan türkü kimi qəbul olunur və qeydə alınırdı. Bununla paralel olaraq, Cənubi Azərbaycanda yaşayan

soydaşlarımızın "İran təbəəsi" - iranlı kimi qəbul olunması prosesi gedirdi.

Demək olar ki, 1918-ci ilə qədər və 1920-ci ildən 1991-ci ilə qədər xarici ölkələrə mühacirət edən azərbaycanlıların təxminən 50 faizinin milli mənsubiyyəti bu cür yanlışlıqlara məruz qalıb. Bu hal isə onların rus, türk və İran (fars) diasporlarının tərkib hissəsi kimi götürülməsinə rəvac verirdi. Belə şəraitdə soydaşlarımız adları çəkilən diasporlar içərisində assimilyasiya olunmaq təhlükəsilə üzləşirdilər. Bu cür neqativ durum hazırda Azərbaycan dias-porunun yayılma coğrafiyası və konkret sayını dəqiqləşdirmək istəyənləri çətinliyə salır.

Yuxarıda qeyd etdiyimiz kimi, azərbaycanlılar dünyanın 5 qitəsində, müxtəlif ölkələrdə məskunlaşıblar. İlk növbədə Amerika qitəsinə nəzər salaq:

Azərbaycanlılar Amerika qitəsinin Şimal, Mərkəz və Cənub hissəsində çoxlu sayda məskunlaşıblar. Onların sayı Birləşmiş Ştatlarda 800 min 1 milyon arası, Argentinada 12 min, Braziliyada 75 min, Kanadada 170 min, Meksikada 27 min olaraq göstərilir. Amerika qitəsi ölkələrindən, Honduras, Qvatemala, Peru və digərlərində də soydaşlarımız məskunlaşıblar ki, onların sayını tam olaraq söyləmək çox çətindir.

Amerika qitəsində məskunlaşan azərbaycanlıların əksəriyyəti Cənubi Azərbaycandan olan soydaşlarımızdır. 1970-ci ildən başlayaraq Türkiyədəki soydaşlarımızın, 1991-ci ildən etibarən isə şimal azərbaycanlılarının bu qitəyə intensiv miqrasiyası diasporumuzun tərkibinə və sosial-iqtisadi fəaliyyətinə öz təsirini göstərdi.

Amerika qitəsinin iki əsas ölkəsi - Birləşmiş Ştatlar və Kanadada ictimai-siyasi fəaliyyətinə görə fəal olan azərbaycanlıların təşkilatları və KİV-i fəallıq göstərir. Kanada azərbaycanlıları ictimai-siyasi işlərdə daha fəal və həmrəydirlər. Azərbaycanlılar bir-birilə intensiv əlaqə saxlayır, milli bayramları birgə keçirir, adət-ənənələrimizi qoruyub saxlamağa çalışırlar.





Azərbaycan diasporunun yayılma coğrafiyası və say tərkibinə görə geniş olduğu ikinci qitə Avropadır. Son zamanların statistik göstəriciləri Avropa azərbaycanlılarının fəal, həmrəy olduqlarını göstərir. Avropa azərbaycanlılarının sayı Türkiyədə 3 milyon, Rusiyada 2,5 milyon, Ukraynada 500 min, Norveçdə 50 min, Almaniyada 100-300 min arası, Böyük Britaniyada 170 min, Danimarkada 60 min, Macarıstanda 27 min, Fransada 70 min, İtaliyada 33 min, Polşada 12 min, İspaniyada 14 min, Albaniyada 12 min, Avstriyada 10 min, Yunanıstanda 13 min, Finlandiyada 12 min, Portuqaliyada 7 min göstərilir. Digər Avropa ölkələrində də azərbaycanlılar məskunlaşıblar və onların sayı müvafiq olaraq hər bir ölkədə 2-10 min arasıdır.

Hollandiya, Belçika, Danimarka, İsveçrə və Almaniyada məskunlaşan soydaşlarımızın əksəriyyəti Türkiyə azərbaycanlılarıdır. Böyük Britaniya, Çexiya, Slovakiya, Polşa, Avstriya, Türkiyə, Estoniya, Belarus, Rusiya, Ukrayna, Moldova, Litva, Latviya, Gürcüstan, Fransadakı soydaşlarımızın çox hissəsi şimal azərbaycanlıları, digər Avropa ölkələrində məskunlaşmış azərbaycanlıların əksəriyyəti isə cənublulardır. Türkiyəli azərbaycanlılar ticari, cənubi azərbaycanlılar iqtisadi-elmi, şimallılar isə müxtəlif peşə sahələrində böyük nailiyyətlər əldə ediblər.

Təşkilatlanma baxımından Avropada seçilən azərbaycanlıların maddi və intellektual durumunu yüksək hesab etmək olar.

Son zamanlar Avropa azərbaycanlılarının ictimai-siyasi fəaliyyətində bir canlanma yaranıb ki, bunun əsas səbəbi Azərbaycan dövlətinin diaspor siyasətinin güclənməsi, müvafiq dövlət qurumunun apardığı səmərəli işlərdir.

Azərbaycan diasporunun üçüncü böyük hissəsi Asiya qitəsindədir. Azərbaycanlıların sayı Banqladeşdə 175 min, Birmada 8 min, Əfqanıstan 450 min, Hindistanda 300 min, İndoneziyada 44 min, İordaniyada 450 min, İraqda 1 milyon, Yəmən Ərəb Respublikasında 35 min, Yəmən Demokratik Respublikasında 22 min, Küveytdə 18 min, Monqolustanda 5

min, Çində 30 min, Birləşmiş Ərəb Əmirliklərində 55 min, Omanda 19 min, Pakistanda 650 min, Səudiyyə Ərəbistanında 40 min, Suriyada 95 min, Orta Asiyada 230 min nəfər göstərir. Asiya qitəsindəki azərbaycanlıların ictimai-siyasi fəaliyyəti çox aşağı səviyyədədir. Bu isə ilk növbədə Asiya ölkələrində mövcud olan ictimai-dövlətçilik quruluşu ilə əlaqələndirilir. Amma son zamanların statistik göstəriciləri azərbaycanlı mühacirlərin üstünlük verdikləri ölkələr içərisində Asiya qitəsindəki məmləkətlərin öndə dayandığından xəbər verir.

Afrika qitəsində də azərbaycanlılar məskunlaşıblar və onların sayının Misirdə 900 min, Əlcəzairdə 260 min, Sudanda 17 min nəfər olduğu bildirilir. Ümumilikdə son zamanların məlumatları Afrikanın digər dövlətləri olan Cənubi Afrika Respublikası, Zair və başqalarında da azərbaycanlıların yaşadıqları faktını ortaya çıxarır.

Avstraliya qitəsində təxminən 8 min azərbaycanlının yaşadığı barədə bilgilər var. Bu qitədə bir neçə Azərbaycan diasporu təşkilatı təsis edilib və onlar əsasən mədəni-kütləvi tədbirlər keçirməklə məşğuldurlar.

**Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyası (Azİz)**

2007-ci il aprelin 12-də Təl-Əviv şəhərində Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının təsis qurultayı keçirilib. Qurultayda İsralin 26 şəhərində yaşayan Azərbaycandan köçmüş 30 minə yaxın yəhudini təmsil edən, 30 Azərbaycan icması tərəfindən seçilmiş 408 nümayəndə iştirak edib.

İsrail Parlamentinin deputatı İosif Şaqal Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının sədri seçilib. Daha sonra regionlar üzrə sədr müavinləri, Rəyasət Heyətinin, İdarə Heyətinin, İctimai Şura və Ağsaqallar Şurasının üzvləri seçilib, təşkilatın nəzdində müxtəlif sahələr üzrə fəaliyyət göstərəcək 12 komitə yaradılıb.





**Azərbaycan – Yaponiya Dostluq Cəmiyyəti (AYDC)**

21 Noyabr 2002-ci ildə Yaponiyanın Nagoya şəhərində təsis edilmişdir. Cəmiyyətin təsisçisi həmin ildə Nagoya Universitetininin Beynəlxalq İnkişaf fakültəsinin Beynəlxalq Əməkdaşlıq proqramında magistratura təhsili almış Rəhman Şahhuseynlidir. AYDC-nin təsisində Nagoya Universitetinin bir qrup Yapon tələbə və müəllim heyətinin də əməyi olmuşdur.

Cəmiyyətin yaradılmasında əsas məqsəd, həmin ilə qədər yaponların böyük əksəriyyətinin adını belə tanımadığı Azərbaycanı bu ölkədə geniş şəkildə tanıtmaqdır. Cəmiyyət bu iki ölkə arasında sıx dostluq və əməkdaşlıq, mədəni və maarifçilik əlaqələri qurmağı qarşısına məqsəd qoyur. AYDC Azərbaycanın tarixini, dil və ədəbiyyatını, adət-ənənələrini, coğrafiyasını, musiqisini, folklorunu, tanınmış şəxsiyyətilərini və bu kimi özunəməxsus özəlliklərini tanıtmaqla, Azərbaycanın Yaponiyada düzgün və müsbət imicnin yaradılmasına xidmət edir.

Cəmiyyət tarixi həqiqətləri, o cümlədən torpaqlarımızın işğalını, Qarabağ müharibəsinin tarixi köklərini, səbəb və nəticələrini Yaponiya ictimaiyyətinə çatdırmağı qarşısına məqsəd qoyur.

AYDC həmçinin Azərbaycan və Yaponiya haqqında etibarli informasiya mənbələrini araşdırıb toplayaraq öz bülletenlərində və web səhifəsində dərc etməklə bu iki xalqın dostluq əlaqələrinə xələl gətirə biləcək məkrli informasiya mənbələrinin ifşasına çalışır. Bununla AYDC öz üzvlərinin və cəmiyyətin xidmətindən istifadə edənlərin Azərbaycan və Yaponiya haqqında daha doğru və etibarlı biliklər qazanmalarına köməklik edir.

**Azərbaycan Respublikası**

Qafqazda, böyük bir hissəsi cənub-qərbi Asiyaya, şimalda kiçik bir hissəsi ilə Avropaya daxil olan və Xəzər dənizinə sahili olan dövlətdir.

**Dövlət Rəmzləri**

Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni Konstitusiya qanunu ilə müəyyən edilir.

**Paytaxt**

Bakı Abşeron yarımadasının cənubunda, Xəzər dənizinin sahilində yerləşir, onun ərazisi 2200 kv km, əhalisinin sayı 3 milyona yaxındır. Bundan başqa hazırda Bakı şəhərində erməni qəsbkarlarının işğal etdiyi rayonlardan və Ermənistan Respublikasından qovulmuş 500 minə yaxın qaçqın və məcburi köçkünlər yaşayır.

Bakı özündə 11 inzibati rayonu, 5 şəhər tipli qəsəbəni birləşdirir.

**Dil**

Azərbaycan Respublikası əhalisinin gündəlik ünsiyyət vasitəsi və rəsmi dövlət dili Azərbaycan dilidir.

Azərbaycan dili İran İslam Respublikasında Cənubi Azərbaycanda yaşayan 35 milyonluq Azərbaycanlının da ana dilidir. Rusiyada, Amerika Birləşmiş Ştatlarında, Türkiyədə və Qərbi Avropa ölkələrində bir neçə milyon azərbaycanlı yaşayır. Bir neçə yüzilliklər ərzində müxtəlif ölkələrin sakinləri olmalarına baxmayaraq, bu gün də hansı ölkədə yaşamalarından asılı olmayaraq, Azərbaycanlılar bir-birlərini sərbəst anlayırlar. Beləliklə, yer üzündə hazırda Azərbaycan dilində danışan 50 milyondan çox adam yaşayır.





Azərbaycan dilinin fonem tərkibində 15 sait və 25 samit vardır. Bu 40 fonem Azərbaycan əlifbasında 32 hərflə işarə edilir. Hazırda Azərbaycanda latın qrafikası əsasında yaradılmış Azərbaycan əlifbasından istifadə edilir.

**Din**

Azərbaycanın dinləri ölkənin indiki ərazisində yaşayan xalqlar və etnik qruplar arasında yayılmış dini cərəyanların məcmusundan ibarətdir. Azərbaycan Respublikasında müxtəlif dini konfessiyalar fəaliyyət göstərir. Ən geniş yayılmışı İslamdır. Digər dinlər bunlardır: Yəhudilik və Xristianlıq.

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu (1992) hər bir şəxsin dinə münasibətini müəyyənləşdirmək və ifadə etmək hüququna və həmin hüququ həyata keçirməyə təminat yaradır.

**Dövlət Quruluşu**

Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini həyata keçirən orqan Milli Məclis, icra hakimiyyətini həyata keçirən Prezident, Məhkəmə hakimiyyətini həyata keçirən orqan Azərbaycan Respublikasının məhkəmələridir.

Azərbaycan Respublikasının Konstitusiya ilə müəyyən edilmiş unitarlığı spesifikliyə malikdir. Bu da onun tərkibində Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyəti statusuna malik olmasıdır. Konstitusiyaya görə Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Orada qanunverici hakimiyyəti Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının məhkəmələri həyata keçirir. Naxçıvan Muxtar Respublikasında ali vəzifəli şəxs Ali Məclisin sədridir.

**Münaqişə**

Dağlıq Qarabağın erməni mənşəli əhalisini provakasiya edən erməni seperatçılarının müstəqillik tələbləri Azərbaycanla qonşu Ermənistan arasında 1989-cu ildən bəri davam edən silahlı münaqişəyə səbəb olmuşdur. Hal - hazırda Ağdam, Şuşa, Fizuli,

Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın rayonları Ermənistanın işğalı altındadır. İşğal altında olan ərazi Azərbaycanın ümumi ərazisinin 20%-ni təşkil edir. Silahlı münaqişə nəticəsində Dağlıq Qarabağ və 7 ətraf rayonun 1000000-a yaxın azərbaycanlı əhalisi öz yaşayış yerlərini tərk etmiş, 24000-dən çox adam qətlə yetirilmiş, 50000 nəfər yaralanmış və ya şikəst olmuşdur. Hazırda ölkələr arasında 1994-cü ildə imzalanmış atəşkəs qüvvədə olsa da erməni tərəfin muntəzəm olaraq atəşkəsi pozması nəticəsində 10000-ə qədər azərbaycanlı həlak olmuşdur.

Hərbi təcavüz zamanı ələ keçirilmiş Azərbaycan ərazilərində 927 kitabxana, 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır.

Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan Respublikası bu gün də işğalçılıq siyasətini davam etdirir.

**Ümumi məlumat**

| | |
|---|---|
| Azərbaycan Respublikasının yarandığı tarix | 28 May 1918 |
| Müstəqillik günü | 18 Oktyabr 1991 |
| Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına qoşulduğu gün | 30 Yanvar 1992 |





| | |
|---|---|
| Birləşmiş Millətlər Təşkilatına daxil olduğu gün | 2 Mart 1992 |
| Müstəqil Dövlətlər Birliyinə daxil olduğu gün | 19 Sentyabr 1995 |
| Avropa Şurasına daxil olduğu gün | 17 Yanvar 2001 |
| Ərazi, min kv.km | 86.6 |
| Əhalinin sayı, min nəfər (2007-ci ilin əvvəlinə) | 8532.7 |
| 1 km $^{2}$-ə düşən əhalinin sıxlığı, nəfər | 98.5 |
| Pul vahidi | manat |
| Manatın ABŞ dollarına kursu (29.12.2006-ci il) | 0.87 |
| İnzibati ərazi vahidlərinin sayı: | |
| Muxtar Respublika | 1 |
| Rayonlar | 66 |
| Şəhərlər | 70 |
| Şəhər rayonları | 13 |
| Qəsəbələr | 239 |
| Kənd ərazi dairələri | 1691 |
| Kənd yaşayış məntəqələri | 4272 |

**Cografi məlumatlar**

**Ərazisi**

86.6 min km$^{2}$ (12% meşələr, 1.6% su hövzəsi, 54.9% becərilən torpaqlar, o cümlədən 31.1% otlaqlar,31.5% sair torpaqlar). Ölkə 44° və 52° şərq uzunluq dairəsi, 38° və 42° şimal en dairəsində, Bakı 40° paralel üzərindədir.

**Qonşuları**

Dövlət sərhədləri Cənubdan İranla 765 km və Türkiyə ilə 15 km, şimaldan Rusiya ilə 390 km, şimali-qərbdən Gürcüstan ilə 480 km, qərbdən Ermənistan ilə 1007 km həmsərhəddir. Bakıdan şimal qütbünə qədər olan məsafə 5550 km, ekvatora qədər olan

məsafə isə 4440 km Xəzər dənizinin Azərbaycan sektorunda ən enli sahəsinin uzunluğu 456 km

**Siyasi quruluş**

Dövlət rəhbəri: Prezident.

O, ümumi gizli səsvermə yolu ilə 5 ildən bir seçilir. 2003-cü il oktyabrın 15-də Əliyev İlham Heydər oğlu 1 860 346 nəfərin və ya səsvermədə iştirak edənlərin 76.84 faiz səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Milli Məclis həyata keçirir. Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarətdir. 6 noyabr 2005-ci ildə Üçüncü Çağırış Azərbaycan Respublikasinin Milli Məclisinə seçkilər keçirilmişdir. Deputatlıq uğrunda 2000-ə yaxın namizəd seçkilərə qatılmışdır.

**Əhalinin sayı (ilin əvvəlinə)**

| İllər | Cəmi əhalinin sayi, min nəfər | o cümlədən | | Bütün əhaliyi görə, faizlə | |
|---|---|---|---|---|---|
| | | şəhər | kənd | səhər | kənd |
| 1999 | 7953.4 | 4064.3 | 3889.1 | 51.1 | 48.9 |
| 2000 | 8016.2 | 4086.4 | 3929.8 | 51 | 49 |
| 2001 | 8081 | 4107.5 | 3973.5 | 50.8 | 49.2 |
| 2002 | 8141.4 | 4130.1 | 4011.3 | 50.7 | 49.3 |
| 2003 | 8202.5 | 4154.3 | 4048.2 | 50.7 | 49.3 |
| 2004 | 8265.7 | 4254.3 | 4011.4 | 51.5 | 48.5 |
| 2005 | 8347.3 | 4298.3 | 4049.0 | 51.5 | 48.5 |
| 2006 | 8436.4 | 4356.6 | 4079.8 | 51.6 | 48.4 |
| 2007 | 8532.4 | 4397.6 | 4135.1 | 51.5 | 48.5 |





**Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti**

1946-cı ildə təsis olunub. 1960-cı ildə "Vətən səsi" adlı qəzet nəşr edən cəmiyyət qəzeti sonradan ərəb, kirill və latın əlifbası ilə 1982-ci ildən, "Odlar yurdu" adı ilə çap etməyə başladı. "Odlar yurdu" - xarici ölkələrdə yerləşən Azərbaycan cəmiyyətlərinə göndərilirdi. Dövlət təhlükəsizlik komitəsinin nəzarəti altında həyata keçirilən bu işlərin siyasi təbliğat səpkili olmasına baxmayaraq, müəyyən mənada Azərbaycan diasporunun karına gəlirdi. "Bakı" və "Baku" qəzetləri redaksiyasının nəzdində buraxılan "Vətənin qəzeti" sonradan "Odlar Yurdu" adlanaraq sovet təsirinə düşsə də diasporumuzun müəyyən hissəsilə əlaqələrin qurulmasına nail ola bilmişdi. Bunun sayəsində onlarla soydaşımız Vətənə geri dönə bildi.

**Azərbaycançılıq**

Azərbaycan diasporunun formalaşması və xaricdə yaşayan azərbaycanlıların Ana Vətən ətrafında həmrəylik nümayiş etdirmək üçün əsas götürülən ideologiya. Mərhum prezident Heydər Əliyev bu barədə qeyd edib: "Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərin sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişaf olunması deməkdir".

Azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarının Ümumazərbaycan ideyalarının məqsədləri xalqımızın mənəvi ruhunun qaldırılmasına, dilimizin, dinimizin, mentalitetimizin saxlanılmasına, milli varlığımızın, milli dəyərlərimizin inkişaf etməsinə xidmət edir. Bir çox tədqiqatçılar Azərbaycançılıq ideologiyasını pantürkizm, panislamizm ideologiyalarından imtina etmək kimi qəbul edirlər. Bu yanlış bir fikirdir. Azərbaycançılıq ideologiyası özü türkçülük və islamçılıq mövqeyindən, nəzəriyyəsindən tərtib olunan bir nəzəriyyədir.

Bununla biz türkçülük və islamçılığımızdan imtina etmirik. Əksinə, bu bütün dünyaya səpələnmiş azərbaycanlıların öz milli kimliyini, dinini və dilini qoruyub saxlamasına köməklik göstərir. Bir millət öz tarixi keçmişi, milli kimliyini dinini, dilini qoruyub saxlayırsa, deməli həmin millət dünyada var olmaq hüququna malikdir. Biz islam dininə sitayiş edirik və müsəlmanıq. Bu kimliyimizi dərk edə-edə azərbaycançılığımızın qorunub saxlanılması və təbliği indiki zamanda böyük əhəmiyyətə malikdir. Məsələyə sırf rəsmi prizmadan yanaşsaq, azərbaycançılığı Azərbaycan Respublikasının müstəqilliyini qoruyaraq möhkəmlətməyi, Azərbaycanı qüdrətli bir dövlətə çevirməyi, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələri genişləndirməyi, onları dövlətimizin mənafeyi naminə çalışmağa sövq etməyi qarşısına qoyan bir siyasi cərəyan kimi dəyərləndirə bilərik.

Azərbaycan dövlət müstəqilliyini əldə edənədək xaricdə yaşayan soydaşlarımızı birləşdirən ideoloji zəmin yox dərəcəsində idi. Sovet dövründə bu sahədə aparılan işlər daha çox mədəni-maarifçilik xarakteri daşımışdır. Bəzi ölkələrdəki diaspor təşkilatları isə ilk növbədə ictimai fəallığı ilə seçilən məhdud saylı ziyalı təbəqəsini birləşdirir və ümumi mənada diaspor problemlərindən daha çox müəyyən ideoloji-mədəni məsələlərlə məşğul olurdu. Bu baxımdan müstəqil dövlətçilik və dövlət səviyyəsində dəstəklənən milli ideologiya olmadığından diasporu birləşdirmək, milli amal və dövlətçilik mənafeyinə yönəltmək mümkün deyildi. Belə bir ideoloji zəmin məhz müstəqillik illərində formalaşan Azərbaycançılıq məfkurəsi olmuşdur.

1990-cı ildən geniş ümummilli hərəkata çevrilmiş diaspor quruculuğu Azərbaycançılıq məfkurəsində öz ideoloji əsaslarını tapmışdır. Ən əsası isə odur ki, «diaspor» anlayışı yalnız dövlət siyasətinin deyil, milli ideologiyanın, ictimai şüurun aparıcı istiqamətlərindən birinə çevrilmişdir.

Ölkəmizin əksər ictimai-siyasi qüvvələrinin qəbul etdiyi Azərbaycançılıq ideologiyasının diaspor quruculuğunda üstün cəhəti ilk növbədə onun milli maraqlarımızın tam palitrasını





əhatə etməsidir. Milli-mənəvi, əxlaqi, dünyəvi, humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyllərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi ahəngdar şəkildə ehtiva edən Azərbaycançılıq ideologiyası məhz bu xüsusiyyətlərinə görə müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün cəlbedici və perspektivlidir. Azərbaycançılıq məfkurəsinin belə sistemli xarakteri müxtəlif mühacir nəsillərini də birəşdirməyə imkan verir. Maraqlıdır ki, vaxtilə birtərəfli mövqe tutmuş Türkiyə, Rusiya, Qərb və Şərq yönümlü bir çox siyasi qüvvələr də, artıq onun dünya dövlətləri, iqtisadi-siyasi regionlarla ahəngdar, balanslaşdırılmış münasi-bətlər qurulmasının əhəmiyyətini dəyərləndirməyə başlamışlar. Azərbaycançılığın mühüm meyarlarından olan bu cəhət məskunlaşdıqları ölkələrə, yəni fərqli mühitlərə meyilli olan soydaşlarımızın ümumi amal ətrafında birləşməsinə imkan verən əsas amillərdəndir.

Azərbaycançılıq ideologiyasının diaspor üçün cəlbedici olan digər xüsusiyyəti onun daxili rəngarəngliyi ilə bərabər, konseptual bütövlüyü, milli özünüdərkə imkan verən tamlığı, müəyyənliyidir. Digər ideoloji meyllərdən, məsələn, islamçılıqdan, avropaçılıqdan, türkçülükdən, avrasiyaçılıqdan fərqli olaraq, Azərbaycançılıq hər bir azərbaycanlının milli özünüdərkinə, milli müəyyənliyinə, özünü digər toplumlardan fərqləndirməsinə geniş imkan verir. Uzun muddət tarixi Vətənindən ayrılmış, fərqli etnik-mədəni mühitlərə adaptasiya olunmuş soydaşlarımız üçün bu, həm ayrı-ayrı fərdlərin azərbaycanlı kimi milli özünüdərki, həm onların vahid milli zəmində təşkilatlanması, həm də Azərbaycan diasporunun islam, türk, Qafqaz, İran və digər yönümlü toplumlardan seçilərək Azərbaycan amalı uğrunda birləşməsi baxımından çox mühüm amildir.

Diaspor quruculuğunda Azərbaycançılıq ideologiyasının rolundan danışarkən olduqca əhəmiyyətli bir amil - vətəndaş cəmiyyəti anlayışı xüsusi qeyd edilməlidir. Azərbaycançılıq məfkurəsində etnik mənsubiyyətindən asılı olmayaraq, respubli-

kamızın ərazisində yaşayan və ya başqa ölkələrə köçmüş bütün vətəndaşlara hüquqi və mənəvi müstəvidə bərabər münasibət bəslənilir. Məhz buna görə ötən əsrin 1990-cı illərinin ortalarından digər ölkələrə miqrasiya etmiş qeyri-azərbaycanlı vətəndaşlar, ilk növbədə ruslar, yəhudilər və başqaları Azərbaycan diaspor təşkilatları ilə əlaqələr qurur və onların işində fəal iştirak edirlər. Yəqin ki, ölkəmiz üçün bunun nə qədər əhəmiyyətli olduğunu izah etməyə ehtiyac yoxdur.

Bu faktlar bir daha Azərbaycançılıq məfkurəsinin dövlətçilik təfəkkürünə əsaslandığını əks etdirir. Milli dövlətçilik ideyası, dövlət müstəqilliyimizin əbədiliyi və dönməzliyi, Azərbaycan Respublikasının bütün azərbaycanlıların milli sərvəti, bu gün harada yaşamasından asılı olmayaraq, Azərbaycanda doğulmuş bütün azərbaycanlıların Vətəni kimi dərk edilməsi Azərbaycançılığın mühüm meyarlarındandır.

Bu konseptual ideya özlüyündə əhəmiyyətli olmaqla bərabər, xaricdə yaşayan soydaşlarımızın ölkəmizlə əlaqələrinin inkişafı, onların müxtəlif maraqlarının hüquqi müstəvidə təminatı üçün də fəlsəfi əsas yaradır. Məhz bu ideoloji zəmin xaricdə yaşayan azərbaycanlılarla işi dövlət səviyyəsində uğurla həyata keçirməyə, digər tərəfdən, onları ölkəmizdəki iqtisadi layihələrə cəlb etməyə və beləliklə də, Vətənə daha sıx bağlamağa imkan vermişdir. «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Qanuna uyğun olaraq, xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının ərazisində olarkən ölkə vətəndaşları ilə bərabər hüquqlardan istifadə etmələri, Azərbaycan Respublikası vətənlaşlığına qəbul barədə vəsatət qaldıran soydaşlarımızın müvafiq dövlət rüsumunu ödəməkdən azad olunması, onlar üçün iqtisadi və sosial güzəştlərin və əlverişli şəraitin nəzərdə tutulması bu baxımdan böyük əhəmiyyət kəsb edir.

Bütün bunlar yalnız sosial-iqtisadi deyil, həm də mənəvi-psixoloji baxımdan vacib amillərdir. İlk növbədə qeyd olunmalıdır ki, Azərbaycançılıq ideologiyasında və dövlətimizin xaricdə





yaşayan azərbaycanlılarla bağlı siyasətində soydaşlarımızın mənəvi birliyinin əsas təminatçısı kimi Ana dili götürülür. Ana dilinin milli sərvət, milli mənliyi və özgürlüyünü qoruyan qüvvə, milli birliyin təminatçısı kimi təqdim edilməsi, onun dövlət dili səviyyəsində tətbiqi dairəsinin genişləndirilməsi diaspor quruculuğunda da mühüm rol oynamışdır. Soydaşlarımızın Ana dilinə və onun vasitəsilə mədəniyyətimizə, ədəbiyyatımıza, musiqimizə marağı artmış, vətənimiz haqqında ətraflı və dəqiq informasiya almaq imkanları genişlənmişdir. Bunun təzahürü olaraq «Bazar günü» («Həftə sonu») məktəblərinin şəbəkəsinin genişlənməsini, etno-mədəni komponentli orta məktəblərin açılmasını, diasporun Ana dilində mətbu orqanlarının nəşrini, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu, Kiyev Milli Universiteti, Fransa Şərq Mədəniyyətləri və Dilləri İnstitutu (NALKO) və digər mötəbər elm-təhsil mərkəzlərində Azərbaycan dilinin tədrisinə başlanmasını göstərmək olar.

Ümumiyyətlə, Ana dilinə marağın artması xaricdə yaşayan azərbaycanlıların milli-mədəni fəallığının güclənməsinə, mədəniyyət mərkəzlərinin, dərnəklərin genişlənməsinə səbəb olmuşdur. Bu gün xaricdə yaşayan azərbaycanlıların ictimai-mədəni fəallığı kifayət qədər yetərlidir. Lakin bu fəallığı sistemləşdirmək üçün bir sıra cəhətləri xüsusilə nəzərə almaq vacibdir:

- xaricdə yaşayan azərbaycanlıların milli mədəniyyətlə bağlı fəaliyyəti;
- onların məskunlaşdıqları ölkələrin yerli mədəniyyətinə və dünya mədəniyyətinə, incəsənət və elminə verdiyi töhfələr;
- həmvətənlərimizin Azərbaycanla mənəvi-mədəni əlaqələri;
- diaspor nümayəndələrinin mədəni, elmi nailiyyətlərinin ölkəmizdə təbliği və araşdırılması;
- Azərbaycanda elm və mədəniyyət sahəsində baş vermiş yeniliklərin diaspor vasitəsilə xaricdə təbliği;

Qeyd olunanlar ümummilli əhəmiyyətli məsələlərin – milli birliyin təminatı, Azərbaycanın dünyaya inteqrasiyası, mədəniy-

yətimizin bütövləşməsi, vahid Azərbaycan ideyasının yayılması kimi məsələlərin həllində vacib amillərdəndir.

**Azərbaycanda Yəhudi Diasporu**

Azərbaycanda yəhudilərin məkunlaşması tarixi kifayət qədər dərin köklərə malikdir. Tarixi mənbələrə əsaslansaq, yəhudilərin Azərbaycan ərazilərində məskunlaşma tarixi iki min beş yuz ilə yaxındır. Hələ eramızdan əvvəl 722-ci ildə Assuriya Çarı II Sarqonun hücumlarından sonra İsrail çarlığının əhalisi kütləvi şəkildə müasir İranın yerləşdiyi Midiya ərazisinə və qədim Azərbaycan torpaqlarına köçürülmüşdür. Tarixi mənbələrdə qədim Azərbaycan dövləti olan Atropatenada digər xalqlarla yanaşı yəhudilərin də yaşadığı göstərilir.

Hazırda respublikamızda 16 min nəfər yəhudi yaşayır. Müasir dövrdə Azərbaycan ərazisində üç yəhudi icması mövcuddur: dağ yəhudiləri, yəhudi-aşkenazilər və gürcü yəhudiləri. Onlardan ən qədimi dağ yəhudiləri hesab olunur ki, tarixi mənbələrə görə onlar bu ərazidə 15 əsr bundan əvvəl məskunlaşmışlar. Yəhudi – aşkenazilər isə Azərbaycan ərazisinə XIX əsrin əvvəllərində köçmüşlər. XIX əsrin ortalarında Bakıda neft sənayesinin inkişaf etməyə başlaması müxtəlif millətlərin, o cümlədən yəhudilərin regiona köçünün daha geniş miqyas almasına səbəb olmuşdur.

XIX əsrin sonları, XX əsrin əvvəllərində Bakıda yəhudi teatrı və məktəbləri fəaliyyət göstərmiş, yəhudi dilində qəzetlər nəşr edilmişdir. Maraqlı faktdır ki, həmin dövrdə sinaqoqalar olmayan yerlərdə ravinlər yerli yəhudilərə məhz məscidlərdə ibadət etməyi tövsiyyə edirdilər.

Azərbaycan Xalq Cumhuriyyəti dövründə yəhudilər Azərbaycan Parlamentində və hökumətdə təmsil olunmuşlar.

Sovet hakimiyyəti illərində Azərbaycanda yəhudilərin sayı üç dəfə artmışdır. 1937-1938-ci və 1952-ci illərdə antisemitizmin bütün SSRİ-də geniş miqyasda yayıldığı dövrdə belə Azərbaycanda məskunlaşmış yəhudilər bu qorxulu prosesin təzahürləri ilə





qarşılaşmamışlar. Yəhudi icmasının bir çox nümayəndələri respublikanın siyasi, iqtisadi və mədəni həyatında çox fəal şəkildə iştirak edirdilər.

SSRİ-nin süqutundan sonra baş vermiş ciddi sosial-iqtisadi və siyasi dəyişikliklərə baxmayaraq digər postsovet ölkələrindən fərqli olaraq Azərbaycanda yəhudilərə munasibət kifayət qədər tolerant xarakter kəsb etmişdir. Bu günə kimi Bakı şəhərində yəhudi xalqının bir sıra görkəmli nümayəndəsinin – dahi fizik, Nobel mükafatı laureatı Lev Landau, respublikanın əməkdar həkimi Solomon Qusman, müharibə qəhrəmanı Albert Aqarunov və digərlərinin yaşadıqları binaların üzərindəki memorial lövhələr qorunub saxlanılmaqdadır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra yəhudilərə dövlət tərəfindən göstərilən diqqət və qayğı daha da artmışdır. Hazırda Azərbaycanda 7 yəhudi dini icması dövlət qeydiyyatına alınmışdır. Bakıda 3, Oğuzda və Qubada 1 sinaqoq fəaliyyət göstərir. 2003-cü il mart ayında Bakıda yeni yəhudi sinaqoqu istifadəyə verilmişdir.

Bu gün Azərbaycanda yəhudi mədəniyyət mərkəzləri, dini icmaları, sinaqoqları, məktəbləri fəaliyyət göstərir. 2003-cü ilin sentyabr ayında Bakıda "Od-Avner" Xabad Lyubaviç Beynəlxalq Fondunun maliyyələşdirdiyi ilk yəhudi orta ümumtəhsil məktəbi fəaliyyətə başlamışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 222 saylı 5 oktyabr 2006-cı il tarixli Qərarına əsasən Quba rayonu Qırmızı qəsəbədə yerləşən 1 nömrəli məktəbə yəhudi xalqının böyük oğlu İsaak Xanukovun adı verilmişdir. Yəhudilər Azərbaycan parlamentində də təmsil olunurlar.

**Azərbaycanlı (Azəri)**

Azərbaycan ərazisində yaşayan xalqın dili əvvəllər Atropatena dili, ərəb işğalından sonra azəri dili adlandırılmışdır (Bəzi alimlərin fikrinə görə, "azəri" sözünün tarixi çox qədimdir: "Norveç xalqının dahi oğlu Tur Heyerdal dünyayaya sübut etdi ki, Şumer və Qobustan mədəniyyətləri - eyni mədəniyyətdir və

e.ə. VI-IV minilliklərdə, Şumerin çiçəkləndiyi dövrdə Qafqazın şərqində, indiki Azərbaycan ərazisində yaşayan yerli xalq aserlər (yəni: azərlər) adlanıb"., şumər, kəngər, ovşar (əfşar), sakər (ərsak - arsak), xacər, qacar, qarcar, qarqar, cügər,macar, hunər, hunqar, günər, alpər, tatar (tatər), bayər (boyar), tavar (tavər-tavr) və s. Bunlar da türk - azər oğuz boylu qədim qəbilə birləşmələrimizin tarixi soraqlarıdır.

Azərbaycanda etnik ad yalnız «alban» adı deyildi. Cənub hissə atropatenlər, şimal hissə albanlar, cənubda Atropatena dili, şimalda *Alban (Aran) dili ifadələri işlənirdi.* Ərəblərin Azərbaycana müdaxiləsi ilə bütün bunlarda dəyişiklik olur. 'Türk' etnik adı V əsrdən - Sasanilər dövründən kütləviləşməyə başlamışdı, Sasanilər Çindən İrana qədər böyük bir ərazidə yaranmış türk xaqanlığı ilə əlaqə saxlayır, bəzən qohumluq münasibətlərinə girməli olurdular. Bu minvalla Azərbaycan türklərini də 'türk' adlandırırdılar. Və digər tərəfdən, xaqanlığın öz dövründə xaqanlıq türklərinin Azərbaycana axını davam etməkdə idi. Ərəblər şimallı-cənublu bu ölkəni də (Azərbaycanı) «türk ölkəsi» bilir və 'türk ölkəsi' adlandırırdılar. Lakin ərəblər cənub ərazilərindən tədricən şimala qalxdıqları və Atropatena sözünü öz şivələrində 'Azərbaycan' şəklinə saldıqları, azərbaycanlıları qısa şəkildə azəri adlandırdıqları üçün bu istilahı şimal türklərinə də tətbiq etməyə başlamışdılar. Ona görə də 'türk' istilahı yalnız 'Alban' adını deyil, 'madalı' və 'atropatenalı' adlarını da əvəz etməyə başlamışdı. Eyni vəzifəni azəri sözü də yerinə yetirməkdə idi. Bu istilahların işlənməsi, bəzi tarixçilərin qeyd etdiklərindən fərqli olaraq, «VIII-IX əsrlərdən sonra» yox, erkən başlamışdı - türk sözü V, azəri sözü VII əsrdən. Xalqın və onun dilinin təşəkkülü cənublu-şimallı vahid proses kimi birlikdə getmişdir. İskəndərin işğalı dövründə, Parfiya asılılığı dövründə, Sasanilər dövründə, ərəb istilası dövründə daim şimalla cənub birlikdə olmuş, bir canişinlikdə birləşdirilmişdir. Ona görə də təkcə atropatena və ya alban dilinin təşəkkülündən deyil, söhbət hər iki ərazinin birgə türk-azəri dilinin təşəkkül və inkişafından gedir. Bu dil artıq V əsrdə bütövlükdə ümumxalq dili şəklində təşəkkül tapmışdı. VI-VIII əsrlər şifahi ədəbi dilin təşəkkül və inkişafı dövrü kimi tarixə daxil olur. Gəlmə türk tayfalarının hamısı yaxın və qohum tayfalar idi, dilləri bir-birindən az fərqlənirdi. Odur ki, heç bir tayfanın yeni gəlişi ədəbi dilin təşəkkülü yolunda ağırlıq törətməmişdir. Əksinə, fars ənənəsi, ərəb asılılığı sadə xalq dilini yazıda ağırlaşdırmışdır. Sonrakı əsrlərdə xalq bu təsirdən, bu ağırlıqdan xilas olmağa çalışmış və buna tədricən müvəffəq olmuşdur. Ona görə də etnogenezi iki mərhələyə ayırmaq məntiqi deyil. Vahid etnogenezin təşəkkülü V əsrə aiddir. Səlcuq oğuzları Azərbaycanda geniş məskən salmamış, müəyyən müddət yaşasalar da, Kiçik Asiyaya irəliləmişlər. Onların dil-nitq təsiri də daha çox Azərbaycanın qərb qrupu şivələrində müşahidə olunur. Q.Qeybullayev Anadoluda türk dilinin təşəkkülü ilə Azərbaycanda türk dilinin təşəkkül spesifikasını fərqləndirməkdə tam haqlıdır və bu cəhətdən bir çox tarixçi və dilçilərdən yüksəkdə durur: «Türkiyədə və Azərbaycanda etnik proseslərin fərqli cəhətləri vardır. Türkiyə ərazisində həqiqətən tam türkləşmə prosesi getmişdir və bu proses həm də xristian dininin islamla əvəz olunması prosesi ilə yanaşı getmişdir. Azərbaycanlıların etnogenezində türkləşdirmə (assimilyasiya) etnik prosesin xarakterik xüsusiyyəti olmamışdır, çünki burada türk etnosları əvvəldən aparıcı rol oynayırdı».

Azəri sözü tayfa adı olmayıb Azərbaycan sözündən yaranmışdır – Azərbaycan sözünün qısaldılmış forması kimi təşəkkül tapmışdır. Antarpatianu və Atropatena sözləri uzun müddət unudulmamışdır. Monqol basqınlarını gözləri ilə görmüş Gəncəli Kirakos 1241-ci il hadisələrindən bəhs edərək yazır: «Onlar (monqollar) getdikcə farsların bütün ölkəsini, Atrpatakanı, Deyləmi dağıtdılar, qarşılarında bir maneə qalmasın deyə, hamısını bir-bir yağma etdilər». Bu forma – Atrpatakan, təbii ki, erməni tələffüz formasıdır və bu tələffüzdə sözün birinci hecasındakı An allah adının «n» samiti düşdükdən sonra irəli

çıxan «dz» qovuşuq səsinin birinci komponentinin karlaşmış variantı (d>t) saxlanmışdır. Ərəblər isə həmin qovuşuq səsin ikinci komponentinə öz dillərinin xarakterinə uyğun olaraq üstünlük vermiş, sözü Adzirbican - Azirbican - Azərbican şəklində tələffüz etmişlər. Azəri sözü bu sözdən, bu tələffüzdən yaranmışdır.

Azəri sözü bizim dilimizi bütövlükdə (şimallı-cənublu) adlandıra bilən ən uğurlu termindir. Azərbaycan türklərinə daim «azəri türkləri» demişlər və bu ifadə Azərbaycan xalqını həm Anadolu türklərindən, həm də şərq türklərindən fərqləndirmişdir. Hələ Nəsrəddin şah dövründə İranda buraxılmış «Name-i Daneşvaran» adlı kollektiv əsərdə Cənubi Azərbaycan əhalisinin dili «azəri dili» adlandırılmış və aydın olmaq üçün izahat verilmişdir: «azəri dili», yə'ni «zəban-i turkan» (türk dili). Qərbin görkəmli şərqşünas alimləri və o cümlədən ingilis şərqşünası Q.A.Stranqe də bu cür nəzərdə tutmuş, «azəri» sözünü «Azərbaycanın qədim türk dili» adlandırmışdır.

**Azərbaycanlıların soyqırımı**

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi





həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları, məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişər.

Birinci Dünya Müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşı-

na əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədi ilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.





Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş Sovet məkanında müntəzəm şəkildə yayılan kitab, curnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-nin digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırım siyasəti

özünün siyasi hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar Sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin Sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-cı illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət verilmədi.

1988-ci ildən ortaya atılan Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədi ilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkatın nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20%-nin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.





Azərbaycanın XIX - XX əsrlərdə baş verən bütün faciələri torpaqların zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

**Azsaylı xalq**

Əhali tərkibindən asılı olmayaraq tarixən hamılıqla bir ölkədə bir respublikada konkret ərazidə kompakt halında məskunlaşan əhali kütləsi.

## -B-

**BAK (Benilüks Azərbaycanlıları Konqresi)**

"Niderland-Azərbaycan" cəmiyyətinin təşəbbüsü ilə 2006-cı il aprel ayının 15-də yaradılmışdır. 2006-cı il oktyabr ayının 18-də Amsterdam şəhərində təsis konfransını keçirmişdir. Benilüks Azərbaycanlıları Konqresi Belçika, Niderland və Lüksemburq Krallıqlarında fəaliyyət göstərən 10 Azərbaycan cəmiyyətini və 5 təşkilatın üzv olduğu İraq Türkmənləri Məclisini özündə birləşdirir. Təşkilatın tərkibinə vaxtilə Azərbaycan hakimiyyətinə müxalif mövqedə olmuş Azərbaycanın Dostları Cəmiyyəti də daxil olmuşdur.

Benilüks Azərbaycanlıları Konqresi Azərbaycan həqiqətlərinin Avropa ictimaiyyətinə çatdırılması, ölkəmizin milli maraqlarının müdafiəsi, soydaşlarımızın təşkilatlanması prosesinin təkmilləşdirilməsi, Avropada yaşayan azərbaycanlıların dövlətçilik mənafeləri ətrafında sıx birləşdirilməsi kimi mühüm vəzifələrin həyata keçirilməsini qarşısına məqsəd qoymuşdur.

**Baltimor proqramı**

Amerikada 1941-ci ildə qəbul olunub. Proqram yəhudi diasporunun İsrail dövləti yaradılması yolunda apardığı siyasi kurs idi. Bunun nəticəsində dünya yəhudiləri birilk nümayiş etdirərək Eres-İsrailə qayıtmağı qarşılarına məqsəd kimi qoydular.

**Beyin "oğurluğu" strategiyası**

Müəllifi Mister "Brain Drain" ləqəbin daşıyan Y.Duqlasdır. Bu gün də ABŞ-ın iri transmilli şirkətləri onların inkişafında böyük dəstək olan zəkaların işə götürülməsində Duqlasa minnətdarlıq edirlər. Duqlasın müəllifi olduğu zəka "oğurluğu" strategiyası bu gün aşağıdakı ardıcıl sistem kimi mövcuddur:





- ABŞ-dan kənarda fəaliyyət göstərən şirkət və korparasiyalarada öz zəkası və qabiliyyəti ilə seçilən kadrları əsas mərkəzə göndərilməsini təşkil etmək;
- Müxtəlif (elm, təhsil, iqtisadi, biznes, hüquqi) şirkətlər vasitəsilə düşünən beyinlərin "verbovkası;"
- Konfrans, seminar, elmi görüş və digər bu kimi səpgili tədbirlərə pulsuz olaraq gənc kadrlar dəvət etmək, onların hazırladıqları esse, referat və məqalələri incələmək, seçilənləri öz ölkələrinə işləməyə dəvət etmək;
- Qrant ayırmaqla xaricdə zəkalı gəncləri pulsuz təhsil almağa cəlb etmək və sonradan onu işlə təmin etmək;
- İnternet, qəzet, radio, TV və s. informasiya texnologiyaları vasitəsilə ABŞ-da işə dəvət etmək və s.

**Beyin axını (breyn drain)**

Breyn drain - anlayışı ilk dəfə olaraq Britaniya Kral Cəmiyyətinin 1962-ci il hesabatında işlədilib və intellektual səviyyəli, yüksək ixtisaslı individlərin mühacirəti mənasını ifadə edir. Dünya praktikasında "beyin axını" prosesinin əsas iştirakçılarına alimlər, mühəndislər, texniki personal, xaricdə təhsil alan tələbələr, müxtəlif ixtisaslı mütəxəssislər və tibb personalı daxildir.

Brain Drain - zəka axınının izahı müxtəlif ölkələrdə dərc olunan iqtisadi, hüquqi və sosial terminlər lüğətində eyni olaraq aşağıdakı kimi verilir:

Zəka axını - yüksək ixtisaslı mütəxəssislərin öz ölkələrində normal yaşam tərzi qura bilməyərək xarici ölkələrə miqrasiya etməsidir. Türkiyənin tanınan alimlərindən Prof.Dr. Muhammer Kaya hesab edir ki, Brain-Drain-zəka axını deyiləndə yüksək təhsil səviyyəsi, öz ixtisası üzrə mütəxəssis hesab olunan insanların öz ölkəsini təsis edərək güclü dövlətin ali, elmi, transmilli şirkətlərində səadət axtarması elmi-texniki inkişafa təkan verməklə, onların vətəndaşları olduqları dövlətlərə ciddi zərbə vurur. Onu da əlavə edək ki, zəka axını, daha doğrusu,

yüksək səviyyəli alimlərin onlar üçün əlverişli yerlərdə yığışması (məsələn, II Dünya müharibəsi ərəfəsində və ondan sonra ABŞ-da toplanması) elmin və texnikanın güclü inkişafına gətirib çıxartdı. Elm və texnika isə yalnız konkret ölkənin malı olaraq qalmır, bütün bəşəriyyət bundan istifadə edir. Misal olaraq kompüterləri, müasir telekommunikasiyanı, internet, müxtəlif maşınları və başqalarını göstərmək olar. Yəni zəka axını bəşəriyyətin bütövlükdə inkişafına səbəb olur və son nəticədə kasıb ölkələr də bundan yararlanır.

Rəsmi olaraq inkişaf etməkdə olan ölkələr və kasıb dövlətlərdən zəka axını prosesinin baş verməsi altı əsas səbəblə sıx bağlı olduğu göstərilir:

1. İqtisadi amillər:
   - Az əmək haqqı;
   - Vergilərin çoxluğu;
   - İqtisadi maraqların reallıqla uzlaşmaması;
   - Öz övladları üçün yaxşı gələcək qurmaq.
2. Siyasi amillər:
   - Etnik kimlik ayrılığı;
   - Siyasi narazlıq;
   - Partiya təmsilçiliyinin olmasını istəməyən;
   - İş həyatına siyasi maraqların müdaxilə etməsi.
3. Elm və texnoloji siyasətdə yanlışlıqlar:
   - Elm və təhsilə qayğısızlıq;
   - Elmi yeniliklərin və kəşflərin qiymətləndirilməməsi;
   - Elmi dərəcə almaq istiqamətində çətinliklər;
   - Texniki avadanlıqların köhnəlməsi;
   - Elmdə vergilərin güzəştli olmaması və s.
4. Təhsil sistemində nöqsanlar:
   - Müəllimlərin gəlirinin digər səbəblərdən az olması;
   - Proqramsızlıq və təhsil siyasətinin passivliyi;
   - Milli təhsil strategiyasının mövcudluğu;





   - Təhsil sistemində dərslik problemi və s.
5. İşsizlik:
   - Ali məktəb tələbələrinin ixtisasa uyğun iş tapmaması;
   - Təhsilli şəxslərin dövlət qayğısından kənarda qalması;
   - İşə götürülmədə koorupsiyanın olması;
   - Ali təhsildən kənar biliklər tələb edilməsi.
6. Xarici ölkələrdə təhsilin və elmi yeniliklərin rəngarəngliyi.
   - Xarici ölkələrdə savada qiymət verilməsi;
   - Yüksək əmək haqqı;
   - Bir çox ictimai güzəştlər;
   - Elmi kəşflərin dövlət səviyyəsində dəstəklənməsi;
   - Xarici dillərdə ədəbiyyat çoxluğu;
   - Yüksək pensiya şərtləri və s.

**Beynəlxalq Əmək Təşkilatı (BƏT)**

BMT-nin ixtisaslaşdırılmış idarəsi. Fəaliyyəti əməyin sosial-iqtisadi problemlərinin həllinə, zəhmətkeşlərin həyat və iş şəraitinin yaxşılaşdırılmasına yönəldilib. Diasporların çox zaman hüquqları bu təşkilat vasitəsi ilə qorunur.

**Beynəlxalq münasibətlər**

Öz maraqlarını gerçəkləşdirmək vasitəsi olaraq dövlət və xalqların qarşılıqlı əlaqələri nəticəsində yaranır. Beynəlxalq münasibətlər sisteminə: diplomatik, iqtisadi, sosial (qeyri hökumət təşkilatları), mədəni, informasiya və s. daxildir.

Müasir beynəlxalq münasibətlərin əsas meylləri aşağıdakılardır:

1. Praktik olaraq ictimai həyatın bütün sahələrinin beynəlmiləlləşməsi. İnsanlar arasında əlaqələrin beynəlxalq mübadilə və qarşılıqlı münasibətlər yoluyla tənzimlənməsi, iqtisadi, təhsil, mədəniyyət, səhiyyə sahəsində əməkdaşlıq, insan hüquqlarının müdafiəsi və vətəndaşların təhlükəsizliyinin bütün aspektlərinin təmini sahəsində əlaqələrinin artması;

2. Həlli yalnız dünyada yaşayan xalqların qarşılıqlı əlaqələrinin və əməkdaşlığının uğurları nəticəsində mümkün olan qlobal problemlərin formalaşması. Bu sıralamaya sülhün qorunması, hərbi təhlükənin azaldılması, ətraf mühitin qorunması, infeksion xəstəliklərə və cinayətkarlığa qarşı mübarizə məsələləri aiddir;

3. Silahsızlanma və demokratikləşmə. Yaranmış problemlərin həllində hərbi-güc metodlarından imtina edilməsi (belə metodların effekti getdikcə azalır və hətta ondan istifadə edən tərəf üçün belə təhlükə yaradır), eyni zamanda, münasibətlərdə iştirak edən bütün subyektlərin hüquqlarına hörmət edilməsi.

**Bibliya**
*(yun. biblia - kitablar)*

İudaizmə və xristianlığa aid "müqəddəs" kitablar külliyyatı. E.ə. XII - eramızın II əsrində yaranmışdır. İki kitabdan ibarətdir. Birinci kitab - "Əhdi-ətiq" (Tövrat) qədim vəsiyyətlər, ikinci kitab - "Əhdi-cədid" (İncil) yeni vəsiyyətlər adlanır. "Əhdi-ətiq"ə yəhudilər və xristianlar, "Əhdi-cədid"ə isə yalnız xristianlar etiqad edirlər. Bibliyaya dini qanunlar, hüquqi kodekslər, tarixi-xronoloji qeydlər, əfsanələr, ibrətli hekayələr, xalq mahnıları, erotik lirika, qəhrəmanlıq eposlarından parçalar, rəvayətlər daxil edilmişdir.

**Bilinqivizm**

İkidillilik. Bir şəxsin, yaxud icmanın iki dil bilməsi və ondan eyni dərəcədə istifadə etməsi. Bilinqimizm tarixi şəraitlə (istila, xalqların könüllü surətdə bir yerdən başqa yerə köçməsi, başqa dildə danışan qonşu xalqlarla təmasda olma) əlaqədar yaranır. Bilinqivizm nəticəsində iki dildən biri digərini tamamilə sıradan çıxara bilər. Onların əsasında yeni qarışıq dil yaranması da mümkündür.





**Bilməzlər - "Know Nothings"**

XIX əsrin 50-ci ilində Amerikada yaranan hərəkatın bu cür adlanması isə onlar arasında hökm sürən qayda ilə əlaqəli idi. İrlandlara qarşı edilən hər hansı bir hadisədən sonra hərəkat üzvlərindən ələ keçənlərin yalnız bir cavabı var idi - "bilmirəm".

***Bipatridlər***

Beynəlxalq hüquqda eyni zamanda iki ölkənin vətəndaşı olan şəxslər. Belə şəxslərin ikili vətəndaşlıq hüququ yoxdur. Bəzi diasporlarda təsadüf olunan hal.

**Birbaşa lobbiçilik**

Bu fəaliyyət açıq-aşkar, birbaşa lobbisi ilə qərar verən qurumun səlahiyyətli nümayəndəsi arasında aparılan danışıqlar və görülən işə deyilir. Bu zaman görüləcək işdən ətrafdakı şəxslər və qruplar xəbərdar olmaqla, bu məsələdə öz mövqeyini bildirmək və bildirməmək hüququna malik olurlar.

**Birləşdirən millətçilik**

Bu millətçilik kiçik millətlərdən böyük millət düzəldir. Belə bir millətçiliyi XIX əsrdə Almaniya ilə İtaliyanın birləşməsində görmək olar.

**Birləşmiş Yəhudi Çağrışı**
**(Yu-Ci-Ey)**

1938-ci ildə Almaniyada yəhudilərə qarşı tarixdə "Büllur gecə" adı altında törədilən hərəkatdan sonra yaradılmışdır. Bu təşkilatın əsas fəaliyyət istiqaməti İsrailə yardım kampaniyasına rəhbərlik etməkdir. ABŞ-da fəaliyyət göstərən bütün yəhudi diasporu bu təşkilatın kampaniyasında daima iştirak edir və İsrailə hər il ən azı 700 milyon dollar yardım edilir.

**Bney-Brit (niyyət oğulları)**

1843-cü ildə yaradılmışdır. Bu cəmiyyətin əsasını Almaniyadan köçmüş yəhudi mühacirləri təşkil edir. Bu cəmiyyətin əsas fəaliyyət istiqaməti yəhudi gəncləri və yəhudi diasporu arasında maarifçilik, elm və mədəni işlərlə məşğul olmaq, eyni zamanda dünyadakı sinaqoq və dini cəmiyyətləri maliyyələşdirməkdir.

**Böhran gərginlik fazası**

Bu o zaman başlayır ki, milli-etnik münaqişələri dinc vasitələrlə həll etmək olmur, onları idarə etmək çətinləşir və nəzarətdən çıxır.

**Böldürücü millətçilik**

Bu millətçilik ideyası dövləti bir neçə yerə bölmək istəyir. Böyük imperiyaların bölünməsində bu millətçiliyin böyük rolu olumuşdur.

**Böyük plan-yaşam**

Yəhudi diasporunda qədim dövrlərdən qoyulmuş qanunları zamanla müəyyən dəyişikliyə uğrasa da hələ də aşağıdakı formada qalmaqdadır:

1. Yəhudi ibadət zamanı üzünü Yerusəlimə - Qüdsə tərəf tutmalıdır.

2. İbadət anında yəhudilər daim Qalut halında yaşamalarını özlərinə xatırlatmalı və bu səbəbdən də Allaha yalvararaq, sürgünə son verilməsini və sürgün olunanları vətənə geri qaytarmalarını Allahdan xahiş etməlidir.

3. Yəhudilər onların qeyri-düzgün yaşam tərzlərini daim onlara xatırladan ailə və icma ənənələri işləyib hazırlamalıdırlar. Toyda mütləq qədəh qırılmalıdır ki, bu onlara Məbədi xatırlatsın, ev tikən zaman divarın bir hissəsini təmir etməməlidirlər. Yəhudi xalq mahnıları kimi bu ənənələr nəsildən-nəsilə keçərək yəhudilərə tərk edilən vətənlərini xatırladacaq.





4. Hər bayramı keçirən zaman yəhudilər İsrail torpağı və Məbədi (hansı ki, onlar tərəfindən itirilib və gələcəkdə onlar tərəfindən geri qaytarılacaq) xatırladacaq xüsusi ritual elementləri daxil etməlidirlər.

**Brain exchange**

Bilik və təcrübənin paylanması, yaxud dəyişdirilməsi. Bu konsepsiya zəka miqrasiyasına qoşulan insanları öz əmək və qabiliyyətlərini yeni müəssisə və transmilli koorpasiyalardan dəvət alır və paylaşırlar. Bu zaman öz mütəxəssislərini başqasına "icarə" verən transmilli koorpasiya brain drain – zəka axını ilə üzləşməsi olmur.

**Brain Waste**

Zəka itkisi konsepsiyası. Bu zaman prosesə məruz qalan dövlət öz intellektual potensialını tamamilə itirməli olur. Nəticədə isə öz düşünən beyinlərini itirən dövlət sosial-iqtisadi sahədə geriləməyə məruz qalmaqla yanaşı, həyat səviyyəsinin aşağı düşməsi ilə üz-üzə qalır.

## -C-

**Cənubi azərbaycanlılar**

İran İslam Respubikasının ərazisində – Cənubi Azərbaycanda yaşayan azərbaycanıların bir qismi XX əsrdə 5 əsas dalğa ilə xarici ölkələrə mühacirət ediblər. Cənubi Azərbaycanlılar ifadəsi 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrindən sonra yaranıb. Bu tarixlərə qədər yalnız bir: Bütöv Azərbaycan var idi ki, onun sərhədləri geniş idi və burada yaşayan millətlərin bir dili, Azərbaycan dili və bir vətəni, Azərbaycan idi.

Lakin Gülüstan və Türkmənçay müqavilələrindən sonra ikiyə parçalanan Azərbaycana Rusiya tabeçiliyində Şimali, İran əsarəti altında olan hissəsi isə Cənubi Azərbaycan adlandırılmağa başlandı.

XX əsrin əvvəllərinə qədər Cənubi Azərbaycan Qərb və Şərq ölkələrinə mühacirət prosesləri baş verib. Lakin Cənubi Azərbaycan mühacirət tarixi bizdə lazımi səviyyədə tədqiq edilməyib. Tədqiqatçılar XX əsrdən etibarən Cənubi Azərbaycandan başlanan mühacirət prosesin siyasi və iqtisadi səbəblərlə bağlayırlar.

Azərbaycan diasporunun mühüm qanadını təşkil edən cənublular, əsasən ziyalılar və biznesmenlərdən ibarətdir. Mühəndis, inşaatçı, həkim, texnoloq, nəqliyyatçı və s. peşələrdə çalışan soydaşlarımız öz peşələrində mütəxəssislər hesab olunurlar. Akademik təhsilə cənublular içərisində maraq böyük olduğundan, hazırda diasporumuzda ziyalılar təbəqəsi çoxluq təşkil edir. Ədəbiyyat, riyaziyyat, din, tarix, biologiya, iqtisadi elmlər sahəsində daha çox uğurlar əldə edən soydaşlarımız Qərb və Şərq ölkələrinin nüfuzlu ali və orta məktəblərində dərs deyir, elm dairələrində tanınırlar. Cənublu ziyalılarımızın elmi-bədii





əsərləri Qərb və Şərqdə sevilən, oxunulan əsərlər olmaqla elmi araşdırmalar məqsədilə də istifadə olunur.

Cənubi azərbaycanlıların böyük bir hissəsi də ticarət sahəsində çalışırlar və əminliklə söyləmək olar ki, kifayət qədər güclü mövqeyə və nəhəng kapital mənbələrinə malikdirlər. Güclü investisiya imkanları olan soydaşlarımızın sahib olduqları firmalar, şirkətlər, müəssisələr bir çox ölkələrin iqtisadiyyatına xeyir verir. Güclü iqtisadçı və biznesmenlərdən sayılan cənublu soydaşlarımız məskunlaşdıqları ölkələrin yüksək dövlət xadimləri və imkanlı biznesmenləri tərəfindən hörmətlə tutulur, bəzən onlardan məsləhət və kömək istənilir. Birləşmiş Ştatlar, Kanada, Böyük Britaniya, Fransa, Danimarka, İsveç, Avstraliya və digər ölkələrdə cənublular böyük imkanlara malikdirlər.

## -Ç-

**Çala**

Asiya ölkələrində yaşayan yəhudi diasporunun islamı qəbul etmiş yəhudilərə verdikləri təhqiredici ləqəb.

**Çayntaun**

Çin şəhəri; Çin məhəlləsinin ABŞ-dakı adı. Çin milli adət-ənənələrinin, ailə birliyinin rəhbər olduğu məhəllələr birgə müdafiə olunur, bir-birləri ilə daha sıx əlaqə qurur. Assimilyasiyadan birgə qorunan çinlilər diasporlarını təşkilatlandırırdılar. İlk Çayntaunlar San-Fransisko, Vaşinqton, Nyu-York, Los-Ancelosda yaradılmışdır. Çayntaunlarda 83% çinlilər toplanaraq birləşmişdilər.

Ölkədəki ən böyük Çayntaun San-Fransiskodakı hesab olunur. Şəhərin cənub-şərq hissəsini əhatə edən Çayntaun Asiyadan kənarda yerləşən ən iri çinli icmasının məskunlaşdığı ərazi hesab olunur. 15 küçənin daxil olduğu San Fransisko Çayntaunu müxtəlif peşə sahiblərinin birləşməsi, həmkarlar birlikləri və aktiv fəaliyyət göstərən diasporu ilə digərlərindən xeyli fərqlənir.

Çayntaunlarda fəaliyyət göstərən Çin diasporunun rəhbərliyi ziyalılar, siyasi cəhətdən aktiv olan məmurlar, hüquqşünaslar və tacirlərdir. Milli adət-ənənələrin əsasında fəaliyyət göstərən Çin diasporu xeyriyyə cəmiyyətlərinin, gizli birliklərin və klanların ətrafında birləşərək çinliləri idarə edirdi. Təhsil almaq, işləmək istəyənlər üçün kömək göstərən diaspor ictimaiyyət tərəfindən edilən təzyiqlərdən yaxa qurtarmaq üçün ziyalıların və hüquqşünasların sayının artırılmasına çalışır, elmlə məşğul olmaq istəyənlərə maliyyə yardımı göstərirdi.





**Çikanos**

ABŞ-da yaşayan və əsasən də ölkənin əsas işçi qüvvəsini təşkil edən meksikalılar ölkədə məhz bu cür tanınırlar. "Meksika Amerikalıları" termini ilə yanaşı çikanos termini Amerikada tez-tez işlədilən termindir. Amerika ədəbiyyatşünasları, tarixçiləri öz tədqiqatlarında çikanos terminin çox istifadə etdikləri üçün ictimaiyyətdə meksikalılar bu cür tanınır. Meksikalılar özləri çikanos kimi qəbul edilmələrinə alışdıqlarından buna etiraz etmirlər.

Çikanos terminin yaranması 1930-40-cı illərə təsadüf edir. Amerikaya əmək xarakterli mühacirət edən meksikalılar özlərini "Mexikanos" kimi təqdim edirdilər. Lakin İspan ləhcəsilə deyilən söz çikanos kimi tələffüz edildiyindən meksikalılara çikanos deyilməyə başlandı.

**Çinin diaspor siyasəti**

Çin Xalq Respublikasının diaspor siyasəti 4 əsas prinsip üzərində qurulub:

a. Tarixi vətənə sevgi və məhəbbət hisslərinin çoxalması və itirilməməsi.

b. Xaricdə yaşayan bütün çinlilərin Çinin maddi və mədəni inkişafı quruculuğunda iştirakını təmin etmək.

v. Tayvanın vətən sərhədləri içərisinə tezliklə qatılması prosesini sürətləndirən işlərə böyük yer ayırmaq.

d. Çinin maraqlarını xarici ölkələrdə müdafiə etmək.

Çinin diaspor siyasətini aşağıdakı dövlət orqanları həyata keçirir:

1. Ümumçin xalq nümayəndələri məclisinin xarici çinlilər üzrə komissiyası -

Xalq Nümayəndələr Məclisinin nəzdində daimi orqan olan komissiya əsasən çin diasporunun problemlərini öyrənmək və xüsusi dövlət qanunlarının işlənib-hazırlanmaq işi üzrə paralel olaraq xaricdə yaşayan çinlilərin hüquqlarını müdafiə etməsilə məşğul olur. Çinin dövlət və qeyri-hökumət təşkilatları və digər

müvafiq orqanları ilə əlaqələrə malik bu komissiya diasporla iş aparan əsas qurumlardan biridir.

2. Çin xalq respublikasının dövlət aparatı yanında xarici çinlilərlə iş üzrə idarə - İcraedici orqan olan idarə dövlətin diasporla işinin həyata keçirilməsi ilə məşğul olur. ÇXR-in müvafiq qurumlarının fəaliyyətinə nəzarət edən idarə dövlət siyasətinin icrası ilə məşğul olur.

3. Xaricdən remeqrantlar və Çin diasporunun ümumçin federasiyası - kütləvi təşkilat hesab olunan federasiya Çin diasporu və mühacirlərlə birbaşa əlaqə quran əsas qurumlardandır. Dövlət siyasətinin xaricdəki çinlilər arasında tətbiq işinə cavabdeh olan federasiya Çinə qayıtmaq istəyən vətəndaşlara hüquq və mənəvi dəstək olur.

Çinin diasporla işi iki əsas istiqamət də; daxili və beynəlxalq aspektdə qurulub.

*Daxili:*

1. Xaricdə yaşayan çinlilərin sosial müdafiəsi və dövlət sığortası ilə təmin olunması.
2. Milli iqtisadiyyata kapital qoyan Xaricdə yaşayan çinlilərin investisiya və kapitalının müdafiəsi, ÇXR-ə xaricdən pul köçürülməsinə əlverişli şərait yaratmaq.
3. Xaricdə yaşayan çinlilərin ÇXR-in ali və orta məktəblərinə qəbul olunması qohum-əqrəbalarının və özlərini ÇXR-ə sərbəst gəlib-getməsini təmin etmək.

*Beynəlxalq:*

4. Birləşmək və qarşılıqlı əməkdaşlıq.
5. Diasporun qanuni hüquqlarının müdafiə edilməsinin təmin etmək.
6. Məskunlaşdıqları ölkələrin vətəndaşları ilə dostluq münasibətlərini qurulması.
7. Tarixi vətənlə əlaqəni itirməyərək Çinin qüdrəti üçün birgə fəaliyyət.





## -D-

### DAK

Dünya Azərbaycanlılarının Konqresi: 1997-ci ilin iyun ayının 27-29-u ABŞ-da yaradılıb. DAK müxtəlif ölkələrdə yaşayan azərbaycanlıları öz ətrafında birləşdirmək, Cənubi Azərbaycanda xalqın milli oyanışını, həmvətənlərimizin milli-mədəni hüquqlarının bərpasını stimullaşdırmaq kimi ali vəzifələri qarşısına məqsəd qoymuşdur. Otuz milyondan artıq Cənubi Azərbaycan türkünün beynəlxalq norma və prinsiplərə uyğun mədəni, iqtisadi, ictimai və siyasi haqları uğrunda mübarizə aparmaq,

Avropanın, Asiyanın, Amerikanın çeşidli ölkələrinə və ayrı-ayrı şəhərlərinə səpələnmiş soydaşlarımızın Azərbaycan naminə fəallaşmalarına və yaşadıqları hər bir şəhərdə, hər bir ölkədə təşkilatlarmalarına çalışmaq təşkilatın qarşısına qoyduğu əsas məqsədlərdir.

Üzvlər arasında əlaqə qurmaq üçün DAK rəhbərliyi elektron poçt qrupu və internet saytı (www.azerbaijanis-congress.com) yaratmışdır.

DAK-ın I Qurultayı

ABŞ-ın Los-Ancelos şəhərində 1997-ci ilin iyul ayının 27-29-da keçirilib. 600-dən çox nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

✓ Azərbaycan lobbisinin yaradılması təxirəsalınmaz vəzifə kimi nəzərə alınsın;

✓ Azərbaycan diasporunun ABŞ siyasətinə təsir etmək gücünə malik iqtisadi bazası yaradılsın;

✓ İranda, daha doğrusu Cənubi Azərbaycanda türklərin haqqları qorunsun.

DAK-ın II Qurultayı

ABŞ-ın Vaşinqton şəhərində 1998-ci ilin may ayının 30-31-də keçirilib. 250-dən çox nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- ✓ Azadlığa Dəstək Aktı, 907-ci düzəlişin ləğvinə çalışmaq;
- ✓ Diasporların yaşadıqları ölkələrdə Azərbaycanın maraqlarına xidmət etmək;
- ✓ Ermənistan-Azərbaycan münaqişəsində ölkəmizin təcavüzkar müharibəyə sövq edilməsini dünyada tanımaq;
- ✓ Cənubi Azərbaycanda Milli muxtariyyət, dil, məktəb və s.

DAK-ın III Qurultayı

Almaniyanın Köln şəhərində 1999-cu ilin oktyabr ayının 2-3-də keçirilib. 100-ə qədər nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- ✓ İşğal olunmuş ermənilər tərəfindən ərazilərimizin qeyd-şərtsiz azad edilməsi;
- ✓ Dünyadakı Azərbaycan təşkilatlarının birləşməsi;
- ✓ Cənubi Azərbaycanda azadlıq hərakatı və s.

DAK-ın IV Qurultayı

Fransanın Strasburq şəhərində 2000-ci ilin oktyabr ayının 21-22-də keçirilib. 100-ə qədər nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- ✓ İşğal olunmuş ərazilər və Qarabağ məsələsi;
- ✓ Demokratiya və İnsan Haqqları;
- ✓ Cənubi Azərbaycanda azadlıq hərakatının durumu və s.

DAK-ın V Qurultayı

İsveçin Malmö şəhərində 2001-ci ilin avqust ayının 10-12-də keçirilib. 250-dən çox nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- ✓ Lobbiçiik və DAK;





- ✓ Azərbaycan problemlərini dünyaya çatdırmaq;
- ✓ Türk dünyası və diasporu ilə əməkdaşlıq;
- ✓ Diasporların təşkilatlanması və s.

DAK-ın VI Qurultayı

Hollandiyanın Haaqa şəhərində 2002-ci ilin oktyabr ayının 11-13-də keçirilib. 200-dən çox nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- ✓ Qarabağ forumu;
- ✓ Azərbaycan diasporunun güclənməsi və lobbiçlik;
- ✓ Cənubi Azərbaycanda durum və s.

DAK-ın VII Qurultayı

Almaniyanın Köln şəhərində 2004-cu ilin fevral ayının 22-29-da keçirilib. 300-ə qədər nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- ✓ Turk dünyası ilə əlaqələr;
- ✓ Azərbaycan diasporunun problemləri;
- ✓ Dağlıq Qarabağ problemi;
- ✓ Cənubi Azərbaycanda soydaşlarımızın durumu və s.

DAK-ın VIII Qurultayı

İsveçin Stokholm şəhərində 2005-ci ilin may ayının 20-22-də keçirilib. 200-ə qədər nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- ✓ Dağlıq Qarabağ problemi və uydurma erməni soyqrımı;
- ✓ Azərbaycan diasporunun təşkilatlanma məsələsi;
- ✓ Türk dünyası ilə hərtərəfli əməkdaşlıq və s.

DAK-ın IX Qurultayı

Almaniyanın Köln şəhərində 2007-ci ilin iyul ayının 7-8- də keçirilib. 250-ə qədər nümayəndə iştirak edib. Əsas müzakirə olunan məsələlər:

- ✓ DAK-ın beynəlxalq təşkilatlarda nüfuzunun artırılması;

✓ Qarabağ problemi;
✓ Türk-Azərbaycan diasporlarının birgə fəaliyyəti;
✓ Cənubi Azərbaycan məsələsi və s.

## Dağıstan azərbaycanlıları

Dağıstanda azərbaycanlıları diaspora hesab etmirlər, çünki onlar bu respublikanın konstitusiyasında qeyd olunmuş 14 köklü, titullu xalqlardan biridir. Onlar Dağıstanın ali orqanı olan dövlət şurası və xalq məclisi də daxil olmaqla bütün dövlət strukturlarında təmsil olunurlar. Respublikanın seçki qanununa görə, seçki dairələri milli prinsiplərə əsasən müəyyənləşdirilib. Ona görə də azərbaycanlıların milli hüquqlarının qorunması ilə bağlı vəziyyət digər respublikalardan yaxşıdır. Ötən əsrin əvvəllərində rəsmi məlumatlara görə Dağıstanda azərbaycanlıların sayı 90 min 423 nəfər təşkil edib (əhalinin 4,3 faizi). Onların təqribən yarısı iqlim şəraiti ən əlverişli olan rayonlarda-Dərbənd (58 faiz), Tabasaran (18 faiz), həmçinin Rutul və Gizlər ərazilərində kompakt şəkildə məskunlaşıblar. Şəhərli azərbaycanlılar əsasən Dərbənd, Dağıstan İşıqları, həmçinin Məmmədqala və Belidca şəhər tipli qəsəbələrində yaşayırlar. Azərbaycanlıların sayı təbii artımla çoxalır. Onlar miqrasiya proseslərinə məruz qalmayıblar: İllik miqrasiya saldosu cəmi 4 nəfər təşkil edir.

Dağıstan xalqlarının digər nümayəndələri kimi azərbaycanlıların milli dillərini, adət və ənənələrini, həyat quruluşlarını qorumaq və inkişaf etdirimək imkanları var.

Azərbaycanlıların kompakt yaşadığı ərazilərdə 79 məktəb və milli dilin tədris edildiyi 11 məktəbəqədər təsisat fəaliyyət göstərir.

Azərbaycan Milli Məclisinin latın qrafikasına keçidlə əlaqədar qərarı son vaxtlar tədrisdə bəzi çətinliklər yaranıb. Lazım olan tədris-metodiki ədəbiyyat Azərbaycandan daxil olur. Bununla da müxtəlif ölkələrdə yaşayan həmvətənlərin vahid mədəni-təhsil sahəsi saxlanılır. Azərbaycan dilini tədris edən pedoqoji kadrların hazırlanması və ixtisaslarının artırılması





Dərbənd ali pedoqoji kollecində, həmçinin Azərbaycanın ali təhsil müəssisələrində həyata keçirilir.

Ənənəvi mədəniyyət kənd mədəniyyət evlərində inkişaf etdirilir. Dağıstanda azərbaycanlıların xalq çalğı alətləri ansamblları, "Gülüstan" ədəbi birliyi, 2 xalq və 1 dövlət teatrı, müxtəlif milli-mədəni hərəkatları fəaliyyət göstərir.

Həmçinin Dövlət Teleradio Komitəsinin "Dağıstan" radiosunda Azərbaycan dilində proqramlar yayımlanır. "Dərbənd" və "Vətən" qəzetləri doğma dildə nəşr olunur. Ən əsası isə odur ki, azərbaycanlıların daha çox cəmləşdiyi Cənubi Dağıstanda təqribən 10 ildir ki, ildə 6 min 340 saat Azərbaycan milli televiziyasının verilişləri translyasiya olunur. Bu azərbaycanlıların milli mədəniyyətləri ilə təmasda yaranan boşluğu aradan qaldırır.

Digər xalqlardan fərqli olaraq burada yaşayan azərbaycanlıların əksər hissəsi İslamın şiyə qanadına mənsub olduğundan, 1992-ci ildə əvvəllər Dağstanın şiyə icmasına məxsus olan respublika uşaq idman məktəbinin binası yenidən sahiblərinə qaytarılıb. Bundan başqa Qafqaz Müsəlmanları İdarəsinin Dərbənd və Mahaçqalada nümayəndəliyi fəaliyyət göstərir.

Sərhədlər müəyyən olunandan sonra Dağıstanın kitabxana fondunda problemlər yaranıb. Əvvəllər Azərbaycan dilində ədəbiyyat Bakıdan göndərilirdi. İndi isə bu sferada kitab mübadiləsinin yeni forması axtarılır.

## Daxili zəka axını

Yüksək ixtisas kadrların elm sahəsindən əmək haqqı və iş şəraitinin anormal olması səbəbilə uzaqlaşaraq digər sahələrə, xüsusən biznes və gəliri çox olan işlərə qoşulmasıdır. Bu zaman isə cəmiyyətin intellektual potensialını azaltmaqla yanaşı tədqiqat mərkəzlərinin, elmi müəssisələrin və təhsil idarələrinin kütləvi savadsızlıqla üzləşməsinə şərait yaradır.

**De-etnikləşdirmə**

Millət yaxud onun hər hansı bir nümayəndələri tərəfindən öz etnik xüsusiyyətlərinin itirilməsi prosesi: ilk olaraq ana dilin itirilməsi ilə müşayət olunur.

**Deformasiya**

Siyasi və mədəni faktorların yoxa çıxması nəticəsində etnosun tarixi dəlil kimi qalması.

**Demoqrafiya**

Əhali haqqında elm. İlk dəfə fransız alimi A.Tiyar 1933-cü ildə tərəfindən elmə gətirilib. İctimai elm olaraq əhalinin strukturunu, yerləşməsi, yerini dəyişməsi və dinamikasında baş verən sosial, iqtisadi, həmçinin bioloji və coğrafi amil, səbəb və şərtlər əsasında hadisələrin və proseslərin qanunauyğunluqlarını tədqiq edir.

**Deportasiya**

Latın dilində "deportatio" sözündən olub, mənası məcburi köçürülmə, qovulma, sürgün olunma deməkdir. Əhalini deportasiya etmə və ya məcburi köçürmə onun uzun müddət məskunlaşdığı qanuni yaşayış yerlərindən zorla çıxarılması ilə müşayiət olunan, insanların kütləvi şəkildə ev-eşiyindən, doğma torpaqlarından, ölkəsindən qovulması ilə nəticələnən hərəkətlərlə xarakterizə olunur. Deportasiya Beynəlxalq Humanitar Hüquqda müharibə cinayəti kimi qiymətləndirilir. Mülki şəxslərin yaşadıqları ərazilərdən zorla köçürülməsi cinayətdir. Bununla yanaşı, deportasiya faktı həm də insanların yaşamaq hüququnu pozur.

Misal üçün Azərbaycanlıların Ermənistandan deportasiya olunmasını göstərmək olar. Azərbaycanlılar ta qədimdən XX əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəllərinə qədər indiki Ermənistan ərazisində yaşamışlar. Bu torpaq Azərbaycan





türklərinin ata-baba yurdlarıdır. Onlar zaman-zaman erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşlar. Təkcə XX əsrdə dörd dəfə (1905-1906, 1918-1920, 1948-1953, 1988-1991) azərbaycanlılar indiki Ermənistan ərazisindən – tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuş, soyqırımına məruz qalmışllar. «Türksüz Ermənistan» uğrunda mübarizə aparan ermənilər və onların ideoloqları, eləcə də yaxın və uzaq xaricdəki havadarları etnik təmizləmə əməliyyatını 1991-ci il avqustun 8-də başa çatdırdılar. Həmin gün Meğri rayonunun ən böyük kəndlərindən biri – Nüvədi kəndi soyqırımına məruz qalaraq kəndin köklü sakinləri olan azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olundular. Beləliklə, indi Ermənistan adlanan Qərbi Azərbaycanda bir nəfər belə azərbaycanlı qalmadı. Halbuki 1828-ci ildə İrəvan şəhərində 7331 nəfər azərbaycanlı, 2369 erməni (Yerli ermənilər nəzərdə tutulur), İrəvan xanlığının Zəngibasar mahalında 5413 nəfər azərbaycanlı, 603 erməni, Gərnibasar mahalında 4176 nəfər azərbaycanlı, 145 erməni, Vedibasar mahalında 3449 nəfər azərbaycanlı, 15 erməni, Saatlı mahalında 1004 nəfər azərbaycanlı, Seyidli və Axsaxlı mahalında 1754 azərbaycanlı, 28 erməni, Sərdarabad mahalında 1837 nəfər azərbaycanlı, 3214 erməni, Dərəçiçək mahalında 1300 nəfər azərbaycanlı, 552 erməni, Göyçə mahalında 5607 nəfər azərbaycanlı, 90 erməni, Naxçıvan xanlığının Dərələyəz mahalında 4583 nəfər azərbaycanlı, 288 erməni yaşamışdır.

Türkmənçay müqaviləsindən sonra, 1828-1830-cu illərdə İran və Türkiyədən İrəvan şəhərinə 1763, Qırxbulaq mahalına 1274, Zəngibasar mahalına 2360, Gərnibasar mahalına 5359, Vedibasar mahalına 1069, Sərdarabad mahalına 377, Karpibasar mahalına 3073, Abaran mahalına 8875, Dərəçiçək mahalına 6798, Göyçə mahalına 8557, Dərələyəz mahalına 2773 erməni köçürülüb yerləşdirilmişdir.

Bununla da Azərbaycan türklərinin indiki Ermənistan ərazisindən – tarixi-etnik torpaqlarından deportasiyası üçün real zəmin yaradıldı.

1905-1906-cı ildə baş verən erməni-azərbaycanlı müharibəsi, 1914-cü ildə başlanan I dünya müharibəsi və 1918-ci ildə indiki Ermənistanda daşnakların hakimiyyətə gəlməsi nəticəsində azərbaycanlılar ermənilərin soyqırımına məruz qalmışlar. Təkcə 1919-1920-ci illərdə Abaran rayonundan 3691, Allahverdi (indiki Tumanyan) rayonundan 1666, Axta (indiki Razdan) rayonundan 8053, Ağbaba (indiki Amasiya, Axuryan və Qukasyan rayonları) rayonundan 13645, Əştərək rayonundan 11313, Basarkeçər (indiki Vardenis) rayonundan 26238, Gorus rayonundan 1429, Krasnoselo rayonundan 512, Talin rayonundan 7688, Leninakan (indiki Spitak və Quqark rayonları) rayonundan 3410, Abovyan rayonundan 9436, Qəmərli (Artaşat) rayonundan 24149, Qafan rayonundan 12657, Qurduqulu rayonundan 8490, Qaranlıq (indiki Martuni) rayonundan 3190, Meğri rayonundan 8508, Yeni Bayazid (indiki Kamo) rayonundan 4077, Sisyan rayonundan 17880, Stepanavan (Calaloğlu) rayonundan 1868, Vağarşabad (Eçmiədzin) rayonundan 27750, Vedi (indiki Ararat) rayonundan 8933, Keşişkənd (indiki Yeğeqnadzor) rayonundan 14837, Paşalı (indiki Vayk) rayonundan 8933 azərbaycanlı deportasiya olunmuşdur.

Sovet hakimiyyəti dövründə azərbaycanlıların indiki Ermənistandan dövlət səviyyəsində, özü də SSRİ adlanan nəhəng imperiya tərəfindən deportasiyası köçürülmə adı ilə həyata keçirilmişdir. SSRİ Nazirlər Sovetinin 1947-ci il dekabrın 23-də «Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» 4083 saylı və 1948-ci il martın 10-da isə həmin qərara əlavə olaraq qəbul edilən «Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında» 754 saylı qərarlarına əsasən 1948-1953-cü illərdə 150 min azərbaycanlı tarixi-etnik torpaqlarından deportasiya edilmişdir.

1988-1991-ci illərdə isə Rusiyanın köməyi ilə Ermənistan dövləti tərəfindən indiki Ermənistan ərazisindən 250





mindən artıq azərbaycanlı deportasiya olunmuşdur. Ümumiyyətlə, XX əsrdə iki milyon azərbaycanlı indiki Ermənistandan – Qərbi Azərbaycandan – tarixi-etnik torpaqlarından qovulmuşlar.

Bu tarixi faciələrə vaxtında hüquqi-siyasi qiymət verilməmişdir. Yalnız Azərbayçan Respublikasının prezidenti H.Əliyev bu tarixi ədalətsizliyə, hüquqi-siyasi qiymət vermiş, bununla bağlı 1997-ci ilin dekabrın 18-də «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında», 1998-ci ilin martın 26-da «Azərbaycanlıların soyqırımı» və 22 avqust 2001-ci ildə «Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında» fərmanlar imzalamışdır. 22 avqust 2001-ci il tarixli fərmanda göstərilir: «Tarixi saxtalaşdırmaq, təhrif etmək və Azərbaycan torpaqlarının tarixi adlarını dəyişdirmək, süni surətdə Ermənistanı monoetnik dövlətə çevirmək siyasətinin tərkib hissəsini təşkil edirdi. 1935-1989-cu illərdə Ermənistanda hətta yer adlarına qarşı qərəzli siyasət tətbiq edilmiş və minlərlə Azərbaycan toponimi xəritələrdən silinmişdir».

**Deseqreqasiya**

İnsanları irqinə görə fərqləndirmək siyasətindən imtina, seqreqasiyanın ləğvi.

**Deviasiya**

Mövcud olan bir çox dəyərlərdən imtina etmək.

**Diaspersiya**

Yayılma, səpələnmə. Hər hansı bir səbəbdən yurd-yuvasından qovulmuş və ya sürgün edilmiş insanlar. Bu termin

diasporun alternativi kimi göstərilir. Bir sıra tədqiqatçılar iki anlayışın oxşar olmasına baxmayaraq diasporun daha geniş məna kəsb etdiyini qeyd edirlər.

**Diaspor**

Yunan dilində "diaspora" – terminindən götürülüb. Bu termin "diasreikein" - səpələnmə, dağılma, yayılma, parçalanma felindən alınıb. Dia-söz önü ilə Speirein - səpmə, dağıtma, parçalanma, yayılma felinin birləşməsindən yaranan "diaspeira"- termini antik Yunan əsatirlərində, filosofların, tarixçilərin əsərlərində, dini ədəbiyyatlarda səpələmək, dağıtmaq (pulu) və yaymaq, səpələmək (ordunu) mənasında işlədilib. Heredot və Sofoklun əsərlərində rast gəlinən bu termin sonradan daha geniş mənalarda işlənib. "Diaspora" – termini isə ilk dəfə İncilin (Bibliya) yunan dilinə tərcümə olunan variantı "Septugainte"-də insanların, etnik qrupların səpələnməsi, yəni bizim bildiyimiz diaspor anlayışında işlədilib. Burada "yəhudilərin, bütpərəstlər içərisinə səpələnməsi" – mənasını ifadə edən diaspor termini sonradan Plutarx, Filon İskəndəriyyəli və başqa xristian müəlliflərin əsərlərində etnik qrupların səpələnməsi, yayılması kimi istifadə edilməyə başlanıb.

Buradan məlum olur ki, yunan termini olan diasporun digər tarixi situasiyalara, millətlərə xas edilməsi onun geniş mənada tədqiq və izah edilməsinə imkan verir. Diaspor termininin yəhudilərə şamil edilməsi və bu terminin yəhudi milləti ilə yaranması fikri kökündən yanlışdır. Yunan müəlliflərinin əsərlərinə nəzər salsaq diaspor termininin eramızdan əvvəl VI əsrdə Anadolu və Ağdəniz ərazilərində yaşayan yunanların iqtisadi səbəblərlə bu ərazilərdən köç edib müasir Yunanıstan ərazisinə məskunlaşması ilə əlaqələndirildiyini görərik.

Bütün deyilənləri nəzərə alaraq diaspor terminin aşağıdakı kimi izah etmək olar:





*"Xalqın və ya etnik birliyin müəyyən hissələrinin mənsub olduğu ölkənin hüdudlarından kənarda yaşaması diaspor anlayışının meydana çıxması deməkdir."*

Diaspor anlayışı özündə 9 xüsusi özəlliyi birləşdirir.

1. Tarixi ana vətəndən könüllü və ya zorla bir və ya daha çox əcnəbi ölkəyə mühacirət.
2. Bir sıra səbəblərlə, əsasən iş və ya kolonist məqsədlərlə ana vətənlərindən kənara səpələnmək, dağılmaq.
3. Uğurları, tarixi müasir durumu, tarixi vətənləri ilə əlaqəli mifik və ya kollektiv xatirənin, hafizənin qalması.
4. Mövcud tarixi vətənlərinin siyasi, iqtisadi, sosial inkişafı üçün birgə fəaliyyət.
5. Məskunlaşdığı ölkədə kollektivlə fəaliyyət və əməkdaşlıq.
6. Birgə görüləcək işlər, ümumi fikir prinsiplərinə söykənən əməkdaşlıq.
7. Məskunlaşdıqları ölkələrin ictimai və siyasi-iqtisadi həyatına adaptasiya.
8. Başqa ölkələrdə yaşayan həmvətənlərlə qarşılıqlı əməkdaşlıq və bağlılıq.
9. Yaşadıqları ölkələrdə milli kimliyin qorunub saxlanılması və təbliği ilə paralel olaraq inkişaf.

Güclü diaspora xas olan iki əsas cəhət var:

1.Milli kökünə bələd olub, milli varlığına və milli sərvətlərinə sahib olmaq.

2.Tarixi vətənlərini başqalarına tanıtmaqla onu xarici ölkələrdə təbliğ etdirmək

Elmi ədəbiyyatlarda diasporla bağlı müxtəlif fikirlər olmasını nəzərə alaraq onları sistematik olaraq aşağıdakı ardıcıllıqla sıralamaq olar:

1. Diasporların məkanları və əraziləri

2. Diaspor konsepsiyası
   - Coğrafi və politoloji yanaşma
3. Səpələnmə: Qəbul edən ölkələrdə (məskunlaşan) diasporların əraziləri;
   - İcma bağlılığı
   - Ərazi cizgiləri
4. Ana ərazi və yaddaş (tarixi vətən)
   - Diaspor və tarixi vətən arasında iqtisadi və siyasi münasibətlər
5. Məkan: şəbəkələrdə münasibətlər sistemi və diasporların çoxqütblüyü
   - Diasporların mənşəyi
6. Diasporlar dünyada
   - Böyük dünya dövlətləri
   - Güclü demoqrafik təzyiq və nisbi kasıblıq zonaları
   - Diasporların əsas yerləşmə məkanı, Avrasiya qitəsi və onun ikili dəniz və quru kommunikasiya oxları
7. Diasporların tipologiyası
   - Müəssisə qütbü – İqtisadi
   - Dini və linqivistik qütb – Dini
   - Siyasi qütb – Siyasi və Lobbiçilik
   - Qütbün olmaması – müxtəliflik və rəngarənlik, mobillik.

**Diaspor şüuru**

Xaricdə yaşayan individlərin Ana Vətəni ilə bərabər tarixi tale yolu keçmə qavranışı.

**Diasporal proses**

Ana vətəndən bir xalqın, etnosun yaxud millətin üzvlərinin kütləvi şəkildə məcburi olaraq başqa bir əraziyə köçürülməsi.





**Diasporizasiya**

Beynəlxalq əlaqələrin elə bir formasıdır ki, burada sosial münasibətlər, rabitə və iqtisadiyyat təşkilatlanmış və hətta institutlaşmış səviyyədə olur. Burada diasporların vətənlə əlaqələri də xüsusi yer tutur.

**Diasporlar arasında olan münasibətlər**

Diasporlar arasında olan münasibətlər aşağıdakı kateqoriyaya bölünür:

a) İqtisadi münasibətlər - istehsal, maddi və mənəvi nemətlərin bölgüsü və mübadiləsi prosesində yaranan münasibətlər. Bu halda istehsal vasitələri üzərində mülkiyyətə dair münasibətlər əsasdır;

b) Sosial münasibətlər - insanlar və insan birlikləri arasında onların cəmiyyətdə əsl mövqelərinə, əsasən, onların başqaları ilə bərabərliyinə (və ya qeyri-bərabərliyinə) əsaslanan münasibətlər;

c) Siyasi münasibətlər - insanlar, millətlər və sosial qruplar arasında hakimiyyətlə əlaqədar, yəni dövlət hakimiyyətini ələ keçirmək, əldə saxlamaq və ondan istifadə etməyə dair münasibətlər.

**Dil ailəsi**

Eyni mənşəli qohum dillərin məcmusu.

**Din**

İnsanların birləşməsi, fəaliyyəti və idarə olunmasında güclü ideologiya olmaqla yanaşı svilizasiyanın formalaşmasında böyük təsir qüvvəsinə malikdir. Diasporların dini amildən istifadə etməsi zəruri və qaçınılmaz işlərdən biridir.

Əks təqdirdə diasporların assimliyasiya olaraq, diaspor faktorunun itməsinə gətirib çıxara bilər. Hər bir din ona sitayiş edən milləti, xalqı və ya etnik qrupun monolitliyini, bütövlüyünü və milli kimliyini saxlamaqda əsas rol oynayar.

**Dini ekstremizm**

Bir sıra ölkələrdə yayılmışdır. O, müxtəlif dinlər arasında qarşıdurma və yaxud eyni dinin daxilində qarşıdurma formalarında (məsələn, Livan və Sudanda müsəlman və xristian icmaları arasında, islam fundamentalizmi və s.) təzahür edir. Dini ekstremizmdən bəzən siyasi məqsədlər üçün, hər hansı dini icmanın hakimiyyətə gətirilməsi üçün istifadə olunur (Misir və Yaxın Şərqin digər ölkələrində "müsəlman qardaşları" hərəkatı və s.). Yaponiyada "Aun sinrikio" dini təşkilatı ekstremist tədbirləri ilə ölkədə xaos, qorxu vəziyyəti yaratmağa çalışır.

**Di-pilər**

Rusiyadan üçüncü dalğanın mühacirləri. "Kommunizm qaçqınları" - adlandırılan Di-Pilər birdən-birə düşdükləri mühitə adaptasiya ola bilməyən qrup hesab edilir.

**Dissident**

Ölkənin rəsmi dövlət siyasəti və ideologiyası ilə barışmayaraq xaricə miqrasiya edən şəxs.

**Diskriminasiya**

Lat. discriminto - ayrı-seçkilik. Hər hansı şəxsi, dövlət və ya təşkilatı irqi, milli, cinsi, dövlət mənsubluğu mal varlığı, dini əlamətlərə görə sıxışdırma siyasəti diasporlar üçün çoxsaylı problemlər yaradıb. Çin, Koreya, Yapon, Hind, Yunan, İrland və s. geosiyasi diasporların formalaşması zamanı təsadüf edilib. Bu gün də bəzi müsəlman diasporlar belə siyasətə məruz qalırlar.

**Dolayı lobbiçilik**

Professional lobbi şirkətləri vasitəsilə aparılan fəaliyyət növü olmaqla onları siyasi reklamçılıq adlandırmaq olar.





**907-ci əlavə**

"Freedom Support ACT-S2532; P.L. 102-SN23" saylı qanun layihəsi, 1992-ci ildə oktyabrın 24-də ABŞ Konqresinin 102-ci sessiyasının qəbul etdiyi və keçmiş Sovetlər Birliyi Respublikalarından Azərbaycandan savayı digər respublikalara (Ermənistan, Ukrayna və s.) demokratiyanın inkişafı və bazar iqtisadiyyatına keçid məqsədilə 460 milyon dollar həcmində yardım nəzərdə tutan "Azadlığı Müdafiə Aktı" və ona 907-ci əlavə (Kerri düzəlişi) adlanır.

**Dövlət sirri**

Dövlətin təhlükəsizliyi və davamlılığı baxımından gizli tutulan, səlahiyyətli dövlət orqanları tərəfindən sirr olaraq qəbul edilən və qorunan məlumatları əhatə edir. Dövlətin təhlükəsizliyi dövlətin varlığı, yaşadılması, ölkənin milli və beynəlxalq maraqlarının qorunması, dövlətin onu təşkil etmiş vətəndaşlar qarşısında öz funksiyalarını yerinə yetirə bilməsi üçün təhlükəsiz şəraitin təmin olunmasıdır. Elə bilgilər var ki, onların müəyyən anadək açıqlanması dövlətin təhlükəsiz fəaliyyətinə ciddi zərər vura bildiyindən belə bilgilər sirr olaraq qəbul edilir.

**Dünya Azərbaycanlılarının I Qurultayı**

Azərbaycan Respublikası Prezidentinin 23 may 2001-ci il tarixli 724 saylı sərəncamı ilə 2001-ci il noyabr ayının 9-10-da Bakı şəhərində keçirilən dünya azərbaycanlılarının ali forumu. Qurultay Azərbaycan tarixində bu səbəbdən məstəsna əhəmiyyətə malik olan bir hadisə olmuşdur. I qurultayda 36 ölkədən 200-dən çox müxtəlif təşkilatı təmsil edən 406 nümayəndə və 63 qonaq iştirak etmişdir. Bu qurultayda Azərbaycan Respublikası 130-dan çox dövlət və ictimai qurumlardan, elm, təhsil, mədəniyyət və digər yaradıcı təşkilatlardan, 25 siyasi partiyadan 702 nümayəndə və 844 qonaq ilə təmsil olunmuşdur.

Yüksək səviyyədə keçirilən bu mötəbər məclisə soydaşlarımız böyük həvəslə gəlmiş, tarixi Vətən qarşısında hesabatlarla

çıxış etmişlər. Bu qurultay dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin yaranması və inkişafı sahəsində mühüm əhəmiyyətə malik olmaqla yanaşı, müstəqil Azərbaycanın ictimai-siyasi həyatında tarixi hadisəyə çevrilmişdir.

Qurultaydan sonra Azərbaycan diasporunda fəaliyyət canlanması artmağa başladı. Artıq diasporumuz beynəlxalq ictimaiyyətdə öz sözün inamla deməyi qarşısına məqsəd kimi qoyurdu. Amerika, Belçika, İngiltərə, Rusiya, Türkiyə və digər ölkələrdə soydaşlarımız Azərbaycanın haqq səsini KİV orqanları ilə yanaşı qanunverici orqanlarda müdafiə etməklə dəstəkləməyə ciddi fikir verməyə başladılar. Dünya Azərbaycanlılarının ilk Qurultayı soydaşlarımızın bü tarixə qədər mübahisə etdikləri üç ən əsas məsələyə son qoydu və bu da ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi:

1. Azərbaycanlıların konqres və digər bu tipli görüşlərdə daima mübahisə etdikləri məsələrdən biri olan "hansı bayraq altında yığışmaq" kimi söz-söhbətlərə birdəfəlik son qoyuldu. Ümmumilli liderimiz bununla Azərbaycan dövlətinin bayrağını 50 milyonluq soydaşımızın simvoluna çevirdi.

2. Azərbaycan diasporunda mövcud olan vətəndaşlıq mənsubiyyətindən irəli gələn üç mərkəzçilik anlayışına və asılılığına da (Şimali, Cənubi və Türkiyəli) son qoyuldu. İlk Qurultayın dövlət səviyyəsində keçirilməsi disporumuzun bu üç qanadının yalnız bir dövləti, Azərbaycan Respublikası olması qəbul edtirildi.

3. Rəsmi olaraq bütün dünya azərbaycanlılarının ideologiyasının nə paniranizm nə də pantürküzm deyil yalnz Azərbaycançılıq olması təsdiqləndi.

**Dünya Azərbaycanlılarının II Qurultayı**

2006-cı ilin 8 fevral tarixində ölkə başçısının fərmanı ilə həmin ilin mart ayınının 16-da Bakı şəhərində keçirilən tədbir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı ilin fevral ayın 8-də imzaladığı «Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında» Sərəncamı əsasında keçirilmişdir. Sərəncama uyğun olaraq, Təşkilat Komitəsi yaradılmış, işçi qrupları təşkil edilmiş və digər müvafiq tədbirlər görülmüşdür. Təşkilat Komitəsi tərəfindən dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan icmalarına qurultaya nümayəndələr seçmək üçün müraciət olunmuş, tədbirdə iştirak edəcək rəsmi qonaqların siyahısı dəqiqləşdirilmişdir.

Dünya azərbaycanlılarının II qurultayına dünyanın müxtəlif ölkələrindən ümumilikdə 1231 nümayəndə seçilmişdir. Qurultayda 49 xarici ölkədən 593 nümayəndə və 388 nəfər qonaq iştirak etmişdir.

Qurultayda Azərbaycan Respublikasının 27 dövlət və hökumət qurumlarından, ictimai təşkilatlardan, elm, təhsil, mədəniyyət müəssisələri və yaradıcı təşkilatlardan, siyasi partiyalardan 638 nümayəndə və 625 qonaq ilə təmsil olunmuşdur.

Qurultay nümayəndələri və qonaqlar yaşadıqları ölkələrin ictimai-siyasi, iqtisadi və mədəni həyatının müxtəlif sahələrində fəal iştirak edən, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə daim dəstək verən tanınmış alimlər və ziyalılar, iş adamları, müxtəlif ölkələrin parlament üzvləri, siyasi və ictimai xadimlər, bir sözlə Azərbaycanı sevən, onun inkişafını və tərəqqisini arzulayan insanlar idi. Qurultayda xarici ölkələrin - Türkiyə, Latviya, Estoniya, Litva, Ukrayna, Moldova, Belçika, Avstriya, İsveçrə, Kanada ali qanunvericilik orqanlarının üzvlərindən ibarət 64 nəfər qonaq qismində iştirak etmişlər.

Dünya Azərbaycanlılarının II Qurultayının Qətnaməsi, Dünya azərbaycanlılarının II qurultayı nümayəndələrinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciəti, Dünya Azərbaycanlılarının II Qurultayı nümayəndələrinin dünya azərbaycanlılarına müraciəti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına müraciəti, BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri Təşkilatına (YUNESKO)

müraciəti, Azərbaycan və türk diaspor təşkilatlarına müraciəti qəbul olunmuşdur.

Qurultay 109 nəfərdən ibarət Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının və 23 nəfərdən ibarət idarə heyətinin yeni tərkibini təsdiqləmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yekdilliklə Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının sədri seçilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Dünya Azərbaycanlılarının həmrəyliyi sahəsindəki xidmətlərinə görə bir qrup diaspor fəalı «Şöhrət» Ordeni və «Tərəqqi» medalı ilə təltif edilmişdir.

**Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası (DAƏŞ)**

Dünyanın müxtəlif bölgələrində məskunlaşmış azərbaycanlıların təşkilatlanması, onların hüquqlarının müdafiəsi, milli-mənəvi dəyərlərin birgə qorunması məqsədilə yaradılmış xüsusi əlaqələndirmə mərkəzidir. Vacib və komponent bir qurum olan DAƏŞ 2001-ci ildə Bakı şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayında yaradılmışdır.

Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası dünya azərbaycanlılarının ümumi məqsədlər ətrafında birləşməsi, təşkilatlanması, məskunlaşdıqları ölkələrdə icmalar, qurumlar və cəmiyyətlər şəklində bir-biri ilə sıx əlaqədə olması, həmin ölkələrin ictimai-siyasi həyatında fəal iştirak etməsi istiqamətində işlər görməyi qarşısına məqsəd qoyub.

2006-cı ilin mart ayında Bakı şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının II Qurultayında Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının yeni tərkibi seçilmişdir. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Əlaqələndirmə Şurasının sədri seçilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti Mahmud Kərimov Əlaqələndirmə Şurası İdarə Heyətinin sədri seçilmişdir. (bax: Əlavə 7)





Qurultayın tövsiyyələrinə uyğun olaraq, İdarə Heyətinin üzvlərinin yekdil rəyi əsasında Tomris Azəri (Amerika Azərbaycanlıları Cəmiyyətinin sədri), Məmmədbağır Əliyev (Ümumrusiya Azərbaycan Konqresinin Prezidenti), Yücel Artantaş (Türkiyə Böyük Millət Məclisinin deputatı) və Başar Kömür (Avropa Azərbaycanlıları Konqresinin İdarə Heyətinin üzvü) Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının İdarə Heyəti sədrinin müavinləri vəzifələrinə seçilmişlər. Bu qərarın qəbulu zamanı Azərbaycan diasporunun məskunlaşma coğrafiyası və seçilmiş şəxslərin xaricdə yaşayan azərbaycanlılar arasında nüfuzu, onların fərdi bacarıq və keyfiyyətləri, Azərbaycan dövlətçiliyinə bağlılığı kimi mühüm amillər nəzərə alınmışdır.

Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının fəaliyyətinin operativliyini təmin etmək, üzvlər arasında işgüzar əlaqələri inkişaf etdirmək məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin inzibati binasında Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının İdarə Heyətinin aparatı üçün ofis ayrılmışdır.

**Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü**

1989-cu ildə İran-Azərbaycan sərhəddində tikanlı məftillərin sökülməsi ilə başlanmı hərəkat Azərbaycan xalqının birliyinin və həmrəyliyinin təcəssümü kimi tarixə düşdü. Aksiyalar zamanı sərhəd boyunca tikanlı məftillər yerli sakinlər tərəfindən sökülməyə və yandırılmağa başladı. O zamankı SSRİ rəhbərliyi bu aksiyaya çox kəskin reaksiya verdi və iştirakçılara qarşı kütləvi həbslər həyata keçirildi. Lakin buna baxmayaraq sərhəd hərəkatı adını almış bu aksiyalar Azərbaycan xalqının tarixi yaddaşında dərin bir iz buraxdı.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci ilin dekabr ayının 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında atıldı. Sessiyada Milli Həmrəylik və Birlik Gününün təsis olunması ilə bağlı qərar qəbul edildi. Qərara «31 Dekabr Milli Həmrəylik Günü» kimi hər il bayram edilməsini

nəzərdə tutan müddəa ilə yanaşı, bu günün bütün Azərbaycan ərazisində qeyd edilməsi barədə Respublika Ali Sovetinə təklif verilməsinin zəruriliyini bildirən xüsusi bənd də salındı.

**Dünya Azərbaycanlı Ziyalılarının Forumu**

2006-cı ilin iyun ayında Türkiyənin Antalya şəhərində Dünya Azərbaycanlı Ziyalılarının Forumu keçirilmişdir. Forumda dünyanın 40-a yaxın ölkəsindən 200-dən çox nümayəndə iştirak etmişdir. Forumun keçirilməsinin əsas məqsədi dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı ziyalıları – mədəniyyət və incəsənət xadimlərini bir araya gətirmək, onları diaspor işinə cəlb etmək olmuşdur. Tədbirdə Azərbaycan və Türkiyənin siyasət və dövlət adamları, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan və Türk diaspor təşkilatlarının rəhbərləri, Azərbaycanın aparıcı qəzet, televiziya şirkətlərinin rəhbər və nümayəndələri iştirak etmişlər.

Forumda Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri cənab Əli Həsənov, Mədəniyyət və Turizm naziri cənab Əbülfəz Qarayev, Azərbaycan, Türkiyə, Estoniya və Latviya Parlamentlərinin üzvləri, Litva Prezidentinin müşaviri xanım Qalina Kobetskayte və Qırğızıstan Respublikasının sabiq Dövlət katibi cənab Dastan Sarıqulov iştirak etmişlər.

Qeyd edək ki, forumda iştirak edənlərdən 23 nəfəri bəstəkar, 22 nəfəri rəssam və heykəltaraş, 11 nəfəri musiqiçi, 18 nəfəri kinorejissor, ssenarist, yaçıçı və şair, 13 nəfəri elm və mədəniyyət xadimi, 18 nəfəri media nümayəndəsi, 11 nəfəri aktyor olmuşdur. Forumun işinə dünyanın müxtəlif ölkələrindən 21 nəfər dövlət və hökumət nümayəndəsi dəvət edilmişdir. Tədbirə dünyanın 17 ölkəsindən Azərbaycan və türk diaspor təşkilatlarının 51 nəfər nümayəndəsi qatılmışdır.

Dünya Azərbaycanlı Ziyalılarının Forumu çərçivəsində tədbirdə iştirak edən azərbaycanlı ziyalılar, Azərbaycan və türk icmalarının rəhbərləri ilə bir sıra fərdi görüşlər də keçirilmişdir.





Bu görüşlərin əsas məqsədi azərbaycanlı ziyalıların, elm və mədəniyyət xadimlərinin diaspor quruculuğu işinə münasibətini, onların bu prosesdə iştirak imkanlarını müəyyənləşdirməkdən ibarət olmuşdur. Azərbaycanlı ziyalıların böyük əksəriyyəti Azərbaycan Respublikasının diaspor quruculuğu sahəsində həyata keçirdiyi işləri təqdir etdiklərini bildirmişlər.

Dünya Azərbaycanlı Ziyalılarının Forumu dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinə bağlılığını, onların daim dövlətin diqqət mərkəzində olduğunu nümayiş etdirmişdir. Bu forum eyni zamanda azərbaycanlı ziyalıların dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq Azərbaycan Respublikasının Prezidenti ətrafında sıx birləşdiyinin təsdiqi olmuşdur.

Forumun sonunda Azərbaycan Respublikası Prezidentinə Müraciət və Forum iştirakçılarının bəyanatı qəbul edilmişdir.

**Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumu**

Mart ayının 9-da Bakı şəhərində keçirilmiş Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumu bütün Türkdilli xalqların həyatında mühüm əhəmiyyətə malik hadisə olmuşdur. Forum Azərbaycan Respublikası Prezidentinin Türk dünyasının birliyinə verdiyi önəmin parlaq təzahürü kimi tarixə düşmüşdür.

Forumda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Türkiyə Respublikasının Baş naziri cənab Rəcəb Tayyib Ərdoğan və Şimali Kipr türk xalqının lideri cənab Mehmet Əli Tələtin iştirakı tədbirin əhəmiyyətini daha da yüksəklərə qaldırmış, onun bütün Türk xalqları üçün mühüm önəmə malik olduğunu təsdiqləyən amil olmuşdur. Tədbirə ümumilikdə 48 ölkədən 513 nəfər qatılmışdır. Onlardan 173-ü Azərbaycan, 140-ı türk, 14-ü Ahısxa, 23-ü İraq diaspor təşkilatlarının, 5-i isə Kipr türklərinin nümayəndələri olmuşlar. Türkiyə, Almaniya, ABŞ, Rusiya, Ukrayna, İsveç, Niderland,

Rumıniya, Norveç və Litva Forumda ən çox nümayəndə heyəti ilə təmsil olunmuşlar. Forumda Azərbaycan və Türkiyə ilə yanaşı, Latviya, Estoniya, Litva, Ukrayna, Lüksemburq, Bolqarıstan, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın dövlət və hökumət nümayəndələri, parlament üzvləri iştirak etmişlər.

Forumda aparılan müzakirələr zamanı Azərbaycan və Türkiyə diaspor təşkilatlarının birgə fəaliyyət Strategiyası, Bakı Bəyannaməsi, türkdilli xalqlara Müraciət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət nümayəndələrinə Müraciət, 1915-ci il hadisələri ələ əlaqədar erməni iddiaları ilə bağlı qərar qəbul edən ölkələrə etiraz bəyanatı qəbul edilmişdir.

Forumun yekun sənədi olan Bakı Bəyannaməsi Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyasından irəli gələn məsələlərin həlli məqsədilə həyata keçiriləcək tədbirlərlə bağlı tövsiyələri özündə əks etdirir. Sənəddə Azərbaycan və Türkiyənin, habelə bütün Türk dünyasının milli maraqlarının müdafiəsi, xarici ölkələrdə yaşayan azərbaycanlıların və türklərin ictimai-siyasi fəallığının artırılması, onların təşkilatlanması prosesinə dəstək verilməsi, insan hüquq və azadlıqlarının təmin olunması, lobbi quruculuğu sahəsində əməkdaşlığın inkişafı, azərbaycanlı və türk iş adamlarının forumlarının keçirilməsi, xarici sərmayəçilərin Azərbaycan və Türkiyəyə investisiya qoymağa təşviq edilməsi ilə bağlı məsələlər öz əksini tapmışdır.

Forumda aparılmış müzakirələrin yekunu olaraq Azərbaycan və Türk diaspor təşkilatlarının Koordinasiya Şurası yaradılmışdır. Koordinasiya Şurasının üzvləri xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı və türk icmalarının rəhbərləri arasından seçilmişdir.

**Dünya erməni konqresləri**

Konqreslərin məramnamələrində "ermənilər arasında birlik və bərabərliyin saxlanması" şüarı vurğulansa da, əsas məqsəd





"erməni terror təşkilatlarını bir mərkəz altında birləşdirərək güc birliyi yaratmaq" olub. Terrorçu Hnçak və Daşnaksütyun partiyaları tərəfindən təşkil edilən bu görüşlər erməni kilsəsi və Türkiyəyə qarşı ikili standartlardan yanaşan dövlətlər tərəfindən dəstəklənir.

Bu gün erməni qurumlarının dünya çapında yürütdükləri antiazərbaycan və antitürkiyə fəaliyyətinin kökünə qayıtmaq üçün onların bəziləri üzərində dayanaq.

Paris konqresi

1979-cu il sentyabrın 3-6-da Fransa paytaxtında keçirilmiş birinci konqresdə terrorçu ASALA təşkilatı təşəbbüskar kimi çıxış edirdi. Paris konqresində əsas iştirakçı təşkilatlar ASALA ilə bağlılığı olan terror təşkilatları və terrorizmi dəstəkləyən erməni varlı təbəqəsi idi. Əsas məqsədi dünya ermənilərini bir fikir ətrafında, yəni terrorizm bayrağı altında birləşdirmək olan konqresdə alınan qərarlardan bəzi nümunələr aşağıdakılardır:

- Panermənizm hərəkatını inkişaf etdirmək və diasporda "ermənilik" ideologiyasını təbliğ etmək.
- Sovetlər Birliyində yaşayan ermənilərə dəstək və onların "ümumerməni işi"ndə iştirakını təmin etmək.
- Diasporda erməni kilsəsinin mövqeyini gücləndirmək.
- Dünya erməni bankını yaratmaq.
- Türkiyədən torpaq və təzminat tələb etmək.
- Diasporda təbliğat işinə təkan vermək.

Konqresin bu və adları sadalanmayan digər qərarlarından sonra dünyada erməni terroru daha da şiddətləndi. ASALA erməni diasporunda aparıcı mövqe əldə etdi. Onun başçılığı ilə diasporda külli miqdarda pul toplanışı kampaniyası keçirildi. Əldə olunan bütün vəsait çirkin niyyətlərin həyata keçirilməsinə sərf edildi. Şantaj, böhtan, terror kütləvi hal idi. Dünya ermənilərinin qorxu və təzyiq altında "ümumerməni işi"ndə birləşməsi prosesi başlandı.

Lozanna konqresi

Beynəlxalq ictimaiyyətin erməni terrorizminin əleyhinə çıxdığını görən erməni liderləri ikinci görüşü 1982-cü ildə İsveçrənin Lozanna şəhərində keçirməyi qərara aldı. Lakin bu konqresin gedişində dünya erməniləri içərisində terrorizmin kütləvi hal alması səbəbincə narazılıq özünü qabarıq şəkildə göstərdi. Diasporda, xüsusilə də ASALA əleyhinə açıq çıxışlar tez-tez səsləndiyindən təşkilat konqresdə iştirakdan boyun qaçırdı. Terror və zorakılıq tərəfdarı olanların səs sayı azaldı. Ancaq bunlara baxmayaraq, onların əleyhinə ciddi bir addım atılmadı.

Terror təşkilatlarının siyasi qurumlara çevrilməsi təklif edildi. Daşnaksütyun və ASALA-da xüsusi bölmələr yaradıldı. Konqresin iştirakçıları arasında fikir ayrılıqlarının, fərqli baxışların olmasına baxmayaraq, qərarlar sonda qəbul edildi. Qərarların bir neçə maddəsinə nəzər salaq: "Ümümerməni konstitusiyası"nı işləyib hazırlamaq.

- Xüsusi bir işçi qrupun yaradılması və qərarların icrasına nəzarət.
- Dünya ölkələrində lobbi fəaliyyətini gücləndirmək.
- Növbəti erməni konqreslərini dünya yəhudi konqreslərinə bənzər, onun gücünə malik bir şəkildə keçirmək.
- Adları açıqlanmayan "digər qərarlar".

Lozanna konqresi erməni diasporunda fikir ayrılığına son verə bilmədi. Bu səbəbdən konqresin qərarlarının çox hissəsi icra edilmədi. Xüsusilə Qərb və Şərq erməniləri arasındakı narazılıq səbəbilə kilsənin məsləhətlərinə belə əhəmiyyət verilmədi.

Sevr konqresi

Yaranmış vəziyyətdən narahat olan erməni kilsəsinin təşəbbüsü ilə İsveçrədəki Sevr sarayında ikinci konqres çağırıldı. 7-13 iyul 1985-ci il tarixdə toplanan bu konqresin başlıca məqsədi dünya erməniləri arasında narazılığı aradan qaldırmaq və "Ümumerməni konstitusiyası"nı qəbul etmək idi. Terror təşkilatlarından yalnız Daşnaksütyunun iştirak etdiyi bu konqresi hədələyən ASALA-nın iştirakçılar arasında tərəfdarı çox idi.

Ancaq "siyasi oyun" səbəbi ilə onlar terrorizmin "əleyhinə" çıxaraq daha "effektli" yollar axtarılması təklifini irəli sürdülər. Konqresin gedişinə mühüm söz sahibi, əlbəttə, erməni kilsəsi idi və onun təklifi ilə qəbul olunan qərarlardan bəzi nümunələr:

- Lozanna konqresinin qərarları ləğv olunur.
- Türkiyə əleyhinə mübarizə davam etdirilir.
- Diasporda "Tək ermənilik, tək mübarizə, tək səs!" şüarı təbliğ olunur.
- Türkiyəyə qarşı ABŞ, Fransa, Böyük Britaniya, Livan və digər dövlətlərdə hərtərəfli təzyiq kampaniyasına başlamaq və bu istiqamətdə həmin dövlətlərin dəstəyini əldə etmək.
- Erməni soyqırımının tanınması üçün lobbiçilik fəaliyyəti.
- Sovetlər Birliyinə ermənilərə göstərdiyi kömək və dəstəyə görə təşəkkür elan edilməsi (!).
- "Ümumerməni konstitusiyası"nın qəbul olunması.

Sevr konqresində qəbul olunan qərarların bütün sahələri əhatə etməsinə baxmayaraq, erməni diasporu içərisindəki narazılıq aradan götürülmədi. Hətta müəllifi rahib Cames Karizyanın olduğu "konstitusiya" belə diaspordaxili çəkişmələrə son qoymadı.

Sevr konqresində xüsusi olaraq ümumerməni konstitusiyasının qəbul olunması erməni işində mühüm addım atdı. Konstitusiyada "Ermənilər arasında birlik və bərabərliyə nail olmaq", "Erməni inqilabçılarını (terrorçularını - red) bir mərkəzdə toplamaq", "İqtisadi, siyasi tələblərin ümummərkəzdən istənilməsi və s. ideyalar öz əksini tapmışdı. Bu konstitusiyada əlavə olaraq 4 bənd diqqəti cəlb edir.

a) Dağınıq halda olan ermənilərin birləşdirilməsi.

b) Konqreslərin qərarlarının dünyada həyata keçirtmək.

c) Türkiyə "işğalı" altında olan "erməni torpaqlarını" azad etmək istiqamətində bütün vasitələrdən istifadə.

d) Ermənilərin vətənlərinə dönməsini təmin etmək.

Sovetlər Birliyində yaşayan ermənilər bəzi qərarlara etiraz edərək onların "müstəqillik" fikirlərinin dəstəklənməsini tələb etdilər. Elə bu səbəbdən də 1988-ci ildən Dağlıq Qarabağ ətrafında başlanan proseslərdə xüsusi rol oynadıqlarını istisna etmək olmaz. 1988-ci ildən Azərbaycana qarşı ərazi iddiası sürən işğalçı ermənilərin bizim torpaqlar hesabına 1991-ci ildə müstəqillik elan etməsində erməni diasporu əlindən gələn köməyi göstərmişdi.

Yarandığı gündən Qərb ölkələrindəki erməni diasporunun nəzarəti və təsiri altına düşən Ermənistan qonşu Azərbaycana qarşı işğalçı müharibəyə başlayaraq torpaqlarımızın 20 faizini ələ keçirdi. Hazırda beynəlxalq hüququn bütün normalarını pozan Ermənistanın işğalçı siyasətinə hüquqi don geyindirən erməni diasporunun növbəti konqresi 1999-cu ilin sentyabrında İrəvanda keçirildi.

Birinci İrəvan konqresi

Ermənistan Xarici İşlər Nazirliyinin Diasporla Əlaqələr Departamentinin təşəbbüsü ilə keçirilən bu konqresdə 53 ölkədən 1200 erməni iştirak edirdi. Siyasi bioqrafiyası dinc insanlara qarşı qanlı terror əməlləri ilə zəngin olan Robert Köçəryanın başçılığı ilə keçirilən bu konqresi təşkil etməklə erməni diasporu Levon Ter-Petrosyan dönəmində Ermənistanla diaspor arasında pozulmuş əlaqələri bərpa etmək məqsədi güdürdü. Petrosyanın "Hər bir ölkədə lobbiçiliyin öz hədd-hüdudu var" sözləri yəqin çoxlarının yadındadır.

Dünya ermənilərinin inteqrasiyasında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilən konqresdə bir neçə qərar qəbul olunmuşdu:

- İnformasiya mübadiləsi, erməni diasporunun əsas silahı olan "təbliğat" mübarizəsini gücləndirmək.





- İqtisadi əməkdaşlıq.
- Mədəni əməkdaşlıq.
- Torpaq məsələsi.

Bu bənd ətrafında çoxlu çıxışlar edən diaspor nümayəndələrinin sonda qəbul etdikləri iki yekun bəyannamədən biri "Dağlıq Qarabağın gələcəyi" adlanır. İşğal etdikləri torpaqları mənimsəmək sarıdan öz çirkin məqsədlərini həyata keçirmək üçün erməni diasporu arasındakı narazılıqların aradan götürülməsi üçün cəhdlər də edildi. Lakin Qərb və Rusiya erməni diasporu arasındakı narazılığa son qoyulmadı. Ermənistana nəzarət üstündə başlanan çəkişmə ikinci İrəvan konqresində də müzakirə olunmuşdu.

İkinci İrəvan konqresi

27-28 may 2002-ci ildə keçirilən ikinci İrəvan konqresində 48 ölkədən 3 min nümayəndə iştirak edirdi. Erməni diasporunda olan çəkişmələri dayandırmaq üçün konqresdə iştirak edən erməni katolikosu II Qaregin və Robert Köçəryanın cəhdləri alınmadı. "Ermənistan bütün dünya ermənilərinin vətənidir" başlığı altında keçirilən bu konqresdə bir sıra qərarlar qəbul olundu.

- Ermənistanda məktəblərin kompüterləşməsi.
- Erməni soyqırım araşdırmaları mərkəzinin yaradılması.
- Ermənistan "virtual" universitetini yaratmaq.
- Ermənistan diaspor muzeyini yaratmaq.
- Diaspor və Ermənistan arasında əlaqələri inkişaf etdirmək.

Bunlar, əlbəttə, böyük maliyyə vəsaitləri tələb edir və imkanların get-gedə daralması ucbatından bu göstərilən istiqamətlərdə hələlik ciddi bir iş görülməyib. Amma yaddan çıxarmaq olmaz ki, həmin konqresdə bir sıra erməni diaspor nümayəndələri "yenidən terrorçuluğa başlamağın vacibliyi"ni xüsusi vurğulamışdılar.

"Ermənistan bütün dünya ermənilərinin vətənidir" şuarı konqresin əsas şüarı idi. Keçirilən konqreslər erməni diasporunun hansı istiqamətdə fəaliyyət göstərdiyindən xəbər verir, bütün bunlar isə mütləq diqqət mərkəzində saxlanılmalıdır.

Erməni diasporu 1965-ci ildən etibarən Türkiyə və sonradan Azərbaycan əleyhinə mübarizəni 3 əsas istiqamətdə aparır:

1. Lobbiçilik.
2. Mədəni, elmi və informasiya sahəsində təbliğat.
3. Terror və təcavüzkar müharibə.





## -E-

### Ekitsika

İnsanların rasional şəkildə vətəndaşı olduqları ölkələrdən xaricə axınını və yayılmasını öyrənən elm. Bu zaman milli-etnik deyil, sosial-iqtisadi amillər nəzərə alınır.

### Ekstremizm

Ekstremizm fransızca «extremisme», latınca «extremus» sözlərindən olub qatı, ifrat, son mənalarını verir. O, siyasi radikalizmin ən ifrat formasını təşkil edir. Yuxarıda qəbul etdiyimiz bölgüyə uyğun gəlmədiyinə, özünün bir neçə istiqamətə bölündüyünü nəzərə olaraq onu ayrıca bölmə ilə veririk.

Siyasi ekstremizm ənənəvi olaraq sağ və sol istiqamətlərə bölünür. Sol ekstremistlər adətən marksizm-leninizm ideyalarına və digər sol baxışlara arxalanırlar. Özlərini «proletariatın, zəhmətkeş kütlələrin işi» uğrunda ən ardıcıl mübarizlər adlandırırlar. Onlar kapitalizmi sosial ədalətsizliyə, şəxsiyyətin sıxışdırılmasına, istismara görə, sosializmi isə bürokratizmə, sinfi mübarizənin prinsiplərinin yaddan çıxarılmasına və s. görə tənqid edirlər.

Sol ekstremizmi Almaniyada «Qırmızı ordu fraksiyası», İtaliyada «Qırmızı briqada», Peruda «Santen deroluminoso», Kambocada polpotçular və b. təmsil edirlər. Onlardan «Qırmızı ordu fraksiyası» və «Qırmızı briqada» xüsusilə fəaldırlar. Qırmızı Ordu Fraksiyası kommunist rejiminin süqutundan sonra fəaliyyətinin əsas yönümünü Almaniyanın Avropaya inteqrasiya etməsinin qarşısını almağa istiqamətləndirmişdir. Bu kursu dəstəkləyən adamlara qarşı müxtəlif mübarizə formalarından istifadə edirlər. 1993-cü ildə iri partlayış aktı keçiriblər. Ümumiyyətlə, 1993-cü il bir sıra ekstremist qrupların fəallaşması

ilə xarakterik olmuşdur. Məşhur «Qırmızı briqada» da xeyli fasilədən sonra həmin ildə öz fəaliyyətini bərpa edə bilmişdir. Bu qrupun üzvləri 1989-cu il kütləvi həbslərindən sonra heç bir ciddi əməliyyat həyata keçirə bilməmişdilər.

Siyasi ekstremizmin sağ qanadı burjua cəmiyyətinin nöqsanlarını, narkomaniya, eqoizm, əxlaq düşgünlüyü, «qayda-qanunun» olmamasını ifrat mühafizəkar mövqedən tənqid edir. Bu qanada İtaliya sosial hərəkatını, Almaniya nasional-demokratik partiyasını, Latın Amerikasındakı «ölüm eskadronlarını» və s. aid etmək olar.

Həm sağ, həm də sol ekstremizm üçün ən xarakterik cəhət onların antikommunizm mövqeyində dayanmalarından ibarətdir.

Ekstremizmin çoxsaylı formaları içərisində millətçi, dini və ekoloji istiqamətləri nəzərdən keçirək.

Millətçi ekstremizm öz millətinin maraqlarını müdafiə etmək mövqeyindən çıxış edərək, digər millət və milli qrupların mənafe və hüquqlarını tanımaqdan imtina edir. O, separatizm ilə üzvü surətdə bağlıdır və çoxmillətli dövlətlərin dağılmasına yönəlmişdir. Hindistanda Xalistan uğrunda mübarizə aparan qruplaşmalar,Türkiyədə Kürd Fəhlə partiyası, İspaniyada Bask Millətçilərinin hərəkatı, Böyük Britaniyada İrlandiya Respublikasının Müvəqqəti Ordusu və oradakı yarımhərbi birləşmələr və s. təşkilatlar bu qəbildəndirlər.

Millətçi ekstremizmi təmsil edən və son illər başqalarına nisbətən daha çox fəallıq göstərən bask millətçilərinin ETA («Vətən və azadlıq») təşkilatı hələ 60-cı illərdə İspaniyada Franko rejiminə qarşı mübarizə aparmaq üçün yaradılmışdı. Bu təşkilatın üzvləri həmçinin Fransa, Belçika, İsveç, Avstriya və başqa ölkələrdə fəaliyyət göstərirlər. Bask millətçiləri boynunun ardından iki güllə ilə öz qurbanlarını öldürmək, bomba partlayışları, 1997-ci ilin yayından etibarən isə İspaniyanın şimal rayonlarında küçə iğtişaşları təşkil etmək kimi metodlardan istifadə edirlər. Onlar adamların oğurlanması və «inqilab vergisi» tələb etməyə də tez-tez əl atırlar. Bu məqsədlə onlar 1970-ci ildən 1997-ci ilədək 77 adam oğurlamışlar. Bask millətçilərinin «Erri Batasuna» adlı yarımleqal siyasi partiyası da vardır. 1997-ci ilin iyul ayında ETA təşkilatının hakim Konservativ Xalq partiyasının üzvlərindən birinə qarşı həyata keçirdiyi növbəti terror aktı bütün dünyada, o cümlədən İspaniyada böyük etiraz dalğasına səbəb oldu. Bu hadisədən sonra İspaniyada onun mövqeyi xeyli zəifləmişdir.

Dini ekstremizm bir sıra ölkələrdə yayılmışdır. O, müxtəlif dinlər arasında qarşıdurma və yaxud eyni dinin daxilində qarşıdurma formalarında təzahür edir.

Ekoloji ekstremizm ekoloji problemlərin kəskinləşməsi, ətraf mühitin çirkləndirilməsi ilə bağlı meydana gəlmişdir. Bir sıra təşkilatlar bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirir, mübarizə aparırlar. Lakin bu, ekstremistləri qane etmir. Bir sıra qrup və hərəkatlar meydana gəlmişdir ki, onlar ümumiyyətlə, elmi-texniki tərəqqiyə qarşı çıxış edir, bəzi istehsal sahələrinin, müəssisələrin dərhal bağlanmasını tələb edirlər. Çox vaxt onların təşəbbüsü ilə iğtişaşlar törədilir.

**Ekzo diaspor**

Heç bir zaman vətənində yaşamayan insanlar anlayışı deməkdir.

**Ekzoetnonim**

Bir etnosun digər xalqlar tərəfindən adlandırılması. Ekzoetnonim tamamilə etnosların özlərini adlandırmaqlarından fərqlənir. Belə ki, fransızlar almanları aleman, italyanlar tedesko, ingilislər comen, serblər isə şvablar adlandırırlar.

**Ekzoqamiya**

*(yun.exo-kənar, gamus-nigah)*

Diaspor və yaxud icma arasında bioloji yaxınlaşmanı qadağan edən ənənə. Yaranması barədə 3 əsas mülahizə var:

- Qan qohumları arasında olan nigah və yaxınlığın qadağan edilməsi;
- Kollektiv, icma və diaspor arasında yaxınlıq edib, təbii bioloji yolla artmaq;
- İcma daxilində sosial status alınmasına edilən cəhd.

**Ellinlər**

Yunanların özlərinə verdikləri ad. Çox zaman yunan diasporu Ellin diasporu kimi tanınır.

**Emiqrantlar (mühacirlər)**

Siyasi, iqtisadi, dini və digər motivlərlə əlaqədar öz ölkələrini könüllü və ya məcburi tərk edib başqa ölkələrdə məskunlaşmış vətəndaşlardır. Mühacirət mühacirin əvvəlki vətəndaşlığının avtomatik itirilməsinə səbəb olmur. Bu məsələ onların vətəndaşları olduqları ölkənin qanunvericiliyi ilə həll edilir. Adətən, siyasi mühacirlərə sığınacaq hüququ verilir. Dövlət reinteqrasiya, yəni güzəştli şəkildə vətəndaşlığı əldə etmək nəticəsində itirilmiş əvvəlki vətəndaşlığı bərpa edə bilər. Əvvəlki vətəndaşlığı itirmiş, lakin yeni vətəndaşlıq qazanmamış mühacirlərin vəziyyəti nisbətən başqa şəkildə olur.

Mühacirin köçdüyü ölkənin vətəndaşlığını alması məsələsi həmin ölkənin qanunvericiliyi əsasında həyata keçirilir.

**Endo diaspor**

Ölkədən köç etmiş insanları bildirir. Endo diaspor ilk vaxtlar mühacirət edən və ölkəsilə əlaqəni itirməyən insanların nəvə-nəticələridir.

**Endoqamiya**

Ancaq öz qohumundan, tayfasından, ictimai qrupu içərisindən evlənmək adəti.





**Erməni Diasporu**

Tarixi sənədləri də araşdırsaq qədim erməni dili kimi təqdim olunan Qraporda və müasir erməni dili Anixaroparda arasında da oxşarlığın olmadığını görmək olar. Anixaroparda V əsrdən etibarən türk dili və folklorunun mənimsənilməsinin nəticəsində yaranıb. Saxta erməni konsepsiyasına görə tarixdə onların dənizdən-dənizə uzanan "böyük əraziləri" olmuşdur. Onlar dünyanın "ən sivilizasiyası" xalqı olmuşdular. Məhz bu səbəbdən də Samxetiya-haykların ölkəsində erasi (gürcü), barbar türklər cücəribsə, bu onların günahı ucbatından olub. Buna görə də erasilər və türklər onlarca "nəyə" sahə tutublar".

Erməni diasporunun tarixi formalaşma və mühacirət prosesində onların xristian dinini qəbul etməsi böyük rol oynadı. Buna qədər atəşpərəst olan emrənilər farslar kimi eyni dinə etiqad edir, mədəni baxımdan da onlara bağlı idilər.

Erməni və farslar arasında münaqişələr baş verdiyindən Ərdəşir və Xosrov erməniləri zamanla öz ərazilərindən uzaqlaşdıraraq başqa yerə sürgün etməli oldular. Xristianlığın qəbulundan sonra Bizans tərkibində yaşayan ermənilər də məhzəb baxımdan bizanslılarla münaqişədə idilər.

Səlcuqlar tərəfindən ermənilər nəzarətə götürüləndən sonra onlar millət kimi yenidən dirçəldilər. Bizanslılar tərəfindən tam assimliasiya olunan ermənilərin din və dil baxımından özlərini qoruyub saxlamasında səlcuqların rolu böyük olmuşdur. Bundan sonra erməni Apostal kilsəsi (həmçinin erməni ortodoksal kilsəsi kimi də tanınır) erməni milləti arasında milli kimliklərini qorunub saxlanılması ideologiyasını təbliğ eləməyə başladı.

Diasporun maliyyə, təbliğat və hərtərəfli dəstəklənməsi işinə baxan kilsə ümumdünya erməni hərəkatına istiqamət verir. Ermənistanın daxili və xarici siyasətinin nəzarətdə saxlamaqla terrorizm, lobbiçilik, ideoloji işləri dəstəkləyir. Diasporun bütün tədbirlərinə kilsə sədrliyi özü edir.

Ermənilərdə diqqətə alınan ikinci böyük məsələ onların dünyaya səpələnərək yaşamasıdır. Armenian hay da- "hər yerdə

ermәni var" yazan Vöhram Mavyanın əsərində ermənilərin məskunlaşdıqları ölkələrdə yaşam tərzinin erməni işinə xidmət etdiyini qeyd edir.

Yəhudi-yəhudidir, qaraçı-qaraçıdır, erməni isə tam erməni deyil. Onlar assimilyasiya olunur, başqa millətlərdən xüsusiyyətlər mənimsəyirlər. Əsasən aparıcı xalqlar olan türklər, ərəblər, yunan, yəhudilərlə qarışıq nikaha girən ermənilərin övladları türk, yunan, yəhudi, fransız, ərəb millətləri soyadların, adların daşımalarına, başqa mühitdə böyüməlerinə rəğmən öz erməni xislətini unutmurlar. Buna onların beşikdə ikən beyinlərinin doldurulması kömək edir.

Ermənilərdə diqqət çəkən daha bir məqam onların ortaq uğurlar və ortaq əzablar ətrafında sıx birləşməsidir. Ermənilər özləri yaxşı bilirlər ki, onların tarixi yalan üzərində qurulub və erməni mədəniyyəti, ədəbiyyatı, dili və digər xüsusiyyətlər oğurluqdur. Bütün bunlara baxmayaraq, onlar "oğurluqlarını" ustalıqla gizlədir və ümummilli məsələlərdə səfərbər olurlar.

Atəşpərəstlik dövründə farsların, xristianlıq illərində bizanslılar və hal-hazırda digər xristian məzhəbləri tərəfindən yaxına buraxılmayan ermənilər hər vasitə ilə özlərini müdafiə edirlər. 1915-ci il hadisələrini isə ümumerməni işinin ən önəmli məsələsinə çevirən ermənilər uydurma soyqırımı tanıdılması və Türkiyənin təzminat ödəməyə məcbur edilməsin ölüm-qalım məsələsinə çevriliblər. Bu gün erməni özünü bu məsələdə erməni kimi hiss edir. Əgər onların bütün tələbləri həyata keçərsə onlar sadəcə olaraq bir millət kimi əriyib digər millətlər içərisində itəcəklər. Məhz bu səbəbdən də erməni ideoloqları bu məsələdə ehtiyatlı olurlar və prosesləri çox zaman özləri əngəlləyirlər.

"Erməni soyqırımı" onların birliyinin əsas səbəbidir və birliyin qorunması üçün isə bu məsələ daim qüvvədə saxlanılır, lakin tanınması üçün isə qəti addımlar atılmır.

1878-ci ildən başlayaraq Osmanlı imperiyasının zəifləməsi nəticəsində ermənilər buradan mühacirət etməyə başladılar. Qalan ermənilər isə rus və ingilis təbliğatının nəticəsi olaraq





Osmanlı dövlətindən ərazi tələb etməyə başladılar. Bu işdə isə əsas rolu Rusiyada, İngiltərədə, Fransada yaşayan ermənilər oynayırdılar. Məhz erməni diasporunun fəaliyyəti nəticəsində "xristian bacı və qardaşların köməyinə ehtiyacı olan kiçik qardaş imicini iri dövlətlərdə formalaşdıra bildilər.

Ermənilərin məskunlaşdıqları Amerika, Avropa, Asiya, Afrika və Avstraliya qitələrində onların yaşayış tərzi bir-birlərindən fərqlənsə də, onların fəaliyyəti bir istiqamətdə aparılır.

***Şərqi Avropa*** - Burada erməni diasporunun fəaliyyəti passiv hesab olunur. Onların çox hissəsi Assimilyasiyaya uğrayıblar. Polşa, Macarıstan, Rumıniyada, Bolqarıstanda, onların sayı olduqca azalıb. Ukraynada bir qədər ermənilər çoxluq təşkil edir. Buradan erməni gəncləri zamanla Qərbə doğru mühacirət edirlər.

Təqribən 5 min erməni Rumıniyada, 8 minə yaxını Bolqarıstanda, qalanları isə digər ölkələrdə qalıb.

***Qərbi Avropa*** - XX əsrin sonlarında buradakı erməni diasporunun fəaliyyəti bir qədər aktivləşib. Xüsusilə Fransada "soyqırımı" tanıdılmasını qeyd etmək olar. İtaliya, Hollandiya, Almaniya, İngiltərədə erməni diasporunun fəaliyyətində də intensivlik hiss olunur. Belçika və Hollandiyada ermənilər mədəni, Fransada hərtərəfli, Avstriya, İngiltərədə ticari sahədə daha aktivdilər. Digər dövlətlərdə onların fəaliyyəti ticari, mədəni və elmi sahədə bir qədər fəaldır.

Qərbi Avropa erməniləri elm, incəsənət və iqtisadi sahələrdə xeyli uğurlar əldə ediblər. Bu isə onların müəyyən məsələlərdə irəlidə olmasına şərait yaradır.

***Yaxın Şərq*** - Bu ərazidə ermənilərin fəaliyyəti olduqca fəaldır. Xüsusilə Livan və Suriyada ermənilərin dayaqları güclüdür. Livan prezidenti M.Kəddafinin yoldaşı erməni qızıdır. Beyrut dünya ermənilərinin əsas mərkəzlərindən biridir. Misir, Sudan, İordaniya, Efiopiyada onlar azlıq təşkil etmələrinə baxmayaraq imkanlı etnik qrup hesab olunurlar. Xartumdakı erməni kilsəsi Yaxın Şərq bölgəsində ən böyük erməni kilsəsidir. Fələstin lideri Yasir Ərəfatın erməni ilə "qardaş" olması isə

çoxlarına məlumdur. İranda da ermənilər az olmalarına baxmayaraq 30 milyon Azərbaycanlıdan qat-qat üstün güzəştlərə malikdirlər.

__*Cənubi Asiya və Avtsraliya*__ - Kəlkütdə də daha çox fəal olan ermənilər bu bölgədə az saylı məskunlaşıblar. Buranın erməniləri Qərbə daha çox meyllidirlər. Çin, Sinqapur, Malaziya, Fillipində ermənilər varlı qrupa aiddilər. Burada 35.000 erməni yaşayır. Qəzet, jurnal nəşr edir, klub və kitabxanalara malikdirlər.

__*Cənubi Amerika*__ - XX əsrin əvvəllərindən bu bölgəyə mühacirət edən ermənilər Braziliya, Uruqvay, Argentina, Kolumbiyada çoxluq təşkil edirlər. 1940-cı ildən isə onlar bu bölgənin ictimai-siyasi həyatında iştirak edirlər. Burada erməni kilsələri, məktəbləri, KİV orqanları fəaliyyət göstərir. Braziliya ilə Ermənistan arasında ikitərəfli əlaqələr güclüdür. Kolumbiyada isə Armeniya adlı şəhər də var.

__*Rusiya*__ - Buradakı erməni diasporunun fəaliyyəti uzun müddət tədqiqatçıların diqqətindən kənarda qalmışdır. 1990-cı illərin əvvəllərindən başlayaraq ermənilərin bu ölkədəki durumu və fəaliyyəti xüsusi olaraq tədqiqat obyektinə çevrildi.

X-XI əsrdən ermənilər Kiyev Rus dövlətinə, XIV əsrdən isə Moskvaya mühacirət etməyə başladılar. Bu şəhərlərdə məskunlaşan ermənilər ticarət və tibb sahəsində çalışırdılar. XIII əsrdə artıq Lvov şəhərində erməni məhəllələri var idi.

XIV əsrdə Ermənilər Moskvada siyasi mövqe qazanmağa başladılar. Onların Rusiya içərilərinə doğru mühacirəti fəallaşdı. Rusiyada güzəştlərə malik olan ermənilər torpaq sahələri almaq və evlər tikməkdə sərbəst idilər.

1659-cu ildə Zaxar Saqradyan adlı tacir Rusiya çarına qiymətli hədiyyələr verməklə 1607-ci ildən ermənilərin Avropa və Asiya bazarında mövqeyini möhkəmləndirdi. Ermənilərin Osmanlı imperiyasında sayca çox olması I Pyotrun Şərq siyasətində onlara xüsusi diqqət verməsinin əsas səbəbi idi. 1695-ci ildə I Pyotr İran şahına erməni tacirləri üçün əlverişli şərait yaratması üçün 4 məktub göndərmişdir. 1711-ci ildən isə





ermənilər Rusiyadan vergi ödəmədən qiymətli daşlar çıxarmaq hüququ əldə etdilər.

İsrail Ori Rusiya çarı ilə görüş zamanı Ermənistan dövləti yaradılması barədə xüsusi razılıq aldı. I Pyotrun ona söz verməsinə baxmayaraq, Qafqaz bölgəsində Rusiyanın müəyyən zaman zəif olması bu razılaşma həyata keçmədi. Erməni diasporu Rusiyada XIX əsrin ortalarında "Uysais" və "Araks" adlı qəzet dərc edirdilər.

Bosfor və Dardanel boğazlarında gözü olan I Pyotr Osmanlı imperiyasını daxildən parçalamaq üçün ilk dəfə olaraq erməni məsələsini ortaya atdı. Plana görə ermənilər üsyanlara başlamalı, Rusiya isə Balkan və Qafqaz torpaqlarındakı "xristian bacı və qardaşları xilas üçün" məsələyə qarışırdı.

Gözlənilənlərin əksi olaraq erməni məsələsi beynəlxalq müstəviyə çıxdı. Burada isə Avropadakı ermənilərin rolu çox idi. Ermənilərin ikibaşlı siyasəti İngiltərənin və Avropanın məsələyə qarışmasına şərait yaratdı.

Ərzurumdakı Rusiyanın baş konsulu Moyevski çara göndərdiyi məktubda aşağıdakıları qeyd edirdi.

"Əslində Rusiya hökumətinə ermənilər tərəfindən onların dözülməz şəraitdə yaşamaları barədə göndərilən məktublar əsassızdır. Burada onlar hər cür azadlıqdan istifadə edirlər. Erməni kəndlilərinin vəziyyəti Rus kəndlərindən daha yaxşıdır".

1813-cü il Gülüstan və 1828-ci ildə Türkmənçay müqavilələrindən sonra Rusiya hökuməti İrandan və Rusiyadan 140 min ermənini zorla İrəvanda yerləşdirdi. Bu addım Asiyadakı erməni diasporu tərəfindən narazılıqla qarşılandı. Buna baxmayaraq 1916-cı ildən sonra Rusiya ərazisindəki ermənilər "qurban" kimi xüsusi imtiyazlar əldə etdilər.

Sovetlər Birliyi qurulduqdan sonra Erməni diasporu yeni dövlətdə yüksək dövlət postlarında işləyirdilər. Onların fəaliyyəti xüsusilə 1930-40, 1945-1960, 1960-62, 1962-91-ci illər və Sovet Birliyi dağıldıqdan sonrakı dövrdə daha güclü idi.

1930-40-cı illər – Bu dövrdə erməni diasporunun fəaliyyətinin nəticəsi olaraq İrəvandan azərbaycanlılar çıxarılaraq orada ermənilər yerləşdirildi.

1945-1960-cı illər – Erməni diasporu Molotovun rəhbərliyi altında Türkiyədən torpaq tələb etməyə başladılar. 26 min $km^2$ ərazi iddiasında olan erməni diasporu 20,500 $km^2$ – Ermənistana verilməsini planlaşdırmışdı. Lakin Xruşovun hakimiyyətə gəlməsindən sonra bu plan pozuldu.

1960-1962-cı illər – Ermənilərin yenidən İrəvanda yerləşdirilməsi dövrü azərbaycanlılar Kürqırağı ərazilərdə məskunlaşmalı oldular.

1962-1991-ci illər – 1965-ci ildə İrəvanda "soyqırım" hadisəsi 400 min ermənin iştirakı ilə keçirilir. Erməni diasporu bununla Sovetlər Birliyində Milli məsələlərin başlanğıcını qoydular. 1970-ci ildən isə erməni alimləri Zori Balayan, Abel Aqenbekyan kimi nüfuzlu ermənilərin fəaliyyəti 1988-ci ildə Azərbaycana qarşı açıq-aşkar təcavüzəkar müharibənin başlanmasına səbəb oldu. Nəticədə Sovetlər Birliyi parçalandı və Ermənistan Respublikası yaradıldı.

Hazırda Rusiyadakı erməni diasporunda fikir ayrılığı var. Diaspor təşkilatları arasında rəqabət mövcuddur. Təbliğat və mədəni sahədə Rusiyada iş aparan ermənilər siyasi cəhətdən fəallıq göstərmirlər.

Rusiya XİN-nin Diplomatik Akademiyasının əməkdaşı T.Poloskova Rusiyadakı erməni diasporunun durumun aşağıdakı kimi izah edir.

1. Rusiyada erməni diasporu sosial və etnomədəni anlamda müxtəlif tərkiblidir. Yenidənqurmaya qədər Rusiyada məskunlaşan ermənilər ictimaiyyətə tam adaptasiya olunublar. Onlar isə 90-cı illərin mühacirlərinə münasibətdə bir qədər ehtiyatlı davranırlar. Eyni zamanda Ermənistandan olan ermənilərlə digər MDB erməniləri arasında icmadaxili münaqişə var. Bakı, Kiev, Moskva erməniləri Ermənistanın hazırkı xarici siyasətini pisləyirlər.





2. Uzun müddət Rusiyada yaşayan və artıq adaptasiya olunan ermənilər ümumerməni məsələsində külli-miqdarda vəsait xərcləməkdən çəkinirlər. Yalnız iqtisadi məsələlərdə onlar lobbiçiliyə əl atırlar.

3. Rusiyada erməniləri birləşdirici diaspor-partiya münasibəti və mübarizəsi yoxdur. Bu rolu öz üzərinə götürən Daşnaksütun, Hnçak, Ramkavar partiyalarının şəbəkə strukturu yoxdur.

Hal-hazırda erməni diasporunda ikili fəaliyyət mövcuddur. Bir qrup passiv, iqtisadi maraqlar güdən və Assimilyasiya olunmuşdur. Onlar Ermənistanın və ümumerməni işinin apardığı siyasətin əleyhinədir. Türkiyə ilə sıx əlaqələri olan bu qrup "soyqırım" məsələsinin çürüdüyün bildirirlər.

İkinci qrup isə əsasən 90-cı illərin mühacirləri vətənpərvərlik, odlu çıxışlar edir, erməni işinə yeni çalarlar gətirilməsini tələb edirlər. Romantizm hissələrini yersiz hesab edərək, bu qrup yaşlı təbəqənin passivlikdə ittiham edirlər.

Erməni diasporunun Rusiyadakı təşkilatlarından: "Moskva Ermənilər Birliyi", "Erməni Gənclər Mərkəzi", "Beynəxalq Erməni Tələbələr Birliyi", "Rusiya Erməni Əlaqələr Mərkəzi", "Rusiya-Erməni Dostluq Federasiyası" ilə yanaşı "Erməni ailəsi", "Erməni xəbərləri" və digər qəzetləri nəşr olunur. Ermənilər Rusiyanın ziyalı, siyasi və ictimai xadimləri ilə tez-tez görüşləri keçirilir. Bu cür görüşlərdə ermənilərin Rusiyadakı durumu, lobbiçilik fəaliyyəti, uydurma "soyqırım", Qarabağ münaqişəsi və digər məsələlər müzakirə olunur.

Kriminal qrupların çoxunu yüksək çinli ermənilər himayə edir. Onların biznesləri güclü inkişaf edir və Moskva erməniləri azərbaycanlılarla əlaqələr qurmaqla müharibə barədə danışmırlar.

***Amerika Birləşmiş Ştatları*** - Dünya ermənilərinin ən güclü dayaqları və fəaliyyətinə görə aketiv hesab olunan diasporu ABŞ-da yerləşir. Hərtərəfli fəaliyyətlərinə görə Amerikadan 10 əsas etnik qrupdan biri və lobbiçiliyə görə 5 əsas lobbi qrupuna malik olan erməni diasporunun keçdiyi yol çox maraqlıdır.

Ermənilərin Amerika ilə tanışlığı 1810-cu ildən başlayır. Amerika ilə Türkiyə əlaqələri inkişaf etdikcə zəngin erməni tacirləri hissə-hissə Amerikaya köçməyə başladılar. Ermənilərin Amerikaya köçməsini isə missioner təşkilatlar təşkil edirdi. İlk əvvəllər ziyalı və varlı təbəqədən sonra erməni gəncləri və uşaqları bu ölkədə yaşamaq, təhsil almaq üçün mühacirət edirlər.

Ermənilərin Amerika vətəndaşlıq alması digər etnik qruplardan daha asan olurdu. 1840-cı ildə Amerikanın nüfuzlu universitetlərində erməni gənclər təhsil alırdılar. Onlar xüsusi olaraq Nay Tah-ümumerməni məsələsi üçün hazırlanırdılar. Məhz bu ermənilər gələcəkdə Türkiyədə və Qafqazdakı qırğınların təşkilatçıları idilər.

1840-1910-cu ildə tərkibi ziyalı, tacir, həkimlərdən ibarət 10 min erməni Amerikada qediyyatda idi. 1915-ci ildən sonra Amerikaya axını güclənən ermənilər onlara yaradılan şəraitdən istifadə edərək diasporların formalaşdıra bildilər.

Bu tarixdə 25 min erməni Amerikanın Qərb sahillərində məskunlaşdı. Ölkə prezidenti Vudra Vilsonun ermənliərə xüsusi rəğbəti var idi və bu rəğbət onun anti-türk baxışlarından yaranmışdır.

1924-cü ilə Amerika mühacirlər üçün sərt qoşunları qəbul edən tarixə qədər burada 200 minə yaxın erməni qeydiyyatda idi. 1965-ci ildə isə artıq bu say 400 minə çatmışdır.

1965-ci ildə Liberal mühacirət qanunlarının qəbul olunması ilə digər etnik qruplar kimi ermənilərində bu ölkəyə axını başlandı. Yaxın Şərq və Rusiya bölgəsindən Amerikaya gələn ermənilər burada qüvvətli diaspor tərəfindən qarşılanır, işlə və evlə təmin olunurdu. Bir-birlərilə sıx əlaqə quran ermənilər diasporun qüvvətlənməsi istiqamətində işlərin cəmləşdirdilər. Əlaqələndirici rolunda isə erməni kilsəsi çıxış edir. Kilsə burada ümumerməni fonduna rəhbərlik edir maliyyə toplanmasını təşkil edir, ideoloji iş aparır.

Maccarycentc Armenian Evangelical Churchov martyrs, 1889-cu ildə Rod-Aylender Armenian EUPN Rates Evangelical





Church və s. ilə daim əlaqə saxlamaqla lobbiçilik fəaliyyətdə "xeyir-dua" alırlar.

Bura məktəblərin açılması, kitabxanaların qurulmasında daxil etmək olar.

Kilsənin başçılığı altında fəaliyyət göstərən Erməni diasporu istənilən məsələni öz xeyrlərinə dəyişə bilər. Erməni diasporunun gücü isə 2003-cü ildə məlum oldu. Ədliyə Nazirliyinin Ermənistanı terroru dəstəkləyən dövlətlər sırasına aid etməsi lobbini hərəkətə gətirdi. Nəticədə nazirlik öz qərarını dəyişməli oldu.

Erməni diasporu sayəsində hər il ABŞ Ermənistan üçün külli miqdarda maliyyə yardımı ayırır. Amerikada erməni diaspor təşkilatlarının fəaliyyətini də xüsusi qeyd etmək lazımdır. Diaspor təşkilatların lobbiçilik fəaliyyətilə yanaşı, mədəni, elmi, ictimai işlərlə məşğul olurlar. Bu təşkilatlar aşağıda adları sadalananlar fəallığa və üzvlərinin sayına görə seçilirlər:

1. **Vaşinqtonda Erməni Kültür Assosiasiyası** - 1988-ci ildə təsis olunub. Erməni mədəniyyəti, dili, ədəbiyyatı, musiqisinin təbliği ilə məşğul olur. Assosasiya Vaşinqton erməniləri arasında əlaqələrin saxlanılmasında mühüm rol oynayır.

2. **Kaliforniyada Amerika Ermənilərinin Vətəndaş Liqası** - 1931-ci ildə yaradılan liqanın digər ştatlarda filialları var. Əsas fəaliyyəti isə Amerika ictimaiyyətinə erməni mədəniyyətini təbliğ etmək, Assimilyasiya olunmamış qarşısını almaq, erməni tələbələrinin dəstəkləməkdir.

3. **Erməni Film Fondu** – Kino biznes sahəsində fəaliyyət göstərən ermənilər və digər aktyorlar arasında iş aparır, onların diasporda görüşlərini keçirir. Kino filmlərdə ermənilərin iştirakını təmin edir.

4. **Ararat Fondu** - Erməni tarixinin, musiqisini, incəsənətini təbliğ etməklə məşğul olur. Dini təbliğatla da məşğul olan fond kitabları himayə edir. Qədim erməni «əlyazmalarının» tədqiq edilməsinin maliyyələşdirir.

5. **Tekayan Mədəni Assosasiyası** - 1964-cü ildə Kanadada yaradılıb. Ancaq daha aktiv fəaliyyəti Amerikadır. Müxtəlif səpgili forumlar, seminar, konfranslar keçirir. TV və Radio proqramlarını himayə edir. Erməni məktəbləri, kitabxanaları, araşdırma mərkəzlərinə maliyyə dəstəyi verir.

6. **Amerikada Erməni Missioner Assosiasiyası** - Kilsə rəhbərliyi altında fəaliyyət göstərən Assosiyasiya «erməni xristian bacı-qardaşlara kömək» devizi altında pul toplanmasını həyata keçirir. Dini kitablar nəşr etmək, görüşlər keçirməklə də məşğul olur. Assosiyasiya dini siyasətləşdirməkdədir.

Adları çəkilən təşkilatlara "Ararat", "Erməni Evi", "Erməni Assosiyasiyası", "Erməni Kültür Assosiyasiyası" və s. əlavə etmək olar. Erməni diasporunun Amerikada və dünyadakı fəaliyyətinin tədqiq edilməsi zamanı bir sıra qaranlıq məqamları aşkar edilir. Bu Qərb və Rusiyadakı erməni diasporlarının Ermənistan xarici siyasətinə nəzarət üzərində apardıqları gözəgörünməz mübarizədir.

## Erməni diasporunun təbliğatı

"Hər yerdə erməni var" şüranı əsas götürən erməni təbliğatı böhtan, yalan və saxtakarlıqdan ibarət fəaliyyəti ilə onlarla qonşuluqda yaşayan xalqların mənafelərinə toxunmaqla onları ixtilaflara və müharibələrə mübtəla edir. Harada yaşamalarından asılı olmayaraq yüz faiz erməniliyini saxlayan bu millətin təmsilçiləri hazırda Türkiyənin və Azərbaycanın əleyhinə güclü təbliğat işi aparırlar. Kütləvi İnformasiya Vasitələri, incəsənət və digər vasitələrdən məharətlə istifadə edən erməni diasporunun təbliğatı güclü maliyyə dəstəyi var. Türkiyədə nəşr edilən "Stratejik analiz" jurnalının məlumatına görə, tək təbliğat işinin illik büdcəsi 100 milyon dolları əhatə edir.

"Ümümdünya statusu" qazanmış olan "erməni məsələsi"nin təbliği xristianlığın təbliği qədər mühüm əhəmiyyət daşıyır. Erməni kimliyinin qorunub saxlanması, mövcudluğu və gələcək tarixi məhz "erməni məsələsi"nin təbliği nəticəsində gündəmdə qalmışdır. Adı çəkilən məsələni, baş vermiş hadisələri bir əfsanə halına gətirən erməni təbliğatı bir-birlərindən fərqli milyonlarla insanı uydurma ortaq dəyərlərlə yaxınlaşdırılaraq bir arada tuturlar. Beləliklə, erməni ideoloqları öz gələcəklərini öz düşüncələrinə "güvən" altına almış olurlar. Bunun üçün ilk növbədə uydurma "erməni məsələsi"nin ermənilər, daha sonra məskunlaşdıqları ölkələrin ictimai fikrində və son olaraq bütün dünyada təbliğinə ciddi fikir verirlər. Bütün dünyanı buna inandırmaq yönündə qurulan fəaliyyət bir "missiya", hətta "varolma səbəbi" kimi görülür.

İlk olaraq incəsənət sahəsində erməni diaspor təbliğatı diqqəti cəlb edir. Bu istiqamətdə fəaliyyət işinə "İlin filmi", "İlin mahnısı", "İlin yazısı", "İlin rəsmi", "İlin kitabı", "İlin teatrı" kimi mükafatlar aiddir. Bu mükafatlar ermənilərlə yanaşı, digər xalqların nümayəndələrinə də təqdim olunur. Bununla dolayısı yolla öz məqsədlərini təbliğ edən erməni diasporu yerli KİV orqanları ilə sıx əlaqədə saxlayır.

Hər hansı bir rəsm sərgisində kitab və film təqdimatında "erməni məsələsi" bölümu olmaqla və yaxud erməni müsiqiçilərinin konserti zamanı "erməni məsələsi"nin "qurbanları" anılır və ətrafdakılara öz məqsədlərini təbliğ edirlər. Sırf təbliğat xarakteri daşıyan sərgilər, filmlər, müsiqilər, mükafatlar, səhnə əsərləri ictimai fikirdə "erməni işi"ndə dəstək qazanılmasına xidmət edir.

Erməni diasporunun kino təbliğatı incəsənət çərçivəsindən çıxaraq siyasi məqsədlərə xidmət edir. Tam olaraq diaspor tərəfindən maliyyələşən filmlər türkçülük, azərbaycançılıq əleyhinə yönəlməklə nifrət, kin və böhtanlarla doludur. Erməni filmlərinin çəkilməsi, yayımı və videokaset satışı bir neçə iri kino şirkəti və fondu vasitəsilə həyata keçirilir. Əsasən Amerika Birləşmiş Ştatlarında yerləşən kino şirkətlərinin başında Erməni Film Fondu durur. Mərkəzi Hollivudda olan bu fondun hesabına bir neçə sənədli və bədii film çəkilib. İki ayrı erməni

filmləri festivalı keçirmək səlahiyyətinə malik olan fondla bərabər, aşağıdakı şirkətlərin adını çəkmək olar.

1. Film İnternational - Los-Ancelosda yerləşən şirkət erməni filmlərinin video və DVD kasetlərlə satışını həyata keçirir.

2. VGN Paradise, İnc-erməni şou dünyasında mühüm yeri olan şirkət Los-Ancekles, Moskva və İrəvanda ofislər açıb. Erməni filmlərinin təqdimatı və yayımı ilə məşğul olur.

3. ARC Film-sənədli və bədii filmlərin çəkilişi və yayımı ilə tanınan şirkətin sahibi rejissor Roger Kupeliandır.

4. Bars Media-Azərbaycan əleyhinə filmlərin çəkilişi ilə məşğul olan şirkətin xarici TV kanalları ilə sıx əlaqəsi var.

5. NAREK-erməni diasporu arasında video, audiokasetlərin satışı və yayımını həyata keçirir. Əsasən İnternet vasitəsilə satış sistemini qurub.

Demək olar ki, erməni diasporunun hamisi olduğu bütün filmlər uydurma "soyqırım"a həsr olunub. Lakin 1988-ci ildən başlayaraq Azərbaycanı da hədəfə götürən diasporun "Ararat", "Həsrət", "Erməni davası", "Unudulmuş soyqırım", "Tarixi Ermənistan", "Amerika erməniləri" və digər filmlərin adını çəkmək olar. Azərbaycanla əlaqəli olan filmlər aşağıdakılardır:

1. "Dağlardakı qaranlıq meşə" - Dağlıq Qarabağ hadisələrindən danışan sənədli filmin rejissoru Rocer Kupelyandır. *Filmdə baş verən hadisələr* açıq-aşkar təhrif olunmaqla tərsinə yozulur. Beynəlxalq hüquq normalarını pozan ermənilərin torpaqlarımızın 20 faizini işğal altında saxlamasını inkar edən bu film erməni yalanlarının bariz nümunəsidir.

2. "Dağlıq Qarabağ: erməni tarixinin üçüncü və dördüncü cildi" - Qarabağda anadan olmuş Don Əsgəryan tərəfindən 1988-ci ildə Almaniyada çəkilən 60 dəqiqəlik sənədli filmdir. Marqarita Voskanyanla birgə baş rolları bölüşən Don Əsgəryan filmi rus və erməni dillərində səsləndirib. İngilis və alman alt yazısı ilə nümayiş etdirilən filmdə Azərbaycan əleyhinə böhtanlar bütün normalara sığmır. Film bir neçə ölkədə "Etnik təmizlik-kirli gerçəyin təsviri" başlığı ilə nümayişə çıxarılıb.

3. "Avetik" - Don Əsgəryanın "Erməni soyqırımı" II Dünya müharibəsi illəri və Dağlıq Qarabağ hadisələrinə aid başqa bir filmdir. Almaniya-Ermənistan müştərək filmi olan "Avetik" 84 dəqiqəlik rəngli ekran "əsəri"dir.

4. Ararat - Kanadalı Atom Eqoyamın uydurma "erməni soyqırımına" həsr olunan filmi türklərin "qaniçən", "qəddar", "zalım" olduğunu göstərir. Ermənilərin çəkdikləri əzablar filmdə şişirdilmiş halda göstərilir. 50 dəqiqəlik "Ararat" Rusiya, Fransa və qəribə olsa da Türkiyədə yayımlanıb.

Sənədli və bədii filmlərlə yanaşı, teatr sahəsində də iş aparılır. ABŞ, Fransa, Kanada, Rusiya, Avstraliya və digər ölkələrdə tez-tez erməni məsələsinə aid teatr tamaşaları göstərilir. Tamaşalar zamanı xeyriyyə günləri təşkil edilir və toplanan məbləğ digər işlərə sərf olunur. Erməni bəstəkarlarının əksər mahnıları, "soyqırım" və "Qarabağ"a həsr olunur. Şair və yazıçılarla bərabər, *tarixçilər və jurnalistlər adları çəkilən* mövzülara aid tez-tez çıxışlar edir, yazılar yazır, kitablar nəşr etdirirlər.

Erməni diasporunun təbliğat işində KİV orqanlarının xüsusi yeri var. Xarici ölkələrdə, əsasən də Amerika Birləşmiş Ştatlarında güclü maliyyə dəstəyinə malik olan erməni KİV-i geniş informasiya şəbəkəsi qurmuşlar. Qərb ölkələrində bu gün ingilis və erməni dillərində çoxlu qəzet və jurnalistlər nəşr edilir, TV və radio proqramları yayınlanır. "Erməni məsələsi"nə həsr olunan yazılara böyük qonarar verməklə erməni qəzet və jurnalları qeyri-erməni jurnalistləri onlarla əməkdaşlığa cəlb etməyə çalışır və çox zaman buna müvəffəq olurlar. TV-də tez-tez erməni filmləri nümayiş etdirilir, radio proqramlarda erməni musiqisi səsləndirilir. Birləşmiş Ştatlarda nəşr edilən qəzet və jurnallardan aşağıda adları sadalananlar, demək olar ki, bütün ştatlara yayılır.

1899-cu ildən nəşr olunan "Hairenik Weekly", "Eritassart Nayastan", "Asbarez Armenian Daily", "Armenian Mirror Srectator", "Armenian Weekly", "California Courier", "Armenian Life Nai", "Massis Armenian Weekly", "Armenian Observer", "Armenian Reporter" və s. qəzetlər diaspor mühitində daha çox oxunan qəzetlərdir.

Amerikada sayı 113-ə çatan bülleten və jurnallar bütun ştatlarda dərc olunur. Bunlardan "Armenian İnternational Magarine", "Navasart", "AMAA News", "Journal of Armenian Studies", "Diaspora", "Trans Caucasus, A Chronology", "Naasr Newsletter", "Sevan Newsletter", "Locus U.C.L.A.", "Nye Syarzhoom" və digərlərinin adını çəkmək olar.

Radio proqram və kanalların sayı Birləşmiş Ştatlarda 22-yə çatır. Bu radio kanalların bir hissəsi 24 saat, bir hissəsi isə müxtəlif saatlarda yayınlanır. Amerikanın bir çox ştatında qulaq asılan radiolardan aşağıdakılar daha populyardır:

ARARAT Ametur Net", "Neritage of Armenian Culture", "Armenian Tele-Radio", "Armenian Cultural Hour", "Voice of America", "Armenian Service", "Armenian Outreach Radio", "Armenian American Radio Nour" və digər kanallar.

Birləşmiş Ştatlarda təkcə Kaliforniya ştatında erməni diasporuna məxsus 6 TV kanalı yayınlanır. Bunlar "Andre Danik Show", "Armenia Today", "Armenian Teletime", "Tele Armenia", "Norizon Armenian TV NOR Serount"dur.

Erməni informasiya - təbliğat işinin sxematikası aşağıdakı qaydada tərtib edilib:

1. Kaliforniya: 27 qəzet, 19 bülleten, 16 jurnal, 4 TV və radio kanal, 9 nəşriyyat, 2 agentlik, 11 video mərkəz.

2. Arizona: 2 qəzet, 4 jurnal, 1 TV və 2 radio kanal, 2 nəşriyyat, ermənilər üçün jurnalistika fakultəsi.

3. Texas: 7 qəzet, 5 jurnal, 2 TV və 2 radio kanal, 3 nəşriyyat, 1 agentlik.

4. Luiziana: 3 qəzet, 2 jurnal, ermənilər üçün tarix və jurnalistika fakültəsi, 2 TV və 3 radio kanal, 1 nəşriyyat.





5. Florida: 5 qəzet, 3 jurnal, 7 agentlik, 1 nəşriyyat, 2 TV və 2 radio kanal.

6. Virciniya: 1 qəzet, 2 jurnal, 1 agentlik, 1 nəşriyyat.

7. Vaşinqton: 14 qəzet, 7 jurnal, 8 TV və 4 radio kanal, 6 nəşriyyat, 71 bülleten, 3 agentlik, 14 videostudiya.

8. Penselvaniya: 3 qəzet, 21 bülleten, 2 TV və 2 radio kanal, 1 agentlik, 2 nəşriyyat.

9. Nyu-York: 12 qəzet, 9 jurnal, 16 bülleten, 4 agentlik, 4 TV və 6 radio kanal, 22 videostudiya.

10. Men: 1 qəzet, 1 jurnal, 1 agentlik, 6 nəşriyyat, 2 videoqeydiyyat, 3 videokanal.

11. Miçiqan: 4 qəzet, 2 TV və 1 radio kanal, 4 nəşriyyat, 2 agentlik.

12. Montana: 2 qəzet, 6 jurnal, 2 TV və radio kanal, 2 nəşriyyat, 2 agentlik.

13. Oriqon: 6 qəzet, 4 jurnal, 3 TV və radio kanal, 1 kinostudiya, 7 agentlik.

14. Nevada: 3 qəzet, 3 bülleten, 4 jurnal, 2 TV və radio kanal, 4 videostudiya, 2 nəşriyyat. Adları çəkilən KİV orqanları mədəni, əbədi və dini proqramlar, yazılar adı altında siyasi iş aparırlar.

**Erməni terror təşkilatları**

1. Hnçak - 1887-ci ildə İsveçrədə yaradılıb. Təbliğat, terror, şantaj bu partiyanın əsas fəaliyyətidir.

2. Daşnaksütun - 1890-cı ildə Tiflisdə təsis edilib. Terror və şantaj bu partiyanın əsas iş prinsipidir.

3. ASALA - Erməni Azadlığı Üçün Erməni Gizli Ordusu 1975-ci ildə Akon Akopyan tərəfindən yaradılan ən güclü terror təşkilatıdır.

4. Yeni erməni mübarizəsi - Fransada yaradılıb. Paris və digər ölkələrdə partlayışlar törədib.

5. Erməni Azadlıq Cəbhəsi - 1929-cu ildə yaradılan təşkilat Türkiyə və Azərbaycana qarşı terror hadisələri törədir.

6. Erməni Birliyi - 1988-ci ildə Vazgen Sisilyan yaradıb. Əsas mərkəzi Qarabağ və Moskvada yerləşir.

7. 7 oktyabr qrupu - ASALA tərəfindən yaradılıb.

8. 9 iyun qrupu - 1991-ci ildə İsveçrədə yaradılıb.

9. Erməni Azadlıq Hərəkatı - 1991-ci ildə Fransada yaradılıb. Mərkəzi bürosu Irəvanda yerləşir.

10. Erməni Gənclər Birliyi - 1990-cı ildə Fransada yaradılan birlik Qarabağn Ermənistana birləşdirilməsinə çalışır.

11. GEKO (Gizli Erməni Azadlıq Təşkilatı) - 1975-ci ildə Suriya erməniləri tərəfindən yaradılıb. Türk diplomatların qətlə yetirməkdə əli var.

12. Demokratik Cəbhə - ABŞ, Kanada, Qərbi Avropada terror təşkilatlarını ətrafında birləşdirib.

13. Siyasi Dustaqlara kömək üçün Erməni Komitəsi - İsveçrə hökumətilə mübarizə aparmaq üçün yaradılıb.

14. Özünəqəsd qisasçıları - 1981-ci ildə Fransada türk səfirliyinə basqın edən qrup.

15. Erməni Mübarizə Təşkilatı - 1992-ci ildə Parisdə yaradılıb.

16. Erməni Gənclərinin Basqın Təşkilatı - Beyrutda fəaliyyət göstərir.

17. Erməni soyqırımının Ədalətli Qisasçıları - 1973-cü ildə Los-Ancelesdə yaradılıb.

18. Erməni İnqilab Ordusu - Beyrutda 1984-cü ildə yaradılıb.

19. Azadlıq pələngləri - 1991-ci ildə Qarabağda terror məqsədilə yaradılıb.

20. Qartal Cəmiyyəti - 1981-ci ildə Fransada yaradılıb.

21. İsveçrə qrupu - Fransa, Yunanıstan və İtaliya filialları olan təşkilatdır.

**Erməni terroru**

Erməni terrorunun birinci mərhəlləsi kimi 1890-cı il Ərzurum üsyanı, 1894-cü il Samsun üsyanı, 1892-1893-cü illər





arası Kayseri, Yozqat, Merzifon çıxışları götürülür. Bunun qurbanları isə dinc türk və kürd kəndliləri idi. Ermənilər hətta yunanları belə qətlə yetirməkdən çəkinmirdilər.

1915-ci ildən sonra artıq ermənilər terror aktlarını Avropanın və Amerikanın müxtəlif şəhərlərində həyata keçirdilər. Buna misal olaraq 1921-ci ilin 15 martında Türkiyənin eks daxili işlər naziri Tələt Paşanın Berlində terrorçu Saqomon Taleyran tərəfindən, 9 ay sonra Romada Türkiyənin eks xarici işlər naziri Səid Səlim Paşanın terrorçu Arşavir Şirakyan, 1922-ci ilin 17 aprelində Berlində Bahəddin Şakir Bəy və Kamal Əzmi bəyin qətlə yetirilməsini göstərmək olar.

Bütün bunlar başlanğıc idi. 1965-ci ildə İrəvanda soyqırım qurbanlarının 50 illiyinə həsr edilən abidə açılışının həyata keçirilməsindən sonra erməni terrorizminin təşkilatı və ən dəhşətli dövr başlandı. İrəvanda tədbirlər zamanı 400 min erməni əllərində "Qərbi Ermənistan (Anadolu) bizim olmalıdır", "Dağlıq Qarabağ bizimdir", "Naxçıvan erməni torpağdır" şüarların əllərində tutaraq sovet hökumətindən tələblərinin yerinə yetirilməsini istəyirdilər. Sovet dövründə bu cür şüarların səslənməsi və cəzasız qalması erməni diasporunun güclü fəaliyyətinin nəticəsi idi.

1978-ci ildən ABŞ-ın Santa-Barbara şəhərində iki türk diplomatı Məhmət Baydar və Bahadur Dəmirin qətlə yetirilməsi isə başlanan yeni erməni terrorunun I mərhələsinin qurbanlarının sayı olduqca çox idi. 24 türk diplomatı, onlarca türk vətəndaşı ilə yanaşı fransız, amerikalı və digərləri terror qurbanı olublar.

Türkiyə, Amerika, Fransa, Belçika, İsveçrə, İtaliya, Bolqarıstan, Lüksemburq, Livan, İspaniya kimi dövlətlərdə törədilən dəhşətli partlayışlar, qətllər ermənilərin heç kimlə hesablaşmadığını göstərirdi. Hətta beynəlxalq terrorçu Karlos ermənilərlə sıx əlaqədə olmasını və onların Münhendə Olimpiya oyunları zamanı İsrailli idmançılara qarşı törədilən terror hadisəsini birgə törətdiklərini etiraf edib.

1984-cü ildən başlayaraq erməni terrorunun II mərhələsi kimi adlandırılan dövr başlayır ki, bu zaman artıq bütün dünya üzrə fəaliyyət aparılırdı. Bu mərhələdə də artıq ermənilərin diktəsi altında ərəb, kürd terrorçuları və s. terror qrupları onların yanında, terrorizmin fəaliyyət dairəsini və məzmununu genişləndirdi.

1988-ci ildən etibarən erməni terroru və təcavüzkarlığının III mərhələsi başlandı. Azərbaycanın 20 faiz torpaqlarının işğal olunması, beynəlxalq terrorçu Üsama Bin Ladenin terror aktlarında ermənilərin iştirakı, 11 sentyabr hadisəsi erməni terrorunun hansı qüvvəyə malik olduğunu göstərir. Onlar hətta öz soydaşların belə qətlə yetirirlər. Erməni terrorizminin şüarı isə aşağdakı kimidir. "Mənim adım mübarizə, mənim nəticəm - Qələbə".

## «Erməni soyqırımı» iddiaları

Professor Nuru Məmmədovun fikrincə Azərbaycan və Türkiyə torpaqlarına göz dikən erməni daşnakları və millətçiləri hiyləgər siyasət yeridərək monoetnik və "türksüz Ermənistan" uğrunda qərinələr boyu gizli və bəzən leqal müharibələr aparmış, "dənizdən–dənizə" böyük imperiya yaratmaq üçün türk xalqlarına qarşı soyqırım siyasəti yeritmişdir. Onlar özlərinin məkrli və avantürist niyyətlərini həyata keçirmək məqsədilə tarixdə görünməmiş cinayət və vəhşiliklərdən, kütləvi qırğınlar və vandalizmdən istifadə etmişlər. Şovinist ruhlu erməni millətçiləri tərəfindən yeridilən bu mənfur siyasət tarixin bütün zamanlarında türk xalqlarına qarşı ölüm, işgəncə, məşəqqət və məhrumiyyətlərlə müşayiət olunan faciə dolu qaçqınlıq, didərgin həyatı, torpaq və yurd həsrəti gətirmişdir. Bu gün Azərbaycan torpaqlarının 20 faizini işğal edən erməni təcavüzkarları xalqımıza ağır məşəqqətlər gətirmiş, 1 milyondan çox azərbaycanlını qaçqına, didərginə və məcburi köçkünə çevirmişdir.

Tədqiqatlarda göstərilmişdir ki, erməni millətçiləri özlərinin sərsəm və xəyali planı olan "böyük Ermənistan" imperiyasını





yaratmaq üçün ən çirkin üsullara belə əl atmaqdan çəkinməmişlər. Belə ki, ermənilər ayrı-ayrı zamanlarda tarixi faktları saxtalaşdıraraq özlərini guya soyqırıma məruz qalan tərəf kimi göstərmişlər. Lakin faktlar göstərir ki, ermənilər bütün zamanlarda azərbaycanlılara və türklərə qarşı kütləvi qırğınlar, sui–qəsdlər və terrorlar törətmiş, dinc əhalini ucdantutma məhv etmişlər.

Aparılan araşdırmalardan aydın olur ki, ermənilərin ərazi iddiaları və etnik–təmizləmə siyasəti çar Rusiyası və Sovet ittifaqlarının Türkiyəyə qarşı ərazi tələbləri ilə sıx vəhdət təşkil etmişdir və bu məsələlər əslində Türkiyə ilə Azərbaycan torpaqlarının parçalanmasına, bölünməsinə və işğal edilməsinə istiqamətlənən məkrli və avantürist bir siyasət olmuşdur ki, bu da zaman–zaman özünü göstərmişdir. Erməni millətçilərin hiyləgər siyasətinin reallaşmasında Moskvanın xüsusi maraqları olmuşdur. Tarixin müxtəlif zamanlarında—istər çar hakimiyyətinin və istərsə də totalitar sovet rejiminin rəsmi dairələri cənub sərhədlərinin genişləndirilməsində və möhkəmləndirilməsində erməni sindromundan istifadə etməyə və Cənubi Qafqazda imperiya sərhədlərini Türkiyə torpaqları hesabına şişirtməyə, beləliklə, öz geosiyasi maraqlarını həyata keçirməyə ciddi səy göstərir, fürsət düşən kimi praktik tədbirlərə əl atırdı. Nəticədə "erməni məsələsi"ndən istifadəyə görə azərbaycanlıların soyqırımı və deportasiyası təşkil edildi. Azərbaycan və türk xalqlarının tarixi taleyi məkrli siyasətə qurban verildi.

Araşdırmalardan aydın olur ki, erməni millətçilərin həyasızlığı, terror və təxribatçı fəaliyyətləri iyirminci yüzilliyin 80–ci illərin sonlarında daha təhlükəli şəkildə tüğyan etməyə başlayır. Ermənilər açıq şəkildə Qarabağı və Naxçıvanı işğal etmək siyasətinə başlayırlar, nəticədə Azərbaycan—Ermənistan münaqişəsi və Dağlıq Qarabağ müharibəsi başlayır. Etnik təmizləmə siyasəti aparan erməni ekstremistləri silahlı yolla Azərbaycan torpaqlarını işğal edir, müharibə şiddətlənir, ermənilər monoetnik dövlət yaradırlar, Ermənistan ərazisində yaşayan yerli əhali olan azərbaycanlılar doğma yurdlarından tamamilə qovulurlar.

Dünya ictimaiyyəti bilməlidir ki, vaxtı ilə paytaxtı belə olmayan ermənilər İrəvan şəhərini 1918–ci il mayın 29–da ələ keçirib özlərinə "paytaxt" etdilər. 1918–ci il Batum müqaviləsinin şərtlərinə görə 9 min kvadratkilometr əraziyə malik olan ermənilər hazırda 45 min kvadratkilometr əraziyə malikdir ki, oraya da işğal edilmiş Azərbaycan torpaqları daxildir.

"31 Mart—Azərbaycanlıların Soyqırımı günü" ilə bağlı Azərbaycan xalqına müraciətində Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: "200 ilə yaxın bir müddətdə erməni millətçilərinin xalqımıza qarşı hərbi, siyasi, ideoloji və başqa vasitələrlə yürütdüyü siyasətin məqsədi azərbaycanlıları öz doğma torpaqlarından sıxışdırıb çıxarmaq, fiziki cəhətdən məhv etməklə yeni ərazilər ələ keçirmək, mifik "böyük Ermənistan" dövləti yaratmaq idi."

Məlumdur ki, bəşər tarixində çox soyqırımlar törədilmiş, yüz minlərlə adam günahsız yerə qanına qəltan edilmişdir. Lakin heç bir xalq erməni cəlladları qədər qəddar olmamış, vəhşiliklər və vandalizm törətməmişlər. Erməni daşnaklarının vəhşiliyi bütün zamanlarda özünü qabarıq göstərmiş və insanların nifrətinə səbəb olmuşdur. XX yüzillik boyu erməni cəlladları tərəfindən dəfələrlə törədilən qanlı qırğınlar, bütün dəhşətləri ilə insan zəkasına sığmayan və dilə gətiriləsi mümkün olmayan bir faciədir və türk xalqlarına qarşı əsil genosid və soyqırımı siyasətidir. Xüsusilə XIX–XX əsrlərdə türk və azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində yüz minlərlə günahsız adam məhv edilmişdir.

Zaman–zaman gerçəkləşdirilən və planlı şəkildə həyata keçirilən erməni niyyətləri əslində dənizdən–dənizə, sonra isə dünya okeanlarına çıxmaq üçün "böyük Ermənistan" dövləti yaratmaq siyasətinin bir hissəsidir. Həm də bu yolda erməni millətçiləri ən iyrənc metodlardan istifadə etməkdən belə çəkinməmişlər. Erməni terrorçu dəstələri hələ XIX yüzilliyin





ikinci yarısında Türkiyənin Zeytun (1862, 1878 və 1884–cü illərdə), Sasun (1880–ci ildə), Van (1884–cü ildə) vilayətlərində qanlı qırğınlar törətmiş və bu qırğınlar nəticəsində 2 milyondan çox Anadolu türkü öldürülmüşdür. XX yüzilliyin əvvəllərində isə Bakıda, Şuşada, İrəvan və Naxçıvan mahallarında, Qarabağda, Borçalıda, Qazaxda, Zəngəzurda, Gəncədə, Qubada, Tiflisdə və başqa yerlərdə azərbaycanlıları kütləvi şəkildə amansızcasına məhv etmişlər. 1905–1907–ci illərdə, 1918–1920–ci illərdə, 1948–1953–cü illərdə və 1988–1993–cü illərdə Azərbaycan xalqının başına gətirilən müsibətlər əslində genosid və soyqırımı siyasətidir. Beləliklə, XX yüzillikdə Azərbaycan xalqı 4 dəfə soyqırımına məruz qalmış və nəticədə 2 milyondan çox azərbaycanlı bu məkrli siyasətin günahsız qurbanı olmuşdur.

Tarixi keçmişi unutmaq və tarixi hadisələri danmaq olmaz. Bu gün tarixi həqiqətlərin üzə çıxarılmasına, gizli arxiv sənədlərinin araşdırılmasına, görkəmli tarixçilərin və antik alimlərin fundamental əsərlərində göstərilən faktların dünya ictimaiyyətinə çatdırılmasına çox böyük ehtiyac vardır. Dünyaya özünü "məzlum xalq" kimi tanıtmağa çalışan erməni başkəsənləri hər yerdə geniş təbliğat apararaq uydurma "erməni soyqırımı"nın tanınmasına ciddi cəhd etmişlər və bu gün də bu yolda yorulmadan çalışırlar.

Bəs uydurma "erməni soyqırımı" məsələsi haradan yaranıb? Tarixən məlumdur ki, "erməni məsələsi" Şərq məsələsinin tərkib hissəsi kimi meydana gəlmiş və böyük dövlətlər özlərinin işğalçı məqsədlərini həyata keçirmək üçün ondan bir vasitə kimi istifadə etmişlər. Şərq məsələsinin mahiyyəti isə Osmanlı imperiyasının torpaqlarının bölüşdürülməsindən, Türkiyənin bir dövlət kimi məhv edilməsindən, Türkiyənin torpaqları hesabına erməni bufer dövlətinin yaradılmasından ibarət idi. Habelə həmin məsələ Şərqə yiyələnmək uğrunda çar Rusiyası və Qərb dövlətləri arasında beynəlxalq münaqişələrin ifadəsi, Şərq xalqlarına qarşı işğalçılıq planlarının təzahürü idi. Şərq siyasətinin həyata keçirilməsi üçün ermənilərdən istifadə edildi və Türkiyə ərazisində

yaşayan ermənilər başlıca hədəf seçildi. Birinci dünya müharibəsi zamanı Antanta dövlətləri müharibədə Almaniyanın tərəfində çıxış edən Türkiyəyə təzyiq göstərməyə başladılar. Bu təzyiq getdikcə gücləndi, hətta, 1914-cü il oktyabrın 29-da Rusiya Türkiyəyə müharibə elan etdi. Belə bir vaxtda Türkiyə ərazisində yaşayan ermənilər böyük bir ordu yaradıb Rusiyanın köməyi ilə silahlandılar və hər yerdə türkləri qırmağa başladılar. Erməni silahlı dəstələri türkləri qəddarcasına doğrayır, tonqallarda yandırır, gözlərini çıxarır, başlarının dərisini soyur, körpələri nizəyə keçirirdilər. Ermənilərin bu vandalizmi nəticəsində 600 min türk öldürüldü. Təbii ki, Türkiyənin başı bu zaman müharibəyə qarışdığı üçün daxildəki prosesləri diqqətdən yayındırmışdı. Ancaq hadisələri belə görən Türkiyə dövləti və türk hərbi komandanlığı erməni cəlladlarına cavab vermək məcburiyyətində qaldı. 200 min erməni Türkiyədən ölkənin cənub hissələrinə, o cümlədən İraq, Suriya və digər yerlərə köçürüldü. Köçürülən ermənilərin bir hissəsi Qarabağda, Qərbi Azərbaycanda (indiki Ermənistanda), Bakıda məskunlaşdırıldı. Göründüyü kimi, baş verən qırğınların başlıca günahkarı ermənilər və daha çox ölən isə türklər olmuşlar. Ancaq zaman keçdikcə ermənilər tarixi faktları saxtalaşdıraraq və ölən ermənilərin sayını süni surətdə şişirdərək əvvəlcə 600 minə, sonra 800 minə, daha sonra isə 1,5 milyona qaldırmışlar. Halbuki 1914-cü ildə Türkiyə ərazisində cəmi 1.294.851 nəfər erməni yaşamışdır ki, bu da ümumi əhalinin (18.520.016) cəmi 6,9 faizini təşkil edirdi.

Türkiyənin tanınmış tədqiqatçı alimi, professor İsmail Ürçelik "Ermeni iddiaları ve gerçekler" adlı kitabında göstərir ki, Birinci Dünya müharibəsi ərəfəsində və müharibə illərində ermənilər öz istəklərini gerçəkləşdirmək üçün Rusiyadan dəstək alırdılar. Rusiya vəd etdi ki, yeni bir Ermənistan qurulmağa kömək edəcək. Bundan sonra Türkiyə ərazisində yeni-yeni erməni hərbi alaylarının təşkili prosesi sürətlənirdi. Bu alaylara erməni liderləri başçılıq edirdilər. Hətta bu erməni hərbi birləşmələrinin fəaliyyətini əlaqələndirmək üçün Tiflisdə Erməni Uluslararası





Bürosu yaradıldı. Bir çox xarici ölkələrdən gələn ermənilər hesabına könüllü hərbi birləşmələrin sayı getdikcə çoxalırdı. Qısa zamanda Rusiyadan, İrandan, Amerikadan, İngiltərədən, Fransadan, Bolqarıstandan, Rumıniyadan və hətta Buxaradan gələn ermənilər təşkil edilən könüllü erməni alaylarına daxil olurdular. Onlara xüsusi təlimat keçirdilər. Təqribən 180 minə qədər erməni belə təlim keçmişdi. Təlim keçən erməni casuslarına təxribat işləri ilə məşğul olmaq, adam öldürmək, türk ordusuna arxadan zərbə vurmaq tapşırığı verilmişdi.

Qəribədir ki, həmin casus erməni silahlıları gecələr evlərə basqın edir, dinc əhalini öldürür, səhərə qədər vəhşiliklər edir, gündüzlər isə özlərinin hərbi alaylarına çəkilirdilər. Bu gizli taktiki əməliyyatları müəyyənləşdirmək isə Osmanlı dövləti üçün xeyli çətinliklər yaradırdı.

Əslində Osmanlı hökuməti ermənilərin bu təxribatçı fəaliyyəti barədə xəbərdar idi və buna görə də Ənvər paşa erməni patriarxını çağıraraq ona: "... ermənilərə sədaqət bəslənildiyi bir durumda, onların (ermənilərin) müsəlmanlara və Osmanlı dövlətinə zərər verdiklərini, patriarxın onlara nəsihət verməsini, əks halda və nəticə çıxarmayacağı təqdirdə ən ciddi əsgəri tədbirlərin alınacağını və qəti addımın atılacağını söyləmişdir". Ancaq ermənilər çox öncədən nə şəkildə hərəkət edəcəklərini qərarlaşdırmış olduqlarından bunların heç bir faydası olmamışdır.

Nəticədə 1914-cü il avqustun əvvəllərində Osmanlı hökuməti səfərbərlik haqqında qərar verdi. Hökumətin bu zəruri tədbirinə adekvat olaraq erməni liderləri öz murdar əməllərini həyata keçirmək üçün erməni alaylarına şifrəli təlimatlar göndərdilər və əks hücuma başlamaq tapşırığı aldılar. Bu vaxt Eçmiədzin katalikosu Kevork Rusiyanın Qafqazda baş valisi Voronsov-Daşkova müraciətlə ermənilərin Rusiya tərəfindən himayəsini istəyərək Osmanlı dövlətinə qarşı savaşacaqlarını söyləmişdir. Voronsov-Daşkov isə işğal ediləcək Osmanlı torpaqlarında (altı vilayət) bir Erməni dövlətinin Rusiya

tərəfindən tanınacağını elan etmişdi. Rusiya çarı II Nikolay da eyni vədi vermiş və ermənilərin ruslarla birlikdə türklərə qarşı vuruşması barədə bəyannamə elan etmişdi. "Daşnaksutyun" partiyası erməniləri silahlanmağa, yeni bir Ermənistanın yaradılması vaxtının çatmasına, bu yolda Rusiyanın köməyinə bel bağlamağa, Türkiyə əleyhinə silaha sarılmağa dair şüarlarla çıxışlara başladı, ədavəti qızışdırdı.

Erməni silahlı dəstələrinin ilk çıxışları Zeytunda başlandı (17 avqust 1914–cü il) və getdikcə genişləndi. Erməni hərbçiləri Anadoluda və Qafqazda türklərə qarşı görünməmiş vəhşiliklərə başladılar. Yüz minlərlə müsəlmanı, qoca, uşaq, qadın, qız, xəstə və əlil olanları sistemli şəkildə qətlə yetirdilər. Cəbhədən dönən yaralı türk əsgərlərini amansızcasına öldürdülər. Osmanlı ordusunu arxadan vuraraq, köməyə gələn bütün ehtiyat yollarını bağlamışdılar. Rəsmi dövlət dairələrinə hücum edərək, ictimai binalara erməni mühafizə dəstələri düzənləmişdilər. Ermənilərin bu vəhşi əməllərinə qatılmayan kimsəni, hətta erməni də olsa belə öldürürdülər. Zeytun, Kayseri, Bitlis, Sivas, Trabzon, Ankara, Adana, Urfa, İzmir, Bursa və daha bir çox yerlərdə ermənilər ağıla gəlməyəcək vəhşiliklər törətmişdilər. Osmanlı dövləti çox ağır günlərini yaşayırdı.

Beləliklə, türklərin kütləvi şəkildə məhv edilməsi Osmanlı dövlətini çıxış yolu axtarmağa, ciddi və qəti hərəkət edərək əks tədbirlər görməyə məcbur etdi. Onu da unutmaq olmazdı ki, Türkiyənin başı bu zaman dünya müharibəsinə qarışmışdı, cəbhədə ağır itkilər verirdi. Bu zaman 180 min erməni yaraqlısı rus qoşunu tərkibində Türkiyənin dinc əhalisini amansızcasına qırır və onları məhv edirdi.

Təbii ki, erməni silahlı dəstələrinin türklərə vurduğu ağır zərbələr və günahsız türk əhalisinin kütləvi məhv edilməsi, habelə ermənilərin yaşadıqları bu dövlətə xəyanəti Türkiyə dövlətini ciddi qərarlar qəbul etməyə məcbur etdi. Buna görə də 1915–ci il aprelin 24–də Türkiyənin daxili işlər naziri Tələt paşa İstanbul və digər böyük şəhərlərdə erməni komitələrinin təcili bağlanması,





millətçi erməni rəhbərlərinin həbsi və sənədlərinin müsadirəsi haqqında əmr verdi və 600 nəfər həbs edildi. Bundan sonra 1915–ci il mayın 30–da döyüş bölgəsində yerləşən ermənilərin daha təhlükəsiz yerlərə köçürülməsi barədə çox ədalətli və humanist bir fərman da verildi. Fərman 14 valiyə göndərildi və qısa müddətdə həyata keçirilməsi tapşırıldı. Fərmana əsasən köçürülən ermənilər üçün hər cür şərait yaradılmışdı. Hətta əmlakını aparmaq istəməyənlər onu pulla sata bilərdilər. Mənbələrdən məlum olur ki, köçürülən ermənilərin çoxu könüllü olaraq sonradan xarici ölkələrə mühacirət etmişdir.

Hadisələrin, faktların və mövcud tarixi şəraitin araşdırılması belə bir nəticə çıxarmağa əsas verir ki, köçürülmə ilə əlaqədar Türkiyə hökumətinin verdiyi qərar düzgün idi. Hətta Türkiyə hökumətinin köçürülmələrin və onların əmlakının təhlükəsizliyinin təmin edilməsi barədə göstərişləri, onun nə qədər ədalətli olduğunu bir daha göstərir. Çünki türk xalqı heç kəslə düşmənçilik etməmiş, tarix boyu qonşu xalqlarla həmişə dost və mehriban qonşuluq münasibətində olmuşdur. Fəqət xain çıxan ermənilər, nankor olan erməni millətçiləri və hərbi ədavəti qızışdıran keşişlər, qırğınları qızışdıran daşnaklar olmuşlar.

Erməni quldurları 1916–cı il mayın 11–də Türkiyənin Malazgird şəhərində 20 min adamı vəhşicəsinə öldürmüş, mayın 22–də isə Van şəhərində 15 min adamı məhv etmiş, 1000 nəfər körpəni boğmuşdular. 1918–ci ilin yanvarında Türkiyənin Qətranlı kəndində 1400 uşağı bir yerə yığaraq yandırmışlar. Martın 17–də Urmiyada 10 min dinc sakini öldürmüşlər. C. və K.Makkartilərin tədqiqatına görə XX əsrin əvvəllərində ermənilərin törətdikləri qanlı hadisələr zamanı 2,5 milyon müsəlman öldürülmüşdür.

Erməni millətçiləri və onların daşnak rəhbərləri o vaxtdan bu günə qədər bar–bar bağıraraq hadisələri saxtalaşdırır və 1915–ci il aprelin 24–ünü "erməni soyqırımı" kimi qələmə verməyə çalışırlar. Təəssüf ki, tarixdən bixəbər olanlar, o zamankı tarixi şəraiti bilməyənlər və ya o zamankı hadisələrin

obyektiv təhlilini bacarmayanlar bu yalançı təbliğata inanırlar. Ancaq fakt faktlığında qalır, tarix isə olanların canlı şahididir. Faktlar isə göstərir ki, ermənilər türklərə qarşı genosid və soyqırım siyasəti aparmışlar. Çünki türklərin itkisi qat–qat çox olmuşdur. Bunu ermənilər də çox yaxşı bilirlər. Onda sual yaranır: bəs nəyə görə ermənilər böhtandan əl çəkmir və "erməni genosid"ini türklərin boynuna zorla qoymağa çalışırlar? Bunun cavabı ABŞ–dakı erməni liderlərindən biri Ross Vartanyanın fikirlərindən aydın görünür: "Genosid layihəsi qəbul edilsəydi, bunu əldə rəhbər tutub, Türkiyədən əvvəlcə təzminat, sonra da Qara dəniz sahillərinə sərhəd olan Şərqi Anadoluda bir erməni dövlətinin qurulması üçün torpaq tələb edərdik". Deməli, daşnaklar "böyük Ermənistan" ideyasından hələ də əl çəkməmişlər və avantürist məqsədlərini həyata keçirmək üçün böhtançı və uydurma "erməni genosidi"ni əldə bayraq etmişlər.

Artıq dünyanın tanınmış alimləri, mütəxəssisləri yalançı "erməni genosi"dini birdəfəlik rədd edir və aparılan ciddi tədqiqatlardan sonra belə bir soyqırımın olmasını faktlar və dəlillərlə inkar edirlər. Fransız alimi Corc de Malevil özünün "Armyanskaya traqediya 1915 qoda" əsərində zəngin tarixi faktlarla göstərir ki, XIX əsrin son rübünə qədər türklərlə ermənilər əsrlər boyu rahat yaşamış, lakin "Daşnaksutyun" partiyası yarandıqdan sonra bu mehriban münasibətlər qəddar düşmənçilik münasibətlərinə çevrilmişdir. Müəllif sübut edir ki, 1915–ci il hadisələri daşnakların türklərə qarşı düşmənçilik hərəkətlərindən törəmişdir. Müəllif tarixi faktlara əsasən qəti şəkildə deyir: "1915–ci ildə "genosid" olmamışdır".

ABŞ alimləri Castin Makkarti və Karolin Makkarti tarixi faktlara əsaslanaraq belə bir obyektiv nəticəyə gəlmişlər ki, erməni soyqırımı uydurmadır və böhtandır. Adı çəkilən müəlliflər "Turki i armyane" adlı tədqiqat əsərində sübut edirlər ki, Şərqi Anadoluda soyqırım olmamışdır. Erməni daşnak quldur dəstələri Türkiyədə, İranda, Azərbaycanda, Qafqazda türk və





azərbaycanlıları vəhşicəsinə qırır, məhv edirdilər. Tarixi faktlardan məlumdur ki, daşnak generalı tayqulaq Andranik Zəngibasar, Qəmərli, Vedibasar, Şərur, Naxçıvan ərazisində, quldur general Dro Dərələyəz mahalında, qaniçən general Silikov Göyçə mahalında, general Ncde Zəngəzur mahalında olmazın vəhşiliklər törətmişlər. Castin Makkarti "Genosid olmuşmu?" əsərində göstərir ki, (səh. 46) XX əsrin yalnız birinci rübündə ermənilərin törətdiyi qırğınlarda 2 milyona yaxın türk öldürülmüş, yaralanmış və qovulmuşdur.

Ermənilərin soyqırım iddialarına əsasən guya 1915–ci ildə Osmanlı dövlətinin köçürmə siyasəti nəticəsində 1,5 milyon (əvvəllər 300 min, sonra isə 600 min deyirdilər) erməni ölmüşdür. Bu yalançı iddianı əsaslandırmaq üçün ermənilər müxtəlif xarakterli "sənədlər" hazırlamış, faktları saxtalaşdırmış və fikirlər uydurmuşlar. Avropanın, Amerikanın, Türkiyənin və dünyanın bir çox alimləri həmin faktların yalan və uydurma olduğunu elmi dəlillərlə sübut etmişlər. Ancaq əlimizdə daha təzə bir fakt vardır. Belə ki, 2004–cü ilin may ayında görkəmli türk alimləri tərəfindən hazırlanmış fundamental bir kitab işıq üzü gördü. Kitabın adı belədir: "Ermənilər: Sürgün və köç" Amerikanın, Fransanın, İngiltərənin, Almaniyanın və digər ölkələrin arxivlərində uzun müddət axtarışlar və tədqiqat işləri aparan alimlər erməni soyqırımına aid heç bir materiala rast gəlməmişlər. Kitabda yer verilən sənədlər içərisində ingilis arxivlərindən əldə edilmiş qeydlər ermənilərin soyqırımı iddialarının əsassız, yalan və böhtan olduğunu isbat etməkdə çox dəyərlidir. Belə ki, ermənilərin soyqırım iddialarını ifşa edən yeni faktlar ortaya çıxır. Birinci Dünya müharibəsindən sonra ingilislər 1917–1919–cu illər arasında ermənilərin siyahıya alınmasını aparmışlar. Bu siyahıya alınmada indiyə qədər kimsənin bilmədiyi nəticələr ortaya çıxmışdır. Siyahıya alınmanın nəticəsində məlum olmuşdur ki, 1919–cu ildə Osmanlı torpaqlarında yaşayan ermənilərin sayı 1 milyon 602 min nəfərdir. Buradan belə bir nəticə çıxır ki, "soyqırım" olan yerdə

əhalinin sayı 102 min artmışdır! Bu, necə ola bilər? Deməli, ingilis arxivlərindən əldə edilən sənədlər və rəqəmlər erməni "soyqırımı"nı qəti şəkildə rədd edir.

Adı çəkilən kitabda 1914–cü ildə Osmanlı dövlətində erməni əhalisinin sayına aid rəqəmlər də verilmişdir. Göstərilir ki, müharibə dövründə aclıq və xəstəliklərdən ölənlər də olmuşdur ki, ölənlərin içərisində, ermənilər, türklər, kürdlər və b. xalqların nümayəndələri də var. Arxiv sənədlərinə görə 1915–1918–ci illərdə Osmanlı ordusunda 3 milyon adamın xəstələndiyi, 711 min nəfərin isə yaralandığı müəyyən edilmişdir.

Çox maraqlı faktlardan biri də odur ki, xarici ölkələrin arxivlərində ciddi mühafizə edilən materiallarından aydın olur ki, Türkiyə hökumətinin sürgün qərarı cəmi 500 min ermənini əhatə etmişdi. (Halbuki ermənilər dünyaya car çəkib bağırırlar ki, sürgünə məruz qalan ermənilər 1,5 milyondur). Deməli, xarici ölkə arxivlərinin sənədləri də ermənilərin uydurmalarını rədd edir. Beləliklə, arxiv sənədləri, tarixi faktlar və tarixi həqiqətlər belədir ki, ermənilər özləri özlərinə quyu qazmış, yaşadıqları yerin və torpağın, yedikləri çörəyin, içdikləri suyun və udduqları havanın qədr–qiymətini bilməmiş, ermənilərə hərtərəfli kömək edən və onları türk torpaqlarında yerləşdirən adamların zəhmətini bilərəkdən yerə vurmuşdular. Nəticədə "özgəyə quyu qazan özü düşər" zərb məsəlinə, atalar sözünə uyğun olaraq Allahın qəzəbinə düçar olmuşlar.

Tarixçi alimlərin tədqiqatlarında göstərilir ki, 1914–1915–ci illərdə ermənilər müxtəlif hərbi birləşmələr və quldur dəstələri yaradaraq Türkiyənin Zeytun, Maraş, Qeysəriyyə, Diyarbəkir, Ərzincan, Bitlis, Van, İskəndərun, Muş, Trabzon, Ankara, İstanbul və b. şəhərlərində, habelə bütün Şərqi Anadoluda on minlərlə türk vətəndaşını öldürmüş, vəhşiliklər etmiş, şəhər və kəndləri yandırmış, qiyamlar qaldıraraq türk xalqı və Osmanlı dövləti üçün real təhlükə yaratmış, beləliklə, Türkiyə dövlətinin torpaqlarında yeni bir erməni dövləti yaratmaq xülyası ilə soyqırımlar törətmişlər.





Ermənilər tarix boyu müxtəlif yalanlar uyduraraq ayrı–ayrı adamları, dövlət və hökumət rəhbərlərini inandırmağa çalışmış, qondarma "erməni soyqırımı"nı qəbul etdirməyə ciddi cəhdlər etmiş, bəzən də istədiklərinə nail ola bilmişlər. Ancaq erməni yalanları ayaq tutsa da yeriməmiş, sonralar ifşa olunmuşlar. Ermənilərin tarixi yalanlarının ən çox yayıldığı ölkə Fransadır. Fransanın bir qrup nüfuzlu tarixçi alimləri "erməni soyqırımı"nı ifşa edən sensasiyalı bəyanatla çıxış etmişlər. 2005–ci ildə Fransanın tanınmış "19 tarixçi alimi aldadıcı qanunlara etiraz edir" başlığı ilə çıxış etmişlər. Həmin müraciətlərində tarixçi alimlər bildirmişlər ki, müxtəlif illərdə ölkə parlamentində qəbul olunmuş və tarixi gerçəklikləri deyil, siyasi mənafeləri əks etdirən bir sıra qanunlar aldadıcı xarakter daşıyır və ləğv edilməlidir. Tarixçi alimlər bildirmişlər ki, ölkə parlamenti həmin qanunları qəbul edərkən tarixçi alimlərin fikirlərini öyrənməyiblər. Ona görə də onu pisləyiblər. Müraciətdə vurğulanır ki, Fransa hökuməti və parlamenti tarixlə bağlı hər hansı qanun qəbul olunarkən mütləq tarixçi alimlərin fikirlərini diqqətlə öyrənməli və onların mövqeyini nəzərə almalıdır.

Bu müraciətin bizim üçün xüsusi əhəmiyyəti ondadır ki, Fransa tarixçilərini qəzəbləndirən və Fransanın tarixi üçün alçaldıcı hesab edilən qanunlar arasında 2001–ci il yanvarın 29–da qüvvəyə minmiş uydurma "Erməni soyqırımının tanınması haqqında" qanun da var. Bu sənədə də mənfi münasibətini bildirən fransız alimləri onun tarixi həqiqətləri saxtalaşdırmaqda adətkar olmuş, ikiüzlü siyasət yeritməyə vərdiş etmiş ermənilərin və güclü erməni lobbisinin təzyiqi ilə Fransa dövləti tərəfindən qəbul olunduğuna etiraz ediblər. Heç bir hüquqi əsası olmayan uydurma "erməni soyqırımı"nın tanınması barədə qanunun Fransa üçün alçaldıcı sənəd olduğunu qeyd edən tarixçi alimlər onun ləğvini tələb ediblər.

Bəli, artıq dünya tarixi həqiqətləri görür və anlayır. Uzun illər ayaq tutub yeriyən erməni yalanının maskası yırtılmış, onun iç üzü və daxili mahiyyəti bəlli olmuşdur. Məkrli və hiyləgər

erməni yalanı son zamanlarda güclü və tutarlı dəlillərlə ifşa olunmaqdadır. Bu gün dünya ictimaiyyətinə artıq məlumdur ki, ermənilərin uydurduqları bütün yalanların məqsədi nədir və onlar nə istəyirlər...

Bütün bu tarixi həqiqətlər və tarixi gerçəkliklər faktlarla deyildiyi üçün tutarlıdır, dəqiqdir, sərrastdır. Belə tarixi arqumentləri isə hamı bilməli, uydurma və yalançı "erməni soyqırımı"nın mahiyyətini anlamalı, onun çürük sosial dayaqlarını ifşa etməlidir.

2007-ci il martın 9-da Bakı şəhərində keçirilən Dünya Azərbaycan və Türk diaspor təşkilatların rəhbərlərinin birinci forumunda Prezident İlham Əliyev demişdir: "Bizim ata–baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiaları irəli sürmürük. Halbuki sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır. Əgər onlar xalqının gələcəyi haqqında düşünürlərsə öz siyasətində dəyişiklik etməlidirlər. Azərbaycanın işğal olunmuş torpaqlarından qeyd–şərtsiz çıxmalıdırlar və Türkiyəyə qarşı əsassız ittihamlardan əl çəkməlidirlər". İnanırıq ki, dünya tarixi həqiqətləri biləcək, erməni millətçilərinin və erməni işbazlarının uydurduqları yalançı "soyqırımın" mahiyyətini anlayacaq və bu avantürist uydurmanı birdəfəlik dəf edəcək, tarixi ədalət arxiv sənədlərinin dili ilə zəfər çalacaq. O zaman zəka və müdriklik, tarixi ədalət qalib gələcək.

**Etnik areal**

Hər hansı bir etnosun yaşadığı və məskunlaşdığı ərazi.

**Etnik azlıq**

Polietnik cəmiyyətlərdə etnik xarakteristikalarına görə fərqlənən qruplar cəmiyətdə dominat mövqeyə malik ictimai resursların az hissəsini alır və etnik stratiffikasiya sisteminin əsas hissəsi sayılırlar. Etnik azlıqların statusu sosial cəhətdən





möhkəmləndirilir və say etibarilə deyil, ümumi əhəmiyyət kəsb edir. (İqtisadi resurslara məhdud qaydada giriş, siyasi həyatda iştirak, idarəetmə və s.) Etnik azlıq nadir hallarda imiqrasiya üzrə nəzarət edən və polietnik cəmiyyətdə iqtisadi, siyasi, mədəni həyatda dominatlıq edən etnik qruplar tərəfindən ayrıseçkiliyə məruz qalmır. Sosial-siyasi quruluşlarına və cəmiyyətdə tutduğu mövqeyə görə, etnik azlıqlar müasir ədəbiyatda plüarilist-etnomədəni unikallığını qoruyub saxlamağa cəhd edir.

**Etnik birləşmə**

Müxtəlif etnik mənsubiyyətə malik olan insan qruplarının daha böyük etnik birliklərdə birləşməsi nəzərdə tutulur.

**Etnik birlik**

İnsanların tarixən yaranmış birliyi. Etnik birlik bir çox hallarda dil, adət-ənənə, mədəniyyət və s. cəhətdən yaxın olan bir neçə xalq mənasında işlədilir.

**Etnik bölgü**

Bu zaman vahid etnos bir neçə etnosa bölünür və onların hər biri müstəqil şəkildə fəaliyyət göstərir, əvvəlki vahid etnos isə öz mövcudluğunu dayandırır.

**Etnik divergensiya**

Hər hansı bir vahid etnik sistemin parçalanaraq ona bənzər yeni sistemlərin yaranması. Bu o zaman baş verir ki, etnosun tərkibindən hər hansı bir parça ayrılsın və müstəqil etnos yaransın. Diasporlarda bu termin özünü aşkar büruzə verir. Məsəl üçün bu gün Rus diasporunda etnik divergensiya nəticəsində digər etnoslar və onların diasporları - ukraynalılar və beloruslar yaranıblar.

**Etnik əlaqələr**

Etnoslar arasında qarşılıqlı hərəkət.

**Etnik hisslər**

Diaspor nümayəndələrinin öz etnik maraq və birliyinə, yaxud digərlərinə emmosianal münasibəti.

**Etnik identilik**

Bu etnik dəyərlər, simvolar, tarixi-ictimai keçmişə etnik qrupun hisləridir. 3 yanaşması mövcuddur:

- Şəxsi-psixoloji;
- Sosial-psixoloji;
- Etnososioloji.

**Etniklik**

İnsanların milli əlamətlərə görə identifikasiyası.

**Etnik miksasiya**

Bir-biri ilə bağlı olmayan etnik qrupların inteqrasiyasından yaranan yeni etnik icma forması.

**Etnik münaqişə**

Müxtəlif millətlər, etnik və etnoqrafik qruplar arasındakı bu və ya digər səbəblərdən baş verən, zorakı üsullardan və vasitələrdən istifadə edilən mübarizə. Diasporların tez-tez rastlaşdığı hadisə.

**Etnikos**

1970-ci ildə J.B.Bromley tərəfindən irəli sürülən bu termin öz etnik xüsusiyyətlərini və adət-ənənələrini xarakterizə edən icmanı ifadə edir. Bu zaman diaspor öz adət-ənənələrinə, dilinə, mənəviyyatına və s. dəyərlərinə digərlərini yaxın buraxmaq önə çəkilir. Əsasən sosial-iqtisadi xüsusiyyətlərə xas olur.





**Etnik özək**

Müəyyən bir ərazidə kompakt halda yaşayan etnosun əsas hissəsi.

**Etnik parsiasiya**

Hər hansı bir etnosun bir neçə hissəyə ayrılması.

**Etnik partiatsiya**

Proses zamanı bir etnos bir neçə yerə bölünür. Bu etnik fuziyanın əksi kimi çıxış edir.

**Etnik periferiya**

Hər hansı bir etnosun nümayəndələrinin kompakt qrupu.

**Etnik proseslər**

Etnik proseslər forma və məzmununa görə fərqlənir: 1. Etnos, xalq və millətin digər etnik birlik, xalq və millətlə qarışması (konsolidasiya, assimilyasiya, inteqrasiya); 2. Eyni coğrafi mühitdə yaşayan etnos və xalqların qarşılıqlı əlaqəsi nəticəsində yeni etnik birliyin yaranması və diferensasiyası.

Etnik proseslər çoxşaxəli və mürəkkəb prosesdir. Müasir etnologiya elmində onun iki əsas növünün adı çəkilir:
1) etnoevolyusional; 2) etnotransformasion.

Birinci halda milli inkişaf bir sıra dəyişikliklərə məruz qalsa da, milli şərait əsasən dəyişilməz olaraq qalır,

İkinci halda isə etnos digərinin içərisində əriyir və assimilyasiya olunduğu etnosun bütün keyfiyyətlərini, eləcə də milli şüurunu qəbul edir.

**Etnik qrup**

Etnik qrup anlayışı eyni dilə, dinə, mədəniyyətə, tarixə malik azsaylı toplumlara şamil edilir. Etnososial təhsil, xüsusi etnik, etnopsixoloji, etnomədəni, dil və dini əlamətlərlə malikdir.

Müasir alimlərin əksəriyyəti tərəfindən etnik qrupların bu tip xarakterik əlamətləri göstərilir: ümumi mədəni ənənələr, identiklik, xüsusi mədəni nailiyyətlər, məxsusi sosial institutların olması, ümumi özünüaparma xaraktristikası, xüsusi simvolik əlaqələr, irqi və fiziki yaxınlıq, ümumi ənənələr, din, mədəni dərk-edilmə, ümumi miqrasiya, ailə-nigah müna-sibətlərinin ümumi forması, ümumi dil və s.

**Etnik separtasiya**

Müəyyən bir etnosun bir hissəsinin ondan ayrılıb müstəqil etnosa çevrilməsi prosesidir. Bu etnik assimilyasiyanın əksi deməkdir.

**Etnik simvolika**

Mənəvi və milli dəyərlərin əks edilidiyi komplekslər toplusu.

**Etnik status**

Etniklərarası sistemdə indivdin və yaxud qrupun yerini və mövqeyinin göstəricisidir.

**Etnik təmizləmə**

Hər hansı bir ərazidə yaşayan etnik qrupun zorla öz doğma yurdlarından çıxarılaraq başqa yerə köçürülməsi.

**Etnik tipologiya**

Milli, irqi, etnik mənsubiyyəti nəzərə almaqla insanların psixoloji xüsusiyyətləri. Adətən irqi xüsusiyyətlərin, ibtidai xalqların psixologiyasının öyrənilməsinə yönəldilir.

**Etnoevolyisional**

Milli etnik proseslərdə milli inkişaf bir sıra dəyişikliklərə məruz qalsa da, milli şərait əsasən dəyişilməz qalır.





**Etnofor**

Etnik şüurun daşıyıcısı olan individ.

**Etnogenez**

- Bir neçə etnik komponentdən yeni etnik ümumiliyin əmələ gəlmə prosesi.
- Yeni tayfa qrupu və ya xalqın etnogenezdə daha qədim tayfa qruplarının iştirakı.
- Etnogenez prosesində başqa ərazidən köçənlərin iştirakı.

**Etnoicma**

Etnik kökənli eyni millətin birliyi. Burada sosial institutlar yaradan insanlar, icmalar yerli ictimaiyyətə adaptasiyanı çətinliklə keçirlər.

**Etnokonfessional**

Etnik qrupun və ya diasporun dini etiqadları ilə bağlı olan hərakat.

**Etnolinqvistika**

Etnoqrafiya ilə əlaqədə inkişaf edən dilçilik bölməsi.

**Etno-linqvo-regional struktur**

Cəmiyyətin etno-linqvistik, ərazi tərkibinin tarixi fonu etnik və regional qruplar arasındakı qarşılqlı münasibətlərə xeyli dərəcədə təsir edir. Bir etnik və ya regional qrupun başqasını əzməsi, yaxud istismar etməsi, tarixən mövcud olan etnik gərginliklər qarşılıqlı düşmənçilik hisslərini uzun müddət qızışdıra bilər. Zorakı toqquşmalar ümumi diqqət və geniş fəaliyyət doğurur. Ona görə də davakar dini hərəkatlar, heterogen ölkələrdə baş verən toqquşmalar əksər hallarda etnik xarakter daşıyır.

## Etnomədəni marginallıq

İki etnik mədəniyyətin qovşağında qalan və hər ikisini qarvamaqa məcbur olan insanların vəziyyətidir. Bu diasporlar, etnik qruplar, azsaylı xalqlar arasında təsadüf olunan hal olmaqla yanaşı, əsasən, qarışıq nikah və miqrasiya zamanı yaranır.

## Etnos

*(Yunan sözü olub, qəbilə, xalq deməkdir)*

Dialekt də daxil olmaqla ümumi dilə, ümumi xüsusiyyətlərə, sabit mədəniyyət elementlərinə və mentalitetə malikdir. Etnos başqa etnik birliklərdən fərqli olaraq vahid mənşəli olur və eyni tarixi tale yaşayır. Etnosun formalaşması üçün dil, mədəni və dini fərqlər, ərazi və təsərrüfat həyatının birliyi vacibdir. Qeyd etmək lazımdır ki, müstəqil ərazi amili sonradan itirilə bilər.

Mədəniyyət komponentlərindən (dil, adət, xalq yaradıcılığı, din, ənənə, məişət xüsusiyyətləri, davranış normaları və s.) heç biri etnofərqləndirmənin məcburi əlamətləri deyildir. Etnos tamlığa, etno-mədəni birliyə (subetnos) malik mürəkkəb sistemdir. Etnik sistemin əsas əlamətlərinə malik olan subetnoslar davranış tərzi, məişət tərzi, dil, yaxud dialekt və s. əlamətlərə görə bir-birindən fərqlənir.

Elə insanların mədəni birliyidir ki, özünü başqa, anoloji insan birliklərindən fərqləndirir, özünəməxsusluğunu dərk edir. Özünüdərk həm real mövcud olan ümumi birliyin ifadəsi kimi və həm də (ən vacib) özünün başqa birliklərindən fərqli olduğunu anlamağın ifadəsi kimi mövcud olur. Həmçinin tarixi mənşə və talenin ümumiliyi, tarixi hadisələrdə iştirakın xarakteri kimi məsələlər özünüdərkin dayaqlandığı amillərdir.

Etnik mənsubiyyətin məcburi, sərəncamla dəyişdirilməsi cəhətləri tarixdə çox böyük müqavimətlərlə üzləşmişdir. Çünki insanı öz xalqına mənsubluğu hissi onun identikliyinin kökü, özəyi, özünü şəxsiyyət kimi hiss etməsinin əsasıdır. Etnosun





mədəniyyəti onun bir sistem kimi sabitliyini və inteqrasiyasını təmin edir. "Bu mədəniyyət"in elementləri ikinci funksiyanı da, "biz" və "onlar" simvollarının fərqlənlirilməsini də yerinə yetirirlər.

Müasir elmi ədəbiyyatda «etnos» anlayışının mahiyyətinə müxtəlif aspektlərdən yanaşılır. Məsələn, akademik Y.V.Bromleyə görə etnos sosio-kultur hadisə olub etnik şüura və özünüdərkə malik olan insanların ümumi və sabit xüsusiyyətlərini özündə birləşdirir, o, psixoloji xassələrə və müəyyən ərazi daxilində formalaşma xarakterinə malikdir.

Tanınmış alim A.Qumilyov isə etnosa bir hadisə kimi yanaşır, ona biosfer, deməli təbiət hadisəsi kimi baxırdı. Belə yanaşma metodu təbii ki, etnosun sosial mahiyyətini kölgə altına alır və etnoslararası münasibətlərdə insan amilini ön sıraya çıxarır .

Etnos sözün dar mənasında, nisbətən sabit xüsusiyyətləri olan mədəniyyət və psixikaya malik, habelə öz vəhdətini insanların başqa qruplarından fərqləndirən, bir dildə danışan insanların tarixən yaranmış məcmusudur.Etnoslar termini XX əsrin əvvəlində yaranmış və rus alimi S.M.Şirokoqorovun adı ilə bağlıdır.

## Etnosların təsnifatı

Müəyyən məqsədlər naminə etnosların müxtəlif qruplara ayrılması.

## Etnososial orqanizm

Məlumdur ki, hər bir etnosun özəyi etnososial orqanizm hesab olunur. Tanınmış etnosşünas alimlərdən Y.B.Bromley, M.Kozlov, L.Qumilyov və başqaları etnosun bu struktur vahidliyi ilə bağlı maraqlı fikirlər irəli sürmüş, etnososial orqanizmin çoxcəhətliyini qeyd etmişlər. Y.Bromley etnososial orqanizmin ayrı-ayrı əlamətləri üzərində dayanaraq iqtisadi birliyi onun ən mühüm əlaməti hesab edir.

V.İ.Kozlov da bu fikirdədir ki, etnososial orqanizmin həyatında iqtisadiyyat böyük rol oynayır.

Elmi ədəbiyyatda millət anlayışını etnososial orqanizm kimi qəbul edirlər. Y.Bromley də həmçinin bu məsələyə müsbət mövqedən yanaşır. O, hətta qeyd edir ki, əgər millət öz dövlətinə malik deyilsə də onun müəyyən hakim istehsal münasibətləri və müvafiq sosial əlaqələri mövcuddur.

Etnososial orqanizm ərazi, iqtisadi, sosial, mədəni və siyasi birlik əlamətlərinə malikdir. Etnosun inkişafında bu əlamətlərin hər birinin əhəmiyyəti danılmazdır. Digər tərəfdən, etnosu həm də millət kimi qəbul edən tədqiqatçılar aydın göstərirlər ki, millət, millətlərarası münasibətlər məhz bu etnosların fəaliyyətlərinin nəticəsi kimi meydana çıxır. Bu haqda Y.Bromleyin tədqiqatlarında istənilən qədər fikrə rast gəlmək mümkündür. Bu cəhətdən etnosun mahiyyəti ilə bağlı millət və milli münasibətlər məfhumlarının da araşdırılmasının vacibliyini, cəmiyyətin həyatında onların üzərinə düşən sosial-siyasi vəzifələri qeyd etməmək olmaz. Y.Bromley eyni zamanda etnik prosesi milli proses kimi, etnoslararası prosesi yaxud inteqrasiyanı millətlərarası proses və inteqrasiya kimi götürür

**Etnososial stratifikasiya**

Etnik qrupların iyerarxik sıralanması, bu zaman onların statusu və mövqeləri nəzərə alınır.

**Etnostrukturun transformasiyası**

Etnosun siyasi faktor kimi funksiyasını itirərək, yalnız mədəni faktor kimi fəaliyyət göstərməsi.

**Etnosun musiqisi**

Onun etnik-tarixi mövcudluğunu təmin edən çox mühüm mədəniyyət sahəsidir. Xalqın musiqi irsi xalq haqqında, onun tarixi mənşəyi və etnik özünüdərki, onun tarixiliyi, psixologiyası və hissləri haqqında informasiya daşıyıcısıdır və bu informasiya





yükünü tarixlər ərzində aşınmaz şəkildə qoruyub-saxlaya bilir. Bu baxımdan, Qafqazda yerli və qədim xalq olan azərbaycanlılara məxsus qədim mərasim və folklor nəğmələri, xalq mahnı və rəqsləri, muğam və aşıq sənəti, musiqi alətləri, ifaçılıq sənəti, xalq musiqisi terminləri, etnik-milli musiqi təfəkkürü azərbaycanlıların bir etnos kimi tarixiliyini, özünəməxsus yerli mədəniyyətə, etnogenezə malikliyini, yerli xalq olduğunu sübut edən etibarlı mənbə, tutarlı faktlardır.

**Etnotransformasiya**

Milli etnik proseslərdə etnos digər etnos və millətlər içərisində əriyir və assimilyasiya olunduğu etnosun bütün keyfiyyətlərini, eləcə də milli nüfuzunu qəbul edir.

**Etos**

Yunan sözü olub adət, əxlaq, xarakter deməkdir. Sosial və ya etnik birliyin həyat tərzi və üsuludur. Etnos üçün qəbul edilmiş normalar, dəyərlərin ierarxiyası. Nümunəvi etnos üçün nümunəvi şəxs meyarları etosada öz əksini tapır. Etosu təşkil edən dəyər və normalar sosial təşkil olunmanın, həyat tərzinin xüsusiyyətlərini və tarixi keçmişi əks etdirir. Etnos özünü ya aşkar şəkildə göstərir, ya da müvafiq ictimai birliyin üzvlərinin davranışına (şərəf anlayışı, ünsiyyət normaları, istehsalı və istirahəti təşkiletmə qaydaları və s.) əsasən müəyyənləşdirilir. Etos əsasən fərdə deyil, qrupa aid edilir. Diasporları etosa bənzədirlər.

## -Ə-

**Əcnəbilər anlayışı**

Əcnəbilər üçün rejim dövlətlərin daxili qanunvericiliyi ilə beynəlxalq öhdəlikləri nəzərə almaqla müəyyən edilir.

Əcnəbi anlayışının iki tərifi var. Onlardan biri ümumi, nəzəri xarakter daşıyır: əcnəbi müəyyən dövlətin ərazisində olub, həmin dövlətin vətəndaşı sayılmayan, başqa dövlətin vətəndaşlığında olan şəxsdir. Təcrübə göstərir ki, dövlətdaxili sahədə tərif özünü doğrultmur. Belə ki, əcnəbi dövlətin vətəndaşlığında olduğuna baxmayaraq, qaldığı dövlətin ərazisində vətəndaşlı olmayan şəxs də sayılmaq olar. Digər tərifə adətən dövlətdaxili hüquqda rast gəlinir. Bu tərif ilk növbədə sırf praktiki, daxili əhəmiyyətə malik olur, belə ki, bu və digər dövlətdə məhz hansı şəxslərin əcnəbilərə aid olduğunu müəyyən edir. Bu tərifin bir çox modifikasiyaları mövcuddur.

İkinci tərifin tipin variantını bu cür ifadə etmək olar: qaldığı ölkənin vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığında olmasına dair sübutlara malik olan şəxs xarici vətəndaş sayılır.

Burada "əcnəbi" əvəzinə işlədilmiş "əcnəbi vətəndaş" termini vəziyyəti daha dəqiq ifadə edir. Belə ki, bir sıra dövlətlərin qanunvericilik təcrübəsində "əcnəbi" termini geniş mənada işlədilərək, təkcə əcnəbi vətəndaşları deyil, həm də vətəndaşlığı olmayan şəxsləri də əhatə edir.

**Əhali**

Mövcud anda bu və ya digər dövlətin ərazisində yaşayan fərdlərin məcmusu. İstənilən dövlətin əhalisi: mövcud dövlətin vətəndaşlarından, əcnəbilərdən və vətəndaşlığı olmayan şəxslərdən ibarətdir.





**Əhalinin perspektiv sayı**

Ölüm cədvəlinin məlumatına əsasən hesablanır. Əhalinin perspektiv sayının müəyyən olunması elmi cəhətdən əsaslandırılmış hesablama metodlarına və proqnozlara əsaslanır. Yaxın perspektivə əhalinin sayı mütləq artım sürəti göstəricisi əsasında hesablana bilər. Bundan ötəri proqnozlaşdırılan dövrdən əvvəlki bir neçə ilə orta mütləq artım sürəti hesablanır. Əgər yaxın 2-3 ilə həmin göstəricilər dəyişməz qalacaqsa, onda əhalinin perspektiv sayı həmin göstəricilər üzrə hesablanır.

Bu da dövlətlərin ərazilərində yaşayan yerli və emiqrantların say göstəricilərinin müəyyən edilməsi üçündür.

**Əksmədəniyyət**

Müasir cəmiyyətə öz çərçivəsində yaşayan hər hasnı bir etnik qrup, icma yaxud diasporun mədəniyyətinə qarşı yönələn hərəkət.

**Əməkçi Miqrant**

Əməkçi miqrantlar haqqında 97 saylı Beynəlxalq Əmək Təşkilatı konvensiyasının 11-ci maddəsi "əməkçi miqrant" anlayışını aşağıdakı şəkildə müəyyən edir: "Əməkçi miqrant bir dövlətdən digər dövlətə öz şəxsi hesabına olmayaraq iş tapmaq məqsədilə miqrasiya edən və müvafiq qanunun əməkçi miqrant qismində çıxış etməsinə imkan verdiyi bütün şəxslərdir". Konvensiyanın fəaliyyət sferasına sərhəd işçiləri, müstəqil peşə üzvləri və artistlər, həmçinin dənizçilər daxil edilmir.

Konvensiyanın müddəaları aşağıdakı kateqoriya şəxslərə tətbiq edilmir: beynəlxalq müəssisələr və təşkilatlar tərəfindən göndərilmiş və ya işə götürülmüş və ya öz ərazisindən kənarda rəsmi funksiyaları yerinə yetirmək üçün hər hansı dövlət tərəfindən göndərilmiş və ya işə götürülmüş, buraxılışı və statusu ümumi beynəlxalq hüquq və ya konkret beynəlxalq saziş və konvensiyalarla tənzimlənmiş şəxslərə; buraxılışı və statusu işə götürən dövlətlə razılaşma ilə tənzimlənən və bu razılaşmaya

əsasən əməkçi miqrant sayılmayan, inkişaf və ya əməkdaşlığın başqa proqramlarında iştirak edən, dövlət və ya onun adından öz ərazisindən kənarda işə götürülmüş şəxslərə; öz ölkəsində yaşamayan və investor qismində çıxış edən şəxslərə; əgər belə tətbiq müvafiq milli qanunvericilikdə və ya müvafiq iştirakçı dövlətə münasibətdə fəaliyyətdə olan beynəlxalq sənədlərdə nəzərdə tutulmamışdırsa, qaçqınlar və vətəndaşlığı olmayan şəxslərə; sahilqırağı stasionar qurğularda işləyən, işə götürən dövlətdə yaşamaq və ödənişli fəaliyyətlə məşğul olmağa icazəsi olmayan dənizçi və əməkçilərə aiddir.

**Əmək miqrasiyası haqqında qanunvericilik**

Əmək miqrasiyası haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının Əmək Məcəlləsindən, Azərbaycan Respublikasının digər müvafiq qanunvericiliyindən və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.

*Maddə 3.* Bu qanunun şamil edilmədiyi şəxslər

Bu qanun aşağıdakı şəxslərə şamil edilmir:

- İşlədiyi ölkədə daimi yaşayanlara;
- Sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara;
- Beynəlxalq müqavilələr əsasında yaradılmış təşkilatların rəhbər işçilərin;
- Diplomatik nümayəndəlik və konsulluqlarda işləyənlərə;
- Beynəlxalq təşkilatlarda işləyənlərə;
- Üç aydan çox olmayan müddətdə ezamiyyətdə olanlara;
- Müvafiq icra hakimiyyəti orqanı tərəfindən işə cəlb edilənlərə;
- Dövlət qeydiyyatına alınmış dini təşkilat və cəmiyyətlərdə dini fəaliyyətlə məşğul olanlara;





- Kütləvi informasiya vasitələrinin akkreditə olunmuş əməkdaşlarına;
- Dənizçilərə;
- İdmançılara və incəsənət işçilərinə;
- Ali təhsil müəssisələrində müzakirə kurslarının oxunması üçün dəvət edilən professor-müəllim heyətinə, mühazirəçilərə və elmi-tədqiqat işləri aparan mütəxəssislərə.

**Əməkçi miqrantın ailə üzvləri**

Əməkçi miqrantın arvadı (əri), 18 yaşına çatmamış uşaqları və himayəsində olan valideynləri.

## -F-

**Fəxri konsul**

Ştatdankənar konsul - dövlətin diplomatik xidmətində rəsmi çalışmayan şəxs. Bir sıra işləri çıxmaq şərti ilə fəxri konsul konsulluq xidmətinin funksiyalarını həyata keçirə bilməz, yəni müxtəlif sənədlər verə bilməz, əmək haqqı ala bilməz və s. Fəxri konsulluq 1961-ci il Vyana razılaşmasının 22-ci maddəsi ilə tənzimlənir. Burada fəxri konsulun vəzifələri aşağıdakı qaydada izah edilir:

Razılaşan hər iki tərəf fəxri konsulluq vəzifəli şəxsinin təyin olunması barədə razılığa gələrlərsə, onlar fəxri konsulluq vəzifəli şəxslərinə tətbiq edilən rejimin müəyyən edilməsi məqsədilə bu Konvensiyanın müddəaları və beynəlxalq ümumi hüququn normalarına əsasən müvafiq sazişlərin bağlanması məsələləri ilə əlaqədar məsləhətləşmələr keçirəcəklər.

**Filantropiya-xeyriyyəçilik**

Hərfi tərcüməsi "insanlara və insanlığa sevgi" olaraq interpretasiya olunur. Məqsədi isə cəmiyyətin ümumi inkişafına təkan verməkdən ibarətdir. Əksər hallarda, filantropiyanın təyinatı böyük kütlə insanların mənfəətinə yönəlik fəaliyyətlərin dəstəklənməsinə istiqamətləndirilir. Diasporda təmsil olunan insanların belə cəmiyyətləri yaratması onların lobbiçilk fəaliyyətinə dəstək verir.

**Filogenez**

Elmi təsəvvürlərə görə insanların müxtəlifliyi və coğrafi məkanlarda yaranması və sonradan milli fərqlərin yaranma mənbəyini təşkil edən amil.





**Fiziki köçürmə**

Təsirə məruz qalmış şəxs(lər)in digər sahəyə köçməsinin tələb edilməsi. Problem ilə əlaqədar olaraq torpağın əldə olunması nəticəsində sığınacaq və əmlakın itkisinə səbəb olur.

**Fond**

İcma fondları əsasən müəyyən bir arealda yerləşən region və ya şəhərin maraqları çərçivəsində həmin ərazinin yerli icmaları tərəfindən maliyyələşdirilir. Korperativ və ya şəxsi fondlar şəxsi fondlar sayılır və əsasən sponsor-şirkəti və ya firma adından qrant təqdim olunması məqsədilə işgüzar dairələr və ya iş adamları tərəfindən təşkil olunur.

Müstəqil fondlar da şəxsi olub bir və ya bir neçə şəxsin əmələ gətirdiyi qrupun vəsaiti hesabına fəaliyyət göstərir. Bu gün diasporların maliyyə toplanması müxtəlif adda yaradılan fondlar hesabına baş verir. Bir sıra ölkələrin diaspor fondları fəaliyyət göstərir ki, onlar pul vəsaitlərin bu vasitə ilə həyata keçirir və keçirilən tədbirlərin maliyyəsi fondan ayrılır.

**Frustrasion gərginlik fazası**

Milli etnik münaqişələr zamanı təsadüf olunan, başqalarına qarşı oyanan millətçilik ruhununvə emosiyaların məişət səviyyəsindən kənara çıxmaması.

**Fundamentalizm**

Bu anlayışdan tənqidə və alternativ variantlara açıq olmayan təfəkkür və fəaliyyət sistemi kimi səciyyələnən struktur anlayış kimi istifadə olunur. Bununla yanaşı, fundamentalizm hərtərəfli mədəni və siyasi antimodernizmin çeşidli formalarının və nəzəri yönümlərinin sinoniminə çevrilib. Bu anlayışın ancaq antimodernizmin dini təzahürlərinə və ya həm də başqa sahələrə tətbiq edilməsi məsələsi mübahisələr doğurur.

Bir çox diasporlar fundamentalizmin nəticəsində ABŞ, Kanada, Almaniya və s. Ölkələrdə çoxsaylı problemlərlə üzləşiblər. Əksər hallarda fundamentalizm dini yönümdə yozulur. Bu zaman onun aşağıdakı yönümləri fərqləndirilir:

- xristian fundamentalizmi;
- islam fundamentalizmi;
- buddist fundamentalizmi;
- siqh fundamentalizmi;
- yəhudi fundamentalizmi;
- hinduist fundamentalizmi;
- sintoist fundamentalizmi;

Lakin fundamentalizmin formaları sadalananlarla bitmir, onun müəyyən mədəniyyətlərdə etnik fonda inkişaf edən başqa formaları da var. Çağdaş diskussiyalarda başlıca diqqət islam fundamentalizminə yönəldilir ki, bu da iki səbəbdən düzgün sayıla bilməz: birincisi, bunun nəticəsində başqa dinlərin və etnik icmaların din üçün eyni nəticələr doğuran başqa çoxlu dini fundamentalizm formaları gözdən qaçırılır; ikincisi, islam fundamentalizmi yalnız bir formada təzahür etmir, tez-tez bir-birinə qarşı dayanan çoxlu variantlarda özünü göstərir.

**Fuziya (birləşmə)**

Bu proses özlüyündə maraqlı tərəfləri özündə əks etdirir. Burada iki xalq və iki mədəniyyət birləşərək yeni mədəniyyət və xalq yaradırlar ki, politoloqlar bu halı müasirlik ilə yanaşı yox olmağın qarşısının alınması kimi qiymətləndirirlər.





## -G-

**Genosid**

Yun. genos-nəsil, qəbilə, caedre-öldürmək mənasını verir. Soyqırım. Hər hansı millləti, irqi, dini, etnik qrupu tam və ya qismən məhv etmək məqsədilə edilən hərəkət Beynəlxalq qanunvericilikdə bəşəriyyət əleyhinə ən ağır cinayət hesab edilir. Soyqırım cinayəti ilk dəfə 1948-ci ildə ("Genosid cinayəti haqqında xəbərdarlıq və onun cəzalandırılması haqqında Konvensiya") beynəlxalq hüquqi status almışdır. Soyqırıma yalnız beynəlxalq cinayət kimi baxılmır. Belə ki, Azərbaycan soyqırım cinayəti sülh və bəşəriyyət əleyhinə olan cinayətlərə aid edilir və onun törədilməsinə görə xüsusi cinayət məsuliyyəti nəzərdə tutulur. (CM maddə 103)

Soyqırımın əsas ictimai təhlükəliyi ondan ibarətdir ki, bu cinayətin törədilməsi nəticəsində ayrıca mədəniyyəti, adətləri, ənənələri və.s. yaşam tərzi milli, etnik,irqi, və ya dini insanlar qurup tamamilə və ya qismən öz mövcudluğunu itirə bilər. Bu isə insanlar birliyinin müxtəlifliyinin itirilməsinə və beynəlxalq nizamlama qanunauyğunlarının əsaslarının sarsılmasına gətirib çıxara bilər. BMT-nin Baş Məçlisinin 10 dekabr 1948-ci il qəbul etdiyi "Ümumdünya insan hüquqları" Bəyannaməsində qeyd olunur ki, hər bir insanın yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır, heç kəs insan ləyaqətini alçaldan alçaldıcı və qeyri-insani cəza və işgəncələrə məruz qala bilməz, hər bir insan onun harada olmasından asılı olmayaraq hüquq sübyekti hesab olunur və bütün insanlar qanun qarşısında bərabərdilət və qanunlarla eyni dərəcədə müdafiə olunurlar.

Soyqırım - beynəlxalq hüququn qəbul edilmiş ümumi pirinsip və normalarının, habelə insan hüquq və azadlıqlarının kobud sürətdə pozulmasıdır.

Soyqırımın obyektiv cəhəti aşağıdakı hərəkətlərin birinin edilməsində ifadə oluna bilər:

- milli, etnik, irqi və ya dini insan qrup üzvlərinin tam və ya qismən qətli:
- milli, etnik, irqi, və ya dini insan qrupu üzvlərinin sağlamlığına ağır xəsarət yetirilməsi:
- yuxarıda sadalanmış qrup üzvləri arasında doğumun məcburi kəsilməsi:
- yuxarıda sadalanan quruplarda dünyaya gəlmiş uşaqların digər milli, etnik, irqi, və ya dini quruplara verilməsi: milli, etnik, irqi, və ya dini qrupun üzvlərinin fiziki mövcudluğunun məhvinə yönəlmiş yaşayış şəraiti yaradılması.

Subyektiv cəhətdən soyqırım birbaşa qəsdlə xarekterizə olunur. Çünki təqsirləndirilənin məqsədi qanunda göstərilmiş üsullarla müəyyən milli, etnik, irqi və dini qrupun tam və ya qismən məhv edilməsi olur.

**Geosiyasət**

Yunanca "geo"- yer, torpaq sözü ilə siyasət sözünün birləşməsindən yaranan geosiyasət elmində diaspor mövzusu coğrafi amillə şərtləndirilir. Burada region dövlətdaxili fenomen hesab olunursa diasporlar transmilli fenomen kimi qəbul edilir. İqtisadi səbəblə yaranan bəzi diasporlar sonradan siyasi qüvvəyə çevrilərək beynəlxalq münasibətlər sisteminə aid olurlar.

**Geriqaytarılmamaq prinsipi**

Burada hər hansı bir miqrantın və qaçqının öz istəyi əleyhinə olaraq onu köç etdiyi dövlətin ərazisindən zorla çıxarılaraq vətənlərinə geri qaytarmamaq nəzərdə tutulur.

**Getto**

Etnik qrup və yaxud diasporun kompakt halda yaşadığı icma tipi.





**Gettolaşdırma**

Xaricə müxtəlif səbəblərdən mühacirət edib - dil, adət-ənənə, mətbəx və s. qoruyaraq ictimaiyyətə adaptasiya olmadan insanların başqa mədəniyyətləri qəbul etməmək üçün öz mədəniyyətini izolə etmək.

**Gizli birliklər**

Siyasi, ictimai, kriminal və s. əsaslı bu cür birləşmədə dini-mistik ruh hakimlik edir. Ümumi maraqlı şəxsləri ətrafında toplayan gizli birliklər qədim adət-ənənəyə riayət edir və assimilyasiyaya məruz qalmamaq üçün müxtəlif vasitələrə əl atırdılar. Mühacirləri öz ətrafında birləşdirməyə nail olan gizli birliklər diasporun təməlini qoyanlar hesab olunur. Əvvəllər bu cür birliklərə tacirlər və kriminal aləmlə bağlı olan şəxslər rəhbərlik edirdisə, zamanla onları hüquqşünaslar və ziyalılar əvəz etdikdən sonra gizli birliklər nüfuzlu və sivil diaspor təşkilatına çevrilirdilər.

İlk gizli birliklər XIX əsrin 60-cı illərində Cənub-Şərqi Asiya ölkələrində, Yaponiya və Avstraliyada yaradılmışdır. İlk diaspor təşkilatına çevrilənlər isə 1867-1875-ci illər arası "Kubada Çin-Honkonq birliyi" ABŞ-da "Qardaşlar","İttifaq" - gizli birlikləri idi.

**Gürcüstan Azərbaycanlıları**

Azərbaycanla sərhəd və tarixi bağlılığı olan Gürcüstanda təxminən 500 minə qədər azərbaycanlı yaşayır. Gürcüstanın Borçalı mahalında yaşayan soydaşlarımızı Azərbaycan diasporunun tərkib hissəsi hesab etmək yalnış olardı. Çünki onlar öz dədə-baba torpaqlarında yaşayırlar və bu şəxslərin burda yüzilliklər boyu tarixi var.

Gürcüstan Respublikası postsovet məkanında etnik tərkibinə görə ən zəngin ölkələrdən biri kimi tanınır. 1989-cu ilin məlumatına görə, burada əhalinin 30 faizindən çoxu başqa

millətlərin nümayəndələrindən ibarətdir. Rəsmi statistik göstəricilərə görə, Gürcüstanda hal-hazırda 300 min nəfərdən çox azərbaycanlı yaşayır. Lakin bu rəqəm mübahisəlidir, çünki bir sıra qeyri-hökumət təşkilatları azərbaycanlıların sayının 500 min, hətta 600 min civarında olduğunu bildirir. Bəzi dairələrin müxtəlif rəqəmlər üzərində israr etməsinə baxmayaraq azərbaycanlıların Gürcüstanda ən böyük etnik qrup olduğu danılmazdır.

Hazırda Gürcüstan ərazisində azərbaycanlılar yaşayan kəndlərin sayı 200-dən çoxdur. İndi Gürcüstan ərazisində soydaşlarımızın ümumi sayı qeyri-rəsmi hesablamalara görə yarım milyon nəfərdən artıqdır.

2000-ci ildə keçirilmiş əhalinin ümumi siyahıya alınmasının nəticələrinə görə isə Gürcüstanda 289.761 nəfər (Gürcüstan əhalisinin 6,5 %-i qədər (ölkə əhaisinin sayı 4.371.535 nəfərdir) azərbaycanlı yaşayır. Göründüyü kimi, azərbaycanlılar Gürcüstandakı milli azlıqlar arasında say çoxluğuna görə birinci yeri tuturlar (İkinci yeri tutan ermənilərin sayı 248 min 929 nəfər, yəni ölkə əhalisinin 5,7 faizi). Qeyri-rəsmi məlumatlarda isə azərbaycanlıların sayı daha çox göstərilir. Maraqlıdır ki, rəsmi statistika çox tez-tez dəyişir. Beləki, 2004-cü ildə Statistika Departamentinin keçirdiyi sorğuda azərbaycanlıların sayı 247.789 min nəfərə endiyi göstərilir.

Gürcüstanda soydaşlarımız əsasən Kvemo-Kartli, Şida-Kartli və Kaxet bölgələrində məskunlaşmışlar. Onlar yığcam halda Marneuli, Bolnis, Dmanisi, Qardabani rayonlarında, Zalqa rayonunun Ərcivan elatında, Kaxet bölgəsinin Qaraçöp elatında, qismən isə Tetrisxaro (Ağbulaq), Zalqa (Barmaqsız), Telavi, Laqodex, Kaspi, Msxeta, Qori rayonlarında yaşayırlar.

Gürcüstanda azərbaycanlıların media sahəsində işləri passiv olsa da gedir. Burada «Qeyrət», «Gürcüstan», «Borçalı mollası», «Ziya», «Yeni yol», «Maarif» və «Qarapapaqlar» qəzet və jurnalları nəşr olunur. Ölkə TV və radio kanallarında ara-bir çıxışlar edən Gürcüstan azərbaycanlılarının bu ölkədə çoxsaylı təşkilatları var. (bax: Əlavə 1)





## -H-

**Heterogenlik**

Etnik tərkibinə görə müxtəliflik olmaq.

**Hind diasporu**

Dünyanın 120-dən çox ölkəsində məskunlaşan hind mühacirlərinin diaspor formalaşdırması, təşkilatlanması, siyasi-ictimai fəaliyyəti müxtəlif çətinliklərlə üzləşib. Bu çətinliklərə baxmayaraq Hind diasporu yaradılmış və aktiv fəaliyyət göstərən etnik diasporlar içərisində lider yerlərdən birini tutmuşdur.

Hind diasporunun təməlini qoyan mühacirət prosesini tədqiqatçılar 3 əsas dövrə ayırmışlar.

1. Qədim dövrdən başlanan və orta əsrlərə qədər davam edən mühacirət.
2. Müstəmləkə dövründə olan müacirət.
3. 1947-ci ildən bu günə qədər davam edən mühacirət.

Hindistanın müstəqillik əldə etməsindən sonra xarici siyasətdə xeyli dəyişiliklər etdi. Beynəlxalq aləmdə tanınmasında mühüm rol oynayan hind diasporu dövlətinin dirçəldilməsi istiqamətində mühüm işlər görüldü.

Daxili siyasətdə mühacirət prosesini tənzimlənməsi dünyanın müxtəlif bölgələrinə yeni mühacirət dalğasının başlanmasına şərait yaratdı. Yeni mühacirət dalğasına hərtərəfli köməklik göstərən hind diasporu 1960-cı illərə qədər etnik iqtisadiyyatının inkişaf etdirilməsində mühüm rol oynamışdı. 1947-60 cı illərdə 100-dən çox dövlətdə hind diasporunun olmasına baxmayaraq 14 dövlətdə onların fəaliyyəti daha fəal idi. 60-70-ci illərdə hind mühacirətinin intensiv şəkildə digər dövlətlərə xüsusilə 14 dövlətə köçməsi diasporun qüvvətlənməsinə səbəb oldu.

1900-1950-ci illərə qədər hind mühacirəti fəsil və yarımfəsil xarakteri daşımasına və onların 90%-nin kişilərin təmsil etməsinə baxmayaraq 60-cı illərdən sonra mühacirət prosesində dəyişikliklər yarandı. 10 il içərisində mühacirətin 30%-nin qadınlar təşkil etməsi diasporda nigah hadisələrinin artmasına səbəb oldu. Nəticədə demoqrafiq inkişaf hind diasporunun tərkibini genişləndirirdi.

1970-ci ildən sonra Yaxın Şərqdə neft hasilatının artması hind mühacirətinin kütləvi şəkildə bu ölkələrə köçməsinə səbəb yaratdı. 1970-90-cı illər arası Yaxın Şərqdə hindlilərin sayı 1.4 milyona yaxın idi. Səudiyyə Ərəbistanı, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri və Bəhreyndə Hind diasporunun əksəriyyəti neft mədənlərində çalışırdılar. Yaxın şərqdə Hind diasporunun 60%-ni müsəlmanlar təşkil edir. Hind diasporunun Yaxın Şərqdə fəaliyyəti sırf iqtisadiyyatla bağlı olduğundan onların siyasi fəaliyyəti passivdir. Hind diasporunun xırda burjuaziya və qara fəhlə siniflərinə aid olması onların siyasi fəaliyyətlə məşğul olmalarında çətinliklər yaradırdı. Hindlilər bu səbəbdən digər dövlətlərdə olan hindlilərlə zəif əlaqə qurmuşlar. Hindistan isə onların müdafiəsin tam təmin edə bilmir.

1980-82-ci illər arası hind mühacirətin əsasən tələbələr təşkil edirdi. Onların çoxu oxumaq məqsədilə getdikləri ölkələrdən geri qayıtmaq barədə fikirləşmirdilər. 90%-ni gənclər təşkil edən hind mühacirətin diacpor daxildə yeniləşməyə səbəb oldular. Bu ildən etibarən Hindistan rəsmən Hind diasporuna olan münasibətini tamamilə dəyişdi. Artıq diasporun Hindistanın xarici siyasətinin ayrılmaz tərkib hissəsi hesab edən ölkə rəsmiləri müxtəlif tədbirlər həyata keçirməyə başladı.

1965-ci ildən etibarən ABŞ-a hind mühacirətinin ən böyük dalğası başlandı. Yeni mühacirlərin əksəriyyəti ziyalılar, iş adamları və səadət axtaran gənclər idilər. Onların Amerikaya adaptasiyası daha asan baş verdi. İri şəhərlərdə kompakt halda birləşən yeni mühacirlər Hind diasporunun aparıcı qüvvəsinə çevrildilər. Onların assmilyasiyası sürətlə getsə də, din və dil amili





birləşdirici rolunu artırırdı. 70-ci illərdə ABŞ-a köçən hindlilərin əsas məqsədi təhsil almaq idi. Onlar digərlərindən fərqli olaraq diasporda passiv qüvvə hesab olunur. Diasporda yeni fikirlər irəli sürməyə çalışan 70-ci illərin mühacirləri hind milli adətənənələrinə riayət etməyi köhnə fikir hesab edirdilər.

Lakin onlar arasında Amerikada musiqi, incəsənət və ədəbiyyat sahələrində tanınanlar da az olmadı. Elm və təhsil sahəsində uğurlar əldə edən 70-ci illərin mühacırlərinin çoxu tibb və texnologiya sahələrinə də mühüm irəliləyişlər etdilər.

1980-1990-cı illər arası Amerikaya mühacirət edən hindlilərin çoxu geri qayıtmaq barədə düşünmürdülər. Onlar Amerikaya assimilyasiya olunmaq üçün gəlmişlər. Biznes və kompüter texnologiyası sahələrində böyük uğurlar əldə edən hindlilər vətənlə sıx əlaqə saxlayır, ikitərəfli əlaqələrin qurulmasında müsbət işlər görürlər. Hindistanın beynəlxalq aləmdə nüfuzunun artmasına yardımçı olan 80-ci illərin mühacirləri demoqrafik inkişafa fikir vermirlər.

90-cı illərdən sonra Hind diasporu ABŞ siyasi həyatında rolunu artırmağa başladı. Ölkənin bütün ştatlarında Demokrat Partiyasının təbliğatını aparan Hind diasporunun 80% bu partiyanın üzvləridir. 2000-ci il seçkilərində Alber El Qorun seçki kampaniyasına 3 milyon dollardan çox pul ayıran Hind diasporu Senat və Konqresdə aktiv fəaliyyət göstərən lobbiyə malikdir.

Müasir dövrdə hindlilər kompakt halda Kaliforniya, Nyu-Cersi, İlliyonis və Nyu-Yorkda məskunlaşıblar. Kaliforniya əhalisinin 23%-ni təşkil edən hidlilər Amerikanın bütün ştatlarında ingilis və hind dillərində Kütləvi İnformasiya Vasitələrinə malikdir. Hal-hazırda ABŞ-da yüksək tirajla nəşr olunan mətbuat orqanları və sevilən, dinlənilən və baxılan radio və televiziya kanalları aşağıdakılardır:

"Navayo Times", "İndian Tirbune" və s. qəzetləri, "American İndian Journal", "Grow İndiana" və s. jurnalları, "Music of İndia", "American İndian Radio" və s. radio "Kerola TV", "Wcrn TV" və s. televiziya kanalları.

Müasir dövrdə Amerikada hindlilərin sayı 1,6 milyondan çoxdur. Amerika hindlilərinin əksəriyyəti mütəxəssis, mühəndis, proqramçı, həkim və tədqiqatçılardır. Orta səviyyəli etnik diasporlar hesab olunan Hind diasporunda birləşdirici amillər çoxluq təşkil edir. Əsasən iri şəhərlərdə yaşayan hindlilər digər etnik diasporlar ilə sıx əlaqə saxlayır, etnik kimliklərini qoruyub saxlayır və hərtərəfli fəaliyyət göstərirlər. Amerika hindliləri qarışıq nigaha az-az girirlər. Evlənmək istəyən gənc mütləq Vətənə getməli və oradan qız almalıdır. Assimilyasiyaya uğramalarına baxmayaraq Hind diasporunda vətən hissləri çox güclüdür. Milli adət-ənənələrə riayət edilir.

**Hindistanın diaspor siyasəti**

Hindistanda 2000-ci ilin sentyabrın 2-də yaradılan Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən aparılır. Diaspor siyasətinin əsas istiqamətləri:

- Hind diasporunun varlı təbəqəsinin ölkə iqtisadiyyatına investisiya qoyulmasını təmin etmək;
- Hind mənşəli əcnəbilərin və xaricdə yaşayan hindlilərin statusunun rəsmən təsdiqlənməsi;
- Hind diasporunun maraqlarının müdafiəsi məqsədilə qanun və qərarlar qəbul etmək;
- Hind diasporunun bütün cəhətlərini tədqiq etmək;
- Hindistanın sosial, siyasi, iqtisadi sahələrdə inkişaf etdirilməsində diasporun rolunun və yerinin müəyyənləşdirilməsi;
- Hindistanda ikili vətəndaşlıq statusunun tətbiq olunması;
- Dövlət səviyyəsində Hind diasporunun hüquqlarının müdafiəsi;
- Ölkə iqtisadiyyatına kapital qoyulması üçün müəyyən güzəştlərin verilməsi.





**Holokost**

Yəhudi Soyqırımı. "Yəhudi qəzası" - Almaniyada Adolf Hitlerin hakimiyyətə gəldikdən sonra yeritdiyi siyasət nəticəsində 2 milyon, bəzi mənbələrdə isə 3 milyon yəhudinin soyqrıma məruz qaldığı qeyd edilir. Dünyanın ən qanlı və amansız soyqrımları sırasında olan Holokst dünya ölkələrini əskəriyyətində qanuni şəkildə tanınmışdır. Məlumatlara görə Holokst nəticəsində yəhudi diasporu içərisində bütov nəsillər, ailələr məhv edilmişdir. Avropada müharibədən sonra sağ qalan yəhudilər bir daha belə siyasətə məruz qalmamaq üçün öz diasporlarını daha da gücləndirmişdir.

**Homegenlik**

Etnik tərkibinə görə eyniliyin olması.

# -X-

## Xalq

Sözü ilə adətən latıncadan populus, fransızcadan peuple, almancadan volk, ingiliscədən people sözlərini tərcümə etdikləri halda, "millət" latın sözü (natio) olmaqla alman, fransız, ingilis dillərində tamamilə eyni cür (nation) yazılır.

Almanca "xalq" (volk) sözü ilə adətən bir dövlətin vətəndaşlarının toplumu bildirilir, belə ki, "alman xalqı" ifadəsi Almaniya imperiyasının vətəndaşları olan almanları, danimarkalıları, polyakları əhatə edir, lakin Avstriya, yaxud İsveçrə almanlarına aid edilmir. Xalq sözü bir neçə mənada işlədilir:

- ✓ Adi mənada–dövlətin, ölkənin əhalisi,
- ✓ Elmi mənada–insanların tarixən dəyişməkdə olan bilgisi

Xalq-insanların birliyinin tarixən qəbilə-tayfa birliyinin ardınca gələn və ibtidai icma qurluşunun xüsusi mülkiyyətçilik münasibətləri ilə əvəz edilməsi, siniflərin meydana gəməsi və inkişafı şəraitində müxtəlif tayfaların qovuşması, birləşməsi nəticəsində bərqərar olmuş formalardan biridir. Hər bir xalqın özünün toplu adı vardır. Xalq anlayışı həm quldarlıq, həm də feodalizm quruluşları üçün xasdır. Kapitalist münasibətlərin inkişafında insan birliyinin yeni forması, Millət əmələ gəlir.

Siyasi ədəbiyyatda xalq insan birliyinin tarixi formalarından biri kimi qəbul edilib. Məlumdur ki, xalq quldarlıq və feodalizm dövrünün meydana gətirdiyi ictimai qurumdur. Bu prosesin başlanıb sona çatmasında ictimai əmək bölgüsünün, xüsusi mülkiyyətin, ticarətin meydana gəlməsi və genişlənməsinin mühüm rolu olub. Məhz bu inkişaf bir-birinə qohum olan tayfaların birləşərək vahid xalq halında formalaşmasına əsas zəmin yaradıb.





## Xalqların böyük köçü

Eramızın IV-VII əsrlərdə Avropada və Asiyada etnik yerdəyişmələr. Xalqların böyük köçünə səbəb olmuş Hunların şərqdən qərbə axını tarixdə çox sonrakı hadisədir və elə güclü iz buraxmışdır ki, bir çox alimlər xalqların Yer üzünün müəyyən ərazilərində əbədi məskunlaşmasını hunların həmin axını ilə əlaqələndirmişlər.

Şübhəsiz, hunların qərbə hərəkəti güclü türk dalğalarından biri olmuşdur. Lakin onun da tarixini eramızın əvvəlindən başlamaqla məhdudlaşdırmış olurlar. Qaynaqlarda hələ eradan dörd əsr əvvəl İskəndərin ağ hunları qarqarlarla birlikdə Albaniya ərazisinə köçürməsi barədə rəvayətlər qalmışdır. Y.B.Yusifovun fikrincə, türklərin Yer üzərində geniş yayılma dövrü çox qədimdir və e.ə. III-II minilliklərə aiddir: «E.ə.III-II minilliklər ən qədim türk tayfalarının geniş ərazidə yayılması dövrü hesab oluna bilər». (2; 232) Ola bilər ki, arxeoloji materiallar burada göstərilən dövrə aid miqrasiyaları təsdiq edir, lakin bu, mezolit miqrasiyalarını inkar edə bilməz. Yer üzündə müasir insan tipinin yayılması 14 min il əvvəldən başladığı üçün güclü qol olan türklərin hərəkatını 4-5 min il əvvələ aid etməklə məhdudlaşdırmaq olmaz. Lakin Y.B.Yusifovun həmin qeydləri də Azərbaycan ərazisində türklərin tarixini hunlardan üç min il əvvələ aparır və bir sıra nəticələrə gəlməyə səbəb olur:

1) türklərin ən qədim (ilkin) məskənləri Altay deyil, Ön Asiyadır;

2) ilk miqrasiyalar şərqdən qərbə deyil, qərbdən şərqə olmuşdur;

## Xalqların hüquq bərabərliyi

Xalqların hüquq bərabərliyi və onların öz müqəddəratını təyin etməsi müasir beynəlxalq hüququn hamı tərəfindən etiraf edilmiş prinsiplərindən biridir.

Hər bir xalq suverendir və bütün xalqlar hüquqca bərabərdirlər. Onlar sərbəst surətdə öz dövlətlərini yaratmaq və

istədikləri kimi onu idarə etmək hüququna malikdirlər. Hal-hazırda dünyada 3 minə yaxın millət və formalaşmaqda olan potensial millət, 10 min etnik qrup var. Müharibədən sonrakı dövrdə BMT Nizamnaməsi xalqların hüquq bərabərliyi və öz müqəddəratının azad təyin etməsi prinsipinin dövlətlərin dinc, mehriban, dostluq münasibətlərinin əsası elan edir və prinsipin ümumi icbari norma olmasını etiraf edir. Xalqların hüquq bərabərliyi və öz müqədaratını azad təyin etməsi prinsipi əsasında xalqlar arasında dostluq münasibətlərini inkişaf etdirmək tələbi BMT Nizamnaməsi 1-ci madəsinin 2-ci bəndində təşkilatın əsas məqsədlərindən biri kimi göstərilir. BMT Nizamnaməsinin 13,55,76-cı və bir sıra digər maddələrində milli, irqi, dini və s. mənsubiyyətindən asılı olmayaraq hamı üçün əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi və onlara riayət edilməsi ilə əlaqədar olaraq xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etməsi prinsipi də qeyd edilir.

BMT Nizamnaməsində bu prinsip ümumi beynəlxalq sülhün və təhlükəsizliyin qorunması və təyin edilməsi üçün ən mühüm şərt olduğu göstərilir. Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi sonrakı dövrün bir sıra beynəlxalq hüquqi aktlarında da təsdiq edildi. BMT Baş Məclisinin 1948-ci ildə qəbul etdiyi İnsan Huquqları bəyannaməsində, 1965-ci ildə İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqına sazişdə, 1960-cı il tarixli "Müstəmləkə ölkələrinə və xalqlarına istiqlaliyyət verilməsi haqqında bəyannamədə", 1966-cı ildə "İnsan hüquqları müahidələrinin" 1-ci maddəsində, BMT Nizamnaməsin uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid olan beynəlxalq hüquq prinsipləri haqqında 1970-ci il bəyannaməsində, 1975-ci ildə Helsinkidə qəbul olunmuş Yekun aktında və s. bu prinsip təsdiqlənmişdir. Həmin sənəddə deyilir:

"İştirakçı dövlətlər daim BMT Nizamnaməsinin məqsədlərinə, müvafiq beynəlxalq hüquq normalarına uyğun hərəkət





edərək xalqların hüquq bərabərliyinə və öz müqəddəratını təyin etmək hüququna hörmət bəsləyəcəklər".

Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etmək hüququ prinsipinə əsasən bütün xalqların öz daxili və xarici siyasi statusunu kənardan müdaxilə olmadan tam müstəqillik şəraitində istədiyi vaxt və istədiyi kimi müəyyən etmək, öz siyasi, iqtisadi, ictimai və mədəni inkişafını öz arzusu baxımından həyata keçirmək hüququ vardır.

İştirakçı dövlətlər təsdiq edirlər ki, xalqların hüquq bərabərliyinə, öz müqəddəratını təyin etmək hüququna hörmət bəslənilməli və bunların səmərəli şəkildə həyata keçirilməsi, onların arasında, eləcə də bütün dövlətlər arasında dostluq münasibətlərinin inkişafı üçün ümumi əhəmiyyətə malikdir.

Beləliklə, xalqların hüquq bərabərliyini və onların öz müqəddəratını təyin etməsini etiraf və təsdiq edən BMT Nizamnaməsinin, habelə sonrakı mühüm beynəlxalq hüquqi aktların ən qısa xülasəsindən aşkar görülür ki, həmin prinsip təkcə rəsmi-siyasi bəyanat deyil, indi o icbari xarakterli beynəlxalq hüquqi normadır, müasir beynəlxalq hüququn mühüm bir prinsipidir.

**Xaricdə yaşayan azərbaycanlılar**

Hazırda Azərbaycan Respublikasından kənarda 40 milyondan çox azərbaycanlı yaşayır. Öz tarixi torpaqlarından, dədə-baba yurdlarından kənarda yaşayan azərbaycanlıların sayı isə 10 milyon nəfərə yaxındır.

Xaricdə yaşayan azərbaycanlılar əsasən Azərbaycan Respublikasından, İran, Gürcüstan və Rusiya Federasiyasının Dağıstan Respublikasından digər ölkələrə miqrasiya etmiş soydaşlarımızdan ibarətdir.

Digər xalqlarla müqayisədə azərbaycanlıların doğma torpağa daha sıx bağlılığı üzündən Vətəni tərk edib qürbətdə yaşamaları üçün etik mənəvi baxımdan daha ağrılı olmuşdur. Təsadüfü deyil ki, Azərbaycan şifahi xalq ədəbiyyatında, dastanlarda, nağıllarda, poeziya nümunələrində «Vətən - qürbət» mövzusu

bu gündə mühüm yer tutmuşdur. Mənəvi köklərə söykənən amil Azərbaycan diasporunun yaranmasının nə qədər qədim tarixə malik olduğunun göstəricisidir.

Bu gün «Azərbaycan diasporu» dedikdə tarixi Vətəndən kənarda məskunlaşmış həmvətənlərimiz nəzərdə tutulur. *«Xaricdə yaşayan azərbaycanlılar»* anlayışının təfsiri isə «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Həmin qanuna əsasən bu anlayış Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına və onların övladlarına, əvvəllər Azərbaycan SSRİ-nin və ya Azərbaycan Respublikasının vətəndaşları olmuş, lakin hazırda xarici dövlətlərdə məskunlaşan şəxslərə və onların övladlarına, bu kateqoriyaya aid olmayan, lakin etnik, dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü Azərbaycana bağlı və ya azərbaycanlı hesab edənlərə aid edilir.

**«Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu**

2002-ci ilin dekağbr ayının 27-də qəbul edilmişdir. Bu Qanun xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsəd və prinsiplərini və bu siyasətin həyata keçirilməsi ilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin əsaslarını müəyyən edir. (Qanun tam halda kitabın sonunda Əlavə 2-də verilib.)

**Xaricə miqrasiya - zəka axını**

Elmi-texniki, potensialın öz vətənlərini, iş yerlərini ataraq daha yüksək qazanc və karyera ardınca inkişaf edən dövlətlərə köçməsi.





**Xarici qurumun fəhləsi**

Vətəndaşlığı olmayan dövlətin yuridiksiyasında olan xarici qurumlarda işləyən fəhlə mühacirlərə aiddir.

**Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti**

1946-cı ildə Bakı şəhərində yaradılıb. Dövlət Təhlükəsizlik Komitəsinin xüsusi nəzarəti altında fəaliyyət göstərən cəmiyyətin əsas məqsədi xaricdə yaşayan azərbaycanlılar, xüsusilə ziyalı təbəqəsinin vətənlə əlaqələrinin qurulması idi. O illərdə artıq Azərbaycan diasporunun ziyalı kütləsi formalaşmış idi və onlar təşkilati strukturlaşma işində fəallıq nümayiş etdirirdilər. Belə insanlarla əməkdaşlıq Sovetlər Birliyi üçün mühüm əhəmiyyət kəsb edirdi və onların vətənlə əlaqələrinin təşkilindən irəli gələrək yaradılan cəmiyyətin xəttilə keçmiş legionerlərin bəziləri Azərbaycana dönə bilmişlər

1960-ci ildə işlərin daha fəallaşması məqsədilə cəmiyyətin nəzdində "Vətənin səsi" adlı gizli bir qəzet "Bakı" və "Baku" qəzetləri redaksiyasında buraxılırdı. Gizli deyəndə ki, xaricdəki azərbaycanlılar üçün nəzərdə tutulan "Vətənin səsi"nin səhifələri siyasi səpgili materiallarla bol idi və onlar yalnız təbliğatçılıq xarakteri daşıyırdı.

**XÖYAİDK**

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin «Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında» 2002-ci il 5 iyul tarixli 730 nömrəli Fərmanı ilə Xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədi ilə yaradılmışdır.

Komitə, xaricdə yaşayan azərbaycanlılarla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsini onlarla əlaqələrin genişləndirilməsini və inkişaf etdirilməsini dövlət orqanlarının və qeyri-

hökumət təşkilatların bu sahə ilə bağlı fəaliyyətinin əlaqələndirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.

Komitə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kablnetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

Azərbaycan Respublikasında həyata keçirilən müstəqil, hüquqi və dünyəvi dövlət, demokratik cəmiyyət quruculuğu, sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişaf haqqında xarici ölkələrdə yaşayan həmvətənlər arasında zəruri məlumatlar yaymaq.

Dövlət Komitəsinin əsasnaməsinə görə komitənin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

– Azərbaycan Respublikasının müstəqilliyinin qorunması, milli dövlətçiliyinin möhkəmləndirilməsi və dünyada geniş təbliğ edilməsi işinə xarici ölkələrdə yaşayan Azərbaycanlılar, və digər soydaşlarımızı cəlb etmək, onların mövcud imkanlarından istifadə etmək;

– Xaricdə yaşayan həmvətənliləri Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar prosesinə yaxından cəlb etmək, onların Azərbaycana investisiya qoyması və ölkə hüdudlarında sərbəst fəaliyyət göstərməsi üçün əlverişli şərait yaratmaq;

– Xaricdə yaşayan Azərbaycanlıların Azərbaycan Respublikası ərazisində hüquqlarını və vəzifələrini müəyyənləşdirən normativ-hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək;

– Xaricdə yaşayan Azərbaycanlıların bir-biri ilə əlaqə yaratmasına, təşkilatlanması işinə dəstək vermək, yaradılan ictimai, mədəni və digər birliklərin Azərbaycan Respublikasl ilə əlaqələrinə kömək göstərmək;

– Xaricdə yaşayan Azərbaycanlıların öz milli və vətəndaşlıq hüquqlarının təmin edilməsi ilə bağlı həyata keçirdikləri fəaliyyətə beynəlxalq sənədlərdə təsbit olunmuş insan haqlarının





müdafiəsi və qorunması prinsipinə uyğun olaraq dəstək vermək, bu məqsədlə Azərbaycanlıların sıx yaşadığı dövlətlərin aidiyyəti strukturları ilə səmərəli iş mexanizmi qurmaq və problemlərin həllinə kömək göstərmək;

– Xaricdə yaşayan Azərbaycanlıların mədəniyyət mərkəzlərinə, mədəni-maarif təşkilatlarına, kitabxanalarına, arxivlərinə, muzeylərinə, teatrlarına, musiqi ansambllarına və yaradıcı kollektivlərinə digər dövlət orqanları ilə birgə yardım göstərmək;

– Azərbaycan Respublikasında həyata keçirilən müstəqil, hüquqi və dünyəvi dövlət, demokratik cəmiyyət quruculuğu, sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişaf haqqında xarici ölkələrdə yaşayan həmvətənlər arasında zəruri məlumatlar yaymaq;

– Azərbaycan Respublikasının müstəqilliyinin qorunması, milli dövlətçiliyinin möhkəmləndirilməsi və dünyada geniş təbliğ edilməsi işinə xarici ölkələrdə yaşayan Azərbaycanlılar, və digər soydaşlarımızı cəlb etmək, onların mövcud imkanlarından istifadə etmək;

– Xaricdə yaşayan həmvətənliləri Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar prosesinə yaxından cəlb etmək, onların Azərbaycana investisiya qoyması və ölkə hüdudlarında sərbəst fəaliyyət göstərməsi ücün əlverişli şərait yaratmaq;

– Xaricdə yaşayan Azərbaycanlıların Azərbaycan Respublikası ərazisində hüquqlarını və vəzifələrini müəyyənləşdirən normativ-hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək;

– Xaricdə yaşayan Azərbaycanlıların bir-biri ilə əlaqə yaratmasına, təşkilatlanması işinə dəstək vermək, yaradılan ictimai, mədəni və digər birliklərin Azərbaycan Respublikasl ilə əlaqələrinə kömək göstərmək;

– Xaricdə yaşayan Azərbaycanlıların öz milli və vətəndaşlıq hüquqlarının təmin edilməsi ilə bağlı həyata keçirdikləri fəaliyyətə beynəlxalq sənədlərdə təsbit olunmuş insan haqlarının

müdafiəsi və qorunması prinsipinə uyğun olaraq dəstək vermək, bu məqsədlə Azərbaycanlıların sıx yaşadığı dövlətlərin aidiyyəti strukturları ilə səmərəli iş mexanizmi qurmaq və problemlərin həllinə kömək göstərmək;

– Xaricdə yaşayan Azərbaycanlıların keçirdikləri mühüm tədbirlərdə Azərbaycan Respublikasının müvafiq dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakına kömək göstərmək;

– Azərbaycan Respublikasının beynəlxalq aləmdə təbliğ olunması və mənafelərinin müdafəsi işində Azərbaycana ənənəvi müsbət münasibəti olan diasporların imkanlarından istifadə etmək;

– Diasporla işin təşkil olunması və aparılması sahəsində digər ölkələrin təcrübəsini öyrənmək, ümumiləşdirmək və tətbiq olunmasını təmin etmək.

Komitə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur. Xaricdə yaşayan azərbaycanlılarla iş sahəsində dövlət siyasətinin əsasları 2002-cü ilin dekabr ayının 27-də qəbul edilmiş «Xaricdə Yaşayan Azərbaycanlılarla bağlı Dövlət Siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur. Bu qanun Azərbaycan diasporunun inkişafına dövlət qayğısının daha da artırılması, bu sahədə ciddi nailiyyətlər əldə olunması məqsədi ilə vahid strategiyanın hazırlanması kimi mühüm məsələlərin həllinə imkan yaradan hüquqi prinsipləri müəyyənləşdirir.

Dövlət Komitəsinin fəaliyyət göstərdiyi 5 il ərzində xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, soydaşlarımız arasında milli-mənəvi dəyərlərin qorunub saxlanılması, həmvətənlərimizin hüquq və azadlıqlarının qorunması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.





## -İ-

### İcma

Xüsusi mənada təbii və qan qohumluğu əlaqələri əsasında yaradılmış sosial təsisatın ilkin forması.

### İcma qrupu

İcma tərəfindən demokratik şəkildə seçilmiş kişi, qadın və gənclərin nümayəndəlrindən ibarət bir icma rəhbərlik qrupudur. Hazırda bir sıra diasporlar yaşadıqları ölkələrdə icma qrupların formalaşdırıblar ki, nəticədə onların ictimaiyyətə adaptasiyası normal şəkildə baş verir.

### İcma əsaslı kompleks inkişaf

Elə bir yanaşma metodudur ki, bu metod icmanın qabiliyyətlər və təcrübə qazanmasına yönəldilmişdir və burada məqsəd əhalinin öz ehtiyaclarını müəyyən etməsi, daha vacib olan problemləri qabağa çəkməsi, problemlərin həlli yollarını hazırlaması, eləcə də həm daxili, həm də kənar ehtiyatları səfərbər edərək problemlərin çözümünü həyata keçirməsidir.

### İctimai fikir

İctimai fikir - insanların ictimai həyatın hadisələrinə qarşı onların fikirlərininin və hisslərininin gizli münasibəti, həmçinin hər hansı bir ictimai təzahürün tənqidi və ya təqdiridir. Napoleonun iddiasına görə, son söz həmişə ictimai fikrindir. İctimai fikir hökmü məhkəmənin hökmündən daha qorxuncdur: ondan şikayət etmək, pul və ya başqa bir vasitə ilə ondan qurtulmaq, onu rədd etmək mümkün deyil.

**İctimai İşlər üzrə Amerika-İsrail Komitəsi (Ey-Ay-Pi-Ey-Si)**

1940-cı ildə ABŞ-da yaradılıb. Bu təşkilatın əsas fəaliyyət istiqamətini İsrail yönlü lobbiçiliklə məşğul olmaqdır. Ağ Ev və Konqresdə güclü təsir qüvvəsinə malik olan bu təşkilat İsrailin mənafeyini yetərincə müdafiə edir.

**İdeologiya**

*(Yun.idea-fikir, loqos-elm deməkdir)*

a) İnsanların istək və maraqlarını ödəmək üçün yaradılan fəlsəfi, siyasi, hüquqi, iqtisadi, etik, estetik, dini, ideya və baxışlar, mənəvi dəyərlər sistemi. Diasporların həmrəy və birlik nümayiş etdirməsi, vətənlə bağlılığı, siyasi və hüquqi fəaliyyət göstərməsi üçün düşünülən ideologiyalar hazırda bütün dövlətlər tərəfindən aparılan Azərbaycançılıq, sionizm və s. ideologiyalar sırf diasporlar üçün yaradılıb. Milli birlik üçün hər bir dövlət üçün vacib olan ideologiyalar tarix və müasirliyə söykənir.

b) İdeologiya özündə həqiqətə münasibət daşıyan baxışlar və düşüncələr sistemidir. Elmdən fərqli olaraq, ideologiyanın mahiyyəti hadisələri müəyyən dəyərləndirmə kriteriyaları vasitəsi ilə insanların düşüncələrinə yerləşdirmək, ictimai inkişafın istiqamətini və məqsədini müəyyən etmək, insanların maraqlarının, məqsədlərinin və görüşlərinin əsasında onların siyasi aktivliyini təmin etməkdən ibarətdir. İstənilən ideologiya, siyasi doktrina (nəzəriyyə), müəyyən proqram, yadda qalan şüar və çağırışlarla həyata keçirilir. İdeologiya, siyasi fikirlərin və maraqların mübarizəsi ilə əlaqəlidır. "İdeologiya" termini ilk dəfə XVIII əsr fransız filosofu Antuan Destyü de Trasi tərəfindən işlədilmişdir.

Bir çox müasir ideologiyaların da öz yaradıcıları vardır. Məsələn, klassik liberalizmin nəzəri əsaslarını ingilis filosofu Con Lokk qoymuşdur. Con Lokk öz əsərlərində şəxsi hüquqların, özəl mülküyyətin, dövlət və ictimai həyatın təşkil olunmasında rasionalizmin xüsusi əhəmiyyətini qeyd edirdi. Kommunizm ideologiyasının yaradıcıları Marks və Engels, faşizmin isə - Mussolini və Hitlerdir. Xidmət etdikləri siyasi cinahına görə ideologiyalar sağ (mühafizakar və ənənəçi), mərkəzçi (liberal) və sol (sosialist, kommunist, anarxist) olaraq bölünürlər. Faşist, millətçi, dini fundamentalist, qlobalist və antiqlobalist, kosmopolit, ekoloji və s. kimi bir çox ideologiyaları isə ən'ənəvi sxemlər üzrə sinifləndirmək mümkün deyil.





İdeologiya siyasi prosesin vacib komponentlərindən biridir. İdeologiyasız heç bir ictimai-siyasi hərəkat və siyasi partiya mövcud ola bilməz. Məhz ideyalar insanın inam sisteminə çevrilərək, onu cəmiyyətin quruluşunun dəyişdirilməsinə və ya qorunmasına doğru yönəldirlər. Lakin, ideologiyanın əhəmiyyətinə baxmayaraq, müasir siyasi praktikada praqmatik (yə'ni sağlam düşüncə və real şərtlərə cavab verən) yanaşmaya və qərarlara daha çox üstünlük verilir.

- ideologiya ictimai idrakın bir tərəfidir. Özündə ictimai, siyasi və iqtisadi münasibətləri, eyni zamanda dövlətin aparıcı qüvvələrinin maraqlarını birləşdirir;
- ideologiyanın əsas funksiyası xalqın maraqlarını ifadə etmək, xalqın fikrini elmi-nəzəri baxımdan öyrənmək, sistemləşdirmək və bunu dövlət idarəçiliyinə cəlb etməkdən ibarətdir;
- ideologiya ictimai proseslərlə birbaşa əlaqədar olduğundan, ictimai münasibətlərə fəal təsir göstərir;
- ideologiya xalqla əlaqədir, xalqla dövlətin birliyini təmin edən vasitədir, körpüdür;
- ideologiya dövlətin siyasi strukturu, növü, ictimai mülkiyyət formaları, iqtisadi münasibətləri, siyasi sistemi ilə əlaqədardır;
- ideologiyalar nə qədər sabit və uzunömürlü olsa da, dövrün təsiri ilə dəyişir, yeniləşir, bəzən zəifləyir, bəzən güclənir.

**İdeoloji elita**

Bunlar cəmiyyətin ideologiyasının və kütlələrin şüurunun formalaşmasında yaxından iştirak edən görkəmli mədəniyyət,

elm xadimləri, politoloqlar və iqtisadçılar, KİV nümayəndələridir.

**İkili vətəndaşlıq**

Bu, şəxsin eyni zamanda iki dövlətin vətəndaşı olmasını bildirir. Beləliklə, bu termin həm də çoxqat vətəndaşlığı da (üçqat və daha çox) əhatə edir. Bu vətəndaşlıq müxtəlif dövlətlərin vətəndaşlıq haqqınla qanunlarının (məsələn, torpaq hüququna və qan hüququna əsaslanan qanunların) toqquşması (kolliziyası) nəticəsində yaranır.

Dövlət süverenliyindən irəli gələn qaydaya əsasən həm də əcnəbi vətəndaşlığı olan vətəndaşın bu məsələyə müsbət və ya mənfi münasibətindən asılı olmayaraq yalnız və yalnız öz vətəndaşı kimi qəbul edir.

**İmmiqrasiya-Naturallaşdırma Kanalı**

İmmiqrsaiya kanalının idarə olunması mexanizmi.

**İnformasiya mübarizəsi**

Diasporların fəlaiyyətində informasiya sisteminin rolu da danılmazdır. Bu sistem eyni zamanda öz milləti, dövləti və milli maraqlarının müdafiə edilməsi və tələblərinin ödənilməsində böyük rol oynayır. Diasporlar vətənləri barəsində ətraflı məlumat verməklə, özlərinə uyğun məlumatların beynəlxalq aləmə çıxışını təmin etməklə bir çox işlərdə öndə olurlar. İnformasiya qələbəsi ilə artıq istənilən problemi həll etmək deməkdir.

**İnkar etmə problemi**

Qərb leksikonunda müxtəlif tip irqi ayrı-seçkiliyi, diskriminasiya və s. insan hüquqlarına zidd adımların inkar edilməsini izah edir.





**İnsan alveri**

Buna hədə qorxu və ya güc tətbiq etməklə və ya məcbur etmə, oğurlama, saxtakarlıq, aldatma, səlahiyyətindən və çıxılmaz vəziyyətdən sui-istifadə etmək yolu ilə işə götürmə, daşınma, köçürülmə, sığınacaq vermə və insanların qəbul edilməsi və ya bir şəxsin digəri üzərində nəzarət əldə etməsi və istismar məqsədilə pul verilməsi və alınması və ya mənfəət əldə olunması daxildir. İstismar anlayışına ən azı başqalarının fahişəliyinin istimar edilməsi və ya cinsi istismar formaları, məcburi əmək və ya xidmətlər, köləlik və köləlik kimi fəaliyyətlər, qul etmə və orqanların çıxarılması daxildir

Qlobal Hüquqlar (Global Rights): Ədalət Tərəfdarları eyni zamanda insan alverinin daxili qanunlarda təyin olunması üçün tövsiyyə olunan üslübu da işləyib hazırlayıblar. Razılşmada göstərilən təyinatın daxili cinayət qanunlarına şamil olunması münasib deyil, çünki burada "təsviri və anlaşılmazlıq yaradan elementlər" var.

Qlobal hüquqlar daxili qanunlarda aşağıdakı təyinatın istifadə olunmasını təklif edirlər: "İnsan alveri məcburi əmək və ya xidmətlər, köləlik və köləlik kimi fəaliyyətlər, əsarət altına salma və ya orqanların çıxarılması yolu ilə insanların işə götürülməsi, daşınması, köçürülməsi və ya sığınacaq verilməsidir". Qlobal Hüquqlar bu təyinatın daxili qanunlara daha asan şamil olunmasını düşünürlər çünki "burada şəxsin insan alverinə cəlb edilməsində hədə qorxunun, zorakılığın, aldatma və s. halların sübut edilməsi ehtiyacı aradan qalxır", və eyni zamanda sübut etmək kimi ağır yükün qurbanın üzərinə düşməsi ehtimalını yox edir. Bu təyinat diqqəti insanları təhrik edən "vasitələr" üzərindən "insanları məcburi əmək, zorakılıq və köləlik altında saxlamaq üçün bir yerdən başqa yerə aparılması prosesinə" yönəltmiş olur.

**İnsan haqqları**

Anadan olan gündən insana məxsus olan hüquq və azadlıqlar. Diasporların bu beynəlxalq terminə daha çox müraciət etməsi etiraz aksiyaları zamanı özünü büruzə verir.

XX əsrdə insan hüquqları anlayışı siyasi düşüncədə əsas fəlsəfi konsepsiyaya zevrilmişdi. Ayrı-ayrı ölkələrdə insan hüquqları və onların həyata keçirilmə konsepsiyasını təhlil etdikcə bəzi kriteriyaları ayrıd etmək mümkündür ki, onların vasitəsilə insan hüquqlarının inkişaf istiqamətlərini müəyyən etmək olar.

İnsan hüquqları tarixin məhsuludur, yəni, tarixi zərurətdən irəli gələn amildir, dəyişkəndir və həmişə inkişafdadır. Hüquq və azadlıqların subyekti olan insana aid bir neçə hüquqi konsepsiya mövcuddur və onlara uyğun insanın hüquq və vəzifələri müəyənləşdirilir.

Ümumbəşəri Hüquq və azadlıqların nəzəri konsepsiyasının əsasları öz əksini mövcud olan beynəlxalq sazişlər, paktlar və konvensiyalarda tapmışdır. Bunlar dövlətlərin insan hüquqlarının müdafiəsi sahəsində mütləq hüquqi normalara riayət etməsi üçün hüquqi baza yaradır. İndiki dövrdə 70-ə qədər belə sənəd vardır. Bununla belə BMT çərçivəsində mövcud olan beynəlxalq standartlar mahiyyət etibarilə çox azdır, çünki bunlar son dövrlərdə ayrı-ayrı hüquqi sistemli ölkələr arasında razılığın və konpromisin nəticələridir.

Bir-birinə zidd olan mövqelərdən çıxış edən ölkələrin bu və ya digər səbəblərə görə razılığa gəlməsi özü maraqlı cəhətdir. İnsan hüquqları nəzəriyyəsi tərəfdarları belə düşünürlər ki, bütün insan cəmiyyətlərinə xas olan universal prinsiplər və normalar mövcuddur. İnsan hüquqlarının əsas fundamental prinsipi onların universallığıdır. Doğrudan da, insan hüququnda universallıq (ümummillilik) real obyektiv amil kimi, real obyektiv proses kimi baxılmalıdır.

Belə bir fakt yuxarıda deyilənləri bir daha sübut edir. Məsələn 1966-cı ildə BMT İqtisadi, sosial və mədəni hüquqlar





haqqında Paktı qəbul etmişdir və bura 140-a qədər ölkə qoşulmuşdur. Pakta daxil edilmiş hüquqi normalar müəyyən dərəcədə universaldır və insan hüquqlarının ümumbəşəri konsepsiyasına daxildir. Onların obyektiv şəkildə bütün ölkələrdə meydana çıxması reallıq olsa da, bu Paktı imzalamayan ölkələrdə (o cümlədən bu qanunu ratifikasiya etməyən ABŞ-da da.) bu qanunlar universaldır.

İnsan hüquqlarına dair beynəlxalq sənədlərin tarixçəsi göstərir ki, ümumilikdə onlar ümumdemokratik xarakter daşımalarına baxmayaraq, özlərinin siyasi və sosial-iqtisadi mahiyyətinə görə məzmun daxilində ayrı keyfiyyətləri birləşdirirlər. Odur ki, biz əgər bu sənədlərin insan hüquqları və azadlıqları ümumbəşəri ifadəsindən danışırıqsa, onu nəzərə almalıyıq ki, onlarda əks olunan hüquq və azadlıqlar bu və ya digər ölkədə ancaq öz konkret tarixi fünksiyasını həyata keçirir.

Mədəni relyativlik tərəfdarları belə hesab edirlər ki, ayrı-ayrı ölkələrin tarixi ənənələri, psixologiya və mədəniyyətləri insan hüquqlarının həyata keçirilməsinə müəyyət qədər təsir etməyə bilməz. Odur ki, bəzi şərq ölkələrinin dövlət xadimləri belə nəticəyə gəlirlər ki, müəyyən ölkələrdə insan hüquqları sahəsində qəbul olunmuş standartlar və modellərin hamısı kamildir və hamı onları qəbul etməlidir.

Onlar insan hüquqları kateqoriyasına qərb sivilizasiyasına xas olan amil kimi baxırlar və onların milli, o cümlədən Şərq mədəniyyətlərinə və adət-ənənələrinə uyğun olmadıqlarını qeyd edirlər.

İran İslam respublikası İnsan hüquqlarının yəhudi-xristyan ənənvi baxışları əsasında ümumbəşər Deklorasiyasının qəbul edilməsinin əksinədir. Onlar belə hesab edirlər ki, bu baxışları müsəlmanlar qəbul edə bilməzlər, çünki bütün bunlar islam dəyərlərinə ziddir.

Bəzi ölkələrin (İran, Çin, İndoneziya və s.) rəhbərləri mədəni relyativlik tərəfdərlərının arqumentlərini əsas gətirərək, insan hüquqlarını məhdulaşdırmağa çalışırlar.

İnsan hüquqlarına dair ümumdünya Konfransında (1993-cü il) Çin nümayəndə heyətinin başçısı bəyan etmişdir ki, dövlət suverenliyi insan hüquqlarının həyata keçirilməsinə əsas meyar olmalıdır. Əgər ölkənin suverenliyi təmin olunmayıbsa, hansı vətəndaş hüquqlarından söz gedə bilər?

İnsan hüquqlarını əsas götürənlərin baxışlarına görə onlar sərhədləri qəbul etmirlər və bununla belə başqa ölkələrin daxili işlərinə qarışmamaq prinsipini bu məsələlərdə pozurlar. Bu baxışlara əsaslanan belə davranış siyasi təzyiqin bir forması kimi qiymətləndirilir.

Bəziləri belə fikirləşirlər ki, insan hüquqlarının universallıq ideyası heç də ölkənin ənənəvi milli xüsusiyyətlərindən üstün deyildir. Bu və ya digər ölkənin *milli fərq və xüsusiyyətləri insan* hüquq və azadlıqlarının təminatında əsas rol oynayır. Beləliklə, bir çox ölkələr hesab edirlər ki, mahiyyət etibarilə beynəlxalq birlik həqiqətən insan hüquqları ilə bağlı konsensusa gəlməkdən çox uzaqdır.

İnsan hüquqlarına dair ümumdünya konfransı (1993-cü il) unversalizm və mədəni relyativlik məslələrini müzakirə edərək belə bir nəticəyə gəlmişdi ki, insanın əsas hüquq və azadlıqlarının universallığına heç bir şübhə ola bilməz, beynəlxalq birlik insan hüquqlarına qlobal və ədalətli şəkildə yanaşmalıdır. İnsan hüquqları universaldır və bu universallıq insanın mahiyyətindən və şəxsiyyətindən irəli gəlir.

Deməli, ölkələr İnsan hüquqlarına dair bir çox problemləri unversallıq prinsipinə arxalanaraq milli və mədəni fərqləri saxlamaqla həll edə bilərlər.

Razılaşmalıyıq ki, insan hüquqi konsepsiyası tam deyil və prinsipial şəkildə onu həyata keçirmək qeyr-mümkündür, çünki bütün bunlar milli çərçivələrlə məhdudlaşdırılır.

Dünya milli və mədəni dəyərləri itirmədən birliyə gələrsə, bu hüquqların tam və ziddiyyətsiz mövcudluğunu vahid bəşər çərçivəsində təsəvvür etmək mümkündür.





İmperiya təsəvvürlü ölkələrin dövlət suverenliyi məsələsinə qarşı insanın suverenliyi ideyasını qoymaq məqsədə uyğundur. Düzgün yol suveren dövlətin kompetensiyasının məhdudlaşdırması yoludur. Bu məslənin həlli isə ancaq bütün insanların birgə səyi nəticəsində mümkündür.

Beləliklə, müasir dövrdə əvvala beynəlxalq standartlara üyğun ( BMT, Avropa Şurası, ayrı-ayrı regional sistemlər çərçivəsində) ümumbəşəri insan hüquqları konsepsiyası işlənib hazırlanmır, ikincisi, hər ölkədə beynəlxalq standartlar əsasında milli mentalitetə uyğun insan hüquqi konsepsiyaları yaranır və bunlar başqalarından fərqlənirlər.

**İnsan resursu**

Diasporlarda iş qabiliyyətinə malik olan ixtisaslı və ixtisassız üzvlər.

**İnstrumental neytrallaşdırma**

Diasporun sərhədlərinin məqsədyönlü dəyişməsi nəticəsində baş verən mədəni etnik stereotipin neytrallaşdırılması kimi başa düşülür. Bu təbii yolla baş verir. Məs. etniklərarası nigah və s.

**İnteqrasiya**

Yaxınlaşma, qarşılıqlı təsir, sıx əməkdaşlıq. Bu əsasən diasporların yaşadıqları əraziyə, insanların yeni mühitə və s. zamanı tətbiq edilir. İnteqrasiya termini siyasi leksikona 80-cı illərdən sonra daxil olub. Bu bir əraziyə köçən miqrantlar üçün imkan yaradır ki, yerli əhaliyə adaptasiya edilsinlər. Bura səhiyyə, təhsil və işləmək hüquqları da daxildir.

**İrq (race)**

İnsanlığın bəzi irsi bioloji əlamətləri ilə (dərinin rəngi, başın tükləri, göz yuvasının qurluşu, boy ölçüləri və s.) fərqlənən qrup. Avropoid, Monqoloid və Neqroid irqləri mövcuddur.

İrq mövzu kontekstində hamılıqıla qəbul olunmuş mənada «irqlər» adlandırılan etnik qrupların bütün növləri də daxil olmaqla ən geniş mənada başa düşülməlidir. Çox vaxt bu, əhali arasında azlıq təşkil edən vahid mənşəli spesifik sosial qrupa mənsubiyyətlə bağlıdır. İrqi əlamətlərə görə ayrı-seçkilik insan hüquqlarının ən rüsvayçı pozuntusu kimi bütün dünya ictimaiyyəti tərəfindən pislənmişdi. Ona görə də irqi ayrı-seçkilik təqibin mövcudluğu faktının müəyyənləşdirilməsində ən əhəmiyyətli ünsürdür.

İrqi mənsubiyyətə görə ayrı-seçkilik bir çox hallarda 1951-ci il Konvensiyasının mənasına görə təqibə bərabər tutulur. Bu irqi ayrı-seçkilik nəticəsində insan ləyaqətinin alçaldılmasının ən ayrılmaz insan hüquqları ilə bir araya sığmadığı, yaxud irqi baryerlərə etinasız yanaşmanın ciddi nəticələrə gətirib çıxara bildiyi hallarda baş verə bilər.

**İrqçilik**

(antropologiya, siyasət/kütləvi siyasət, sosial münasibətlər)

Başqa irqi və etnik qrupların nümayəndələrinin guya inkişafın daha aşağı pilləsində olmalarına inam, irqi və etnik əlamətlərə görə ayrıseçkilik və əsarət.

Tarix göstərir ki, İrqçilik və köləlik Avropa mədəniyyətinin formalaşmasında mühüm rol oynamış və hətta onun ayrılmaz bir tərkib hissəsinə çevrilmişdi. Qərb mədəniyyəti düşüncənin hadisələri, hadisələrin də düşüncəni istiqamətləndirməsi ilə yüksəlmiş bir mədəniyyətdir. Qərb alimləri Avropa mədəniyyətinin və Avropa zənginləşməsinin gerçək yollarını arayarkən Köləlik və İrqçiliyi bir haqq qazandırma, bir müalicə vasitəsi olaraq işləmiş, inkişaf etdirmiş və sistemli bir şəklə salmışlar. Bu işdə filosof, iqtisadçı, yazıçı və ayrı-ayrı sənət adamları ilə yanaşı, siyasətçilər və kilsə də mühüm rol oynamışdır. Belə ki XVIII yüzildə əsası qoyulan, XIX yüzildə inkişafının yüksəlmə mərhələsini keçirən, XX yüzildə tam bəhrəsini verən və XXI əsrdə də davam etdirilən Avropa düşüncə tərzinin yaradıcısı,





daşıyıcısı və həyata keçiricilərindən bəziləri ağlı, bəziləri duyğunu, bəziləri iradəni, bəziləri də faydanı ön plana çıxarsalar da hamısının ortaq bir yönü vardır ki, bu da İrqçiliyin sistemli təməllərini tutan müstəmləkəçilik ideologiyasıdır. Bu işdə ilk addımı Avropalı filosoflar atmış, daha sonra isə bu işə ayrı-ayrı sənət adamları və Katolik kilsəsi yardım etmiş, dövlət və hökumət nümayəndələri isə onu həyata keçirmişlər. Belə ki Katolik düşüncəsinin yaradıcısı kimi yola çıxan ingilis Con Louk (1632-1704) əxlaqi günah işlətmiş və öz fikir və düşüncələrini başqalarının, hətta uşaqların dili ilə əsərlərində irəli sürmüş, göstərmişdir ki: "İnsan bəyazdır. Zənci insan deyildir. Afrikanın güney bölgəsində yaşayan insan növünün tam tərsidir".

Bu və buna bənzər fikir və mülahizələri Avropanın bəllibaşlı alimlərindən sayılan tarixçi və iqtisadçı David Hum (1711-1776), idealist filosoflar İmmanuel Kant (1724-1804), Von Şellinq (1775-1854), Hegel (1770-1831) və başqaları da qəbul etmiş və daha da genişləndirərək hətta Amerika hindularını da buraya qataraq onları zəncilərdən də aşağı hesab etmişlər. Köləliyə haqq qazandıran bu Qərb alimləri Köləlik və İrqçiliyin nəzəri əsaslarını işləyib hazırlamış, onu həyata keçirib faydalananlar isə Avropalı müstəmləkəçilər olmuşdular.

Avropada irqçi nəzəriyyələr yayıldıqca onun əhatə dairəsi də genişlənirdi. Artıq Avropada zəncilərə qarşı başlayan İrqçiliyə Amerika hinduları, yəhudilər və hətta bir sıra Şərq xalqlarını, o cümlədən də Türkləri daxil etdilər. Avropa artıq öz kökünü Hindistanda aramağa başladı və yeni "Ari" nəzəriyyəsinin əsası qoyuldu. Ari irqin xristianlığı da "Ari" olmalı idi.

Qərb nəhayət anladı ki, İncil ayələri ilə yüksəlmək mümkün deyil. Ona görə də yeni bir ideologiya ortaya atdı və bu ideologiyanı gerçəkləşdirməyə başladı. Bu ideologiyanın bir sütunu köləlik, bir sütunu köləlikdən doğan İrqçilik, digər bir sütunu isə bunlardan doğan zənginləşmə oldu.

Diaspor üçün bəzi ölkələrdə uzun illər yaradılan süni problem.

**İrland diasporu**

Dünyanın müxtəlif dövlətlərinə səpələnən İrland mühacirlərinin formalaşdıqları, ictimai-siyasi baxımdan aktiv hesab olunan diaspor yaratmaları digər Avropa diasporlarından fərqli inkişaf xüsusiyyətinə malikdir. Məskunlaşdıqları ölkələrdə qısa zaman ərzində adaptasiya alan İrland mühacirləri əsas aparıcı rola malikdilər.

Bu gün İrland diasporu əvvəlki illərdən, xüsusən 70-80-cı illərdəki kimi siyasi-ictimai aktivlik göstərməmələrinə baxmayaraq elmi-təbliğat və informasiya istiqamətində çox güclüdürlər. Son zamanlar İrland tarixini, milli-azadlıq mübarizəsini, İrland mühacirlərinin diaspor formalaşmasını, Böyük aclıq illərini, Olster problemini və s. mövzular əhatə edən elmi-publisistik kitabların nəşrinin çoxalması ilə mübahisə doğuran məsələlər ortaya çıxıb..

1169-cu ildə İngilis-normand feodallarının dəstəyin alan İngiltərə kralı II Henri İrlandiyanın bir hissəsini ələ keçirtdi. Peyl adlı müstəmləkənin ərazidə yaranması kütləvi şəkildə İrland mühacirətinin başlanmasına səbəb oldu.

XVI əsrin sonu XVII əsrin əvvəllərində Peylə daxil olmayan Munster, Olster və Len Sterin bir hissəsinin də ələ keçirilməsi İrlandiyanın 85%-nin İngiltərə tabeçiliyinə keçməsinə səbəb oldu. İrlandiyada muxtar parlament olmasına baxmayaraq bütün daxili və xarici siyasət kralın əlində idi.

Ölkədə katolik təriqətinin güclü olması protestantların mühacirət etməsinə səbəb olurdu. 1787-ci ildən 1805-ci ilə qədər İrlandiyanı tərk edənlərin çox hissəsini onlar təşkil edirdi.

İngiltərə hökuməti isə İrlandiyanın tamamilə assimilyasiya olunmasını qarşısında məqsəd qoymuşdur. Bu səbəbdən də ingilis dilinin İrlandiyanın dövlət dilinə çevrilməsi prosesi güclənirdi. Tədricən Gel dilini üstəyən ingilis dilində artıq 1822-ci ildə İrlandiyanın 85%-i danışırdı. Ana dilinin qorunmasına çalışan xaricdə yaşayan irland mühacirləri formalaşmaqda olan diasporlarında dil kursları açmışlar. Hətta XIX əsrin 50-ci





illərində ABŞ-da Gel dilində "Ayriş Amerika" qəzeti nəşr olunurdu. Bu və digər tədbirlərə baxmayaraq ingilis dili İrlandiyada tamamilə Gel dilini üstələdi.

1793-cü ildə İngiltərənin Fransa ilə müharibəyə başlaması İrlandiyanın İngiltərənin ərzaqla təminatçısına çevirdi. İrlandların İngiltərə ordusunda vuruşması ilə yanaşı ölkə əhalisi gecə-gündüz ordunu ərzaqla təmin etməkdən ötrü çalışırdılar. Ölkənin kənd təsərrüfatının tamamilə İngiltərəyə xidmət etməsinin əleyhinə dəfələrlə etiraz çıxışlarının alınmasına baxmayaraq İrland feodallarının təzyiqi ilə nəticəsiz qalırdı.

İrlandiyanın taxıl ehtiyatlarının İngiltərə nəzarətində olması alternativ qida məhsulu kimi kartofun əkini xeyli gücləndi. Əhali kartof vasitəsilə dolanır və ticarət edirdi. Lakin bu çox uzun çəkmədi. 1845-ci ildə İrlandiyada kartofa azot çatışmamazlığından düşən "Pfritet" xəstəliyi bu cür zərər çəkilməsi nəticəsində 1845-50-ci illər arası İrlandiyada "Böyük Aclıq illəri", "Böyük kartof aclığı" kimi tarixə düşmüş hadisədən 5-6 il ərzində 1,5 milyon əhali məhv oldu. İrladiyanın 20% əhalisinin ölümünə səbəb olan bu illər ölkədə kütləvi mühacirət prosesinin başlanmasına səbəb yaratdı.

İngiltərənin taxıl ehtiyatının irlandlarla verməməsi kartofa dəyən zərər və eyni zamanda ölkəni bürüyən digər xəstəliklər ölkənin əhalisini digər dövlətlərə mühacirətini gücləndirdi. İrlandiya tarixində ən böyük mühacirət dalğası hesab olunan bu illər ərzində 2 milyondan çox irland Amerika, Avstraliya, İngiltərə, Kanada və s. ölkələrə mühacirət etdilər.

1851-55-ci illər arası ölkədə aclığın qarşısının alınması və xəstəliklərin yoxa çıxmasına baxmayaraq, mühacirət prosesinin qarşısı alına bilmirdi. İrlandiya xəstəliyi - (İngilislər kartof aclığını bu cür adlandırırdılar) - nəticəsində 1911-ci ildə ölkədə 4,4 milyon sakin qalmışdır ki, onların da sayı günü-gündən azalırdı.

1916-cı ildə dünyada baş verən ictimai-siyasi proseslər nəticəsində İrlandiyada milli-azadlıq mübarizəsi gücləndi. 1919-

cu ildə Dublində İrlandiya müstəqilliyi və İrlandiya Respublika Ordusunun yaranması elan edildi. Diasporun yardımı və burjaziyanın maliyyəsi sayəsində milli-azadlıq mübarizəsi xeyli gücləndi. 1921-ci ildə İngiltərə ilə siyasi müqavilənin imzalanması ölkəyə dominion statusunu verdi. 1949-cu ildə isə İrlandiya öz müstəqilliyini elan edib dünya birliyinin bərabərhüquqlu üzvü oldu. 1961-ci ildə isə ölkədə mühacirət prosesi xeyli zəiflədi. Diasporun vətən ilə sıx əlaqəsinin qurulması xaricdə yaşayanlardan geri dönənlərin sayını artırırdı. 70-80-ci illərdə isə Olster problemi üstündə İngiltərəyə qarşı dünyanın müxtəlif dövlətlərində İrland diasporunun güclü kampaniyaları başladı. Bunun müsbət nəticələrinin olmasına baxmayaraq bu gün üçün diaspor daha bu işlə ciddi maraqlanmır. Demək olar ki, müasir İrland diasporunun sırf iqtisadi maraqlar güdməsi nəticəsində onların mövqeyi zəifləyib.

İrland diasporu demək olar ki, dünyanın 80% ölkəsində fəaliyyət göstərir. Amerika, Avstraliya, Argentina, Kanada, Cənubi Amerika ölkələri, Avropa dövlətləri, Asiya və Afrikanın bəzi dövlətlərində məskunlaşan İrlandlar sayca üstünlüyü və fəaliyyətcə aktivliyi aşağıdakı dövlətlərdə xüsusilə seçilir.

1920-40-cı illər arası Amerikada İrland diasporunun fəaliyyəti bir o qədər də nəzərə çarpacaq deyildi. Lakin II Dünya müharibəsindən sonra irlandların siyasi fəaliyyətinin güclənməsi nəticəsində yüksək dövlət postlarında onların irəli çəkilməsi başlandı. Con Kennedi, Riçard Nikson və s. irland mənşəli Amerika prezidentləri irlandların siyasi aktivliyinin bariz nümunəsi idi. Xüsusilə Karib böhranı kim münaqişənin yatırdılması və s. fəalliyatinə görə daha çox yadda qalan Con Kennedi irland diasporuna və İrlandiyaya ayrıca diqqət yetirirdi. 1963-cü ildə tarixi vətəni İrlandiyaya səfər edən Con Kennedi ilə İrlandiya lideri Eamon Valero görüşünü tarixi hadisə adladırırlar.

1960-cı illərdən sonra Amerikada etnik diasporların lobbi fəaliyyəti gücləndi. Bu ildə isə artıq irland lobbisi aktiv fəaliyyəti





göstərirdi. 1970-ci illərdə isə İrland lobbisi Konqres və Senatda bir nömrəli hesab olunurdu. Lobbiləri isə maliyyələşdirən XIX ərin əvvəllərində yaradılmış "Fenon qardaşlığı" birliyi və 1929-cu ildə təsis edilən "Torpaq liqası" idi.

Olsterdə 1960-cı ildən sonra başlanan kütləvi təzyiqlər, represiyaların qarşısının alınması, ingilis hökumətinin geri çəkilməsi üçün irland lobbisi Konqres və Senatda fəaliyyətlərini genişləndirdi. "İrlandların Qədim Ordeni" və "İrlandiya mühacirəti üzrə Amerika İrland Komitəsi" Konqres, Senat və Amerikanın bütün ştatlarının qanunverici orqanlarda lobbiistlərinin sayının artırırdılar.

1978-ci ildə İrland lobbisi "İrlandıyaya sülh" başlığı forumu Amerikada geniş miqyasda həyata keçirtdilər. 1979-cu ildə Konqresdə sayı 104-ə çatan lobbistlər İngiltərə əleyhinə olan qərar çıxarmasına nail oldular. Böyük Britaniyanın kral polisi üçün alınacaq silah yardımının qarşısının alınması üçün çıxarılan qərar onların qələbəsi idi. Bu silahlar xüsusən Olsterdəki polislər üçün nəzərdə tutulmuş idi.

İrland diasporunun və lobbisinin qüvvətlənməsinə Ronald Reyqanın Amerika prezidenti seçilməsi oldu. "Kapitoli təpəsində" xeyli canlanma yaradan bu hadisədən sonra İngiltərə öz lobbisini gücləndirməyə məcbur oldu.

1980-ci illərin ortalarından başlayaraq İrlandiya lobbisinin mövqeyi ölkədə zəifləməyə başladı. Buna səbəb dünyada baş verən ictimai-siyasi proseslər nəticəsində yeni yaranan müstəqil dövlətlərin lobbi-mexanizminin və diasporlarının güclənməsi idi. Regional münaqişələrlə başı qarışan aparıcı lobbistlər Olster probleminə çox ciddi fikir vermirdilər.

90-cı illərin əvvəllərindən etibarən isə İrland diasporu atıq siyasi yola deyil elmi və təbliğatçılıq yolu ilə öz mövqelərini gücləndirməyə başladı. Bu məqsədlə dünyanın müxtəlif bölgələri ilə yanaşı ABŞ-da diaspor təşkilatlarının və Kütləvi İnformasiya Vasitələrinin sayı artmağa başladı. Digər ölkələrdəki diasporların birləşdirilməsi istiqamətində iş aparmağa başlandı.

İrland diasporuna məxsus Kütləvi İnformasiya Vasitələri içərisində aşağıdakılar daha populyardır:

Qəzetlər: "The İrish Echo", "The İrish Times Online" və s.

Jurnallar: İrish Amerika magazine", "Virtuoe İreland" və s.

Televiziya və Radio kanalları: "RTE online", "İrish Radio", "Out of İreland TV", "USA İrish net World" və s.

Bunlardan əlavə Amerikada aktiv fəaliyyət göstərən diaspor təşkilatları da var. Bu təşkilatlar ictimai-siyasi, mədəni, elmi və iqtisadi fəaliyyətlərlə məşğul olurlar.

1. **İrland Milli Fraksiyası** - 1974-cü ildə təsis edilib. Amerkanın bir çox ştatlarında filialları olan fraksiyanın təsisçisi "Şinfeyni"- "Biz özümüz" partiyasıdır. Əsas fəaliyyət istiqaməti Amerika irlandlarının hüquqlarının müdafiəsidir. Onların müstəqil olaraq öz müqəddaratlarını təyin etməsinin əsas prinsip kimi götürən Fraksiya KİV orqanlarına malikdir.

2. **İrlandiya Fondu** - 1976-cı ildə yaradılan fond Amerikada yaşayan irlandlar içərisində maliyyə toplanması ilə məşğul olur. Yığılan məbləği İrlandiyaya və Olsterə göndərən Fond Amerikada imkansız irland ailələrini maliyyələşdirir. Amerikanın bütün ştatlarında filialları olan Fond aktiv fəaliyyət göstərir.

3. **Amerika - İrland Tarixi Cəmiyyəti** - 1897-ci ildə bünövrəsi qoyulan cəmiyyət 1940-cı ildən sonra fəaliyyətini genişləndirib. Dünyanın bir çox ölkəsində və Amerikanın müxtəlif ştatlarında filialları olan cəmiyyət əsasən elmi, mədəni və ictimai işlərlə məşğul olur. Cəmiyyət tez-tez musiqili-ədəbi görüşlər təşkil edir.

4. **Amerika-İrland Ticarət Palatası** - Qeyri-hökumət təşkilatı kimi yaradılan Palata Amerika-İrlandiya ticari-iqtisadi əlaqələrin qurulması istiqamətində iş aparır. Palata əldə olunan gəlirin əsas hissəsini İrlandiyanın inkişaf etməsinə xərcləyir. Palata öz fəaliyyəti üçün Amerika və İrlandiyanın tanınmış siyasətçiləri və ictimai xadimlərinin dəstəyin alır. İrlandiyaya investisiya qoyulmasının təminatçısı olan Palata öz fəaliyyətini genişləndirməkdədir.





5. **İrlandiya Amerika Dostluq Assosiasiyası** - Bostonda yaradılmış olan Assosiasiyanın əsas məqsədi Amerika və İrlandiya dostluq əlaqələrinin inkişaf etməsidir. ABŞ-a yeni mühacirətə gələn İrlandların yaşayış və işlə təmin edilməsində yardımçıdır. ABŞ-ın müxtəlif şəhərlərində filialları olan Assosiasiya İrland diasporunda nüfuza malikdir.

6. **İrland Mədəniyyət Mərkəzi** - 1989-cu ildə Bostonda İrland və Amerikalılar tərəfindən təsis edilib. İrland mədəniyyətini, milli-alət ənənələrini, musiqisini Amerikada təbliği ilə məşğul olan Mərkəz bu məqsədlə tez-tez tədbirlər keçirir. Mərkəz Amerikada zəngin ktabxanaya və muzeyə malikdir.

Bu təşkilatlar diaspor içərisində nüfuz sahibi olmaqla ictimaiyyət tərəfindən müsbət qarşılanır. Amerikalılar üçün irland milli geyimləri, adət-ənələri, musiqisi xüsusi maraq kəsb edir. Qədim irland geyimləri olan saçaqlı plaş (qolsuz üst geyimi), yun şalvar, qadın geyimləri saçaqlı plaş və qısa kitel (alt köynəyi) XVI əsrdə ingilis hökuməti tərəfindən qadağan edilməsi səbəbinə son zamanlar onların muzeylərdə olması amerikalıların buraya axınının gücləndirib. Düzdür, hazırda İrlandiyada və diasporda xalq geyimləri ilə əlaqəli ənənə ciddi surətdə mövcud olmasa da, xalq musiqisi və rəqsləri mühüm əhəmiyyətə malikdir. Bunların təbliğatı xüsusi olaraq geniş yayılıb.

Müasir dövrdə İrland diasporu dünyanın ən böyük diasporlarından hesab olunur. Bütün sahələrdə çalışan İrlandlar öz iş yerlərində əvəzedilməz qüvvə hesab olunur. Amerikanın inkişaf etməsində irlandların xüsusi və əhəmiyyətli rolu olmuşdur. Bu səbəbən də keçmişlərini unutmayan amerikalılar İrland diasporuna müsbət münasibət bəsləyirlər.

İrlandlar assimilyasiya olunmalarına baxmayaraq Vətənlə əlaqələrin itirmirlər. Bəzi irlandlar öz maliyyə vəziyyətlərini mühacirətdə yaxşılaşdırdıqdan sonra vətənlərinə geri dönürlər.

İrlandlar üçün daim bir şüar mövcuddur: "Mən daim İrlandiyanı müdafiə edəcəm!"

## İrredenta

Bu termin müasir xarici elmi ədəbiyyatlarda başqa bir dövlətdə soydaşlarının çoxluq təşkil edən ərazidə məskunlaşan etnik azlıqlar kimi izah edilir. Sərhədlərin dəyişməsi, hərbi müdaxilə və oxşar hadisələr səbəbi ilə vətənlərindən ayrı düşən millətin yaxud azsaylı xalqın yerli əhalidən sayca çoxluq təşkil etməsi İrredenta termini yaranmasına şərait yaradır.

## İrredenist

Etnik qurumun və ya diasporun bir dövlətin tərkibindən çıxaraq başqa bir dövlətə birləşmək uğrunda mübarizəsi.

## İsaaq Minis

Amerika Birləşmiş Ştatlarında anadan olan ilk ağdərili uşaq. Yəhudi diasporunun bu qitədə başlanğıcı bu insandan götürülməsi barədə bəzi alimlər fikir bildirirlər.

## İslahat

İslahat, reform (latın sözü "reformare" dəyişdirmək deməkdir). İctimai həyatın bu və ya digər cəhətlərinin dəyişdirilməsi və ya yenidən qurulması, onun əsaslarına zərər vurmadan dəyişmə üsuludur.

## İslam

Monoteist din olan İslam - üç dünyəvi dindən biridir.

«İslam» (ərəbcə:الإسلام) (el-islam) adı S-L-M (سلم) kökündən törənmişdir. Bu kökün umumi olaraq qəbul edilən iki anlamı vardır. Bunlar: I) sülh (salam da bu kökdəndir), II) boyun əymək, itaət etmək (Allaha təslim olmaq)dir.

Dünyada təqribən 1 mlrd.-dan artıq müsəlman yaşayır. Bunlardan 150 mln nəfəri ərəbdir. Dünyanın 120-dən artıq ölkəsində müsəlman icmaları mövcuddur. 40-a qədər ölkələrdə müsəlmanlar ölkənin əhalisinin yarısından çoxunu, digər dövlətlərdə isə nüfuzlu azlıq təşkil edir.





Onun ardıcılları Yaxın Şərqin (Türkiyə, Suriya, İordaniya, İraq, Ərəbistan yarımadası ölkələri, Misir, Sudan, Somali, Eritreya) Orta Şərqin (İraq, Əfqanıstan, Pakistan) Məqribin (Mərakeş, Əlcəzair, Mavritaniya, Tunis, Liviya), İndoneziyanın, Malayziyanın, Bruneyin əhalisinin əksəriyyətini təşkil edir. Bundan başqa müsəlmanlar Çində, Hindistanda, Həbəşitanda, Albaniyada, keçmiş Yuqoslaviyada, Nigeriyada, Bolqarıstanda və başqa ölkələrdə yaşayırlar.

İslamın əsas ehkamı - tək həqiqi ilahinin - Allahın tanınmasıdır. Allah bütün mövcudatın yaradıcısı, bütün insanların ali-hökmdarı hesab olunur.

Müsəlmanlar hər gün namaz qılmalı, oruc tutmalı və ömürlərində bir dəfə həccə getməlidirlər. Bundan başqa müsəlman zəkat verməli və sədəqə paylamalıdır.

## İspanlar

Bu termin ispan dilində danışan bütün etnik qruplara şamil olunması səbəbilə meksika diasporunun 80%-nin məhz bu dildə danışmalarına görə onlara da aid olunur. Meksika diasporunun ana dili kimi ispan dilini Amerikada təbliğ etməsi, bu dildə Kütləvi İnformasiya Vasitələrinə sahib olmaları və ən əsası onların ispan əsilli olmasından irəli gələn bu termin Amerikada tez-tez işlədilir. Meksikalılar və digər Latın Amerikasından olanlara bu terminin şamil olunması etnik ispanlıların narazılığı ilə qarşılanır. Bu səbəbdən də onlar arasında gərginlik olunur. İspanlar meksikalıların onların milli adət-ənənələrinə, dilinə və mədəniyyətinə yaxın olmalarına baxmayaraq onları amerikalı kimi qəbul edirlər.

## İssey

Hərfi tərcümədə ilk mühacirlər. Yapon mühacirlərinin ilk nəsil dalğası olan İsseylər Yaponiyada anadan olub Amerikaya mühacirət edənlər hesab olunur.

Amerikaya ilk mühacirət edən İsseylər əsasən sadə insanlardır. Amerika və Yaponiya mədəniyyəti ilə sıx bağlı olan İsseylər bu günə qədər hüquqi cəhətdən Yaponiya vətəndaşı hesab olunurlar. İsseylər Yapon diasporunun təməlini qoya bilməsələr də, bu ölkədə adaptasiyanı asanlıqla keçə bildilər. İqtisadi maraqlar onların siyasi fəaliyyətini passivləşdirmişdir. Bağçılıq, ev işləri sahəsində bacarıqlı işçi kimi qəbul edilən İsseylər ilk zamanlar Amerikada qalmaq fikirləri güdmürdülər. Əfsanəvi ölkə hesab etdikləri Amerikaya pul qazanmaq və geri dönərək ailələri üçün yaxşı həyat şəraiti qurmağı planlaşdıran İsseylər Amerikaya gəldiklərində eşitdiklərinin həqiqət olduğunun canlı şahidləri olurdular. Pul qazanmaqdan ötrü çox işləmək lazım olduğunu görən İsseylərin ağır iş şəraitinə uyğunlaşması uzun zaman çəkdiyindən onların yalnız 20%-i geri qayıda bildi. Assimilyasiyaya məruz qalması isə İsseyləri Amerikanlaşdırırdı.

**İş dövləti**

Anlayışı fəhlə mühacir mümkün hallarda ödənişli fəaliyyətlə məşğul olmalı, məşğul olan və ya məşğul olmuş dövlət deməkdir.

**İzolyasiya**

İzolyasiya o deməkdir ki, diasporlar onların qruplarının istədikləri vaxt bütövlükdə cəmiyyətdən ayrılmasını və ictimai normalara tabe olmamasını tələb edirlər. Tarixdə bir sıra diasporlar yerli millətçilərdən özlərini qorumaq üçün izolyasiyaya əl atıblar. Çinlilər, Yaponlar, İrlandlar, Ərəblər bundan daha çox yararlanıblar. Cəmiyyətdən təcrid olunma müxtəlif formalarda ola bilər. Bu zaman ifrat və mülayim formalardan istifadə olunur. İfrat forma yeni dövlətin yaradılmasıdır.





## -K-

**Kanqani**

*Tamil dilində xaricdə işləyən.* 1833-cu ildən sonra hindlilərin əmək xarakterli mühacirəti üçün geniş şərait yaradan Britaniya hökümətinin onların digər ərazilərə köçürülməsi məqsədilə hazırladığı yeni müqavilə sistemi.

**Kapitoliya**

Vaşinqtonda ABŞ konqresinin hər iki palatasının yerləşdiyi bina. Məcazi mənada Kapitoliya ABŞ konqresi anlamında işlədilir. Diaspor və lobbiçilərin əsas fəaliyyət yeri.

**Kasta**

Kasta; silk, qrup, təbəqə - ancaq öz silki və qrup imtiyazlarını güdən ictimai qrup.

**Katakalizm diasporu**

Siyasi və başqa səbəblərlə əlaqəli olaraq milli sərhədlərin dəyişməsi nəticəsində yaranan diasporlar.

**Kənd yerindən kəndə miqrasiya edənlər**

Bir kənd yerindən digərinə miqrasiya edilməsi.

**Kənd yerindən şəhərə miqrasiya edilməsi**

Kənd yerindən iş və s. səbəblərlə şəhərə miqrasiya edilməsi.

**Kibey**

Amerikada doğulub, Yaponiyada təhsil alıb Amerikaya geri dönən Kibeylər Yapon diasporunun nəsil dalğaları içərisində spesifik qrup hesab olunur. Hərfi tərcümədə - Ki-bei - geri

qayıdan. Kibeylər Yapon diasporunda özlərini digər nəsil dalğalarından Yaponiyada təhsil almalarına və çılğınlıqlarına görə fərqləndirirlər. O biri nəsil dalğaları Kibeylərin bu cəhətlərinə görə onlara çox ciddi yanaşmırlar. Kibeylər Amerika mədəniyyəti tərəfindən assimilyasiyaya məruz qalmağın əleyhinə olmaqla Yapon mədəniyyəti və dilinin təbliğ edilməsini özlərinin mənəvi borcları hesab edirlər.

Kibeylərin 20%-i isə Yaponiyadan gələndən sonra kənd təsərrüfatı sahələrində valideynlərinə kömək etməyə üstünlük verir. Ancaq bütün nəsil dalğaları Kibeyləri iki dünyanın - Amerika və Yaponiyanın birləşdirici qüvvəsi kimi qəbul edirlər.

**Kibusi**

İsraildə emiqrantların bir müddət yaşadığı icma tipi. Burada emiqrantlar yaşayış evi, iş və s. ilə təmin edilirlər. Burada yaşayan emiqrantların əmək haqqı onların hesabına köçürülür və kibusini tərk edən zaman onlara ödənilir.

**Klan**

Bu cür birlikdə ailə prinsipləri əsas götürülür. Klan üzvləri eyni soyadı daşımalı və qohum-əqrabadan olmalı idi. Məsəl üçün Çin diasporuna məxsus klana daxil olanlar daim bir-birlərilə sıx əlaqə qurmalı, problemləri birgə həll etməli, xaricdə yaşayan digər qohumlarla əlaqə qurmalı, Çinlə əlaqəni itirməməli, qədim adət-ənənəyə riayət etməli idi.

Hal-hazırda dünyanın bir çox dövlətlərində bu cür klanlar mövcuddur. Klanlar məskunlaşdıqları dövlətdə müəyyən bir ərazini nəzarətə götürür və burada ticari şəbəkələr qururlar. Gələn gəlirlər isə ümumi kapital kimi cəmlənir və problemlərin həll edilməsinə xərclənir.

**Koloniya**

Bir dövlətin vətəndaşlarının digər ölkədə yaşaması. Bu zaman onlar qapalı bir formaya üstünlük verirlər.





**Konflikt (münaqişə)**

lat. conflictus – toqquşma. Bir-birinə zidd olan qüvvələrin (mənafe, görüş və meyllərin) qarşıdurma şəraitində öz maraqlarını həyata keçirmək məqsədilə toqquşması. Bu hal diasporların Ana vətənlərinin çox zaman münaqişəli situasiyaya düşməsi, milli dövlətçilik maraqlarının pozulması zamanı baş verir. Çox zaman konflikt siyasi aspektdə baş verir. Silahlı toqquşmalara az rast gəlinir.

**Konflikt gərginlik fazası**

Milli etnik münaqişələr zamanı bu fazada tərəflər arasında müxtəlif sosial-siyasi səbəblər üzündən münaqişəli vəziyyətin yaranması müşahidə olunur. Bu zaman xalq, vətən, məişət, dövlət və s. təəssübkeşliyi ortaya atılır və düşmən obrazı yaradılır.

**Konqres**

Beynəlxalq əhəmiyyətli məsələlərin müzakirəsi məqsədi ilə keçirilən tədbir. Bir çox hallarda konqres təşkilati birliyi izah edir. Məs. DAK, İAK, MAK.

**Konviksiya**

Hər hansı bir insan qrupu, icma yaxud diasporun eyni xarekterli məişət və ailə əlaqəsinin olması, bu bəzən subetnosa da çevrilə bilər.

**Koreya diasporu**

Dünyanın 160-a yaxın ölkəsində məskunlaşan Koreya mühacirləri Asiya regionundan olan etnik diasporlar içərisində siyasi və iqtisadi aktivliyinə görə fərqlənən unikal diaspora malikdir.

Koreyalılar öz vətənlərini XX əsrə qədər təsadüfi hallarda tərk edirlər. II əsrdən etibarən passiv halda başlayan Koreya

mühacirəti yaxın Asiya dövlətləri: Çinə, Hindistana, Yaponiyaya baş verirdi. Milli adət-ənənələri ilə sıx bağlı olan koreyalılar bu dövlətlərdə işləmələrinə baxmayaraq mütləq vətəninə dönməyi və doğma yerlərdə ömürlərini başa vurmağı özlərinin müqəddəs borcları hesab edirdilər. Bu səbəbdən də XX əsrə qədər digər dövlətlərdə Koreya diasporunun formalaşması baş verməyib.

XVII əsrdə Koreya hökuməti ölkə daxilindən başqa bir dövlətə mühacirət etməyi rəsmən qadağan etdi. Dövlət rəsmiləri Koreyanın siyasi, iqtisadi və hərbi cəhətdən qüvvətlənməsi üçün bu adımı atmalı oldular. 100 il ərzində Koreyanı yalnız yüksək vəzifəli dövlət xadimləri rəsmi səfərlə əlaqəli tərk edə bilərdilər.

Lakin ölkənin düşdüyü ağır iqtisadi böhran hökumətin qadağaları götürməsinə səbəb oldu. 1876-cı ildə ölkədən çıxışı qadağan edən qanun qüvvədən düşdü.

Ağır vergilər, işsizlik səbəbilə 1870-1890-cı illər arası Koreyanı tərk edib qonşu dövlətlərə mühacirət edənlər maliyyə vəziyyətlərinin yaxşılaşdırıb geri dönmək barədə fikirləşirdilər. Sırf iqtisadi səbəbli mühacirət prosesi intensiv olaraq Rusiyanın Uzaq Şərq regionuna və Çinin Mancuriya ərazisinə davam edirdi. 1890-cı illərdən sonra Yaponiya, Cənubi Şərqi Asiya dövlətlərinə mühacirət edən koreyalılar məskunlaşdıqları ölkələrə daha tez adaptasiya olunurdular.

Koreyalıların məskunlaşdıqları ölkələrdə onlara müxtəlif cür yanaşırdılar. Rusiyada ilk zamanlar onlara ehtiyatla yanaşsalar da, zamanla onların qanunlara riayət etməsi nəticəsində münasibət yaxşılaşdı.

Çində isə koreyalılara yaxşı kənd təsərrüfatı işçiləri kimi hörmət edilirdi. Mancuriya iqliminə tez alışan koreyalılar bu torpaqlarda bacarıqlı işçi kimi özlərini sübut etməsi səbəbilə onlara Çin hökuməti xeyli güzəştlərə getməli oldu. Yaponiyada isə koreyalılara yaxşı şəraitiin yaradılmasına səbəb bu dövlətin Koreya yarımadasına olan geosiyasi maraqları idi. Cənubi-Şərqi Asiyada və Hindistanda koreyalılar yaxşı sənətkar kimi tanınırdılar.





Amerika, Avstraliya və Avropa qitələrinə isə Koreya mühacirəti 1905-ci ildən sonra kütləvi xarakter almağa başladı. 1905-ci ildən sonra başlanan mühacirət siyasi xarakter daşıyırdı. Amerika barədə Yaponiya və Çində işlədikləri zaman eşidən koreyalılar vətənə geri dönəndən sonra "Yeni Dünya"ya mühacirət edirdilər.

Koreya Xarici İşlər Nazirliyinin 2001-ci il məlumatına görə dünyanın 160-a yaxın ölkəsində 8,4 milyondan çox koreyalı yaşayır. Koreyalıların sayca üstünlük təşkil etdikləri ölkələr Çin, ABŞ, Yaponiya, Rusiya, Avstraliya, Meksika hesab olunur.

Adları çəkilən dövlətlərdə aktiv fəaliyyət göstərən Koreya diasporu bu dövlətlərin sosial, siyasi, iqtisadi və mədəni həyatlarında mühüm rol oynayır. Koreya diasporu dedikdə məhz adları sadalanan dövlətlərdəki koreyalılar nəzərdə tutulur. Düzdür, Asiya və Avropada da koreyalılar məskunlaşıblar. Lakin bu regionda məskunlaşan koreyalılar çox aktiv fəaliyyət göstərmirlər. Bu passivlik nəticəsində isə Avropa və Asiyanın digər dövlətlərində diaspor formalaşdıra bilməyən koreyalıların bu regionlara mühacirəti 1950-ci illərdən sonra başladığından burada onlar siyasi fəaliyyətlə məşğul olmuşlar.

1965-ci ildə Amerika Birləşmiş Ştatlarında mühacirət qanunları liberallaşdırdı. Bundan sonra Amerikaya dünyanın müxtəlif bölgələrindən etnik mühacirlərin axını gücləndi. Koreya mühacirətinin sayının sürətlə artması Amerika Statistika Departamentinin onlar üçün ayrı hesabat dəftəri ayırmasına səbəb yaratdı. Koreya mühacirətinin demoqrafik hesabatı, analizi və proqnozları hər ildə dərc olunurdu. 1965-ci ildən Amerikaya başlanan yeni Koreya mühacirət dalğası Çikaqo, Nyu-York, Los-Ancelos şəhərlərini əhatə edirdi. Bu şəhərlərdə kompat halında məskunlaşan koreyalılar sosial-iqtisadi proqnozlarda aktiv iştirak edirdilər. İlk böyük koreyataunlar (koreya məhlələri) - bu şəhərlərdə yaradılmışdır. Amerikada Koreya diasporunun mərkəzi hesab olunan Los-Ancelosdakı "Balaca Seul" - Koreya taunu ən böyük koreyil məhləsidir.

"Balaca Seul"da koreyalılara məxsus hüquq firmaları, ticarət obyektləri, Restoranlar, sənətkar ofisləri fəaliyyət göstərir. Çayntaunlardan fərqli olaraq koreyataunlar da sərt qayda-qanunlar yoxdur. Ümumi rəhbərlik milli adət-ənənələrin qorunub saxlanılmasına nəzarət edir. Burada koreyalılar bir-birlərilə intensiv əlaqə qurur, hüquqlarının müdafiəsinin professional notarius formalarına həvalə edirlər. Buranın sakinləri çox varlı olmasalar da şəxsi avtomobillərinin sayına görə digərlərindən fərqlənirlər. "Balaca-Seul"da çoxsaylı assosasiya və təşkilatlar, kilsələr koreya diasporunda mədəni maarifçilik işlərilə məşğul olurlar. Koreyataunda dövrü mətbuat həm ingilis, həm də koreya dillərində nəşr edilir. İngilis dilinə gec adaptasiya olunan koreyalılar koreyataunlarda doğma dillərində danışırlar.

Amerikaya ilk dəfə gələn koreyalılar burada heç bir çətinlik çəkmirlər. Onlar koreyataunlarda işləmək, qalmaq və dil öyrənmək kimi şəraitlə təmin olunurlar. Diaspor içərisində imkanlı şəxslər yeni mühacirlərə maliyyə yardımı göstərirlər. Təhsil almaq istəyənlər isə böyük güzəştlərə malikdirlər.

Koreyataunların sakinlərilə Amerikanın yerli əhalisi arasında tez-tez milli adət-ənənələrin qorunub saxlanılması üstündə münaqişələr baş verir. Amerika ictimaiyyəti üçün koreya dili, mədəniyyəti yad olduğundan koreyalıların assimilyasiyası sürətlə gedir. İngilis dilinin onlar tərəfindən zəif bilməsi assimilyasiyaya mane olmasına baxmayaraq kilsələr onlara köməklik göstərir. 400-dən çox Koreya kilsəsi ABŞ-da fəaliyyət göstərir və onlar koreyalıların ictimaiyyətə adaptasiyasına yardımçı olurlar. İntellektual baxımdan asiyalılar içərisində seçilən koreyalıların assimilyasiya olunması ölkə rəhbərliyinin maraqlarına daxildir.

Müasir koreyalıların əksəriyyəti 1965-ci ildən sonra Amerikaya gələnlərdir. Onların vətəndə qohum-əqrəbalarının qalması səbəbilə koreya ilə sıx əlaqə saxlanılmasının başlıca səbəbidir. Amerika koreyalıların müəyyən hissəsi kənd





təsərrüfatı sahələrinə maraq göstərir. Əsasən tibb və ticarət sahələrində çalışmağa üstünlük verən koreyalılar bu məqsədlə xüsusi kurslar keçirirlər.

Xırda sahibkarlığın Koreya diasporunda üstünlük təşkil etməsi Koreya burjuaziyasının yaranmasına səbəb olmuşdur. Cənubi və Şimal koreyalılar burjuaziya yaradılmasından sonra bir-birlərilə münaqişələrə başladılar. Açıq-aşkar olmasa da onlar arasında olan ədavət müəyyən problemlərin həlli zamanı özünü göstərir. Cənublular şimallılardan fərqli olaraq daha intellektualdırlar. Onların 80%-i xırda sahibkarlardır, onlara məxsus ticarə obyektləri digər məhlələrdə də fəaliyyət göstərir. Digər diasporlarla rəqabət aparan cənublular zəngin məhlələrdə fəaliyyət göstərən yeganə etnik diaspor hesab olunur. Şimalıların əksinə olaraq cənublular ictimaiyyətə daha gec adaptasiya olunurlar. Milli adət-ənənələrə ciddi riayət edən cənublular vətənlə intensiv əlaqə qurmaqla elm-təhsilə daha çox maraq göstərirlər.

Cənubi koreyalıların 65%-i ali təhsillidirlər. Onlar Amerikada bütöv Koreya ideologiyasının yaradıcılarıdırlar. İki Koreyanın birləşdirilməsini təbliğ edən cənublular vahid cəbhədən çıxış etmək üçün şimaldan olanlar ilə danışıqlar aparırlar. Amerika kəşfiyyat orqanlarını onları dəstəkləməsi şimallıların narazıçılığı ilə qarşılandığından onlar arasında ümumi razılıq yoxdur.

Amerikada koreya diasporu siyasi cəhətdən daha çox fəaldır. Müxtəlif sahələrdə işlər görən Koreya diasporu çoxlu Kütləvi İnformasiya Vasitələrinə (KİV) sahibdir. Müasir dövr üçün Koreya diasporuna məxsus "Korea Post", "Korea Times" və s. qəzetləri, "Korean Journal", "Korean Weekly" və s. jurnalları dərc olunur. "Radio Korea", "Radio Ceoul" və s. radio və "Korean TV", "Korean Channel" və s. televiziya kanalları Amerikada yayımlanır.

Bu KİV orqanları diaspor içərisində təbliğatçılıq işilə məşğul olurlar. Amerika ictimaiyyətində Koreya diasporuna

müsbət imic qazandıran KİV-lər Amerika ictimaiyyəti və hökuməti tərəfindən rəğbətlə qarşılanır. Koreya diaspor birlikləri müxtəlif istiqamətlərdə fəaliyyət göstərirlər. Aşağıda adları sadalanan birliklər Amerikada daha çox aktivdirlər:

1. **Koreya Milli Assosasiyası** - 1945 -ci ildə yaradılıb, əsasən Koreya Amerika münasibətlərinin normallaşdırılmasına çalışır. ABŞ-ın bir çox şəhərlərində filialları var. Demokratiya, insan hüquqları sahəsində koreyalıların maarifləşdirilməsinə çalışan assosasiya kitablar, bülletenlər dərc etdirib diaspor arasında yayır.

2. **Cənubi Kaliforniyada Koreya Assosiyası** - 1968-ci ildə yaradılan Assosasiya burada fəaliyyət göstərən ən böyük təşkilatlardandır. 70 min üzvü olan Assosasiya yüksək vəzifəli koreyalılar tərəfindən dəstəklənir. Bir neçə xeyriyyə fonduna sahib olan Asossasiya imkansız koreyalılara maddi köməklik göstərir. Xırda sahibkarların dayağı hesab olunan Assosasiya maliyyə cəhətdən güclü təmin olunub.

3. **Amerikada Koreya Problemlərini Öyrənən Assosasiya** 1974-cü ildə təsis edilib. Amerikada Koreya diasporunun sosial, iqtisadi, siyasi, hüquq, elmi, mədəni və s. problemlərini araşdıran Assosasiya bu sahələrdə maarifləndirici işlərlə məşğul olur. Bu istiqamətlərdə komitələr yaradan Assosasiyanın digər ştatlarda şöbələri var.

4. **Koreyanın Demokratik Birləşdirilməsi Milli Assosasiyası** - 1970-ci illərdə yaradılıb. Əsas fəaliyyət istiqaməti Cənubi və Şimali Koreyanın demokratik yolla birləşdirilməsi üçün diaspor arasında iş aparmaqdır. Bütöv Koreya ideologiyasının təbliğ edən Assosasiyanın bir çox şəhərlərdə filialları fəaliyyət göstərir. Tez-tez konfrans və seminarlar keçirən assosasiyanı digər diaspor təşkilatları içərisindən də dəstəkləyənlər var.

5. **Amerika-Koreya Dostluq və İnformasiya Mərkəzi** - 70-ci illərdə təsis edilən Mərkəz, Koreya yarımadasında vəziyyətin normallaşdırılması üçün Amerikada lobbiçiliklə məşğul olur. İri şəhərlərdə şöbələri olan Mərkəz Amerika və Koreya rəsmiləri ilə tez-tez görüşlər təşkil edir.





Adları sadalanan birliklərdən başqa Amerikada "Amerikanın Koreya Dostluq Assosasiyası", "Koreya Mədəniyyəti, Cəmiyyəti" və s. təşkilatlar da fəaliyyət göstərir.

Müasir dövrdə Amerikada Koreya diasporunun ictimai dairələr tərəfindən assimilyasiya olunması prosesi sürətlə gedir. Burada yaşayan gənc koreyalılar qarışıq nikaha üstünlük verirlər. Bu isə onların professional Koreya əldə etməsinə təkan verir. Son illər isə Koreyataunlardan gənc nəsilin köçməsi prosesi başlanıb ki, onlar iri binalarda və zəngin məhlələrdə yaşamağa üstünlük verənlərdir. Kilsəyə gedən koreyalılar zamanla da bu vərdişdən əl çəkirlər. İngilis dilində danışmağı sevən koreyalılar ailədə ana dildə danışmağa az vaxt ayırırlar. Sosial-iqtisadi həyatda isə onlar daha fəaldırlar ki, bu da onların yerli əhali tərəfindən sevilməsinə şərait yaradır.

## Koreyanın Demokratik Birləşdirilməsi Milli Assosasiyası

1970-ci illərdə xaricdə yaşayan koreyalılar tərəfindən yaradılıb. Əsas fəaliyyət istiqaməti Cənubi və Şimali Koreyanın demokratik yolla birləşdirilməsi üçün diaspor arasında iş aparmaqdır. Bütöv Koreya ideologiyasının təbliğ edən Assosasiyanın bir çox şəhərlərdə filialları fəaliyyət göstərir. Tez-tez konfrans və seminarlar keçirən assosasiyanı digər diaspor təşkilatları içərisindən də dəstəkləyənlər var.

## Kosmopolietizm

Bütün dünyanı özünə vətən hesab etmək, bütün dilləri özününkü saymaq və bu kimi halların birləşdiyi dünyagörüşü.

## Köçürtmə

Fərdin və ya qrupun müəyyən yerdə yaşamasını qadağan etməklə yaşadığı yerdən uzaqlaşdırılması.

**Köçürülmə**

Müxtəlif səbəblərə görə (siyasi, təbbi fəlakət və s.) əhalinin yaşadığı ərazidən başqa bir yerə aparılması.

**Könüllü geri qayıtma**

Fərdi və yaxud qrup halında şəxs və yaxud şəxslərin miqrasiya etdikləri ölkədən ana vətənlərinə öz istəkləri əsasında geri qayıtması.

**Kuli**

Tamil dilində muzd deməkdir. Çinli, hindli, qara dərili və digər asiyalı miqrant fəhlələrin ABŞ, Cənubi Amerika və Avstraliyanın plantasiyalarında və mədənlərində müqavilə əsasında işə götürülməsindən sonra bu cür adlanırdı.





## -Q-

**Qaçqınlar**

Təqiblərə məruz qalaraq, öz doğma yurdlarını tərk etmiş və ora qayıtmaq imkanı olmayan insanlardır. Onların hüquqi vəziyyəti BMT-nin "Qaçqın statusu" haqqında Konvensiyası və müvafiq qaydada milli qanunvericiliklə müəyyən edilir.

Azərbaycan qanunvericiliyində qaçqın anlayışı belə müəyyən olunur: "Qaçqın Azərbaycan Respublikasının vətəndaşı olmayıb, irqi əlamətinə, milliyyətinə, dini etiqadınan, müəyyən sosial qrupa mənsubluğuna və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaq barəsində tam əsaslı ehtiyat üzündən vətəndaşı olduğu ölkədən kənarda qalan və eyni ehtiyat üzündən həmin ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən, yaxud müəyyən vətəndaşlığı olmayıb oxşar hallar nəticəsində əvvəl adətən yaşadığı ölkədən kənarda qalan, ehtiyat üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir".

**Qafqazfobiya**

Rusiya və MDB məkanında sayca artmaqda olan və genişlənən Qafqaz diasporunun nümayəndələrinə qarşı yaranan psixoloji hiss.

**Qalut**

Qədim yəhudi dinində sürgün deməkdir. Dünya yəhudiləri arasında müxtəlif dillərdə danışmalarına baxmayaraq, bu termin eyni mənada işlədilir. Yəhudilər Qalutda-diasporda yaşamağı "ağır, əzabverici həyat və qul vəziyyəti" kimi qəbul edirlər.

**Qan hüququ**

Şəxsin vətəndaşlığı öz valideynlərinin doğulduğu yerdən asılı olmayaraq əldə etməsi, "torpaq hüququ" isə valideynlərinin vətəndaşlığından asılı olmayaraq şəxsin doğulduğu yerin vətəndaşlığını əldə etməsi deməkdir. Dovlətlərin böyük əksəriyyətində "qan hüququ" *prinsipi tətbiq edilir.* Rusiya qanunvericiliyində də bu prinsipə əsaslanır. Əsasən "qan hüququ" prinsipinin tətbiq edildiyi dövlətlərdə bəzi hallarda "torpaq hüququ" prinsipindən də istifadə olunur.

ABŞ və bəzi Latın Amerikası dövlətlərinin qanunvericiliyi "Torpaq hüququ"na əsaslansa da, bu prinsip müəyyən dərəcədə qan hüququ prinsipi ilə tamamlanır (müvafiq dövlətlərin vətəndaşlarının xaricdə doğulmuş uşaqları barəsində). Dövlətlər qarışıq nigahlardan doğulmuş şəxslərin onların vətəndaşlığını əldə etməsi imkanını məhdudlaşdıran normaları öz qanunvericiliklərinə daxil etməyə çalışırlar. Bu müxtəlif mülahizələrdən, o cümlədən öz vətəndaşlarının dövlətlərarası münasibətləri mürəkkəbləşdirə biləcək ikiqat vətəndaşlıq əldə etməsinə yol verməmək mülahizəsindən irəli gəlir.

Qan hüququ prinsipini tətbiq edən dövlətləri bir çox hallarda xaricdə daimi yaşayan vətəndaşlardan doğulan, xüsusi ilə valideynlərindən biri xarici vətəndaş olan şəxslərin də onun vətəndaşlığını əldə etməsi imkanını məhdudlaşdırmağa çalışırlar.

**Qanuni miqrasiya**

Qanuni yolla baş verən miqrasiya prosesi.

**Qardaşlıq**

ABŞ-da XIX sonu və XX əsrin əvvəllərində Koreya diasporunda daxili münaqişələrin yaranmasına səbəb olan birlikdir. 50-60 koreyalının cəmləşdiyi qardaşlıq birliklərinə daxil olanlar bir-birilərindən fərqlənmək üçün bədənlərinə xüsusi tatuirovka döydürürdülər. Əcnəbilərdən qorunmaq məqsədilə





yaranan qardaşlıq birlikləri arasında tez-tez liderlik uğrunda münaqişələr baş verirdi.

**Qarışıq nigahlar**

Müxtəlif dinlərə etiqad edən və ya müxtəlif millətləri təmsil edən insanlar arasında bağlınmaış nigahlar. Əsasən diaspor nümayəndələri bu terminə daha çox müraciət edirlər. Bu etnik yaxınlıq diasporların qohumluğuna və birgə fəaliyyətə xidmət edir.

**Qazax diasporu**

Sovetlər birliyinin dağılmasından sonra müstəqillik əldə edən Qazaxıstanın xarici ölkələrdə yaşayanların məskunlaşma coğrafiyası və sayı aşağıdakı qaydada göstərilmişdir:

- ✓ Özbəkistan – 2 milyon
- ✓ ÇXR- 1,4 milyon (bəzi mənbələrdə 2 milyon)
- ✓ Rusiya- 1 milyon
- ✓ Monqolustan- 83 min
- ✓ Türkmənistan-74 min
- ✓ Türkiyə- 12 min
- ✓ Qırğızıstan- 10 min
- ✓ İran-5 min
- ✓ Dicər blkələr 174 min

Qazaxıstanı son illərdə tərk edənlərin 50%-ni «Beyin Axını» prosesində iştirak edənlərdir. Xaricdə yaşayanların əsas fəaliyyəti anna dilin təbliği, təşkilatların birləşməsi, ölkəyə invetisiya qoyulması və s.

**Qeyri-gəlir təşkilatları**

İanə verən və digər mənbələrdən maliyyələşdirilən, gəlir götürmək məqsədi daşımayan sərmayə yatırımları hesabına fəaliyyət göstərən müəssisələrdir. Diaspor təşkilatları əsasən bu formada yaradılır. Xüsusən Amerika qanuvericiliyinə müvafiq

olaraq yaradılan diaspor təşkilatları bu adda qeydiyatdan keçməlidir.

**Qərb dreyfi**

Avrasiya məkanında XX əsrin 60-cı illərindən başlayaraq Qərbə doğru insanların kütləvi şəkildə səpələnməsi, yayılması və miqrasiyası.

**Qloballaşma**

"Qlobal problemlər" fenomeni, "qloballaşma" prosesi və "sabit inkişaf" anlayışları bir-biri ilə qarşılıqlı əlaqədədir.

Qloballaşma yeni tarixi və sosial-mədəni şəraitdə qlobal problemlər fenomeninin başa düşülməsi deməkdir. Lakin əgər "qlobal problemlər" əhəmiyyətli dərəcədə planetar miqyaslı real ziddiyyətlərin konstatasiyasını (fakt kimi qəbul edilməsini) bildirirsə, "qloballaşma" ümumibəşəri proseslərin dinamikasına diqqəti yönəldir. Bununla yanaşı "sabit inkişaf" anlayışı "insan-sosium-biosfera" sistemində qlobal ziddiyyətlərin aradan qaldırılması imkanları və koevolyusiya prosesləri səviyyəsinə çıxışla əlaqələnir. Qloballaşma və sabit inkişafın anlaşılması prosesində iki son yanaşma özünü aydın şəkildə göstərir.

Qloballaşmanın tənqidçiləri (antiqlobalistlər), eləcə də sabit inkişafın tənqidçiləri təsdiq edirlər ki, müvafiq təsəvvürlərin realizasiyası yalnız inkişaf etmiş ölkələrin xeyrinədir, digər dövlətlərin isə vəziyyətinin pisləşməsinə səbəb olur. Söhbət ondan gedir ki, vesternizasiyanın (qərbləşmənin) yaranmış formaları Qərbin bütün dünyadan "yumurtaları yığıb öz səbətinə" qoymaq cəhdini ifadə edir.

Əksinə, qloballaşmanın tərəfdarları (qlobalistlər), eləcə də sabit inkişafa meylli olanlar ondan çıxış edirlər ki, müvafiq tendensiyalar inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında ziddiyyətləri yumşaldan prosesləri genişləndirir. Qeyd olunur ki, vesternizasiya gedir, əlbəttə ağrısız sovuşmur ("yumurtalar hər halda sınır"). Buna baxmayaraq təsdiqləndiyi





kimi "alınan qayğanaq" planet əhalisinin böyük kəmiyyəti tərəfindən yeyilə bilər.

Göründüyü kimi, diametral zidd nöqteyi-nəzərlər tam şəkildə qloballaşmanın və sabit inkişafın mahiyyətini əks etdirmir.

Həqiqətən də, bir tərəfdən inkişaf etmiş ölkələrin iqtisadi potensialı və siyasi çəkisi (möhkəmləndirilmiş hərbi qüdrəti) belədir ki, dünyada məhz onların maraqları dominantdır (üstünlük təşkil edir). Digər tərəfdən, real şəkildə dünya sosial-təbii sisteminin müxtəlif qollarının (resurs, ekoloji, sosial-mədəni və s.) qarşılıqlı asılılığı və qarşılıqlı əlaqəsi güclənir, müasir sivilizasiya prosesinin bütün subyektləri arasında kompromis axtarışının zəruriliyini şərtləndirir. Əks halda "sivilizasiyanın toqquşması" tək bir hadisə olmayacaq (sentyabr "Amerika faciəsi"), dünya sivilizasiyasını "kataklitik (fəlakətli) finişə" aparan tarixi inkişafın immanent forması olacaq. Qloballaşma Qərb və Şərq arasında "körpülərin salınmasıdır". Qloballaşma sosialmədəni düşüncənin, avrasiya tipinin, yeninin təzahürü, formalaşması və həyata keçirilməsidir. Onun çərçivəsində Qərb və Şərq stereotiplərinin inteqrasiya prosesləri nəzərdə tutulur.

**Qohumluq**

Hüquqda insanlar arasındakı qan əlaqəsi. Qanun bununla əlaqədar hüquq və vəzifələrin yaranmasını, dəyişməsini və ya xitam verilməsini əlaqələndirir.

**Qurultay**

Hər hansı təşkilatın və ya əhali qruplarının, hər hansı sahə nümayəndələrinin ali yığıncağı.

# -L-

**Latentli gərginlik fazası**

Milli-etnik münaqişələr zamanı bütün çoxmillətli normal cəmiyyətlər üçün xas olan haldır. Bu, müxtəlif etnosların bir-biri ilə kontraktından yaranan ilkin təəssüratlardır.

**Latinos**

Bu termin ABŞ-da Latın Amerikasından olan etnik diasporların hamısına şamil edilir. Bu qitədən olan etnik diasporların ABŞ-la çoxluq təşkil etmələrinə baxmayaraq ölkədə daha çox latinos kimi meksikalılar qəbul edilir. Buna görə ABŞ-da Meksika diasporunun digərlərindən özünü üstün hesab etməsi tez-tez müşahidə olunur. Meksikalılar latinos kimi tanınmalarına çox zaman öz etirazlarını bildirirlər.

**Layihə ilə bağlı fəhlə**

İş dövlətinə müəyyən müddətə yalnız onun sahibkarı tərəfindən həyata keçirilən xüsusi layihədə işləmək üçün buraxılmış fəhlə mühacirlər.

**Limitrof**

Çətin siyasi və mədəni identikliyə malik olan etnik qarışıqlı əhalisi olan və imperiya və yaxud svilizasiyadaxili ərazi ilə sərhəd kəsişməsi.

**Lobbi**

İngilis dilindən tərcümədə "dəhliz, üstüörtülü gəzinti meydançası, vestibül, səhnəarxası" - mənasını verən lobbi anlayışı 1553-cü ildə İngiltərə monastrlarında "gözətçi meydançası" kimi işlədilirdi. 100 il sonra parlamentdə icmalar





palatasının nümayən-dələrinin dəhlizdə və vestibüldə qeyri-rəsmi görüşlərilə siyasi xarakter alan lobbi termini 1829-cu ildən etibarən Birləşmiş Ştatlarda geniş vüsət aldı.

İlk zamanlar ABŞ-da müxtəlif maraqların "müdafiəçisi" olan maliyyə və siyasət kuluarlarında siyasi mənada işlədilməyə başlanan lobbi termini konqresin dəhlizində pulla səs almağı bildirirdi.

Amerikada lobbiçiliyin gündəmə gəlməsi Birləşmiş Ştatların XVIII prezidenti Uliss Qrantın dövrünə təsadüf edir. Ölkə prezidenti Qrant işdən sonra iqamətgahı ilə üz-üzə yerləşən qəlyanaltıya düşərək onun vestibülündə dincəlməklə qeyri-rəsmi görüşlər keçirirdi. Amerika prezidentinin əyləncəyə meyilli olmasından xəbər tutan ictimaiyyətin nümayəndələri otelin nəzdində yerləşən qəlyanaltıya gələrək öz problemlərindən, çətinliklərindən danışmaqla prezidentdən kömək umurdular. Bu işdən xaric qeyri-rəsmi görüşlər siyasi xadimlər arasında əlaqə xarakteri olmaqla yanaşı siyasət tarixində mürəkkəb taleli siyasi hadisə olan lobbizmin bünövrəsinin qoyulması idi.

1864-cü ildən etibarən Konqresin dəhlizində "Pul ilə səs almağı" bildirən lobbiçilik xeyli müddət qeyri-peşəkar siyasət kimi qiymətləndirilirdi. Lobbiçilik yalnız XX əsrdən başlayaraq siyasi təsir vasitəsi kimi istifadə olunmağa başlanır.

Daha sonradan lobbiçilik siyasətdə müəyyən şəraitdə münaqişələri azaltmaq, digər hallarda isə mənafelərini həyata keçirdiyi tərəfin mövqeyindən münaqişə yaratmaq üçün siyasi alət kimi başqa dövlətlərdə də istifadə olunmağa başlandı.

Lobbiçilik 1946-cı ildə Amerika Birləşmiş Ştatlarının Ədliyyə Nazirliyində rəsmən qeydiyyata alınır və qanunvericilik əsasında maliyyə nəzarətinə keçir. Federal lobbi qanununda lobbiçilik fəaliyyətinə aşağdakı öhdəliklər qoyur:

Amerika Konqresində qanunlara təsir göstərən və ya qanunun qəbuluna və əngəllənməsinə çalışan birbaşa və dolayı pul və qiymətli əşyaları alan və ya toplayan, ya da əsas məqsədi

bu olan şəxslər hər 3 aydan bir xərcləmələrinə aid olan qeydləri müəyyən idarəyə təqdim etməlidir.

Qanundan irəli gələn maddələri incələdikdən sonra lobbiçiliyə bu cür izah vermək olar:

"Lobbiçilik bir qrup və ya topluluq adına hərəkət edərək hökumət qərarlarına təsir göstərmək məqsədi ilə planlanan və bu məqsədlə vətəndaşlarla qərar verənlər arasında qruplaşmağa çalışan bir iş əlaqə və münasibət olaraq tanınır."

**Loyal vətəndaş**

Bir çox aspektləri, xüsusilə yerli qanunlar və adət-ənənələri, dili, mədəniyyəti öyrənmək kimi halları nəzərdə tutur.





## -M-

**MAK**

*(Moldova Azərbaycanlıları Konqresi)*

Moldova Azərbaycanlıları konqresi 2001-ci ildən fəaliyyət göstərir. Konqresin sədri Vüqar Novruzovdur. Konqresin idarə forması 11 şura üzvündən ibarətdir. Konqres Moldova Respublikasında yaşayan 6 000 minə yaxın Azərbaycanlını öz ətrafında birləşdirir.

Konqres əsasən Mərkəz, Cənub, Şimal, Şərq və Qərb regionları olmaq üzrə 5 regional təşkilatdan ibarətdir. Konqresin nəzdində Kişinev şəhərində Bazar günü məktəbi fəaliyyət göstərir. Həmçinin Konqresin nəzdində Azərbaycan Rəqs Ansamblı da fəaliyyət göstərir. Konqresin mətbu orqanı ayda bir dəfə nəşr olunan "Araz " qəzetidir.

**Maraq qrupları**

Hakimiyyətə öz birliklərinin mənafeyinə daha çox cavab verən üsullarla təsir edə bilən fərdlərin assosiasiyasıdır. Diasporların əksəri əsasən öz maraqlarını belə qruplar vasitəsilə təmin edirlər. Diasporların əksəri əsasən öz maraqlarını belə qruplar vasitəsilə təmin edirlər. Əsas fəaliyyət sahəsi media, ictimai, düşüncə mərkəzi, reklamçılıq və s. istiqamətlərdədir. Fəaliyyətlərinin xarakterinə görə maraq qruplarını 2 əsas tipə bölmək olar:

- Birməqsədli: lobbi strukturu bu tipə aiddir;
- Çoxməqsədli: daha çox profilli fəaliyyət göstərir.

**Marginalizasiya**

Hər hansı bir şəxsin müxtəlif mədəniyyətlərə marağı.

**Meksika amerikalıları**

Bu termin çox zaman Meksika əsilli Amerika vətəndaşlarına şamil olunur. Meksika amerikalıları daha çox asimilyasiya olunan, dil və mədəniyyəti baxımından Amerikaya sıx bağlı olanlardır. Amerikanlaşmağa daha çox meyilli olan Meksika amerikalıları digər həmvətənlərdən özlərini üstün, sivil və savadlı hesab edirlər. "Çirkli" və "savadsız" - meksikalı kimi tanınmağın əleyhdarları olan Meksika amerikalıları Meksika diasporunda 38,3%-ni təşkil edirlər.

**Meksika diasporu**

Dünya diasporları içərisində özünəməxsus yeri olan Meksika diasporunun formalaşmasını, təşkilatlanmasını, ictimai-siyasi fəaliyyətini tədqiq etmək çox çətindir. Meksika diasporu inkişaf təcrübəsinə görə, rəngarəng və dinamikliyinə görə digər diasporlardan seçilir.

Meksika diasporunun fərqli cəhətlərindən biridə, diasporun yalnız Amerika Birləşmiş Ştatlarında təşəkkül tapması, formalaşması və təşkilatlanmasıdır. Cənubi Amerika, Kanada, Avropa və Mərkəzi Amerikada Meksika mühacirlərinin olmasına baxmayaraq, onlar Amerikadakı kimi geniş şaxəli, aktiv və mütərəqqi diaspor formalaşdıra bilməyiblər. Eyni zamanda bu dövlətlərdə meksikalıların sayı çox da nəzərə çarpan deyildir. Bu dövlətlərdə meksikalıların fəaliyyəti sırf iqtisadi maraqlar, pul qazanmaq üzərində qurulmuşdur.

ABŞ-la Meksikanı bağlayan bir çox səbəblər vardır. Bunlara dil, tarix, ərazi, sərhəd, mədəniyyət, adət-ənənə və s. aiddir. Lakin tarixin gedişi dövründə bu səbəblər arasında müəyyən dəyişiklər baş vermişdir. Tədqiqatçılar Meksika diasporunun ABŞ-da formalaşma prosesini 4 tarixi dövrə ayırırlar:

1. Kolumba qədər olan dövr (1492)
2. İspan-Meksika dövrü (1528-1848)
3. Meksika-Amerika dövrü (1848-1960)
4. Müasir insan hüquqları dövrü (1960 bu günə qədər)





1950-ci ildən sonra Meksika diasporuna münasibət dəyişməyə başladı. Bu onların təşkilitlanmasına şərait yaratmaqla sosial proqramlarda meksikalıların iştirakını aktivləşdirirdi. Amerikanın iri şəhərlərində olan Meksika məhəllələri - Mexikotaunlarda həyat daha da canlanırdı. Artıq onlar ikinci növ etnik qrup kimi qəbul edilməsinə son qoyulmasını kəskin olaraq tələb edirdilər. Meksika diasporunun Amerikada başladıqları birgə ən böyük işə onların tələblərin qəbul edilməsi üçün təşkil etdikləri komapniyalar, etiraz çıxışları daxil idi. Meksika diasporunun irəli sürdüyü tələblər aşağıdakı kimi idi:

1.Meksikalıların bütün sahələrdə yerli əhali kimi eyni hüquqa malik olmasının qəbul edilməsi;

2.Onların təhsil alması üçün müvafiq şəraitin yaradılması.

Meksika diasporunun başladıqları kampaniya 1967-ci ildə öz müsbət nəticəsini göstərdi. Amerika tarixində ilk dəfə olaraq hər hansı bir etnik qrupun problemlərinin həll edilməsi üçün komitə yaradıldı. 1968-ci ildə Meksika məktəblərində iki ingilis və ispan dillərində dərslərin aparılması üçün fərman imzalandı. Yerli sosial-proqramlarda meksikalıların iştirakına şərait yaradılması üçün bir sıra tədbirlər proqramı tərtib olunu. Bunlardan 16 bəndlik proqram - daha effektli nəticələr vermişdir. Meksikalıların ictimai-siyasi fəaliyyətinə geniş imkanlar yaradıldı.

1970-ci ildən sonra Meksika diasporunun iqtisadi rolu ölkədə güclənməyə başladı. Daxili bazarın inkişaf etməsi və xarici ticari əlaqələrin güclənməsində əhəmiyyətli rol oynayan Meksika diasporu eyni zamanda qeyri-leqal biznesin güclənməsində iştirak edirdilər. Bu problemlərin həlli ilə yanaşı 1970-80-ci illər arası Amerikaya mühacirət edən gənc nəslin tərbiyəsi Meksika diasporunu narahat edən məsələ idi. Digər tərəfdən diaspor gücləndikcə daxildə müxtəlif fikirli qanadlar arasında narazılıqlar açıq-aşkar hiss olunurdu. Bu qanadlar aşağıdakı kimidir:

1. Mühafizəkar qanad - Amerikada ağ dərili vətəndaşlar kimi meksikalıların da eyni hüquqa malik olmasını müdafiə edirdi. Bütün sahələrdə bərabərhüquqluluq prinsipinin əsas götürülməsin tələb edən mühafizəkarlar çıxış yolunu Assimilyasiya olunmaqda görürlər. Bundan sonra tam Amerika vətəndaşı kimi qəbul olunacaqlarına əmin olan bu qanad əvvəlki nəsillərin başlarına gələn hadisələrin bir daha təkrar olunacaqlarından ehtiyat edirdilər.

2. Burjua-liberal qanad - Amerikada meksikalıların hüquqlarının müdafiəçisi olan qanad irqi-ayrıseçkiliyin aradan götürülməsini tələb edirlər. Bütün insanların demokratik prinsiplər əsasında eyni hüquqa malik olmasını bildirən burjua-liberal qanad Meksika diasporunun birgə hərəkət etməsini vacib hesab edir.

3. Radikal demokratik qanad - Amerikada Meksika diasporunun güclü formalaşmış və təşkilatlanmış qüvvəyə çevrilməsində əsas yolun milli adət-ənənələrin, tarixi unudulmamasında görürlər. Doğma vətənlə daha sıx əlaqə saxlamaqla milliliyini qoruyub saxlanacağını iddia edən bu qanad assimilasiyadan qaçmaq lazım olduğunu, bir-birinə hörmətlə yanaşmasını vacib hesab edir.

1990-cı ildən sonra ABŞ-a başlanan yeni Meksika mühacirəti hesabına diaspor getdikcə qüvvətlənirdi. Bu qüvvətlənmə prosesi ölkədə aşağıdakı fikirlərin yaranmasına gətirib çıxartmışdır:

- Meksika diasporunun ölkə siyasətinə və ictimai proseslərinə təsiri güclənmişdir.
- Ölkəyə gələn mühacirlərdən 10-dan 2-ni meksikalılar təmin edir.
- Meksika diasporu təhsilə maraq göstərmədiklərindən onların ticari və kənd təsərrüfatı sahələrindəki mövqeyi güclənməkdədir.
- Meksikalılar Amerikanın bütün ştatlarında məskunlaşmışlar.





- Meksika diasporu Amerika iqtisadiyyatının ayrılmaz tərkib hissəsidir.
- Meksika diasporu digər diasporlardan daha çox demokratiya problemi yaradır.

1990-2000-ci illər arası Meksika ABŞ-dan diasporuna münasbətdə xeyli dəyişirkliklər etdi. 1990-cı ildə Xarici İşlər Nazirliyində xüsusi proqram qəbul edildi. Comundiadez Mexicanas el Exteranyero - Xaricdəki meksikalılar və icmalar üçün proqram - adlanan bu proqramda əsas iştiakçıları ölkədən kənarda fəaliyyət göstərən 500-dən çox Meksika icması idi. Proqram nəticəsində ümumi diaspor fondu yaradıldı. Fondun əsas gəliri diaspordan gəlirdi və maliyyə Meksika lobbisinin güclənməsinə, filialların yaradılmasına, milli adət-ənənələrin təbliğ olunmasına, ideoloji iş aparılmasına, müxtəlif səpkili tədbirlərin təşkil edilməsinə xərclənirdi. Bu proqramla Meksika xarici siyasətində diaspora böyük yer və diqqət ayrılırdı. Güclü Meksika lobbisinin təşkili diasporun qarşısında qoyulan əsas məqsəd idi.

ABŞ-da isə son zamanlar yeni-yeni güclənən Meksika lobbisi qarşısında qoyulan məqsədlərin öhdəsindən uğurla gəlir.

- ABŞ-ın Meksika diasporuna münasibətin dəyişdirilməsi;
- Qeyri-leqal mühacirət prosesinin tənzimlənməsi;
- Meksikaya hərbi, iqtisadi və siyasi dəstək verilməsi;
- Amerika Meksika arasında iqtisadi münasibətlərin gücləndirilməsi;
- Qeyri-qanuni hesab olunan narkotik alverinin qarşısının alınması.

Meksika diasporu isə ölkə ilə əlaqələrin gücləndirilməsində maraqlıdır. Diasporun aparıcı xadimləri səfirliklər və konsulluqları vasitəsilə Meksikaya tez-tez səfərlər edir, səmərəli görüşlər keçirirlər. ABŞ-dakı Meksika diasporu aşağıdakı tədbirlərin təşkilatçılığını tez-tez edirlər.

- Amerika və Meksika gəncləri arasında tanışlıq və dostluğun qurulması

- Hər kiki ölkənin yerli futbol kulubları arasıda oyunların keçirilməsi
- Meksikalı müəllimlərin ABŞ-da məktəblərdə dərs keçməsini maliyyələşdirmək
- ABŞ-a mühacirət etmək istəyən və edənlərin hüquqi maarifləndirilməsi və müdafiəsi
- ABŞ-da Meksika mədəniyyət günlərinin keçirilməsi, sərgilərin, konfrans və müxtəlif tədbirlərin keçirilməsi
- Səhiyyə sahəsində qarşılıqlı əməkdaşlığın yaanması və s.

ABŞ hökumət dairələrində Meksika diasporunun güclənməsində maraqlı olan şəxslər lobbiçilik işində onlara dəstək verirlər. Meksikalıların səsini qazanmaqdan ötrü bir çox siyasətçilər diasporla əməkdaşlıq edirlər. Meksika diasporunun bu səbəbdən ictimai-siyasi aktivliyinin güclənməsi ölkədə artan onlara məxsus kütləvi informasiya vasitələri, ictimai və siyasi birliklərin sayının artmasında görmək olar.

Müasir dövrdə ABŞ-da Meksika diasporuna məxsus "El Clarin", "Ambito Financero", "El Dia", "The Porocaderet" qəzetləri, "Diario los Americas", "Contacto maqazine", "Chicano online" jurnalları, "TV Arteca", "Mexican TV", "Radio Mexicano", "El Mexico" televiziya və radio kanalları daha populyardır.

Bunlarla yanaşı diaspora məxsus ictimai-siyasi birliklərdən isə aşağıdakılar daha aktivdir:

1. **Nyu-Yorkun Tepeyak Assosiasiyası** - 1992-ci ildə təsis olunub. Amerikanın müxtəlif şəhərlərində 40-a yaxın filialları var. Əsas fəaliyyət istiqaməti mədəni, ədəbi-bədii tədbirlərin keçirilməsi elmi görüşlərin, simpoziumların təşkilidir. Diasporda böyük nüfuzu olan Assosiasiyanın əsas üzvlərin ziyalılar, iş adamları, ictimai xadimlər təşkil edir. Amerikanın dövlət orqanlarında əlaqələri olan Assosiasiyanın Meksikada da nüfuzu var.

2. **Çikako Kütləvi İnformasiya Vasitələri Assosiasiyası**- 1972-ci ildə Los-Ancelosdə yaradılıb. ABŞ-da Meksika diasporuna məxsus qəzet, jurnal, televiziya və radio kanalları





ətrafına birləşdirən Assosasiya onların hüquqlarının müdafiəsi və maliyyələşməsini təmin edir. Amerikanın bir çox ştatlarında şöbələri olan Assosasiyanın Meksika və Amerikada böyük nüfuzu var.

3. **Amerika-Meksika Mədəniyyət Fondu** - 1991-ci ildə təsis edilib. Amerika və Meksika mədəniyyətinin, incəsənətinin təbliğilə məşğul olur. Müəyyən iqtisadi problemlərin maliyyələşdirən fond Meksika və Amerika mədəniyyətini təbliğ edir, tez-tez tədbir və görüşlər təşkil edir.

4. **Meksika-Amerka Hüquqi Müdafiə və Maarifləndirmə Fondu** - 1968-cı ildə Texasda təsis olunub. Əsas fəaliyyət istiqaməti təhsil, elm, mühacirət, dil və s, istiqamətdə təbliğat işi aparan fondun Amerikanın bir çox ştatlarında filialları var. Meksika gənclərinin təhsil alması istiqamətində məktəblər açan fondun ABŞ-dan hökumət dairələrində sıx əlaqələri var.

5. **Amerika Meksikalıları Araşdırma Mərkəzi** - 1979-cu ildə yaradılan Mərkəzin ABŞ-da yaşayan meksikalıların problemlərini tədqiq etməklə onların işlə təmin olunması ilə məşğul olur. Meksikalıların ABŞ-a adaptasiya olunmasına yardımçı olan mərkəz tez-tez konfrans və simpoziumlar təşkil edir.3

6. **Amerika Meksikalılarının Mühəndislər və Alimlər Birliyi** - 1978-ci ildə yaradılan birlik Amerikada yaşayan meksikalı riyaziyyatçılar, tarixçilər, mühəndislər və s. üzrə alimlərin hüquqlarının müdafiəsi ilə yanaşı, onların işlə təmin olunması, əsərlərinin çap olunmasını maliyyələşdirməkdir.

Müasir dövrdə ABŞ-da Meksika diasporu Amerika hökumətitərəfindən yaradılan əlverişli şəraitə baxmayaraq daha gec assimilyasiya olunan diasporlardan hesab olunur. Buna əsas səbə onların kompakt halda yaşamaları, ispan dilində danışmaları və ölkə ictimaiyyətinə adaptasiyasının ləğv etməsidir.

Son məlumatlara görə meksikalıların daha çox məskunlaşdıqları Kaliforniya ştatı və Los-Ancelos şəhəridir. Los-Ancelosda ən böyük Mexikotaun yerləşir. Meksikalılar və

amerikalılar arasında dini zəmində münaqişələr baş verir. Mexsikalıların katolik, amerikalıların çoxunun protestant olması münaqişələrin əsas səbəbidir. Ancaq buna baxmayaraq meksikalıların Amerika üçün etdikləri unudulmur. Onlara münasibət əvvəlki kimi sərt deyil. Meksika diasporunun ABŞ-da siyasi dairələrdə tərəfdarı çoxdur.

Meksikalıların iqtisadi sahədə çalışmaları tez-tez müşahidə olunsa da, onların ictimai-siyasi fəaliyyəti günü-gündən aktivləşir. Diasporun tərkibi ilə Amerikaya axını güclənən mühacirət prosesi nəticədə genişlənməkdədir. Düzdür, Meksika diasporunun da digər etnik diasporlar kimi problemlərin çox olmasına baxmayaraq zamanla bunlar aradan götürülür.

**Metaetnik icma**

Etnogenetik yaxınlıq nəticəsində insanların ümumi düşüncəyə malki olmasınnı elementidir.

**Metiasiya**

Etnosların ənənələrinin, fərdlərin, irq və sosal-mədəni formaların bir-birlərinə qarışması. Belə tip etnosların 3-4-cü təbəqələri sonradan tamamilə assimilyasiya olunurlar.

**Məcburi köçürmə**

Köçürülən şəxslərin razılığı olmadan baş verdikdə və ya onlar imtina etmək ixtiyarına malik olmadan razılıq verdikdə köçürmə məcburi hesab olunur.

**Məcburi köçkün**

Ölkə daxilində köçürülmüş şəxs. Xarici hərbi təcavüz, müəyyən ərazilərin işğalı, təbii və texnogen hadisələr səbəbilə öz doğma yurdlarını və daimi yaşayış yerlərini tərk etməyə məcöur olub ölkə hüdudlarında başqa yerlərə köçmüş şəxslər.





**Mənşə dövləti**

Müvafiq şəxsin vətəndaşı olduğu dövlət deməkdir.

**Mif**

İnsanların xoşbəxt gələcək, yaxud keçmiş barəsində düşündükləri dəyərlər sistemi. Bir çox diasporlarda (çin, yaponiya, koreya və s.) ideoloji bazanı məhz miflər tutur. Onlar qədim tarixləri ilə bağlı olan miflərlə bağlı olan adət-ənənələrini qoruyub saxlamağa çalışırlar.

**Mifomaniya**

Patoloji baxımdan yalançılıqla üzvü surətdə bağlı olan psixi xəstəlikdir. Erməni böhtanları bir əsrdən artıq müddətdə yayıldığından və onların "türklərin erməni xalqına qarşı törətdikləri soyqırım" adlandırdıqları uydurma əfsanənin də yaşı artıq 90 ilə çatdığından, bu kinli cəfəngiyyatın qarşısının təkzibedilməz sənədlər və əyani materiallar əsasında cəsarətlə alınmasının vaxtı gəlib çatmışdır.

**Miqrant**

Miqrasiya etmiş şəxs. Miqrantların heç bir hüquqi tərifi yoxdur. Miqrasiya tarixinə malik olmayan ölkələrdə miqrant dedikdə əcnəbilər nəzərdə tutulur. Hal-hazırda miqrantlar dedikdə "miqrant işçilər" nəzərdə tutulur və onlar xarici faktorlara görə köçmək məcburiyyətində qalmış qaçqınların əksinə olaraq iqtisadi səbəblərə görə könüllü köçdükləri üçün qaçqınlardan fərqlənirlər.

**Miqrant işçilər**

Vətəndaşlığı olmayan ölkədə haqqı ödənilən fəaliyyətlə məşğul olmuş, məşğul olan və yaxud məşğul olacaq şəxs.

İki qrup miqrant mövcuddur - sənədləşdirilmiş və sənədləşdirilməmiş. Sənədləşdirilmiş (həmçinin nizamlı) miqrant

işçilər. Miqrant işçilər o zaman sənədləşdirilmiş hesab edilirlər ki, iş təklif edilən dövlətdə dövlətin qanununa və üzv olduğu beynəlxalq müqavilələrə uyğun olaraq onlara həmin dövlətə daxil olmaq, orada qalmaq və haqqı ödənilən fəaliyyətlə məşğul olmaq səlahiyyəti verilsin. Onlar müəyyən müddət ərzində razılaşdı-rılmış müqavilələr əsasında müvəqqəti miqrant işçilər və yaxud beynəlxalq təşkilatların (birgə şirkətlərin) işçiləri kimi bir ölkədən o biri ölkəyə gedən müvəqqəti, qısa müddətli işləyən ixtisaslı şəxslər ola bilərlər.

2. Sənədləşdirilməmiş (nizamsız, qeyri-qanuni, gizli) miqrant işçilər: Miqrant işçilər o zaman sənədləşdirilməmiş və qeyri-qanuni hesab edilirlər ki, iş təklif edilən dövlətdə haqqı ödənilən fəaliyyətlə məşğul olmaq üçün onları həmin ölkəyə daxil olmaq, orada qalmaq səlahiyyəti verilməsin.

**Miqrantın olduğu yer**

Miqrantın köç etdiyi ölkə ərazisində müvvəqəti olaraq qaldığı ictimai bina və yaxud düşərgə. İsraildə bunlara Kibusi deyilir.

**Miqrantofobiya**

Miqrantların çoxsaylı olaraq bir şəhərdə məskunlaşmasından yerli sakinlərdə yaranan qorxu. Bu termin Rusiyada daha çox dəbdədir. İlk dəfə bu özünü qabarıq şəkildə Krasnodar vilayətidnə erməni miqrantlarına qarşı göstərib.

**Miqrasiya göstəricisi**

Hər şeydən əvvəl hər hansı yaşayış məntəqəsinə gələnlərin və oradan gedənlərin sayı və onların fərqi ilə müəyyən olunan miqrasiya saldosudur. Saldo müsbət olarsa, bu məntəqə əhalisinin sayının miqrasiya hesabına artmasına; mənfi olarsa, azalmasına səbəb olur və buna əhalinin mexaniki artımı deyilir. Əsasən iri dövlətlər bu terminə müraciət edərək ölkə ərazisində nə qədər miqrant olduğunu müəyyənləşdirirlər.





**Millət**

Latınca tayfa, xalq kimi izah edilən millət tarixi sosial-iqtisadi və dini əsaslarla yaranan və özünə məxsus psixoloji və özünütanıma xüsusiyyətlərə malik olan etnos tipidir.

Məsələn, Fransada, Böyük Britaniyada və ABŞ-da "millət" bu ölkələrin bütün vətəndaşlarını əhatə edən termindir. Britaniyada pasportun "millət" (Nation) qrafasında "ingilis", yaxud "irland" yazılmır, "Böyük Britaniya və İrlandiya Birləşmiş Krallığı" yazılır.

"Millət" termini ilə isə adətən bir dövlətdə birləşməsə də, dil, mədəniyyət, tarix, yaxud heç olmazsa, milli şüur birliyi ilə bağlanan insan toplumu bildirilir. Beləliklə, "polyak milləti" dedikdə Almaniya, Avstriya, Rusiya imperiyalarının, yaxud hətta Atlantikanın o tayındakı respublikanın vətəndaşı olmasından asılı olmayaraq polyak dilində danışan və özünü polyak kimi hiss edən polyaklar nəzərdə tutulur.

Başqa cür desək, burada "xalq" dövlət hüququna aid termindir, "millət" isə etnoqrafik termindir, lakin dövlət hüququ onunla hesablaşmalı olur. "Milliyyət" bu sözişlətmə baxımından "millət" sözündən törəmə termindir və hər hansı ayrıca bir şəxsin, yaxud bütöv millətin psixoloji mənsubluğunu bildirən anlayışdır...

Fransızca və ingiliscə "millət" və "xalq" terminləri adətən əks mənalarda işlədilir: "fransız milləti" ifadəsi Fransada adətən ümumi fransız milli şüuru ilə birləşən insanların toplumunu deyil, Fransa Respublikası vətəndaşlarının toplumunu bildirir; fransızca "millətlər" arasında müqavilə, saziş və müharibələrdən danışılır, alman dilində isə bu hallarda "xalqlar" haqqında danışmağa üstünlük verilir; beynəlxalq hüququn (Volkerrecht) beynəlmiləl hüquqla (droit international) adlandırılmasının özündə "millət" (Nation) termininin məhz belə işlədilməsinin izləri görünür.

Terminlərin alman dilində işlədilməsi latın sözlərinin ilkin mənasına, şübhəsiz, daha yaxındır, ona görə filoloci baxımdan

daha düzgündür; pis olan odur ki, bu xətt heç də ardıcıl aparılmır. Məsələn, 1868-ci il macar qanununun alman mətnində milliyyətlər haqqında deyilir:

"Macarıstanın bütün vətəndaşları Konstitusiyanın əsas prinsiplərinə görə bölünməz, vahid macar millətini (Nation) təşkil edir, vətənin hər bir vətəndaşı milliyyətindən (Nationalitet) asılı olmayaraq onun üzvüdür".

Burada "millət" termini adətən fransız dilində işlədilən kimi işlədilmişdir (yəni siyasi anlamda), etnoqrafik "millət" termininin əvəzinə isə mücərrəd "milliyyət" (Nationalitet) termini işlədilmişdir, bu termin alman dilində adətən bir qədər başqa məna, yaxud, hər halda, *onun başqa çalarını verir.*

Sözün rus dilində işlənməsi daha az ardıcıllığı və qeyri-dəqiqliyi ilə seçilir. Ümumiyyətlə, o, alman dilinin vəziyyətinə yaxındır. Biz də "xalq" haqqında etnoqrafik mənadan daha çox dövlət mənasında həvəslə danışırıq; bizim üçün "rus xalqı" anlayışına polyak da, yəhudi də, ukraynalı da daxil ola bilər, lakin bu mə'nada "rus milləti" haqqında danışmağa biz qətiyyən hazır deyilik. Biz deyirik ki, rus xalqı yaponlarla müharibə aparırdı və bu vaxt heç də çəkinmirik ki, rus qoşunlarının sıralarında polyaklar da, yəhudilər də var idi; bununla yanaşı, həm də deyə bilərik ki, Rusiyada müxtəlif xalqlar yaşayır: ruslar, polyaklar və s., lakin bu halda "milliyyətlər" ifadəsini daha həvəslə işlədirik.

İndiyə qədər biz bir tərəfdən milliyyət və dil haqqında, digər tərəfdən isə milli özünüdərk haqqında üst-üstə düşən hadisələr kimi danışırdıq. Əslində, bu heç də tam belə deyildir. Milliyyət bir sıra əlamətlərlə yaradılır. Buraya ümumi mənşə, ümumi mədəniyyət, ümumi tarix, yaranan tarixi ənənələr, vahid ərazi və bəzən dövlət təşkilatı daxildir; buraya sonra din, dil daxildir; lakin bu amillərdən heç biri (hətta milliyyətin yalnız nadir hallarda üst-üstə düşdüyü dövlət təşkilatı da) milliyyətin yaranması üçün mütləq vacib şərt deyildir.





Milliyyəti müəyyən etmək üçün çox vaxt obyektiv əlamətlər, ümumiyyətlə, olmur, onda bunun üçün sırf subyektiv əlamətlərlə kifayətlənmək lazım gəlir. Əgər bir adam özünü polyak hesab edirsə, deməli o, polyakdır, baxmayaraq ki, o, heç vaxt katolik olmayıb, Polşa ərazisindən kənarda yaşayıb və hətta öz dilini unudubdur (bu axırıncı halda, yəqin ki, özünü polyak saymaq ehtimalı azdır). Əgər polyak valideynlərdən törəmiş bir adam polyak adından imtina edirsə, katolik olsa da, Polşada yaşasa da onu polyak saymağa lüzum yoxdur. Yeganə rasional prinsip budur, hər hansı dövlətin milli tərkibinin statistik hesablamalarını apararkən də, ayrı-ayrı [etnoqrafik] millətlər üçün *müxtəlif mədəni təsisatlar* (məktəb, akademiya və s.) yaradarkən də bu prinsipi rəhbər tutmaq lazımdır.

Məhz milli şüur, məhz tarixən bir çox ünsürlərin əsasında yaranan, lakin hər konkret anda onların hər hansı biri ilə mütləq ayrıca bağlı olmayan milli şüur [etnoqrafik] millətlər tərəfindən dövlət qarşısında irəli sürülən bütün milli iddiaların əsasını təşkil edir.

Dövləti olmayan [etnoqrafik] millətlərin əksəriyyətinin milli şüuru belə dövlətin, suveren, yaxud asılı dövlətin, heç olmazsa muxtar vilayətin yaradılmasına yönəlmiş sə'ylərinin əsasını təşkil edir. Dövləti olmayan millətin milli şüuru öz millətini xalqa çevirməyə, yəni onu dövlət formasına salmağa çalışaraq nəzəri cəhətdən adətən başqa *millətlərin də bu səylərini tanıyır və milli* dövlət nəzəriyyəsinə əsaslanır.

Tarixi-siyasi kateqoriya olan millət də həmçinin insanların birliyi forması kimi götürülür. Bir ərazidə yaşayıb, ümumi mədəniyyətə, dilə, şüura malik olan sabit insan birliyini özündə əks etdirən millət iqtisadi birlik və vahid, çoxcəhətli siyasi həyat sistemi, mürəkkəb etnopsixoloji xarakteri ilə fərqlənir. Millət xüsusi düşüncə tərzinə, mentalitetə, şəxsi ləyaqət hissinə malikdir.

Onu da qeyd edək ki, müasir dünyada vahid millət anlayışı yoxdur. Millətlər və onların tarixi mübahisəlidir. Deməli, bu sahədə hələ də yekdil fikir yoxdur. Daha doğrusu, indiyədək

millətə 300-dən artıq tərif verilmiş, lakin onun bu və ya digər məhdud cəhətlərinə görə qarşı tərəfdən qəbul edilməmişdir. Məsələn, türk alimi Ziya Koyalpın fikrincə, millət qədim türk dövlətinin yaranması ilə əlaqədardır. İslam ideoloqları milləti ümmət kimi qələmə vermiş, yəni bir dinə inanan adamların məcmüsu kimi başa düşmüşlər. F.Nortrona görə "millət vahid bir orqanizm kimi fəaliyyət göstərən insan cəmiyyətidir".

Keçən əsrdə Avropada millət deyiləndə nə isə yeni bir cəmiyyətin, insan birliyinin meydana gəldiyini başa düşürdülər. Millət latın dilində "nationalen" istilahı ilə işlədilmişdir, ki, bu da dağılma, yenidən qurulma kimi başa düşülürdü.

Adam Smit və Con Stüartın əsərlərində millət bir iqtisadi kateqoriya kimi nəzərdən keçirilirdi. Yəni millət iqtisadi əməkdaşlıq münasibətlərində birləşmiş insan qruplarıdır.Yaxud elə keçən əsrdə bəziləri "millət" adı altında yuxarı təbəqəni, hakim elitanı nəzərdə tuturdular.

Əsrin əvvəllərində mövcud olmuş müxtəlif sosialist nəzəriyyələr, xüsusən psixoloji coğrafi cərəyan adlanan konsepsiya tərəfdarları milləti eyni peşəyə və eyni şüurlu xüsusiyyətlərə malik olan adamların toplusu kimi nəzərdə tuturdu.

## Millətçi ekstremizm

Öz millətinin maraqlarını müdafiə etmək mövqeyindən çıxış edərək, digər millət və milli qrupların mənafe və hüquqlarını tanımaqdan imtina edir. O, separatizm ilə üzvü surətdə bağlıdır və çoxmillətli dövlətlərin dağılmasına yönəlmişdir. Hindistanda Xalistan uğrunda mübarizə aparan qruplaşmalar, Türkiyədə Kürd Fəhlə Partiyası, İspaniyada Bask millətçilərinin hərəkatı, Böyük Britaniyada İrlandiya Respublikasının Müvəqqəti Ordusu və oradakı yarımhərbi birləşmələr və s. təşkilatlar bu qəbildəndirlər.





## Millətçilik

Millətçilik, milli üstünlüyü, milli müstəsnalığı ifadə edən ideologiya və siyasətdir. Bu ideologiyanı qəbul etmiş insanlar millətçi olaraq adlanırlar. Tarixi dəyişikliklər dövrü, vətəndaş qarşıdurması və xarici təhlükə zamanı millətçilik birləşdirici güc olaraq ortaya çıxar, xalqa özünü vahid millət kimi hiss etməyə imkan yaradar və nəticədə cəmiyyətin böhrandan çıxışını asanlaşdırır.

Millətçilik məişət, siyasi, kulturoloji və hətta linqvistik formalarda özünü büruzə verir. Ümumi şəkildə millətçilik ideologiyası etnik dəyərləri, ümumbəşəri, qrup və fərdlərin maraqlarından üstün tutur. İmperiya əsarətindən və yadelli hakimiyyətlərindən azad olunanadək millətçiliyin məğzi olduqca sadə və birmənalıdır. O, milli müstəqilliyi tələb edir və onun uğrunda mübarizəyə yönəlmişdir. Məhz bu, millətçilik ideologiyasını geniş xalq kütlələri üçün aydın və cəlbedici edir, müxtəlif sosial zümrələri və qrupları birləşdirir, onları birgə mübarizəyə aparır.

Suveren dövlətin yaranması, orada yaşayan bütün vətəndaşların, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, hüquqlarını, azadlıqlarını və bərabərliyini təmin edir. Etnik mənsubiyyətinə görə diskriminisiyaya çağırışlar, milli ədavətin və nifrətin qızışdırılması yol verilməzdir və qanun tərəfindən təqib olunmalıdır. Lakin bir çox, hətta demokratik sayılan dövlətlərin siyasi səhnəsində bu cür millətçi və şovinist şüarlarla çıxış edən bəzi partiyalar və liderlər mövcuddur. Onlar bəzən parlamentlərə də keçirlər. Avropada son onilliklərdə konservativ, liberal və sosialist yönümlü bütün demokratik güclərin birgə səyləri nəticəsində radikal millətçilərin iqtidara gəlişinin qarşısı alınmışdır.

Müasir dünyada millətçilik özünü həm sağ, həm də sol modifikasiyalarda birüzə verir. Bu prosesi Rusiya, Serbiya və başqa ölkələrdə əyani şəkildə izləmək mümkündür. Praktik olaraq millətçilik özünü iqtisadi və mədəni ekspansiyada, eyni zamanda bunların əksi olan dövlət proteksionizmi, hətta özünütəcrid kimi müxtəlif siyasi proqramlar sayəsində gerçəkləşdirə

bilər. Lakin qlobal inteqrasiya prosesləri təkcə iqtisadiyyatin deyil, o cümlədən dillərin və mədəniyyətlərin sıx inteqrasiyasına aparır. Belə şəraitdə milli özünəqapanma yolverilməz və faciəlidir. Bu ölkə daxlindəki etnik qrupların narahatlığını yaradır və qonşu ölkələrin nifrətinə səbəb ola bilər. Demokratik hüquqi dövlətlərdə millətçiliyi vətənpərvərlik əvəzləyir. Vətənpərvərlik vətəndaşları etnik soya görə ayırmır və daxili qarşıdurma yaratmır, əksinə onları sıx əlaqə və əməkdaşlığa sövq edərək, digər dövlətləri alçaltmadan öz vətənlərinin gücləndirilməsinə və ucaldılmasına yönəldir.

Diasporların millətçilik təsəvvürləri iki istiqamətdə inkişaf edir:

- Milli kimliyin təbliğ olunaraq, həmrəyliyə nail olmaq və assimilyasiyaya məruz qalmamaq üçün istifadə edilən millətçilik.
- İfrat şovinizm və millətçilik.

**Millətlərarası Azərbaycan Konqresi**

1990-cı il noyabr ayının 3-də Türkiyədə keçirilən tədbir. Məhz bu tədbirdə sərhəd hərəkatının nəticələri müzakirə olunmuş, bununla əlaqədar 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi barədə təşəbbüs irəli sürülmüşdür.

**Milli azlıqlar**

Bu və ya başqa ölkədə, dövlətdə, respublikada yaşayan, dövlətin, ölkənin, respublikanın əhalisinin çoxunu təşkil edən millətdən sonra azlıqda qalanlar nəzərdə tutulur. Milli azlıqları müəyyən etmək üçün obyektiv meyarlar – Bənzərsiz etnik xüsusiyyətlər, onun sayca azlıq təşkil etməsi, hakim mövqe tutmaması, onun üzvlərinin dövlətin vətəndaşı olmasıdır. Milli azlıqları müəyyən etmək üçün subyektiv meyarlar – qrup üzvlərinin öz xüsusiyyətlərini qoruyub saxlamağa can atmasıdır.





**Milli dil**

Xalqın millətə çevrilməsi posesində xalq dili əsasında formalaşan dil, millətin yazısı və ünsiyyət dili.

**Milli elitar**

Nemətlərin, resursların və hakimiyyətin bərabər bölüşdürülməsinə yönəlmiş hərəkat.

**Milli ideya**

Milli özünütəsdiq məqsədilə yaradılmış milli - mənəvi dəyərlər sistemi. Bir yandan əhalinin uzun tarixi varlıqtək keçdiyi yol, sosial-siyasi birlik kimi özünüdərkini, o biri yandan millətin varlığını, maraqlarını, iqtisadi, siyasi, mədəni inkişaf istiqamətlərini göstərir.

**Milli ideologiya**

Bununla əlaqədar olaraq, yeni inkişaf yolunun seçimi qarşısında qalan dövlətlər inkişafın ümumi axırını və əsas aparıcı xəttini müəyyən edən – milli xüsusiyyətləri nəzərə alan, milli mənafelərdən çıxış edən, millətin iqtisadi və sosial inkişafını təmin edən, milli təhlükəsizliyə təminat verən iqtisadi, siyasi dövlətçilik sistemi formalaşdırılmasına və bunun üçün zəruri olan cəmiyyətdə insanları birləşdirməyi bacaran, onların hər birinin iradəsini ifadə edən və birgə səylərə, fəaliyyətə sövq edən, birləşdirici amil kimi milli birliyi təmin edən təfəkkür formasının – milli ideologiyanın formalaşdırılmasına ehtiyac hiss edilr. İqtisadi-siyasi sistemin transformasiyası ictimai həyatın bütün səviyyələrində siyasi, iqtisadi, mənəvi-psixoloji keyfiyyət dəyişiklikləri ilə xarakterizə olunan proseslər yaradır. Formalaşdırılacaq milli ideologiya təbii ki, bu dəyişiklikləri nəzərə almalı və onlara cavab verməlidir.

Ümumiyyətlə götürdükdə milli ideologiya aşağıdakıları təmin etməlidir:

1. Cəmiyyətin hər bir fərdinin iradəsinin ifadəsini
2. Onların birgə fəaliyyətə sövq etmək imkanını
3. Milli birliyin formalaşdırılmasını

Milli ideologiya cəmiyyətin iqtisadi, siyasi, mənəvi psixoloji təfəkkür eyniliyini ifadə etməlidir. Ümumiyyətlə götürdükdə belə bir şəraitdə milli amilin birləşdirici amil kimi çıxış etməsi labüddür. Milli amilin güclənməsi heçdə inkişafda özünəqapalılığa və ifrat ənənəçiliyə, mühafizakarlığa üz tutmaq deyil. Bəlkə də ümumbəşəri inkişaf prinsplərinin üstünlüyü dövründə texniki və texnoloji tərəqqinin təməlində milli amil məsələsi görülə bilər. Lakin bu qətiyyən belə deyildir və dünya təcrübəsi göstərir ki, bu kimi fikirlər əsaslılıqdan çox-çox uzaqdır. Çünki ən çağdaş texnologiya həm ondan faydalanmağı bacaranları nəzərdə tutur, həm də milli mədəni sərvəti qoruyub artırmağı. Bu mənada milli ideologiya anlayışı elə məzmun daşıyır ki, istər təkcə maddi nemətlər deyil, milli birliyin, dilin, mədəniyyətin, həyat tərzinin bir sözlə milli mənəviyyatın canlanmasına imkan yaransın.

Müasir dövrdə milli ideologiya ictimai şuurda elə bir mütərəqqi, müstəqil və səmərəli iqtisadi-sosial sistem yaratmalıdır ki, burada keçmişin, bu günün gələcəyin müsbət mənəvi dəyərləri birləşmiş olsun.

Milli ideologiyanın ideya mənbəyinin bir hissəsini də iqtisadi davranış və təfəkkür tərzi nəticəsində formalaşan ideoloji dəyərlər təşkil edir. İqtisadi sistemin transformasiyası ilə əlaqədar olaraq ictimai həyatın bütün səviyyələrində siyasi-iqtisadi, mənəvi-psixoloji keyfiyyət dəyişiklikləri ilə xarakterizə olunan proseslər milli ideologiyanın iqtisadi aspektinin dəqiq konturunun verilməsinin zəruriliyini ifadə edir. Milli iqtisadi ideologiya cəmiyyət üzvlərini hərəkətə gətirən, onların özlərini azad bir insan olduqlarını dərk edərək azad fəaliyyət göstərməyə maraq ifadə edən bir qüvvə olmalıdır. Belə bir qüvvə yalnız və yalnız iqtisadi mənafelərdir. İqtisadi mənafelər insanları hərəkətə gətirən və birləşdirən psixoloji mexanizmdir. Milli ideologiya





cəmiyyətdə insanları birləşdirməyi bacaran, onların hər birinin iradəsini ifadə edən və birgə səylərə və fəaliyyətə sövq edən təfəkkür formalaşdırılması funksiyası daşıdığından, bazar münasibətləri şəraitində iqtisadi mənafelər ən güclü birləşdirici imkanlara malik qüvvə kimi çıxış edir. Digər tərəfdən milli ideologiya insanların davranışlarının fərdi keyfiyyətlərinin, həvəslərinin müxtəlifliyinin hər hansı bir ümumi məqsədə və yaxud məqsədlər sisteminə tabe etdirilməsi zərurətini tələb edir.

Milli ideologiyanın digər aspektləri – (siyasi-mənəvi-psixoloji) qanunauyğun olaraq cəmiyyətin təşkilinin iqtisadi bazisinə söykənir. Məsələn: siyasət – iqtisadiyyatın təmərküzləşmiş ifadəsidir. Onlar üzvi sürətdə vəhdət təşkil edirlər. Ümumiyyətlə siyasi baxışlar insanların iqtisadi münasibətlərinə və mənafelərinə əsaslanır.

Elə ölkələr vardır ki, orada milli ideologiyanı konstitusiya əvəz edir. Daha doğrusu, konstitusiya milli mənafelərin ideoloji-siyasi əsası olur. Hazırda bizdə də dövlətin ümumi mənafeyi, dövlətçiliyin saxlanılıb möhkəmləndirilməsi vəzifələri ümumilli vəzifələr kimi ön sıraya çəkilir. Vahid milli (dövlət) ideologiyasının yaradılması cəmiyyətdə mövcud ideoloji boşluqların doldurulması, milli həmrəyliyin əldə olunmasına, kadrların seçilib yerləşdirilməsində yerliçilik, tayfabazlıq, tərəfkeşlik, qohumbazlıq, etno-təəssübkeşlik və s. kimi neqativ halların aradan qaldırılmasına xidmət etmək məqsədini güdür.

## Milli mentalitet

"Mental" ingilis sözüdür. Əql, təfəkkür, əxlaq mənasını verir. Mentalitet də millətin təfəkkür modelidir. Təfəkkür normatipidir.

Hər hansı bir millətin dünyanı duymaq, düşünmək, anlamaq, fəaliyyət göstərmək özəlliyi. Milli xarakter, milli mentalitet millətin tarix boyu yaşadığı təbii şəraitin təsiri ilə formalaşıb, onun dövranı və fəaliyyətində görünür. Milli mentalitet millətin siyasi düşüncəsində, siyasi mədəniyyətində də əks olunur.

Mentalitet iki cür olur - biri hər bir şəxsin fərdi mentaliteti, digəri isə mənsub olduğumuz millətin mentaliteti.

Millətin mentaliteti tarix boyu formalaşan sosial normaların, cəmiyyətin əsaslandığı qayda-qanunların və adət-ənənələrin toplusudur.

Fərdi mentalitet isə elə insanın mənsub olduğu millətin mentalitetinin əsasında formalaşan milli xarakterinin və şəxsi keyfiyyətlərinin cəmidir.

Bu qayda-qanunlar, adət-ənənələr yazılmayıb, sadəcə insanların yaddaşlarında, mədəni və ədəbi incəsənət nümunələrində öz əksini tapıb.

**Milli məsələ**

Milli azadlıq hərəkatı kimi, siyasi, iqtisadi və sosial azadlıq və müstəqillik uğrunda mübarizə, din və mədəniyyətin müdafiəsi, habelə milli zülm şəklində meydana çıxa bilər.

**Milli münasibətlər**

Sosial münasibətlərin spesifik formalarından biri olan milli münasibətlər mürəkkəb sosial, siyasi və mənəvi münasibətlərin bir cəhəti kimi təzahür edir.

Milli münasibətlərin spesifikliyi isə milli xüsusiyyətlərdən irəli gəlir.

Milli münasibətlər sistemində həlledici rol siyasi amillərə məxsusdur. Bu, hər şeydən əvvəl, millətin formalaşması və onun inkişafının mühüm amili olan dövlətin əhəmiyyəti, milli və sosial-siyasi proseslərin daxili əlaqəsi ilə şərtlənir. Milli münasibətlərin milli özünüdərketmə, milli və ümumbəşəri mənafelərin əlaqələndirilməsi, millətlərin hüquq bərabərliyi, milli dillərin və mənafelərin inkişafı üçün şərait yaradılması, milli kadrların hazırlanması və hakimiyyət stukturlarında onların təmsil edilməsi və s. kimi məsələlər bilavasitə siyasət sahəsinə daxildir. Real həyatda millətlərin və xalqların qarşılıqlı münasibətlərinin bütün cəhətləri siyasi səciyyə daşıyır.





**Milli siyasət**

Müasir dünyada milli siyasət, dövlətin yeritdiyi ümumi siyasətin tərkib hissəsi olub həqiqi dövlətin mahiyyətini və xarakterini üzə çıxarır.

Milli siyasət konstruktiv və destruktiv olmaqla iki hissəyə bölünür.

Beynəlxalq hüquq aktlarına görə, habelə BMT-nin 16 oktyabr 1948-ci il tarixli "Milli azlıqlar" haqqındakı qətnaməsinə görə bütün millətlər və xalqlar öz müqəddəratlarını özləri təyin edə bilərlər.

Lakin burada bir cəhət mütləq nəzərə alınmalıdır. Başqa xalqın, millətin ərazisinə tarixin müəyyən mərhələsində köçürülərək məskunlaşdırmış hər hansı millətin sonradan həmin xalqa yaxud millətə qarşı öz millətçilik ambisiyasını diqtə etməyə heç bir siyasi haqqı yoxdur.

**Milli suverenlik**

Milli suverenlik dedikdə millətin ayrılması və müstəqil dövlət qurulmasınadək öz müqəddəratını təyin etmək hüququ başa düşülür. Millətlərin könüllü şəkildə birləşməsi nəticəsində yaranan çoxmillətli dövlətlərdə yalnız bir millətin suverenliyindən bəhs etmək düzgün olmaz. Birləşdirilmiş millətlərin öz müqəddəratını təyin etmək hüququnu hansı üsulla həyata keçirməsindən asılı olaraq, həmin çoxmillətli dövlət tərəfindən həyata keçirilən dövlət suverenliyi birləşdirilmiş millətlərdən hər birinin suverenliyinə təminat verməlidir. Bu üsullar aşağıdakılardır

- ittifaq dövlətində birləşmə yolu ilə;
- muxtariyyət, yaxud konfederasiya bazasında federasiya yolu ilə.

**Milli şüur**

Milli Şüur, hər hansı bir millətin özünü dərk etməsi və öz ruhunu hiss etməsi deməkdir. Milli Şüur həm hisslərə, həm də

düşüncəyə söykəndiyindən mənəvi qüvvələr arasında ən önəmlisi hesab edilməlidir. Bu səbəbdən də millətlərin həyatını qoruyan önəmli ünsürlərdən biri, hətta ən birincisi məhz Milli Şüurdur. Hansısa bir millət müəyyən səbəblərdən ordusunu və ya müstəqilliyini itirə bilər. Milli Şüur bir günəş kimidir. Bu günəş, böyük bir cazibə ilə millətin aydınlarını və qəhrəmanlarını özünə cəlb edir, millətin düşmənlərini və onu satanların isə gözlərini kor edərək qaranlıq künclərə soxur, dönüşü olmayan yerlərə göndərir. İnsanın beyni hansı işi görürsə, beyin bir insan üçün nədirsə, Milli Şüur da bir millət üçün eyni şeydir və ya bir millət üçün eyni işi görür. Milli Şüur, bir millətin yaşaması və mübarizə aparması üçün ən böyük silahdır.

Əsasən kollektiv mifik təsəvvürlər və Ana torpaq xatirələri ilə sıx bağlıdır. Milli hisslərini qoruyub saxlanması üçün milli şüurun inkişaf etdirilməsi bir çox dövlətlərin xarici siyasət kurslarının prioritet istiqamətlərindədir.

Milli şüur romantik hisslər nəticəsində formalaşa bilər ki, diasporların vətənləri barədə təsəvvürlərində onların sonda qayıda biləcəyi torpaq olması barədə fikrin formalaşmasına zəmin yaradır.

**Milli özünüdərk**

Hər hansı etnik toplumun başqalarından fərqli özəlliklərini dərk edib özünü bir millət kimi göstərdiyi ideya, təsəvvür, inam, mədəniyyət və psixoloji yaşantılar əks ounan mürəkkəb əqli, ruhi, mənəvi, sosial və siyasi özünü təsdiq prosesi. Mili özünüdərk hər hansı bir toplumun həyat fəaliyyətinin vacib elementlərindəndir.

**Milli özünüdərketmə**

Hər bir xalqın və millətin ümumi inkişafında mütərəqqi bir hadisədir. Milli oyanış, milli özünü-dərketmə heç də milli eqoizmə, milli fərdiyyətçiliyə aparmamalıdır. Bu çox qorxulu haldır. Çünki milli eqoizmin mövcud olduğu yerdə bütün





mütərəqqi xüsusiyyətlər arxa plana keçir, onların yerini sırf millətçilik meyllərindən irəli gələn, həm başqa millətlərə və xalqlara, həm də elə həmin millətin özünə xas olmayan yabançı xüsusiyyətlər tutur ki, bu da millətlər və xalqlar arasında milli nifaqın yaranmasına səbəb olur.

**Milliyət**

Bu konteksdə «milliyət» anlayışı yalnız vətəndaşlıq kimi başa düşülməməlidir. O həmçinin etnik və ya dil qrupuna mənsubiyyəti də əhatə edir və bəzən «irq» anlayışına uyğun gələ bilər. Milli mənsubiyyətə görə təqib milli (etnik, dil) azlığa qarşı düşmənçilik münasibəti və tədbirlərini əhatə edə və özlüyündə təqib olunmaq barədə tam əsaslı ehtiyatlar yarada bilər. Bir dövlətin sərhədləri daxilində iki və daha çox milli (etnik, dil) qrupun mövcudluğu münaqişəli vəziyyətlər, həmçinin təqib, yaxud təqiblə hədələnmə vəziyyətləri yarada bilər. Əgər milli qruplar arasında münaqişə siyasi məsələlərlə bağlı olursa, xüsusən siyasi hərəkatlar müəyyən milliyətləri təmsil etdiyindən onlara bərabər tutulursa, milli əlamət görə təqibin siyasi əqidələrə görə təqibdən ayırmaq heç də həmişə asan olmur. Əksər halarda milli əlamətə görə təqib milli azlığa mənsub şəxslərdə qorxu hissi yaratsa da, müxtəlif qitələrdə elə hallar olmuşdur ki, çoxluq təşkil edən qrupa mənsub şəxs hakim azlığın təqibindən ehtiyat etmişdir.

**Miseqenasiya**

İrqlər və etniklərarası nikah.

**Missionerlik**

Dini təşkilat və kilsələrin fəaliyyət formalarından biri, missionerlərin məqsədləri başqa dinə etiqad edənləri öz dinlərinə gətirmək və kilsədən üz döndərənləri kilsəyə qaytarmaqdır. Missionerlik işinə bir neçə aspektdən baxmaq mümkündür. Bunun birincisi və dini diskursda belə demək mümkünsə, ən

həqiqisi məhz teoloji çərçivədən baxışdır. Teoloji çərçivədən missionerlik kökündə yaxşı niyyətin durduğu və ya mahiyyətcə yaxşı, xoş, Yaradanın qəbul edəcəyi niyyətin durduğu bir (dini) inancı tanıtmaq və insanları həmin o inanca dəvət etmək işidir.

Bir az belə demək mümkünsə bu baxışın üstündə oyansaq, indi modda olan sosial-iqtisadi-hüquqi-siyasi-mifoloji-elmi-rasional və s. və ya baxış bucağından baxsaq, missionerlik dinləri yaradan şəxslərin –hər nə niyyətlə yaradıblar özləri bilərlər– dinin yayılmasını və yaşamasını təmin etmə mexanizmidir. Başqa sözlə missionerlik dinin özü-özünü yayma, yeniləmə, həyatda qalma mexanizminin köküdur və əslində bir inanc sisteminin ayaqda qalmasini təmin edir.

Başqa bir gözlə baxsaq, missionerlik həm də ayrı-ayrı insanların iş yeri, belə deyək, çörək ağacı, yəni hər hansı başqa, sekulyar iş kimi anlaşıla bilər. Belədə önəmli olan işin olmasıdır, yəni onun arxasında duran dini hiss, inanc deyil, sadəcə təmiz iqtisadi dəyəridir: iş yeri, insanların çörək çıxardığı yer və s.

<u>Missionerliyin ümumi *qiymətləndirilməsi* və *bunun* problemləri</u>

Bu baxış bucaqları, ziddiyyətli tarix, ümumiyyətlə missionerliyi görməmizə necə yardımçı olur? Ümumi bir proyektin tarixindəki skandallar, həmin proyektdə iştirak edən insanların ən azından bir qisminin, ehtiras, inanc və yaxşılıq etmək duyğusu əsasında həyata keçirdikləri fəaliyyətlərin üstündən xətt çəkməyə nə qədər imkan verir? Missionerlik necə anlaşılmalıdır? Sırf iqtisadi fəaliyyət kimi? Yoxsa teoloji baxış bucağı əsas olmalıdır? Bütün bu təsvirlər bir araya sığa bilərmi? Missionerlərin etdiklərində yaxşı heç nə olmayıbmı? Əskidən bu günə missionerlik necə dəyişib və bu dəyişiklik nə deməkdir? Bu suallar missioneri və onun işini qiymətləndirmənin əslində elə də sadə, barmaqarası bir şey kimi "bunlar gəldi, mədəniyyətimizi yox elədi, bizi qırdılar və s." ilə həll oluna bilinməyəcəyini anladır. Bu cür barmaqarası yanaşmalar, məsələn, nəzərə almır ki, dünyanın bir çox ölkələrində - xüsusən Avropada - müsəlmanlara sərbəst dinlərini





yaymağa, kitab basmağa, şərait yaradılır, ancaq çox az müsəlman ölkəsində bir isəvi, musəvi, buddist öz dinini tanıda bilər. Ən azından bunlara görə missionerliyi qiymətləndirərkən, ona düşündüyümüzdən daha ciddi yanaşmalıyıq ki, onu az-çox anlaya bilək.

<u>Missionerlik nədir?</u>

Missionerlik, dar mənada, bir dinin tanıdılması, təbliğidir. Missionerlik, geniş mənada, bir dinin yaşaması, yayılması və başqa dinlərlə qarşılıqlı mübadiləsi (təcrübə, əlaqə, bilgi və s) üçün həyata keçirilən istənilən növ fəaliyyətdir ki, xüsusən də dinə, inanca yeni ardıcıllar cəlb etməyə və inanclıların dinini təzələməyə diqqət ayırır.

<u>Missioner dinləri hansılardır?</u>

Missioner dinləri deyildikdə, missionerlik fəaliyyətinə dinin yayılması və özünün təzələnməsi kimi xüsusi diqqət yetirən dinlər başa düşülür. Belə dinlərdə dinin tanıdılması və yayılması diqqətəlayiq, əhəmiyyətli fəaliyyət, iş, inanc elementi kimi az-çox dinin digər dəyər və normalarından fərqləndirilir, vurğulanır, onlar dini bilincdə açıq mövcud olur. Missioner dinlərə və ya inanc sistemlərinə bir qayda olaraq İudaizm, Məsihilik, İslam və Buddizm aid edilir.

<u>Missionerlik bir fəaliyyət kimi</u>

Missionerlik bir fəaliyyət sahəsi kimi hər zaman olmuşdur. Eramızın ilk illərində buddistlərin indiki Yaxın və Orta Şərq ərazilərində missionerlik etmələri məlumdur. Köhnə Əhd kitabında Yaradanın insanları bir inanca dəvət etməsi və ya peyğəmbərləri bir etnik qrupdan digərinə onları dəvət etməsi üçün göndərməsi özü missionerlik kimi görülə bilər. Missionerliyin daha güclü şəkildə teoloji vurğulanması İsəvilikdə baş verir. İsəvilik missioner dinidir və onun ən böyük missioneri Həvari Paulosdur. Xoş Müjdə özü adından da göründüyü kimi müjdədir, yəni, yayılan xoş xəbərdir ki, onu insanlar başqalarını dəvət etmək məqsədilə yayırlar. İslamda cihad özü missionerliyin bir şəklidir. Başqalarına islamın gözəlliyini göstərmək üçün

müsəlman həyatı yaşamağa çalışmaq özü missionerliyin tərkib hissəsidir. Missionerlik bir fəaliyyət kimi Xristianlıqda İntibah dövrünün başlanğıcından başlayaraq institusionallaşdırılmış, öyrənilmiş, sistemli və təşkilatlanmış fəaliyyət halına gəlmişdir.

Missionerlik fəaliyyəti tarixin skandalı kimi

*Missionlerik tarixən insan övladının gəlib-keçmiş ən* skandallı fəaliyyətlərindən biri sayılır. Bu xüsusən də İsəvilikdəki missionerliyə aiddir. *Bunun bir səbəbi* missionerlərin böyük əksəriyyətinin Avropa yüksəlişə başladığı dövrlərdə imperialist və kolonialist siyasətin əlində alət olmalarıdır. Öz dövrlərinin yetirmələri kimi, onlar da irqçilik nəzəriyyələrinə inanmış və buna müvafiq hərəkətlər etmişlər. Dünyanın heç bir yerində heç bir dini missionerlik fəaliyyəti problemsiz olmamışdır. Fərq kimin hara qədər Yaradan adına başqalarını öz eqoist və şeytani məqsədləri üçün alətə çevirməsidir ki, bunu da insafən bütün missionerlərə aid etmək olmaz.

Missionerliyin ikinci böyük ziddiyyətli paradoksu onun kültürlərlə ilişkisinin nəticələrindən qaynaqlanır. İstənilən missioner fəaliyyəti, istənilən kültür fəaliyyəti kimi yeni mühitə, sistemə daxil olduqda girdiyi sistemdə dəyişikliklər törədir. *Missionerliyin məqsədi də elə budur: dəyişiklik gətirmək.* Dəyişikliyin necə və hansı meyarlarla qiymətləndirilməsi, və onların gözlənilməyən arzuolunmaz nəticələrinin yaranması, dəyişikliyin və dəyişikliyə ehtiyacın olub-olmaması yoxsa dəyişiklikdən qaçmanın və bir cəmiyyəti olduğu kimi qoruyub *saxlamanın variant kimi* seçilməsi və səbəbləri (hansı gerçəkdir və lazımdır?) missiologiyada (Xristianlıqda missionerlik fəaliyyətini öyrənən teologiya sahəsi) ciddi və mübahisəli araşdırmaların mövzusudur. Məsələn Məsihi missionerlər yaxın və orta şərqdə onlarla xəstəxana açmışlar və o xəstəxanalarda müsəlman və ya xristian fərqi qoymadan insanları müalicə etmişlər. Bəzi hindu dillərinin əlifbalarını məhz onlar hazırlamışlar. Bəziləri isə əksinə belə fərqləri yaratmışlar, yəni bir qrupa üstünlük vermişlər. Bir sıra yerlərdə onlar etnik savaşların çıxmasında iştirak etmişlər.





Missionerlər getdikləri ölkələrə öz təhsil sistemlərini gətirmişlər. Sırf dünyəvi aspektdən baxarsaq, missionerlik bir mədəniyyətin (bu halda hegemon qərb sivilaziyasından söhbət gedir) özünü yaymasının bir şəklidir də deyilə bilər, çünki istənilən missioner dini özü başqa bir mədəniyyətin tərkib parçasıdır. Bu, təbii bir sekulyar şərhdir. Sırf dini-teoloji baxış bucağından baxarsaq, missionerlik birisinin xüsusən də həqiqətən inanan bir insanın başqasına yaxşılıq etməsi, başqasını öz inancına görə haqq yoluna dəvət etməsidir. Həqiqətən inanan bir müsəlmanın bir xristianı öz dininə dəvət etməsi həmin müsəlman üçün yanlış şəkildə Allahı tanıyan insanı düz yola dəvət etməkdir, çünki əks təqdirdə o yanlış yolda olan insan üçün qurtuluş yoxdur. Eyni müddəa məsihi üçün də keçərlidir. Bu da bir teoloji şərhdir. Bu, teoloji baxış bucağında missionerliyin ideal və son, əsl məqsədidir. Aydındır ki, bu ideal və nəzəri müddəaları praktikada öz şəxsi çıxarları üçün istifadə edən insanlar hər dində, hər zaman və hər yerdə olmuşdur. Missionerliyə qiymət vermək üçün bu şərhlərə baxılmalıdır və onlar nəzərə alınmalıdır. Onların hansı doğrudur? Ümumiyyətlə burda hansı doğru, hansı yalandır kimi suallar qoymanın önəmi varmı? Missioner işi qiymətləndirilərkən nə, niyə və hansı şəkildə, necə nəzər alınmalıdır? Bu suallar göstərir ki, missioner işi havadan, ümumi müddəalarla, başdansovdu şəkildə cavab veriləcək bir şey deyildir. Missionerliyin daha bir paradoksu da bilavasitə teologiyadan gəlir. İstənilən missioner fəaliyyəti belə bir daxili və ziddiyyətli prinsipə dayanır ki, missio-nerin dini haqlıdır, doğrudur, qarşı tərəfin dini isə yanlışdır və ya hər hansı şəkildə missionerin dini qədər əhəmiyyətli, dolğun, effektli deyil. Əks təqdirdə missionerin dinini yayma işinə ehtiyac olmazdı. Başqa sözlə əgər xristian dini də haqq dinidirsə, daha niyə İslamı yayırsan və ya əksinə. İslamı tanıdırsan, çünki xristia-nın dininin haqq dini olmasına, adamın məsihilik vasitəsilə Yara-danı tapacağında inanmırsan və ya əksinə deyilə bilər. Bu isə dolayı yolla o deməkdir ki, sən Yaradanın özünü sənə tanıtma-sına və

başqa insanları ona gedən yoldan məhrum etməsinə inanırsan və ya qəbul edirsən ki, ona gedən yolu bir qrup insan üçün (buddistlər) açıb və başqalarına bu yolu açmamaqla onları öz sevgisindən məhrum edib (onlara da yolu açsaydı onda sənin öz dinini onların arasında yaymanın əsasında nə durur?). Bu isə, razılaşmaq lazımdır ki, həm təkəbbürlü yanaşmadır, həm də xüsusən İsəvilikdə Yaradanın sevən təbiətli olmasına tərs düşür. Yaradan belə sevəndisə, niyə onda konkret insan qrupu (məsihilər) üçün yolu açıb başqalarını bundan məhrum edir ki? Lakin məsələ də elə burasındadır ki, başqa insanları müvafiq dinə (İslam, Xristianlıq, İudaizm) dəvət etməni yaradan özü həmin şəxslərin inandığı dini kitablarda onlara əmr edir. Beləliklə, insan missioner olmaqla sırf dini aspektən öz dini görəvini yerinə gətirir, xüsusən də həqiqi müsəlman, xristiandırsa, eyni zamanda da yaxşı niyyətlə hərəkət edir və buna inanır, başqa tərəfdən də Yaradanın ona haqq yolunu açmaqla, başqalarına onun kimi olmağı öyrətməməklə başqalarını dolayısıyla öz sevgisindən kənara çıxardığına və onların inancının əsil inanc olmamasına inanır ki, bu da çağdaş plüralizm, liberalizm kimi konseptlərin təsir ilə arzuolunmaz bir hal, qavram, çəlişki halını almışdır. Bu həmçinin missionerin başqa insanlar haqqında istər-istəməz belə bir şeyi qəbul etməsinə gətirib çıxarır ki, yaradan ona özünü tanıtmaqla, açmaqla başqalarına buna bənzər tanıtmanı layiq bilməmişdir. Bu son müddəa insanı, insana qarşı qoya bilən bir müddəadır. Belə paradokslu şərh həqiqətə istisna qaydasında iddia edən bütün dinlərə (İbrahim dinləri: onlar iddia edir ki, həqiqət yalnız onların öyrətdiyi kimdir və Yaradan da məhz onların öyrətdiyi şəkildədir) xasdır. Bu həm də həmin dinlərin Yaradan haqqında təlimlərində teoloji problemlər çıxarır.

**Moşaf Ştufi**

Bu kənd təsərrüfatı icmasının bir növüdür. İsraildə emiqrantların ilk zaman yaşadığı yer.





**Mövsüm fəhləsi**

İşi, xüsusiyyətlərə görə mövsüm şəraitindən asılı olan və yalnız ilin bir hissəsində çalışan fəhlə mühacirlər.

**Muxtariyyatçı**

Etnik qrupun mədəni və ya ərazi muxtariyyəti uğrunda mübarizə aparan şəxslər.

**Münaqişəli vəziyyət**

İki və ya daha çox sosial subyektlər arasında münasibətlərin xarakteridir; bu zaman açıq toqquşma nəinki mümkündür, hətta qaçılmazdır. Bu halda yığılıb qalmış ziddiyyətlər, sosial subyektlərin qarşılıqlı fəaliyyəti nəticəsində yaranaraq, onların real qarşıdurması üçün zəmin yaradır və münaqişə üçün baza rolunu oynayır. Belə bazanın (əsasın) zəminində münaqişəyə təkan verən daha bir təkanverici bir amilin olması tələb olunur (adi şəraitdə çox ehtimal ki, bu amil heç də qəti tədbirləri tələb etməzdi). Belə situasiyada xüsusi yeri insidentə və yaxud bəhanəyə ayırırlar.

**Müstəqil fəhlə**

Anlayışı əmək müqaviləsindən başqa cür ödənişli fəaliyyətlə məşğul olan və adətən tək və ya öz ailə üzvləri ilə birgə işləyərək yaşamaq üçün qazanc əldə edən, habelə işlədiyi dövlətinin müvafiq qanunvericiliyinə və ya ikitərəfli, yaxud çoxtərəfli sazişlərə əsasən müstəqil kimi tanınan fəhlə mühacirlərə aiddir.

**Müvəqqəti sığınacaq**

Xarici vətəndaşın miqrasiya etdiyi ölkədə müvvəqəti olaraq yaşamaq və qalmaq üçün aldığı icazə.

**Müvəkkilik (advocacy)**

Termini də maraqların təmin edilməsi istiqamətində fəaliyyət mənasını verir (advocate sözündən – baxış və maraqların təşviqatı, müdafiəsi, dəstəklənməsi, yeridilməsi). Lobbidən fərqli olaraq advocacy daha geniş məfhumdur və maraqların təmin edilməsi tək dövlət hakimiyyəti orqanları vasitəsilə deyil, eyni zamanda istənilən başqa strukturlar vasitəsilə də reallaşdırılır (ictimai təşkilatlar, kommersiya firmaları, siyasi partiyalar, nüfuzlu şəxslər və s.).

| | Lobbi | Müvəkkillik |
|---|---|---|
| **Subyektləri** | Dövlət hakımiyyəti orqanları | Dövlət hakımiyyəti orqanları + istənilən yerli və ya xarici struktur |
| **Fəaliyyət** | Maraqların müdafiəsi (yeridilməsi) | |





## -N-

**NAAA**

Amerika Ərəblərinin Milli Assosiasiyası 1972-ci ildə Vaşinqtonda təsis olunub. Federal lobbi qanununa əsasən qeydiyyatdan keçən yeganə ərəb təşkilatı olan NAAA - ən böyük təşkilatlardan biri hesab olunur. 1990-cı ilə qədər büdcəsi 1 milyon dollar olan Assosiasiyanın əsas fəaliyyət istiqaməti lobbiçilikdir. Ərəb-İsrail münaqişəsi və Fələstin problemində ərəblərin haqlı mövqedə olmasını təbliğ edən NAAA - Amerikanın xarici siyasətinə təsir etməyə çalışır.

Amerika və Ərəb ölkələrinin rəsmi dairələrində dostları olan NAAA hərbi, iqtisadi və mədəni sahələrdə Amerika və ərəb dövlətləri arasında olan münasibətləri gücləndirmək istəyir. Amerikanın bir çox ştatlarında filialları olan NAAA - bu gün də öz fəaliyyətini davam etdirməkdədir.

**Nansen pasportu**

1922-ci ildə şəxsiyyət vəsiqəsi layihəsinin Millətlər Cəmiyyəti tərəfindən qəbul olunmasından sonra qaçqın kimi qəbul olunan şəxslər adı çəkilən beynəlxalq təşkilatın himayəsinə keçirdilər. Bir çox diasporların formalaşması məhz bu hadisədən sonra baş verdi. Əsasən keçmiş SSRİ-dən olan diasporlar bu statusdan yararlanıblar.

**Naturalizasiya**

Marağı olan şəxslərin xahişi ilə vətəndaşlığı fərdi qəbul etmədir. Məcburi naturalizasiya beynəlxalq hüquqa ziddir və onu tətbiq etmək cəhdləri həmişə etiraz notalarına səbəb olmuşdur. Təcrübədə bu cür hallara az da olsa təsadüf edilir. Məsələn, ötən əsrdə bəzi Latın Amerikası dövlətləri uzun müddət

onların ərazisində yaşamış əcnəbilərə öz vətəndaşlıqlarını məcburi qaydada avtomatik qəbul etdirməyə cəhd göstərmişlər. Dövlətlərin əksəriyyətində naturalizasiya adətən qanunvericilikdə nəzərdə tutulmuş müəyyən şərtlərə əməl edilməklə həyata keçirilir. Ən mühüm şərt şəxsin mövcud dövlətin ərazisində yaşama müddəti ilə (oturaqlığı) bağlıdır (5,7 bəzən isə 10 il). Vətəndaşlığa qəbul etmənin başqa, məsələn, əmlak şərtləri də nəzərdə tutulur. Marağı olan şəxs mövcud dövlətə hansısa xidmətlər göstərdiyi, onun silahlı qüvvələrində qulluq etdiyi və s. hallarda vətəndaşlığa qəbul etmənin sadələşdirilmiş qaydası tətbiq oluna bilər.

Vətəndaşlığa qəbuletmə bütövlükdə dövlətin daxili qanunvericiliyi ilə təyin edilir. Naturalizasiyanın ən azı dörd növü məlumdur:

- Dövlətin ali hakimiyyət orqanlarının həyata keçirdiyi naturalizasiya;
- Dövlət idarəetmə orqanlarının-hökumətin və ya əksər hallarda dövlət idarəçiliyinin mərkəzi sahə orqanlarının həyata keçirdiyi naturalizasiya;
- Dövlət hakimiyyətinin yerli orqanlarının həyata keçirdiyi naturalizasiya (nadir hallarda təsadüf olunur);
- Məhkəmə qaydasında naturalizasiya (həm-çinin az təsadüf olunur).

**Neokultrasiya**

Hər hansı bir millətin içərisndə genetik dəyişikliklər nəticəsinə "yeni millətin" yaranması. Əsasən iqlim, yerli mədəniyyət və sivilizasiyaların təsiri altında formalaşır.

**Nissey**

Amerikada anadan olub Amerika mədəniyyəti tərəfindən assimilyasiya olunan yapon mühacirətinin ikinci nəsil dalğası. Yapon diasporunun baniləri hesab olunurlar. Sakit amerikalı





hesab olunan Nisseylər Amerikada Yapon diasporuna qarşı törədilmiş 2 haqsızlığın canlı iştirakçılarıdır. Yapon diasporunun nəsil dalğaları içərisində sayca üstünlük təşkil edən Nisseylərin 50%-i diasporun aktiv qanadı olsa da, yerdə qalan 50%-dən 30%-i bilərəkdən assimilyasiyaya məruz qalır. 10%-ilə diasporla əlaqə saxlamır, qohumlardan, tanışlardan uzaqda yaşayırlar. 10%-i isə diasporla əlaqə saxlasa da, fəaliyyətləri passivdir.

Xaraktercə ən zəif nəsil dalğası hesab olunan Nisseylər Yaponiyaya geri qayıtmağı fikirləşmirlər. Onlar özlərinin Amerika vətəndaşı kimi digərlərindən daha çox üstünlüklərə sahib olduqlarını iddia edirlər.

## -O-

**Obskurasiya(qocalma)**

Tanınmış Rus tədqiqatçısı Lev Qumilyovun fikrincə hər hansı bir etnosun, yaxud diasporun fəaliyyətinin 1100 ilindən sonra Obskurasiya-qocalma fazası başlayır.

**Oralman**

Qazax diasporunun üzvlərinin ölkə daxilində adı. Mənası xarici ölkədə yaşayan qazaxlıdır.





## -P-

**Palermo protokolu**

Dəniz, quru və hava yolu ilə qanunsuz olaraq miqrantların aparılmasına qarşı qəbul edilən beynəlxalq sənəd.

**Paniranizm ya Panfarsizm**

Paniranizm siyasi konsepsiya kimi Əfqaniyə məxsusdur. Filosof bu konsepsiyani XIX əsrin ikinci yarısında irəli sürmüşdür. Panfarsizm (farsçılıq) və paniranizm fars şovinizminin qoşa qanadlarıdır, biri obirinin tərs üzüdür, panfarsizmdə ifşa olanlar paniranizmdə gizlənirlər. Əsasında aşağıdakı fikirlər durur.

1. Bir dövlət ( Persiya )
2. Bir millət ( İran ya Fars milləti )
3. Bir dil ( Fars dili )

**Peddilər**

İrlandların ləqəbi, müqəddəs Patrik adının qısaldılmış forması. İrlandlar arasında daha çox geniş yayılmış ad. Bir çox xarici ölkələrdə İrland diasporunu bu cürə tanıyirlar.

**Plüralizm prosesi**

Plüralizm (latin pluralis - çoxlu mənasını daşıyır) həyatın özünün rəngarəngliyindən yaranmışdır. O, cəmiyyətdəki müxtəlif qrupların maraqlarının müxtəlifliyini əks etdirən fikirlərin, baxışların, mövqelərin çoxluğu deməkdir. Plüralizm təkcə ictimai şüurda deyil, eyni zamanda siyasi həyatda də mövcuddur.

Bu proses qüdrətli xalqlar tərəfindən yeridilən bir siyasi kursdur ki, nəticədə bir neçə azsaylı etnik qrup və ya xalqların milli mənəvi dəyərləri qorunmaqla onların birləşdirilməsi baş

verir. Plüralizm fərqlərin və müxtəlif mövqelərin şəxsləri, siyasətləri və cəmiyyətləri zənginləşdirən dəyərlər kimi qiymətləndirir.

**Poco**

ABŞ-da Meksika diasporuna həqarətlə şamil olunan bu termin onlara qarşı nifrət, qəzəb və ikrah hissi kimi istifadə olunur. Amerikada XX əsrin əvvəllərindən 50-60-cı illərinə qədər irqçi qüvvələrin meksikalılara bu cür münasibət göstərməsinə əsas səbəb, onların ingilis dilində danışa bilməməsi, təhsil almağa həvəsləri olmaması və ən ağır işlərdə çalışması idi. Poco ispan sözü olmaqla "Korlanmış" mənasını ifadə edir. Meksikalıların Poco kimi çağırılması diasporda narazılıqlarına səbəb olsada, onların bir çoxu bu cür təhqirdən qurtarmaqdan ötrü bilərəkdən assimlasiya olunur, diaspordan uzaqda yaşayır, aktivlik göstərmirdilər. Məhz diasporda ispanlı, latinos, Meksika amerikalıları termini Poco kimi tanınmamaqdan ötrü yarananmış idi. Lakin zamanla meksikalıların Amerikanın ictimai-siyasi həyatında rolunun artması diasporun formalaşması və təşkilatmasını sürətləndirdikcə Poco termini daha az istifadə edilməyə başladı. Müasir dövrdə Poco termini demək olar ki, istifadədən yığışdırılmasına baxmayaraq bəzi ştatlarda hələ də qalmaqdadır.

**Polşa diasporu**

Polşa Miqrasiya xidmətinini məlumatına görə təxminən 14-17 milyon polşalı xaricdə yaşayır. Almaniyada 1.5 milyon, Braziliyada 900 min, Fransada 1 milyon, Ykraynada 300-500 min arası, Böyük Britaniyada 150 min, Litvada 250 min, Avstraliyada 130-180 min arası, Argentinada 150 min, Rusiyada 100 min, Çexiyada 80 min, Qazaxıstanda 100 min polyak yaşayır. Polşa diasporunun formalaşması 18-ci əsrdən başlayıb. Əsas fəaliyyət dairəsi Milli ənənələrin qorunması, polyak dilinin təbliğatı, Polşa ilə yaşadıqları ölkələrin ikitərfəli əlaqələrini inkişaf etdiriliməsi və s.





**Prokultrasiya**

Sayca azlıq təşkil edən etnosun daha güclü mədəniyyətə birləşməsi. Belə münasibət mədəni vassalıq yaradır. Bu prosesdə də assimilyasiya olunmaq qorxusu etnos üçün yaranmır.

**Protonationalism / Statenationalism**

Bu millətçilik növünün əsasını dövlət təşkil edir. Bu sistemdə hamı dövlətə və onun ənənələrinə sadiq olmaldır. Vətəndaşlarda milli simvollar əsasında müştərək tərbiyə yolu ilə bir müştərək milli ruh yaradılır. Buna aydın misal Amerika və Fransadır.

## -R-

**Radikalizm**

Latınca "radix" sözündən olub kök, əsas mənalarını ifadə edir. Siyasi radikalizm qəti metod və hərəkətlərə üstünlük verilməsi, hər şeyin kökündən və dərhal dəyişdirilməsi mövqeyindən çıxış etməsi ilə səciyyələnir. O, partiyalara, partiya fraksiyalarına, siyasi hərəkatlara, parlament qruplarına, ayrı-ayrı liderlərə münasibətdə qeyd olunur. Radikalizm tarixi termin kimi XVIII əsrin ortalarında İngiltərədə sənaye çevrilişi dövründə meydana gəlmiş və tezliklə siyasi, fəlsəfi, ədəbi, dini, mədəni və maarifçi cərəyan kimi bütün Avropada geniş yayılmışdır.

**Regional dövlətlər**

Öz ölkəsində və regionunda, sərhədlərinə yaxın ərazilərdə məxsusi maraqlarını təmin edən və qorumağa qadir olan ölkələr. Bu ölkələr uzaq xaricdə ciddi müqavimət göstərə bilməsə də, öz regionunda bunu edə bilir. (Çin, İran, Rusiya, Türkiyə, Pakistan, Misir və s.)

**Reinteqrasiya**

Xarici ölkəyə miqrasiya edən, lakin sonradan vətənə geri dönən şəxslərin yenidən cəmiyyətin sosial strukturlarına cəlb edilməsi. Bir tərəfdən ünsiyyət dairəsi (dostlar, qohumlar, qonşular) və digər tərəfdən də vətəndaş cəmiyyətinin strukturlarında təmsilçilik (ictimai birliklər və s.) Reinteqrasiya öz ölkəsinin diasporda təmsil edilən şəxslərin vətənə geri qayıtmasında maraqlı olan dövlətlər üçün yeridilən siyasətin bir qoludur.





**Remittans**

İng: Remittance-pul köçürməsi. Diasporun qazandığı pulların ana vətənlərinin iqtisadiyyatına və dövriyyəsinə buraxılması. Əsas etibarilə xaricdə diaspor tərəfindən qazanılan bu pullar vətəndə qalan qohum əqraba üçün nəzərdə tutulursa, bundan udan dövlət olur. Ekspertlər remittansı "qloballaşmanın insani siması" adlandırırlar.

**Respublika**

lat. respublica - dövlət işləri, siyasət. Bütün əhalinin və ya onun böyük əksəriyyətinin ölkənin idarə edilməsində iştirak etmək hüququna malik olduğu hakimiyyət forması. Diasporların daha sərbəst halda faəliyyətinin olduğu dövlət quruluşu.

**Rusiya Azərbaycanlıları**

Bu gün Azərbaycan diasporunun ən geniş və intensiv fəaliyyət göstərdiyi ölkələr içərisində Rusiya Federasiyası xüsusilə diqqəti cəlb edir. Hal-hazırda qeyri-rəsmi statistikaya görə Rusiyada 3 milyona yaxın soydaşımız yaşayır ki, onlar Federasiyanın 89 subyektinin hamısında məskunlaşıblar.

Rusiya ilə Azərbaycan tarixi əlaqələri X əsrdən etibarən sərhəd-dəniz bağlılığı və ticari əlaqələr səbəbilə inkişaf edib. Zamanla Rusiyanın güclənməsi səbəbilə imperiya maraqlarına Azərbaycan daxil edildi. Xüsusilə, Azərbaycan uğrunda Rusiya-Türkiyə-İran qarşıdurması qanlı nəticələr verirdi və bundan yerli əhali əziyyət çəkirdi. Bu səbəbdən də XIX əsrin əvvəllərindən başlayaraq, Azərbaycanın şimal hissəsində yaşayan soydaşlarımız Rusiya ərazilərinə köçməyə başlayıblar. Dərbənd, Quba, Bakı sakinləri Rusiyaya köç edən mühacirlər içərisində əksəriyyət təşkil edirlər.

Rusiya dövlətinin qüdrətli inkişaf dövrü keçdiyi zaman başqa yerlərdə olduğu kimi, Azərbaycanda da bu dövlətə köçənlər arasında ticarət və elm xadimləri var idi. Tədqiqatçı Nazim Rizvanın araşdırmasına görə 1440-1505 - Böyük Moskva

knyazı III Vasili, 1530-1584. İvan Qroznı və 1672-1225-ci il I Pyotrın çarlığı illərində Rusiyaya köçən azərbaycanlı sənətkarlar, tacirlər, elm xadimləri Moskva, Sankt-Peterburq, Moskva ətrafı ərazilərdə məskunlaşırdılar. Azərbaycanlılar içərisində Rusiya dövlət idarələrində çalışanların barəsində dəqiq məlumat almasa da, bəziləri barədə arxivlərdə məlumata rast gəlmək olar.

Rusiya Xarici İşlər Nazirliyində tərcüməçi işləmiş Nəsirov və Mirzə əbu Turab Vəzirov XVIII əsr Azərbaycan diasporunun tanınan nümayəndələri olublar. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Rusiyaya təhsil olmaq məqsədilə gedib burada daimi yaşayan soydaşlarımızdan Mirzə Abdulla Vəzirov, Mirzə Cəfər Topçubaşov, Abbasqulu ağa Bakıxanov kimi tanınmış şəxslərin adlarını çəkmək olar.

1813-1828-ci illər imzalanan Gülüstan və Türkmənçay sülh müqavilələri Azərbaycanı bir dövlət, azərbaycanlıları bir millət kimi iki hissəyə parçaladı. Rusiya tabeçiliyində qalan Şimali Azərbaycanın vətəndaşları Rus təəbəsi olurdular. Bu səbəbdən də Rusiya ərazisində yaşayan soydaşlarımızın daimi mühacirəti tez-tez baş verdiyindən statistik araşdırmalar tam olaraq aparmaq olduqca çətin olduğundan, Rusiyada Azərbaycan diasporunun formalaşması 1991-ci ildən sonra götürülür.

Buna baxmayaraq 1828-1991-ci illər arası Rusiyaya axını güclənən mühacirət prosesini təqribi olaraq aşağıdakı dövrlərə bölmək olar:

1. 1828-1918-ci illər - əsasən elm, sənət və digər işlərlə məşğul olan Azərbaycan mühacirləri Rusiya ərazisində say etibarı ilə seçilən icmalarını yarada biliblər. Bu illər ərzində bir çox tanınmış azərbaycanlılar imperiyanın sayılıb-seçilən insanlarından olmaqla, Rusiyanın elminə və iqtisadiyyatına yadda qalan töhfələr qoyublar. Rusiya elmində, hərbisində və iqtisadiyyatında danılmaz rolu olan azərbaycanlılardan Əliağa Şıxlinski, Mirzə Məhəmmədəli, Hacı Kazım, Mirzə Kazım bəy, Ağababa Sadıqov, İbrahim ağa Usubov və yüzlərlə insanın adını çəkmək olar.





2. 1922-1960-cı illər - Azərbaycan Demokratik Respublikasının süqutundan sonra bolşevik siyasi ideologiyasının tərəfdarı olan Azərbaycanın kəndli-fəhlə sinfi Rusiyaya köməyə başlayıblar. Əsasən II Dünya müharibəsi illərində və müharibədən sonrakı dövrdə Rus qadınları ilə ailə qurub burada yaşayan soydaşlarımız Azərbaycan mühacirəti ikinci dalğasının nümayəndələridir.

1932-ci il repressiyaları zamanı Sibir, Mərkəzi və Orta Asiya, Rusiyanın ucqar əyalətlərinə sürgün edilən azərbaycanlıların əksər hissəsinin, vəfat etməsinə baxmayaraq, sağ qalanlar bu ərazilərdə yaşamağa məcbur olmuş və çox cüzi hissə vətənə qayıda bilmişdir.

3. 1960-80-ci illər - Bu dövrün mühacirəti sosial və iqtisadi səbəblərlə bağlıdır. İlk olaraq Rusiyanın əyalətlərində böyük tikililər - Sibirdə Baykal-Amur magistralı, Volqaboyunda, Tümendə yeni neft yataqlarının istisman, yeni şəhərlər salınması səbəbilə minlərlə azərbaycanlılar bura köçmüşlər. Bu mühacirət prosesinə müvafiq olaraq II Bakı, III Bakı, IV Bakı kimi anlayışlar yaranmışdı.

1970-ci ildən isə Rusiyaya təhsil almağa gedib geri qayıtmayan azərbaycanlılar da çoxluq təşkil edirlər. Moskva, Leninqrad və digər iri şəhərlərə oxumağa gedən azərbaycanlılar təhsil müddəti bitdikdən sonra öz ixtisasları üzrə işləyərək Azərbaycan icmasının ziyalı təbəqəsini təşkil ediblər. Tarixi mənbələrdə verilən məlumatlara görə onların sayı təxminən 15 min nəfərə yaxın olmuşdur.

4. 1991-ci ildən bu günə qədər davam edən mühacirət prosesi əsasən iqtisadi səbəblərlə əlaqəlidir. Hal-hazırda sayı 3 milyona çatan Rusiya azərbaycanlılarının əksəriyyəti 1991-ci ildən sonra kütləvi şəkildə bu əraziyə köçənlər təşkil edirlər.

Hazırda Rusiyada azərbaycanlıları ətrafında birləşdirməyə çalışan 13 mərkəz fəaliyyət göstərsə də, bunlardan ikisi «Ümumrusiya Azərbaycanlılar Konqresi», «Rusiya Azərbaycanlılarının Federal Milli Mədəni Muxtariyatı FNKA-Azerros» ətrafında

Azərbaycan Cəmiyyətləri və təşkilatları toplaşıb və Rusiyanın bir çox bölgəsində filialları var. Rusiyada Azərbaycan diaspor təşkilatları 89 obyektin hamısında fəaliyyət göstərir. Əsasən Moskva ətrafı və Sankt-Peterburqda çoxluq təşkil edirlər.

**Rus diasporu**

Rus diasporu dedikdə ilk növbədə dünyanın bir çox ölkəsində formalaşan böyük diasporun tərkib hissəsinə diqqət verilməlidir. Uzun müddət xaricdəki Rus diasporu deyilləndə bura böyük imperiyanın təbəələri olan ukraynalı, belorus, azərbaycanlı, tatar, çuvaş, gürcü, moldavan, polyak, yəhudi və s. etnik xalqlar da daxil olmaqla rusların ümumi icması nəzərdə tutulurdu. Rus təbəələrinə, Sovet vətəndaşları kimi yanaşma hal-hazırda müstəqil olan dövlətlərin diaspor tarixində ciddi əngəlliklər yaradır. Lakin Son illərdə Rusiyanın özündə diaspor mövzusunun tanınmış tədqiqatçıları - MDB ölkələri institutunun direktoru K.Zatulin, Rusiya XİN - Dünya Diasporu bölməsinin rəhbəri T.Poloskova, Rusiya Elmlər Akademiyasının əməkdaşı A.Vişnevski, Geosiyasət Araşdırmalar Mərkəzinin direktoru V.Kolosof, A.Pronin, S.Qardirovski və digərləri Rus diasporu anlayışına etnik ruslar mövqeyindən yanaşmağı məqbul sayırlar.

Bu kitabda Rus diasporunu tədqiq edərkən sırf etnik ruslara aid olan tarixi, siyasi və müasir hadisələrə diqqət verilir. Bununla rus imperiyası və Sovetlər Birliyinə daxil olmuş dövlətlərin diasporlarının ayrıca tədqiq edilməsinə zəmin yaranır.

XVIII əsrin sonu XIX əsrin əvvəllərinə qədər Rus mühacirəti intensiv xarakter daşımırdı. Lakin dünyada baş verən ictimai-siyasi proseslərə Rusiya imperiyasının yaxından qoşulmasından sonra rusların dini, iqtisadi və siyasi səbəblərlə yaxın və uzaq bölgələrə mühacirəti kütləvi xarakter aldı. Pravoslav dinin yayılması, kilsə xadimlərinin anti din çıxışları zamanı könüllü və zorən başlanan mühacirət əsasən balkan ölkələrinə və Şərqi Avropaya idi. Çar dövründə ölkədə iqtisadi vəziyyətlə əlaqəli başlanan mühacirət prosesi Avropa və Amerika ölkələrinə





aid idi. Siyasi baxış və mövqelərinə görə ruslar əsas etibarı ilə Avropada məskunlaşırdılar. Lakin zamanla Amerika qitəsinə köçənlərin sayı olduqca artırdı. Rusiya imperiyasının ərazisi genişləndikcə yeni ərazilərə köçən ruslar tarixi-sərhəd dəyişiklikləri nəticəsində geri qayıtmamış, lakin burada səpələnərək yayılmışlar.

1860-80-ci illər arası Rusiya imperiyasının 500 min vətəndaşı xarici dövlətlərə köçürdülər ki, bunların 200 mini ruslar idi. Yaxın və Orta Şərq, Amerika dövlətləri, Avropa, Çin, Yaponiya, Avstraliya, Koreya rusların mühacirət etdikləri əsas dövlətlər idi. Ancaq Balkanlar və Baltikyanı dövlətlərdə rusların artıq bu tarixdə icmaları formalaşmışdı.

İqtisadi və dini mühacirət nəticəsində xarici dövlətlərə köçən ruslar diasporun təməlini qoya bilməsələr də icma halında formalaşa bildilər. Lakin Rus absalyutizminin formalaşdığı dövrdə (XVII-XVIII əsrlər) siyasi mövqelərinə görə intellektual-elita və siyasi xadimlərinin Rusiyadan köçərək rusların çoxsaylı olduqları ölkələrdə məskunlaşması diasporun formalaşmasına təkan verdi. Ancaq işlər XX əsrin əvvəllərinə qədər passiv halda aparılırdı.Xaricdəki rus icmalarının sosial tərkibi genişləndikcə onların birləşdirilməsi problemlər yaradırdı. Dənizçilər,kəndlilər, fəhlələr, cinayətkarların sayının çoxalması xaricdəki Rus icmaları arasında müxtəlif qanadların yaranmasına səbəb oldu.

Bu kimi qanadların yaranması rusların assimilyasiya olunması prosesini sürətləndirdi. Xüsusilə orta və aşağı silklərə aid olan ruslar məskunlaşdığı dövlətlərə daha tez adaptasiya olunurdu. Assimilyasiya prosesinin bu cürə inkişafına baxmayaraq ruslar içərisində milli ənənə və dil uzun müddət qorunub saxlanıldı. Lakin qarışıq nigah və təbii-bioloji yolla artım yeni rus nəslində Assimilyasiyanın daha güclü təsiri hiss olunurdu. Rus diasporunda nəzərə alınacaq bir xüsusiyyət də, diasporun tərkibinin müxtəlif zaman ərzində, tarixi-siyasi hadisələr səbəblərlə köçən mühacirlərdən ibarət olunmasıdır. Bu tədqiqatlar 4 dalğaya bölünürlər. Hər mühacirət dalğasının özünəməxsus spesifik cəhətləri, sosial və siyasi statusu, yayılma coğrafiyası vardır.

Müxtəlif səbəblər nəticəsində dünyanın bir çox bölgəsinə mühacirət edən rusların mövcud diasporunu aşağıdakı 4 qanadın mühacirləri təşkil edir:

1. *Birinci dalğa bolşevik* çevrilişindən əvvəl və sonra xarici dövlətlərə mühacirət etmiş dvoryanlar, ziyalılar, hərbiçilər və bank sahibləri idilər. "Ağ mühacirət" - adlanan birinci dalğa əsasən Avropa və Çində məskunlaşırdılar. Almaniya, Fransa, Türkiyə, Polşa, Bolqarıstan, Baltikyanı dövlətlər və Çində rus mədəni və dini mərkəzləri yaradan Ağ mühacirlərin təxmini sayı 1,5-2 milyona çatırdı.

Məskunlaşdıqları ölkələrdə yaxşı təmin olunmaqlarına baxmayaraq ağ mühacirlər vətənə nostalji hisslərlə sıx bağlı idilər. Onların övladları və nəvələri Rus mədəniyyəti və ənənələri ruhunda tərbiyə olunurdu. Rus dili Ağ mühacirlər içərisində tam qoruna bilmədi. Onların nəvələrinin 80% ana dillərini öyrənməyə həvəs göstərmirdi. Birinci dalğanın mühacirlrində uzun müddət aşağıdakı hisslər hökm sürmüşdür:

– Vətənpərvərlik hissləri - Çar Rusiyasının zadəganlarına xas olan xüsusiyyət.

– Mühacirət prosesinin təbii reaksiya olduğunu qəbul edərək Vətənə və quruluşa yox, sadəcə müəyyən insanlara şəxsi nifrət.

– Aid olduqları rus mədəniyyətinin klassik və gözəl cəhətlərinin daşıyıcıları olması səbəbilə qürur hissləri.

– Vətəndə Sovetlər Birliyi kimi totalitar rejimin hökm sürdüyü dövrdə vətənə hətta turist kimi dönmək üçün real imkanların olmaması.

2. *İkinci dalğaya* II Dünya müharibəsinin başlanmasından tutmuş 1953-cü ilə qədər Sovetlər Birliyini tərk edən mühacirlər aiddir. Bura eyni zamanda müharibə zamanın işğal olunan ərazilərin sakinləri əsir düşərək geri qayıtmaq imkanlarını itirmiş və könüllü olaraq almanlar tərəfə keçib, müharibədən sonra başqa ölkələrə köçən şəxsləri də daxil etmək olar.

II Dünya müharibəsindən sonra – "displased persons" – köçürülən şəxslər içərisində çoxluq təşkil edən Ruslar Fransa, İtaliya, Avstriya və Amerika Birləşmiş Ştatlarında məskunlaşırdılar. Di-Pi adlanan bu şəxslər qaçqın kimi qəbul olunması üçün müvafiq qərar BMT üzvü olan dövlətlərə tapşırıq verildi. Di-Pilərin vətənlərinə geri dönməsi üçün Sovetlər Birliyinə də müraciət olundu. Lakin onların 70% bu barədə fikrləşmirdilər. Sovet ədəbiyyatında "satqın", "faşist əlaltısı", "xain" kimi adlandırılması onları vətəndə nə gözlədiklərini mühacirlər gözəl bilirdilər. Diasporun əsl qanadı hesab olunan bu şəxslər Sovet rejiminə qarşı narazılıqlarını kəskin bildirirdilər. Elə bu səbəbdən də ABŞ prezidenti Trumenin 1952-ci il 24 mart qərarı ilə "kommunizm əleyhinə mübarizə apardıqları üçün" onlara xüsusi yardım göstərməyə başladı.

Müharibədən sonra Sovetlər Birliyinə dönmək istəməyən 800 min Rus diasporlarını formalaşdırmağa başladılar. Ancaq onlar içərisində zadəgan və ziyalı təbəqəsi azlıq təşkil etdiyindən Rus milli kimliyini birinci dalğanın nümayndələri qoruyub saxlayırdılar.

3. *Üçüncü dalğanı*, rus diasporunun ideoloji-siyasi cəhətdən formalaşmasının təməlini qoyanlar hesab edilirlər. 1960-88-ci illəri əhatə edən bu mühacirət prosesi siyasi xarakter kəsb etdiyindən xaricdəki Rus diasporunun təşkilatlanması və lobbiçilik fəaliyyətinəilk başlayan şəxslər bura aid idi.

Dissident kimi ölkədən zorla və könüllü çıxan şəxslər məskunlaşdıqları ölkələrdə əvvəlki mühacirət qanadlarının nümayəndələrilə birgə Rus diasporunun təşkilati-siyasi bazasını yaratmağa başladılar. 100 minə yaxın ziyalı-elita təbəqəsinə mənsub olan 300 min Rus mühaciri içərisndə seçilməklə Qərbdə böyük nüfuz qazandılar.

Üçüncü dalğanın nümayəndələri əvvəlkilərdən fərqli olaraq senzuraya rayət etmirdilər. Kommunizm əleyhinə kəskin çıxışlar edən bu şəxslərin nəşr etdiyi media orqanları və kitabları hər iki tərəfdə populyarlıq qazandı.

1975-ci il Helsinki aktının qəbul olunmasından sonra

"insan hüquqları", "mühacirət etmək hüququ", "yaşayış yerini müstəqil özüntəyinetmə" kimi anlayışlar beynəlxalq hüquq normalarına daxil olundu. Bu akta qoşulan Sovet Birliyi ölkədən mühacirət edilməsi üçün olan senzuranı yığışdırması rejim əleyhdarlarının ölkədən çıxıb getməsinə şərait yaratdı.

Rus diasporunda siyasi fəaliyyətin aktivləşməsində böyük rolu olan üçüncü dalğanın nümayəndələrinin bir hissəsi Sovet rejimi dağıldıqldan sonra vətənə geri dönərək burada yaşamağa üstünlük veriblər.

4. *Dördüncü dalğa* 1990-cı ilin əvvəllərindən başlayaraq indi də davam etməkdədir. Bu dalğanı tədqiqatçılar əsasən iqtisadi səbəblərlə əlaqələndirirlər. Bu da əsassız deyildir. Yeni mühacirlər olan bu şəxslər öz iqtisadi və maddi durumlarını yaxşılaşdırmaqdan ötrü inkişaf etmiş dövlətlərə köçürlər. Rusiyada hökumət böhranı zamanı çətinliklərlə üzləşən yeni mühacirlər hal-hazırda vətənə geri qayıtmaq barədə düşünmürlər. Bu dalğanın bir hissəsi bilərəkdən Assimilyasiya olunmaq məqsədilə xarici dövlətlərə köçərək diaspor işində iştirak etmək istəimrlər. Marginal vəziyyətə düşən yeni mühacirlər "rus kökünü" və "rus mədəniyyəti"ni unutmaq istəmələrinə baxmayaraq ictimaiyyətə çətinliklə adaptasiya ola bilməmələri onların bu işini əngəlləyir.

Yenidənqurma dövrünün mühacirlərinin sosial tərkibi və çalışdıqları işlər də rəngarəngdir. Amerika, Kanada, Avropa ölkələrində qabyuyandan tutmuş ali məktəb müəllimi, biznesmen, incəsənət işçisi kimi çalışan yeni mühacirlər diasporda sosial-psixoloji çətinliklər çəkirlər. Rəyi soruşulan bu şəxslərin 80% vətəni sevdiklərini, lakin heç bir zaman geri dönməyəcəklərini bildirmişlər.

Rus diasporunun müəyyən hissəsində Sovetlər Birliyi dağıldıqdan sonra müstəqillik əldə etmiş Respublikalarda formalaşmışdır. Lakin bunların formalaşması könüllü əsasda deyil, məcburi xarakter daşıyır. İstər-istəməz sərhədlərin dəyişməsi nəticəsində yaşadıqları əraziləri tərk etməyərək vətənə qayıtmayan bu şəxslər diaspor formalaşdırmışlar.





Hal-hazırda xaricdəki Rus diasporu aşağıdakı istiqamətlərdə fəaliyyət qurub:

- Rus mədəniyyətinin tarixi abidələrini və xatirələrin qorunması
- Kitabxana, muzey və arxiv fondlarını qoruyub saxlamaq
- Bədii, ədəbi, musiqi mədəniyyətlərinin nümunələrini saxlamaq və təbliğ etmək.
- Konkurs, sərgi, forum, müxtəlif səpgili görüşlər keçirməklə Rus mədəniyyəti və milli ənənələrini təbliğ etmək.
- Yaşadıqları ölkələr ilə tarixi vətənləri olan Rusiya ilə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi
- Rus dilini qoruyub saxlamaq və təbliğ etmək
- Rus diasporunu hörmətli ictimai-siyasi qüvvəyə çevirməklə ona beynəlxalq status qazandırmaq.
- Gənc nəslin vətənpərvər ruhda böyüdülməsi

Rusiyanın özündə rus diasporuna diqqət 1995-ci ildən artırılıb. Bu tarixdən etibarən müxtəlif qərar və fərmanla xaricdəki rusların hüquqları müdafiə olunurdu. 1995-1999-cu illər arası bu istiqamətdə atılan addımlar təşkilati struktur yarada bilmədi. Rusiya XİN-i, Dövlət Duması, Nazirlər Kabineti və Prezident aparatında xüsusi şöbələr rus diasporu ilə iş aparır. Rusiyanın maraqlarının müdafiəçi rolunda çıxış edə biləcək diasporun tam Rusiya dövləti ətrafında birləşdirilməsi ciddi əngəlliklər yaradır.

1999-cu ilin 17 mayında "Xaricdə yaşayan ruslara münasibətdə Rusiya Federasiyasının dövlət siyasətinin əsas istiqamətləri" haqqında dövlət qanunun qüvvəyə minməsinə baxmayaraq diasporşünaslar burada boşluğun olduğunu bilirdilər.

Bu qanun layihəsində əsasən aşağıdakı istiqamətdə dövlət səviyyəsində Rusiyada iş aparılır:

- Siyasi-hüquqi və informasiya tədbirləri.
- Diplomatik tədbirlər
- İqtisadi tədbirlər
- Sosial və mədəni tədbirlər

**Rusiyanın Yeni Miqrasiya Siyasəti**

2007-ci ilin yanvar ayından qüvvəyə minən yeni hüquqi qaydalar bir yandan Rusiyaya gələn migrantların əmək faailyətiylə məşğul olması üçün icazə prosesini cəmi 13 günə endirirkən (3 gün içində lazımı sənədlərlə və 1000 rubl rüsum ödəməklə müraciət ve 10 içində Rusiya Federal Miqrasiya Xidməti tərəfindən cavab verilməsi), o biri tərəfdən qanunsuz miqrantlara verilən cəzaları sərtləşdirməkdədir. Sərtləşdirilən qaydalara görə, miqrantın əməyindən qanunsuz isitifadə edən hüquqi şəxs 250 mindən-800 min rubla qədər dəyişən miqdarda cərimə ödəmək məcburiyətində qalacaq. Bundan başqa əlaqədar firmanın fəaliyyəti üç ay müddətinə dayandırılabilər. Cərimənin miqdarı məsul şəxslər üçün 40-5o min rubl ikən, ayrı-ayrı şəxslər üçün bu miqdar 2-4 min rubl arasında dəyişməkdədir. Miqrasyiya hakkında yeni qaydalar 15 yanvardan etibarən bazarlardaki ticarətçilər içərisində xarici vətəndaşların nisbətini 40 faizə endirməyi, 1 aprelden isə sıfıra düşürməyi amaçlanmaqdadır.

Rusiyanın yeni miqrasiya siyasətinin xarici aspekti isə bu ölkənin MDB ölkələri ilə münasibətləriylə əlaqədardır. Birincisi, Rusyadaki miqrantların böyük əksəriyyəti MDB ölkələrindən qazanc üçün bu ölkəyə işləməyə qələnlərdir. Bunlar içərisində isə xususiylə ukraynalılar, azərbaycanlılar, ermənilər, moldovanlar, tacıklər, qırqızlar, türkmənlər və qazaqlar xüsusi çəkiyə malikdirlər. Hətta bəzi məlumatlara görə, bu miqrantları ölkələrinə göndərdikləri pullar böyük əhəmiyyətə malikdir. Misal üçün bu pullar Gürcistan və Moldovanın ÜDM-nin 20-30 faizini, Ermənistan büdcəsinin 10 faizini, Tacikstan büdcəsinin iki qatına yaxın bir miqdarını təşkil etməkdədir. Rusiya Mərkəzi bankı Ukrayna, Moldova və Türkməsitandan olan miqrantların 2006-cı ildə təxminən hər birinin 1 mlyard ABŞ doları qazandıqlarını və bunun yarısının nəqd pul kimi ölkə xaricinə çıxardığını bildirməkdədir.





## -S-

**Safardi**

Bu anlayış Orta əsrlərdə İspaniya və Portuqaliyada diaspor yaradaraq, yerli sosial-mədəni dəyərləri özündə birləşdirən yəhudilərə şamil olunub. İctimaiyyətdə ərəb və ladino (ispan dili əsasında formalaşan yəhudi dialekti) dillərində danışırlar. 1492-ci ildə İspaniyadan sürgün olan yəhudilər Yaxın Şərq və Aralıq dənizi sahillərində məskunlaşıblar. Hazırda müsəlman ölkələrində çoxluq təşkil edən safardilər güclü diaspor formalaşdırıblar.

**Sansey**

Sakit Amerikalılar. Yapon diasporunun 3-cü nəsil dalğası olan Sanseylər Amerika mədəniyyəti tərəfindən assimilyasiya olunmasına baxmayaraq Vətən həsrəti və hissləri onlar içərisində daha çox hiss olunur. Nisseylərin nəvələri olan Sanseylər digər nəsil dalğaları içərisində maliyyə cəhətdən yaxşı təmin olunanlardır. O biri nəsil dalğalardan fərqli olaraq kənd təsərrüfatı sahəsindən uzaqda iri şəhər və rayonlarda yaşamağa üstünlük verən Sanseylər valideynlərinin qarşılaşdıqları əzab-əziyyətlərlə üzləşmək istəmirlər. Yaponiyanı ikinci vətən hesab edən Sanseylər üçün əsas Vətən Amerikadır. Amerika vətəndaşı kimi Sanseylər bütün qanunlara riayət edir, sosial-ictimai proqramlarda iştirak edir və Yaponiyaya tez-tez turist səfərlərinə gedirlər.

**Sensotip**

Mədəniyyətlə bağlı olan düşüncə tərzi, dünyagörüşü.

**Separasion alternativlər strategiyası**

Hər hansı bir kiçik diaspor qrupunun yalnız öz mədəniyətlərini dəstəkləməsi strategiyası.

**Separatizm**

Bir dövlətin tərkibindən çıxıb digərinin tərkibinə daxil olmaq meyli, qanunsuz məqsədlər güdən, uydurma qurumların və təşkilatların fəaliyyəti.

**Seqradiyasiya**

Bu zaman hər hansı bir ərazidə hakim qüvvəyə malik olan qüdrətli xalqın onlarla qonşuluqda yaşayan və zəifləmiş etnik qrup və xalqlara passiv halda iyerarxik mövqe göstərərək yaşaması prosesi baş verir.

**Sərhəd fəhləsi**

Qonşu dövlətdə daimi yaşayış yerini saxlayan və həmin yerə adətən hər gün və ya heç olmazsa, həftədə bir dəfə qayıdan mühacirlərə aiddir.

**Sərhədyanı əmək miqrasiyası kvotası**

Əmək fəaliyyətini həyata keçirmək üçün bir il ərzində hər hansı ölkəyə gəlmələrinə icazə verilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ("əcnəbi") sayının son həddi.

**Səyyar fəhlə**

Bir dövlətdə daimi yaşayış yeri olan və öz vəzifəsinə görə digər dövlətə və ya dövlətlərə qısa müddətə getməli olan fəhlə mühacir.

**Silk**

Sosial-iqtisadi və etnik anlamda öz adət-ənənələrini, sosial maraqlarını, silki və qrup imtiyazlarını güdən ictimai qrup.

**Sindikat**

ABŞ-da lobbi işini həyata keçirən və ölkənin siyasi dairələrində güclü nüfuzu olan qrup.





**Sionizm**

Sion sözündən götürülmüşdür. Yerusəlim və İsrail torpağının sinonimidir. Bu cərəyanın yaranmasına əsas səbəb Talmudda qeyd olunan hələ iki min il əvvəl vətənə dönmək arzularının reallığa çevrilməsidir. Əslində termin yaranana qədər Eres-İsrailə qayıtmaq hərəkatı 1800-cü ildən güclənməyə başlamışdı. 1810-cu ildə Amerika curnalisti M. Noax dünya yəhudilərinin müstəqil dövlətlərinin tarixi vətənlərində yaradılması barədə ideya irəli sürdü. ABŞ-da kaloniya quran Noaxın ilk cəhdi uğursuz alındı. Bundan təəssüflənməyən Noax kitab və məqalələr dərc edərək ideyanı təbliğ eləməyə başladı. 1830-cu ildən isə yəhudi diasporu içərisində onu dəstəkləyən qüvvələr meydana çıxdı. Ortodoksal və islahatçı qanadlar bu ideyanı absurd hesab edirdilər. Lakin buna baxmayaraq, 1881-1882-ci illərdə ABŞ, Rusiya, Rumınya və Avropanın digər dövlətlərində dərnəklər, birliklər təsis olunaraq Eres-İsrailə dönmək işi siyasi xarakter aldı.

Xavavey Sion - adlanan hərəkatla paralel olaraq yəhudi diplomatik dünyası, yəhudi maliyyə dünyası və s. terminlər meydana çıxdı. Bu "dünyalar" - içərisində ardıcıl olaraq 3 cərəyan - filantrop, kosmopolit və milli-dini hərəkatın güclənməsini labüd etdi:

- Filantroplar - maliyyə dünyasına arxalanaraq yəhudi indivudiallığının və milli hisslərin mədənləşməsinə çalışır və assimlasiya olunmanın qarşısını almağa çalışırdılar.
- Kosmopolitlər - diasporda yaşamağın tərəfdarı olmaqla, mühacirət prosesini dəstəkləyir və yəhudilərin başqa xalqlara qaynayıb-qarışmasının tərəfini saxlayırdılar.
- Milli-dini hərəkat - Bibliyanın geniş təbliğ olunmasının zəruriliyini iddia edir və bunun sayəsində dünya xalqlarının yəhudi millətinə müsbət münasibət bəsləmələrinə nail olmağa çalışırdılar.

Sionizm termini ilk dəfə 1892-ci ilin 23 yanvarında Vyana müşavirə salonunda Natan Biribaum tərəfindən işlədilib. Siyasi sionizmin tarixi Perselin "Yudenstaat" (Yəhudi dövləti) kitabından başlanır.

**Sivilizasiya**

İnsan tarixinin dövrlərə ayrılması hər zaman müzakirələr mövzusu olmuşdur. Hazırda iki konsepsiya daha məşhurdur: formasiya və sivilizasiya. Birinci nəzəriyyənin müəllifi K.Marksdır. Bu nəzəriyyəyə əsasən insan cəmiyyətinin inkişafı ardıcıl surətdə bir-birini əvəz edən hakim mülkiyyət formalarından ibarətdir: 1)Tayfa; 2)Antik; 3)Feodal; 4)Burjua; 5)Gələcəyin kommunist ümummülkiyyət formaları.

Formasiyalar nəzəriyyəsi sxematizminə, ziddiyyətlərinə və maddi faktorun mənəvi dəyərlərə nisbətən daha çox qabardılmasına görə bir çox alimlər tərəfindən əsaslı tənqidə məruz qalıb. Qərbi Avropa tarixinin xüsusiyyətlərinin marksistlər tərəfindən mutləqləriştirilməsi diqqət çəkir. Şpenqler, Toynbinin hazırladığı və digər müasir filosof, politoloq və kültüroloqların qəbul etdiyi «sivilizasiyaların dövrülüyü» nəzəriyyəsinə əsasən müxtəlif sivilizasiyalar eyni vaxtda mövcud olur və ya xalqların və regionların mədəniyyətlərinin inkişafında müəyyən pillələr olaraq bir-birini əvəz edirlər.

Sivilizasiya deyiləndə insanların və xalqların olduqca geniş tarixi və mədəni birliyi nəzərdə tutulur. Bu kontekstdə söhbət əsasən Qədim Misir, antik Astek və Maya, Qərb, provaslav, islam, Çin, buddist və s. sivilizasiyalardan gedir.

Kəndlərin, bölgələrin, etnik qrupların, millətlərin, dini qrupların hərəsinin öz mədəniyyəti var. Bu mədəniyyətlər müxtəlif köklü (heterogen) mədəniyyətin ayrı-ayrı qatlarını özlərində görükdürürlər. Güney İtaliyadakı kənd Şimali İtaliyadakından fərqli ola bilər. Ancaq onların hər ikisi bir ortaq İtaliya mədəniyyətini bölüşdürürlər və bu ortaq mədəniyyətə görə də alman kəndlərindən ayrılırlar. Avropa toplumları elə bir





mədəniyyət göstəricilərini bölüşürlər ki, məhz onların sayəsində ərəb və çin toplumlarından fərqlənirlər. O biri yandan, ərəblər, çinlilər, qərblilər heç də bir geniş mədəniyyəti bölüşmürlər. Onlar hərəsi öz sivilizasiyalarını qururlar. Beləliklə, Sivilizasiya insanların ən yüksək mədəniyyət birliyidir və ulusun mədəniyyət kimliyinin (ingilis - identity) ən geniş qatı İnsanlığı başqa canlı növlərindən ayıran yığcam əlamətləri verir. Sivilizasiya, bir yandan, dil, tarix, din, ənənələr, institutlar kimi obyektiv olan ortaq cizgilərlə, o biri yandan isə, xalqın subyektiv özünü identifikasiyası (öz kimliyini axtarıb tapması) ilə müəyyən olunur bəllilənir. Xalqların özlərini bilmələrinin müxtəlif qatları var: Romada yaşayan kəs özünü romalı, italyan, katolik, xristian və Qərb insanı kimi tanıda bilər. Deməli, sivilizasiya bu romalının özünü qatdığı ən böyük birlik qatıdır. İnsanların hansı mədəniyyətlə özlərini identikləşdirib özlərinin kimliyini, necəliyini bilməsi dəyişə bilər. Dəyişəndə sivilizasiyanın quruluşu və sərhədləri da dəyişəcək.

Sivilizasiya çox böyük insan yığnaqlarını özünə toplaya bilər. Bunu, məsələn, Çində görürük. Ona görə də Çinlə ilgili Lusian Pay haçansa söyləmişdi: "O elə bir bir sivilizasiyadır ki, özünü ölkə kimi qələmə verir".

Ancaq sivilizasiya azsaylı xalqdan da ibarət ola bilər, məsələn, Karib hövzəsinin ingilisdilli əhalisi kimi. Sivilizasiyada bir neçə millət-dövlətləri də ola bilər. Bunu biz Qərb, Latın Amerikası, Ərəb sivilizasiyalarında görürük. Sivilizasiya yaponlarda olduğu kimi bir dövlətli də ola bilər. Sivilizasiyalar bir-birinə qarışa da və ya bir-birinin üstünə gələ də bilərlər. Onlar özlərinə subsivilizasiyalar da qata bilərlər. Qərb sivilizasiyası iki başlıca variantdadır, Avropa və Şimali Amerika variantlarında. İslamın ərəb, türk, malayziya subsivilizasiyaları var. Bütün bunlara baxmayaraq, sivilizasiyalar hər halda bəlli bir bütövlükdədirlər.

## Siyasət

"Siyasət" terminindən ilk dəfə qədim yunan mütəfəkkiri Aristotel istifadə etmişdir. O, bu termini dövləti idarə etmək sənəti kimi müəyyən edirdi. Hələ qədim zamanlarda siyasət haqqında belə bir fikir formalaşmışdır ki, "onun haqqında hamı düşünə bilər, lakin onu yaratmaq seçmə insanlara məxsusdur". Müasir elmdə "siyasət" anlayışı hələ də birmənalı qəbul edilmir. Bu onun mürəkkəbliyi və tərkibinin zənginliyi, xüsusiyyətlərinin rəngarəngliyi ilə izah olunur. Məsələn, Veber: "Siyasət, istər dövlət daxilində, istərsə dövlətlər arasında hakimiyyətdə iştirak etməyə can atmaq və ya hakimiyyətə təsir etməkdir" deyirdi. Şpenqler siyasət deyildiyində ali mənada həyat kimi, Birs isə prinsiplər pərdəsi altında gizlənmiş şəxsi mənfəətlər naminə maraqların rəqabətini başa düşürdü. Siyasətin məğzi çox zaman və əsaslı olaraq güclülərin zəifləri əzməsi kimi ifadə edilir. Bu anı demək olar ki, siyasi həyatın bütün istiqamətlərində müşahidə etmək mümkündür. Buna görə də sosial qruplar arasındakı istənilən itaətə əsaslanmış münasibətləri siyasət adlandırmaq olar.

## Siyasi sığınacaq

Vətənində və yaxud yaşadığı ərazidə siyasi baxışlarına görə təqib olunan şəxsin başqa ərazidə məskunlaşması üçün müvafiq dövlət orqanı tərəfindən verilmiş izn.

## Siyasi elita

Tərkibinə dövlət rəhbərləri, hökumət üzvləri, qanunverici orqanın nümayəndələri, yəni dövlət səviyyəsində siyasi qərarların qəbulunda birbaşa rol oynayan hər kəs daxildir. Daha geniş mənada buraya regional həyatında əhəmiyyətli rolları olan orta dərəcəli siyasətçiləri və məmurları da daxil edirlər.





## Siyasi millət

"Sosial millət" anlayışının ekvivalenti kimi yaranmış və "etnik millət" terminınə müəyyən yaxınlıq və aşkarlıq əlaqələrinə malik bir anlayış kimi tədqiq olunmuşdur.

## Siyasi millətçilik

Etno-mədəni millətçilikdən fərqli olaraq siyasi millətçilik öz gələcək milli müstəqilliyini təmin etmək üçün müəyyən qurbanlar bahasına başa gələn irqçilik nəzəriyyəsi.

## Siyasi mühacirət

Ölkəsi ərazisində siyasi mövqeyinə və baxışlarına görə təqib edilən insanların müxtəlif vasitələrlə sığınacaq almaq məqsədilə xarici dövlətlərə köçməsi.

## Sosial münaqişələr

Müəyyən insanların maraqları və tələbatları çox zaman üst-üstə düşmür, onlar arasında ziddiyyətlər yaranır və münaqişələrlə nəticələnir. Əksəriyyət münaqişələri alqışlamır, ancaq onlardan qurtulmaq çox zaman mümkün olmur. Rəqabətdə tərəflər bir-birini qabaqlamağa, daha yaxşı olmağa çalışır, münaqişə zamanında isə rəqib tərəf düşməninə öz iradəsini yeritmək, onun davranışını dəyişdirməyə və hətta onu məhv etməyə can atır. Təhdidlərdən və zorakılıqdan istifadə, qarşı tərəfə təsir göstərmək məqsədilə qanuna istinad, mübarizədə güclərin birləşdirilməsi üçün koalisiyaların yaradılması - bütün bunlar sosial münaqişələrin göstəriciləridir. Düşmənin bütövlükdə məhvi bunun ən son nəticəsidir. Zor tətbiq olunmayan münaqişələrdə, münaqişə tərəflərinin əsas məqsədi rəqiblərinin vəsait və ehtiyaclarını, sərbəst manevr qabiliyyətlərini azaldaraq effektiv rəqabətdən uzaqlaşdırmaq, status və ya nufuzunu zəiflətməkdir.

**Sosial struktur (quruluş)**

Bir-biri ilə qarşılıqlı əlaqədə olan və bir-birinə qarşılıqlı təsir göstərən birliklərin məcmusu və bu birliklər arasındakı münasibətlər.

**Status**

Vətəndaşın və hər hansı bir şəxsin hüquqi vəziyyəti.

**Submədəniyyət**

Diaspor və yaxud hər hansı bir etnik qrupun özünəməxsus simvol, ideal, dəyər və normalarının məcmusu.

**Sürgün**

Şəxsi yaşadığı yerdən uzaqlaşdırmaqla, göstərilən müəyyən yerdə məcburi qaydada məskun etməkdir.





## -Ş-

**Şəhərdən şəhərə miqrasiya**

İş və digər məqsədlərlə bir şəhərdən digərinə miqrasiya.

**Şəxsin yaşayış yeri**

Tam həcmdə fəaliyyət qabiliyyətli şəxsin mülkiyyətçi kimi icarə və kirayə müqaviləsi üzrə, yaxud beynəlxalq qanunvericilik ilə nəzərdə tutulmuş digər əsaslarla daimi və ya daha çox yaşadığı ev, mənzil, xidməti yaşayış sahəsi, yataqxana, qoca və əlil evləri və digər bu kimi yaşayış yerləri başa düşülür. Diaspor üzvlərinin bir çoxu xarici ölkələrdə bu kimi hüquqi bilgiyə malik olmurlar. Bu səbəbdən də onların bəziləri barədə məlumat əldə etmək qeyri-mümkün olur.

**Şəkillə evlənmə**

Qədim Yaponiya və Koreya ənənəsi olan "şəkillə evlənmə"dən istifadə edərək vətəndən qız gətirib Amerikada evlənirdilər. Bu ənənəyə əsasən evlənmək istəyən gənclərin əvvəlcə bir-birlərinə şəkilləri göstərilirdi. Hər iki tərəfin razılığı əsasında toy edilirdi.

**Şimon Vezental Mərkəzi**

Yəhudi təşkilatı - 1977-ci ildə yaradılıb. Əsas fəaliyyət istiqaməti müsəlman ölkələrində yəhudilərə qarşı antisemit və rasist fikirlərə və hərəkatlara qarşı mübarizə aparmaqdır.

**Şovinizm (fr.Chavvinisme)**

Qatı millətçi ideologiya. Şovinist millətçilik hərəkatı. Diasporlararası rast gəlinən ideoloji cərəyan.

## -T-

**Taryubukay (sovetikus)**

Litva diasporunun Amerikada adlanması.

**Taxanun**

Yəhudi diasporunda Allahdan aman diləmək. Bununla xaricdəki yəhudilər Ana vətənə qayıtmaq və onların günahlarının bağışlanmasını diləyirlər.

**Təhsil**

Sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və nəticəsi.

**Təriqət**

İslam, xristianlıq, buddizm, iudaizm və s. dinlərdə hakim cərəyandan ayrılmış dini qrup və icmaların adı.

**Təsir qrupu**

Ortaq maraqlar ətrafında toplanaraq işbirliyi çərçivəsində rəsmi qurum və dairələrlə əlaqə quraraq maraq və istəklərini bu yolla reallaşacağına inanan təşkilati bir qrupdur. Belə təşkilati qrupların ətrafında tanınan siyasətçilər, hüquqşünaslar, elm xadimləri, biznesmenlər, sahibkar və digər şəxslər toplanırlar.

**Təşkilat**

1.Hər hansı proqramı, yaxud məqsədi birlikdə həyata keçirən və müəyyən üsul və qaydalar əsasında fəaliyyət göstərən adamlar birliyi.

2.Mütəşəkkil şəkildə müəyyən məqsədlərə çatmaq niyyətində məqsədli qrup və insanlar birliyi.





**Təşkilatlanma**

Diasporun yaşadığı ərazidə yeni səlahiyyətlər qazanaraq inkişaf edərək daha böyük vəzifə və öhdəliklər yerinə yetirməsi.

**Təşviqat**

Kütlələr içərisində aparılan siyasi işin başlıca növlərindən biri.

**Təzyiq qrupu**

Öz fikirlərin, məqsədlərini və maraqlarını qanunverici və digər hakimiyyət orqanlarında müdafiə etdirən və həyata keçirən qrup. Erməni və Yəhudi diasporları əsasən belə qruplardan istifadə edir.

**Think-Tank (beyin mərkəzi, düşüncə qrupu)**

Beynəlxalq təcrübədə daha çox tətbiq edilən Düşüncə Qrupları diasporların inkişafı ilə yanaşı, dövlətin güclü təbliğatı üçün vacib bir qurumdur. İnsanların içinə düşdüyü və heç cür çıxa bilmədiyi bu vəziyyətdən xilas ola bilməsi üçün oxuması, düşünməsi, müzakirələr etməsi çox vacibdir. Bütün bunların ola bilməsi üçün də hər şeyin rahatca danışılıb incələndiyi bir cəmiyyətin olması vacibdir. Bu gün təhsil, səhiyyə, iqtisadiyyat, siyasət, müdafiə strategiyaları və ətraf mühit kimi həyatın hər sahəsində yeni yanaşmalara, original fikirlərə ehtiyac vardır. Bu da bol-bol beyin fırtınası hadisəsindəki kimi təfəkkür edən gənc və dinamik insanlarla olacaqdır. Bunun bir yolu da hər bir müəssisədə çox alternativli - beyin fırtınalı düşüncə klublarının (Think-Tank) təşkilidir. Qərbdə gələcəyə doğru proyektlər irəli sürən bizim dilimizdə tam tərcüməsi "Düşüncə Qrupu" olan "Think-Tank" quruluşları isə ölkəmizdə yox deyiləcək qədər azdır. ABŞ-da 3500-ə qədər "think-tank" müəssisəsi vardır. Bunların hər biri ayrı ixtisas sahələrində, siyasətdən ictimai problemlərə, büdcədən mülki müdafiəyə qədər bir çox sahələrdə

fəaliyyət göstərirlər. Məsələn, bir "think-tank" quruluşu olan Bruklin müəssəsində sadəcə dövlət büdcəsi ilə maraqlanmayıb, büdcənin hazırlanmasına kömək etməkdə və yerinə yetirilməsinə nəzarət etməkdədir. Misirdə belə bir think-tank araşdırma institunun illik büdcəsi 20 milyon dollardır.

**Tolerantlıq**

Lat: Toleranta-səbr, dözüm. Tolerantlıq həmişə gərginlik altında olur və heç vaxt tamamlanmır. Çünki, əgər bir şəxs nəyəsə doğrudan da ciddi münasibət bəsləyirsə, o, həmin o "nəyisə" reallığa çevirmək üçün cəhd göstərəcək. Əks təqdirdə, onun münasibətini doğrudan da "can yandıran" adlandırmaq çətin olar. Lakin, digər tərəfdən, tolerant olan şəxs bunu etmək üçün əlində olan bütün vasitələrdən istifadə etməyəcək.

Onda, tolerantlığın çərçivələri haradan keçir? Bunları demək çətindir. Lakin onu deyə bilərik ki, burada üç meyar mövcuddur. Birinci meyar ondan ibarətdir ki, biz nəyisə qəbuledilməz hesab ediriksə, həmişə bunun səbəbini göstərməliyik (doqmatizm yolverilməzdir). İkinci meyar zərər prinsipi üzərinə əsaslanır: zərərli davranış dözülməz, yolverilməzdir. Üçüncü meyar isə qarşılıqlıdır: tolerant (dözümlü) olaraq, biz əvəzində özümüzə qarşı tolerant münasibət gözləyirik.

Konsensus məsələsinə gəldikdə isə onu qeyd etmək lazımdır ki, bu heç də razılıq demək deyil: Yəni burada hər bir kəsin hansısa məsələyə fəal şəkildə razılıq verməsi tələb olunmur. Konsensusun əsas mənası nəyinsə qəbul olunmasıdır - lakin qeyri-müəyyən və passiv formada. Bununla belə, konsensus müəyyən mənada birləşdirən şəriklik hissidir

Tolerantlıq qətiyyən laqeydlik demək deyil. Laqeyd olmaq maraq göstərməmək deməkdir, bu isə tolerantlığa aid oluna bilməz. Tolerantlıq relyativizm də demək deyil. Relyativist baxış bəsləyəndə, biz bütün mövqeləri qəbul etməyə üstünlük veririk. Tolerantlıq isə o deməkdir ki, bizim öz mövqelərimiz olduğu və





biz bu mövqeyi düzgün hesab etdiyimiz halda, biz bununla belə digərlərinə səhv, yanlış mövqe tutmaq hüququnu veririk.

**Tonghoe**

Qədim Koreya kənd icması əsasında formalaşıb. Ümumi rəhbərliyə tabe olan birləşmə növü kimi diaspor arasında daha çox yayılıb. Tonghoelərdə ümumi rəhbərlik plantasiyalarda çalışan koreyalıların sahibkarlar ilə danışıqlar aparmasına, ictimaiyyətə adaptasiya olanmasına, diaspor daxili münasibətlərin normallaşdırılmasına, qadına, böyüyə, kiçiyə hörmət edilməsinə və s. nəzarət edirdi. Rəhbərlik tərəfindən qoyulan şərtlərə əməl etməyən koreyalılar pul və ya əlavə iş saatı kimi cəza növləri ilə üzləşirdilər.

**Totem**

Bəzi ibtidai xalqların sitayiş etdikləri heyvan, bitki və s. Bu gün üçün də bir sıra diasporlar oz simvolları kimi totemlərə müraciət edirlər.

**Trafikkör**

İnsan alveri ilə məşğul olan şəxs. Onları vasitəçi və cəlbedici də adlandırırlar.

**Tranzit Dövləti**

Müvafiq şəxs iş dövlətinə, yaxud dövlətindən mənşə dövlətinə və ya daimi yaşayış dövlətinə hər hansı səyahəti zamanı keçdiyi dövlət deməkdir.

**Turizm elçiləri**

Hər hansı bir ölkənini miqrasiya edən ilk dalğasının bir çox nümayəndəsi sosial-mədəni cəhətdən məskunlaşdığı ölkəyə sıx bağlı olurlar. Bu insanlar doğulduğu dövlətin fəxri turizm elçisi

olaraq öz ana Vətənlərini turistik yerləri barədə təbliğatçılıqla məşğul olurlar.

## Türk diasporu

Türklərin xarici ölkələrə ilk miqrasiyası eramızdan əvvəlki dövrlərə təsadüf etsə də, Türk diasporunun formalaşma tarixi başlanğıcını Osmanlı İmperiyası dövrü və Türkiyə Respublikasının qurulmasından götürür. Öz dövrünün ən zəngin dövlətlərindən olan Osmanlı İmperiyasının təbələri digər dövlətlərdə olduğu kimi xoş güzəran ardınca başqa ölkələrə mühacirət etməmişdir.

XV əsrdən sonra Avropa, Asiya və Afrika qitələrində böyük ərazilərə malik olan Osmanlı İmperiyasında türklər nadir hallarda yaşadıqları əraziləri tərk edirdilər. Xarici dövlətlərdə məskunlaşmış türklər yalnız müvəqqəti olaraq (diplomatik fəaliyyət, dövlət qulluğu, əsgəri xidmətlə əlaqədar) vətəndən kənarda yaşayırdılar. Onların çoxu səlahiyyət və ya xidmət müddətləri bitdikdən sonra geri dönmüş, bir qismi isə çalışdıqları dövlətlərdə əlverişli şəraitə malik olduqlarından Vətənə qayıtmamışlar. Bu səbəbdən də tədqiqatçıların bir çoxu türk diaspor tarixini XV əsrdən götürür. Sonralar Osmanlı İmperiyası zəifləsə də türklərin müəyyən bir qismi məskunlaşdıqları ərazilərdə icmalar halında yaşamaqda davam etmişlər.

Avropaya türklərin geniş miqyaslı miqrasiyası isə 1950-ci illərdən başlayır. Bu tarixdən etibarən Avropa kütləvi şəkildə türk mühacirlərini qəbul etmişdir. Ailəvi köç edən ilk türk mühacirlər əməksevərlikləri sayəsində qısa zaman ərzində özlərinə iş tapırdılar. Onlar özləri ilə Avropaya türk ənənələrini, musiqisini gətirmiş, Vətənlə sıx əlaqələrin olmasına baxmayaraq, Avropa mühitinə uyğunlaşa bilmişlər.

Avropanın sosial-iqtisadi həyatının ayrılmaz hissəsi olan böyük türk icması milli ənənələrə riayət edən etnik diasporlardan hesab edilir. Onların əməksevərliyi və işgüzarlığı Avropa dövlətlərinin Türkiyə ilə əmək müqavilələri imzalamasına səbəb





olmuşdur. İlk belə müqavilə 1961-ci ildə Almaniya ilə bağlanmışdır. 1964-cü ildə Avstriya, Belçika, Niderland, 1965-ci ildə Fransa ilə də müvafiq sənədlər imzalanmışdır.

Türk diasporunun Avropada ictimai-siyasi fəaliyyəti 1970-ci illərdən başlayır. 1970-80-ci illərdə Almaniyada məqsədyönlü fəaliyyət nəticəsində Avropada türk təşkilatlarının sayı 156-ya çatmışdır. Həmin dövrədək yalnız Avropada 70 türk diaspor təşkilatı fəaliyyət göstərirdi ki, onların da demək olar ki, hamısı Almaniyada təşəkkül tapmışdı.

Türkiyə Xarici İşlər Nazirliyinin 1999-cu ildə yaydığı məlumata görə, xarici ölkələrdə türklərin sayı 4 milyondan çoxdur. Onlar dünyanın 70-dən çox ölkəsində məskunlaşmışlar. Türklərin sayca daha çox olduqları ölkələr aşağıdakılardır: Almaniya (2,5 milyon), ABŞ (450 min), Niderland (285 min), Fransa (275 min), Avstriya (150 min), Belçika (85 min), Danimarka (36 min), Böyük Britaniya (80 min), Norveç (10 min), İsveç (36 min), İsveçrə (80 min), Avstraliya (60 min), Səudiyyə Ərəbistanı (130 min), Liviya (6 min), Küveyt (3500), İsrail (20 min), Cənub-Şərqi Asiya (55 min), Kanada (35 min), İtaliya (15 min), Finlandiya (2 min), İspaniya (850-1000), İordaniyadır (1600).

| | Xaricdə yaşayanlar | | Xaricdə çalışanlar | |
|---|---|---|---|---|
| Ölkələr | 1995 | 1999 | 1995 | 1999 |
| **I Avropa** | | | | |
| Almaniya | 1.965.577 | 2.110.223 | 742.566 | 740.530 |
| Fransa | 268.000 | 287.343 | 102.900 | 78.965 |
| Hollandiya | 264.763 | *279.786 | 84.500 | *48.000 |
| Avstriya | 150.000 | 138.860 | 51.297 | 54.711 |
| Belçika | 85.303 | 73.818 | 26.764 | 26.855 |
| İsveç | 35.948 | 35.943 | 24.800 | 5.300 |
| İngiltərə | 51.390 | 66.000 | 15.746 | 37.600 |
| Danimarka | 34.967 | 38.055 | 14.445 | 13.639 |
| İtaliya | 15.000 | 8.500 | 5.000 | - |

| | | | | |
|---|---|---|---|---|
| Finlandiya | 1.800 | 2.000 | 1.400 | - |
| İspaniya | 848 | 904 | 500 | - |
| İsveçrə | 78.615 | 79.478 | 35.828 | 32.944 |
| Norveç | 10.000 | 10.000 | 6.000 | 6.000 |
| Lüksemburq | - | 220 | - | 60 |
| Lixtenşteyn | | 809 | - | 339 |
| **Ümumi** | **2.962.211** | **3.131.939** | **1.111.746** | **1.044.943** |
| **II Yaxın Şərq və Şimali Afrika** | | | | |
| Səudiyyə Ərəbistanı | 130.000 | 120.000 | 120.000 | 115.000 |
| Liviya | 6.236 | 3.000 | 5.802 | 2.600 |
| Kuveyt | 3.500 | 3.500 | 3.300 | 3.300 |
| İraq | - | - | - | - |
| İsrail | 4.114 | 5.000 | 4.114 | - |
| İordaniya | 1.591 | 1.600 | 200 | 200 |
| **Ümumi** | **145.441** | **133.100** | **133.416** | **121.100** |
| **III Digər ölkələr** | | | | |
| MDB | 40.000 | | 40.000 | |
| Rusiya | | 13.000 | | 10.514 |
| Türk Respublikaları | | 26.300 | | 13.381 |
| Avstralya | 49.375 | 49.342 | 31.000 | 12.890 |
| ABŞ | 135.000 | 85.505 | - | - |
| Kanada | 35.000 | 18.130 | | - |
| Yaponiya | | 1.729 | | 1.729 |
| Digər | 1.648 | 3.170 | 7.324 | 1.504 |
| **Ümumi** | **261.023** | **197.716** | **78.324** | **40.018** |
| **Son nəticə** | **3.368.675** | **3.462.215** | **1.323.486** | **1.206.061** |

Hazırda Almaniyada 3 milyona yaxın türk yaşayır. Bu ölkənin böyük şəhərlərində kompakt halda məskunlaşan türklər müxtəlif sahələrdə çalışır, ictimai-siyasi fəallıq göstərir. Bütün sosial təbəqələrdə təmsil olunan türklər Almaniyanın sosial-iqtisadi inkişafında önəmli rol oynamaqdadırlar.





Avstraliyaya türklərin mühacirət tarixi XX əsrin əvvəllərindən başlayır. 1911-ci ilin statistik məlumatına əsasən həmin dövrdə qitədə cəmi 332 nəfər türk yaşayırdı. 1954-cü ildə isə bu rəqəm 1036 nəfərə çatmışdı. Avstraliya türklərinin əksər hissəsini Kiprdən olanlar təşkil edirdi.

1960-ci ildən başlanan kütləvi türk mühacirəti ilə əlaqədar Türkiyə və Avstraliya arasında "Avstraliyada türklərin mövqeyi və fəaliyyəti haqqında Türkiyə Cümruhiyyəti hökuməti və Avstraliya Millətlər Topluluğu hökuməti arasında razılaşma" adlı əmək müqaviləsi imzalanmışdır. Bu sənəd türk mühacirlərinin Avstraliyaya maneəsiz köçməsinə hüquqi şərait yaradırdı. Nəticədə Avstraliyada türklərin sayı 1971-ci ildə 8 minə çatmışdır.

1880-ci ildən etibarən Kanadaya köçməyə başlayan türklər yalnız 1950-ci ildə diaspor halında təşkilatlanmağa başlamışlar. 2003-cü ilin məlumatına görə hazırda bu ölkədə türklərin sayı 13 minə yaxındır.

Amerikaya türklərin ilk gəlişi XVI-XVII əsrlərə təsadüf etsə də, bu prosesin kütləvi hal alması 1860-ci illərdən etibarən başlamışdır. Zəifləməkdə olan Osmanlı İmperatorluğunda müharibə və yoxsulluqdan əziyyət çəkən vətəndaşların bir çoxu ABŞ-a da üz tutmuşdur. Rəsmi sənədlərdə 1860-1921-ci illər arasında Amerikaya 1 milyon 200 min nəfərin mühacirət etdiyi bildirilir. Bunların 200 min nəfəri türk və müsəlman, qalanları isə xristian xalqların nümayəndələri olmuşdur. Mühacirlər bu ölkəyə əsasən vaxtilə Osmanlı dövlətinin əraziləri olmuş Suriya, İordaniya və Şimali İraqdan gəlmişdilər. ABŞ Mühacirlər İdarəsinin məlumatına görə 1900-1920-ci illər arasında Türkiyədən bu ölkəyə 391.435 nəfər daxil olmuşdur.

## Türkçülük

Türkçülük, Türk milliyətçiliyinin adıdır. Sözün sonundakı şəkilçi, yerinə görə, mənsubluq, sevgi, tərəfdarlıq bildirən bir şəkilçidir. Türkçülük də Türk sevgisi və tərəfdarlığı demək

olduğuna görə, söz, yerində işlədilib. Başqa millətlərin Türk tərəfdarlığı və sevgisi bu sözlə ifadə oluna bilməz. Onsuz da başqa millətlərin Türkü sevməsi də gerçək bir sevgiyə deyil, keçici nəzakətə, mənfəətə, siyasi zərurətlərə işarədir. Türkü, gerçəkdən, Türkdən başqası sevməz.

Türkçülük bir məfkurə-idealdır. İdeallar, millətlərin mənəvi qidasıdır. İdealsız millətlərin ən bəxtlisi də ölgün və sönük qalmağa məhkumdur. Əgər bu millət bəxtli də deyilsə, onun sonucu yenilmək, əzilmək, hətta yox olmaqdır.

İdeallar, gerçəklə xəyalın birləşməsindən doğmuş olan, dünənə baxaraq ertəsi gününü arayan, millətlərə inkişaf yolunda sürət verən və uğrunda ölünən ulu diləklərdir. Millətlər, ölə bildikləri qədər yaşamaq haqqına sahibdirlər.

Türkçülük, böyük Türkelində, Türk ulusunun qeyd-şərtsiz hakimiyyəti və azadlığı ilə Türklüyün hər yöndən bütün millətlərdən irəli və üstün olması idealıdır.

Bu ideal, keçmişdə, bir neçə dəfə gerçəkləşib. Ulu Türkçülük *idealı və inancı ilə yetişən gənclik sayəsində yenidən* gerçək olacaq.

Türkçülük, dünən bir qaynaqdı, bu gün çaydır. Bu çay ertəsi gün daha da coşğunlaşacaq və önündəki yad düşüncə və duyğulardan ibarət əngəllər yıxılacaq.

Türkçülük beş qaynaqdan gəlir:

1. Kökü çox əskilərə dayanan və Türk ulusunun şüuraltında minillərdən bəri yaşayan milliyətçilik;
2. Türklərin 450 ildən bəri çəkdikləri çətinliklər;
3. Yurdumuzun Türksüzləşdirilməsi istəkləri;

Bu beş qaynaqdan gələn düşüncələr bir-birilə qaynayıb-qarışıb yoğrularaq bugünkü Türkçülük ortaya çıxıb. Bir millət yüksəlmə iradəsini daşımazsa, özünə güvənməzsə, başqalarını yamsılamaqdan başqa bir şey etməzsə, keçmişiylə öyünməzsə, başqalarından üstün olmaq istəməzsə, ideal üçün ölümü gözə almazsa, savaşdan qorxarsa, o millət içindən çürümüş deməkdir.





Göyalpın fikrincə türkçülük siyasi bir partiya deyildir. Elmi, fəlsəfi, estetik bir məktəbdir. Başqa bir deyimlə, kültürlə bağlı bir çalışma və yeniləşən yoldur. Türkçülüyün siyasi mahiyyət daşıdığını görkəmli ictimai xadım və şair Əlibəy Hüseynzadə də vurğulayır. Bununla birlikdə, Türkçülük büsbütün siyasi məfkurələrə də biganə qalmır. Ona görə ki, Türk kültürü digər məfkurələr ilə birlikdə siyasi məfkurəyə də malikdir. Məsələn, türkçülük heç bir vaxt klerikalizm, teokratiya zülm rejimi ilə sazişə girə bilməz.

Türkçülük çağdaş bir axındır və ancaq çağdaş mahiyyət daşıyan axınlar və məfkurələr ilə sazişə girə bilər. Böyük Türk sosyoloqu Ziya Göyalp türkçülük axımının ortaya çıxmasını ictimai hadisə adlandırır və bu hadisənin izahında «tarix materyalizmi» və «ictimai məfkurəçilik» baxışlarına aid iki zidd nəzəriyyəni qaşımıza qoyur: Birinci nəzəriyyəyə görə Türkçülük yalnız iqtisadi səbəblərdən doğmuşdur. Və ikinci nəzəriyyəyə görə, türkçülük axınının doğması ictimai quruluşun dəyişikliyə uğramasından irəli gəlmişdir. Ziya Göyalp əlavə edir: Türkçülüyün ilk əsaslarından biri «Xalqa doğru» prinsipidir. Xalqa doğru getmək isə seçilmiş adamların üzərinə düşür. Seçilmiş adamların burada iki məsuliyyəti daşımalıdırlar. Birincisi xalqın içində yaşayaraq, ondan milli kültürü bütünlüklə almaq, ikincisi xalqa mədəniyyət aparmaq.

Z.B.Göyalp "Türkçülüyün əsasları" kitabında türkçülüyü üç qismə bölür: 1. Türkiyəçilik; 2. Oğuzçuluq və türkmənçilik; 3. Turançılıq. Göründüyü kimi, Z.B.Göyalp Türklərin dövlət mənafelərini daha üstün tutaraq birinci yerə türkçülüyü deyil, türkiyəçiliyi qoyur. Bu ideyalar sonradan Kamalizmin təməl daşını təşkil etdi. Kamalizm ölkənin rəsmi ideologiyası kimi qəbul olunanda (1936-cı il) etatizm (dövlətçilik) birinci, türkçülük isə ikinci prinsip kimi qəbul olundu.

Ziya Göyalpa görə, xalqda mədəniyyət yox milli kültür var. O, milli kültürlə mədəniyyət arasında oxşarlıqları və fərqlilikləri belə izah edir:

«Milli kültür ilə mədəniyyət arasında həm bir birləşmə yeri, həm də ayrılıqlar vardır. Kültür ilə mədəniyyət arasında birləşmə yeri ikisinin də bütün toplumasal həyatları içlərinə almasından ibarətdir. Toplumasal həyatlar bunlardır: Din, əxlaq, hüquq, ağıl, estetika, iqtisadiyyat, dil və texnika ilə bağlı həyatlar bu səkkiz növ toplumasal həyatın toplamına cəmiyyətdə «kültür» adı verildiyi kimi, mədəniyyət də deyilir. Kültür ilə mədəniyyətin arasındakı ayrılıqlar bundan ibarətdir ki, birincisi kültür milli olduğu halda, mədəniyyət uluslararasıdır. Kültür yalnız bir millətin din, əxlaq, ağıl, estetika, dil, iqtisadiyyat və texnika ilə bağlı yaşayışlarının uyumlu-ahəngdar bir bütündür. Mədəniyyət isə eyni inkişaf səviyyəsində olan bir çox bütündür. Məsələn, Avropa və Amerika mədəniyyət dairəsində bütün avropalı millətlərin ortaq bir qərb mədəniyyəti vardır. Mədəniyyətin içində biri-birindən ayrı və müstəqil bir İngilis kültürü, bir fransız kültürü, bir Alman kültürü və s. mövcuddur.» Biz Cənubi Azərbaycan türklərinə türkçülüyü aşılamaq üçün millətimizdə milli şüur oyatmalıyıq. Ona görə ki, ümumi bir qayda olaraq, tarix göstərir ki, hansı millətdə milli şüur oyanıbsa o millətdə tərəqqi və təkamül axımı yaranıb və hər şey yüksəlməyə başlayıb və o, millət müstəmələkə olmaq təhlükəsindən əbədi olaraq yaxa qurtarıb. Bunun ən bariz nümunlərindən Avropalılardırlar. Bu millətlərədə milli şüur oyandığına görə Avropanın heç bir ölkəsində müstəmləkə yaratmaq mümkün deyildir.

Biz mədəniyyətdə Avropa millətlərindən geri qalsaq da, kültür yönündən heç bir milləti özümüzdən üstün bilmirik. Bizə görə, Türk kültürü, dünyaya gəlmiş və gələcək kültürlərin ən gözəlidir. Buna görə də, nə fransız, nə Alman, nə də başqa hər-hansı kültürün təqlidçisi və əsiri olmağımız mümkün deyildir. Biz onları da digər kültürlər kimi yalnız, millətlərinə məxsus xüsusi kültür hesab edirik. Onlardan da başqa kültürlər kimi ekzotik-qarışıq bir zövqlə ləzzət alırıq. Türkçülük bütün eşqi ilə yalnız öz orjinal kültürünə vurğun olmaqla bərabər, şovinist və fanatik deyildir. Qərb mədəniyyətini tam və nizamlı surətdə almağa girişdiyi kimi, heç bir millətin kültürünə qarşı laqeydliyi və saymazlığı da yoxdur. Əksinə bütün milli kültürlərə dəyər verib və hörmət edirik, hətta bir çox pisliklərini gördüyümüz millətlərin belə, siyasi təşkilatlarını sevməməklə bərabər, mədəni və kültürəl əsərlərinə hörmət edib, mütəfəkkirlərinə və sənətkarlarına qarşı sayğı ilə yanaşırıq. Bizə görə türkçülüyün məqsədi Türk milli kültürü və milli şəxsiyyəti yaratmaqdır. Bu məfkurə din azadlığı və qərb mədəniyyəti ilə tamamlanır.





**Türkiyə azərbaycanlıları**

Coğrafi baxımdan din, dil, soykök ümumiliyi nöqteyi-nəzərindən Azərbaycan və Türkiyəni bağlayan tellər uzun əsrlərə gedib çıxır. Bir millət, iki dövlət olan Azərbaycan və Türkiyə arasında münasibətlər, əlaqələr tarixi zaman kəsiyində dəyişməmiş dostluq bağları daha da bərkimiş, möhkəmlənmişdir.

Tarixi hadisələr səbəbilə əsrlər öncə Şimali Azərbaycanın müxtəlif bölgələrindən – Naxçıvandan, Zəngəzurdan, Gəncədən, Qarabağdan soydaşlarımız qardaş ölkəyə mühacirət etmiş və burada məskunlaşaraq təbii-bioloji yolla artmışlar. Bu səbəbdən də Azərbaycan diasporunun üçüncü qanadını Türkiyəli azərbaycanlılar təşkil edir. Onların sayı təqribən üç miylon nəfərə yaxındır.

Türkiyəli azərbaycanlılar Avropa ölkələrində çoxluq təşkil edir. Hazırda Almaniya, Belçika, Danimarka, Hollandiya, İsveç, Finlandiya, Norveç, İngiltərədə Türkiyəli azərbaycanlılar çox sayda məskunlaşıblar. Onların bu ölkələrə köçməsi 1950-ci illərdən başlayaraq, Türkiyədən Avropaya kütləvi mühacirətindən başlayır. Türkiyə vətəndaşları, Şimali azərbaycanlılar da sosial-iqtisadi səbəbdən mühacirət prosesinə qoşulublar.

Türkiyəli azərbaycanlıların Avropa ölkələrinə mühacirəti razılaşdırılmış, normallaşdırılmış, məqsədli və kvotalı mühacirət idi. Türkiyənin Avropa və digər ölkələrlə imzaladığı, əmək müqavilələrindən irəli gələn şərtlər əsasında türkiyəli azərbaycanlılar bu ölkələrə işləməyə və daha çox pul qazanmağa axışırdılar.

Köçdükləri ölkələrdə maddi və sosial vəziyyətlərini normallaşdıran türkiyəli azərbaycanlılar sonradan ailələrini, qohum-əqrəbalarını öz yanlarına gətirirdilər. Ailələrin birləşdirilməsi adlanan bu proses türkiyəli azərbaycanlıların yaşadıqları ölkələrdəki sosial, yaş, cins, peşə, soy-demoqrafik srukturunun kəmiyyət və keyfiyyət baxımından dəyişilməsinə və zənginləşməsinə gətirib çıxartdı.

Türkiyəli azərbaycanlıların Avropa ölkələrinə mühacirəti diasporumuzun bir qədər cavanlaşmasına və diasporumuzun keyfiyyət göstəricilərinin dəyişməsinə xeyli kömək etdi. Türkiyəli gənclər menecment, bilgisayar mütəxəssisi, texniki xidmət sahələri, tükrizm kimi ali ixtisas istiqamətləri seçərək, zamanla özlərinə özəl iqtisadi sahibkara çevrilirdilər.

Eyni zamanda azərbaycanlı gənclərin bir-birlərilə ailə qurmaları sayəsində avropalı azərbaycanlı ailələrinin təməlini qoyan türkiyəli soydaşlarımız bir çox müsbət keyfiyyətlərə malikdirlər.

Vətənə nostalji hisslərlə bağlı olan türkiyəli soydaşlarımız ailədə, övladlarının milli ruhda böyüdülməsi, milli dəyərlərə münasibəti, azərbaycan dili, mətbəxi, musiqisi, ədəbiyyatı və folkloru məsələlərində mühafizəkardırlar. Bununla paralel olaraq onlarda türkiyəçilik faktoru, türkçülük ideologiyası hələ də aparıcı yerdədir. Gənclər milli ruhda böyüdülməsinə baxmayaraq, Avropa və Qərb modeli təsiri altındadırlar. Əsasən ticari işlərlə məşğul olan Türkiyəli soydaşlarımız siyasi fəaliyyətdə əvvəllər passiv olsalar da, son zamanlar bir qədər fəallaşıblar və onlar Azərbaycana münasibətlərini müsbət istiqamətdə dəyişərək Ana Vətən kimi məhz Azərbaycanı görürlər.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Türkiyədə yaşayan soydaşlarımızın təşkilatlanması üçün zəmin yaranmış və bu istiqamətdə mühüm addımlar atılmışdır. 2004-cü ilin may ayının 28-də Türkiyə Respublikasının İsgəndərun şəhərində 18 Azərbaycan icma və birliklərini özündə birləşdirən Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının təsis konfransı keçirilmişdir.





Konfransın işində Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri, Avropa Azərbaycanlıları Konqresinin rəhbərliyi, Türkiyə Cümhuriyyətinin siyasi və ictimai xadimləri, bir sıra ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri də iştirak etmişlər.

Aparılmış müzakirələrin yekunu olaraq qətnamə qəbul edilmişdir. Qətnamədə qardaş Türkiyədə fəaliyyət göstərən ayrı-ayrı Azərbaycan dərnəklərini, müxtəlif qurumları və onların timsalında burada yaşayan bütün həmvətənlərimizi öz ətrafında sıx birləşdirməyi Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının (TADF) qarşısına məqsəd qoyduğu xüsusi qeyd olunmuşdur. Sənəddə TADF-in dünya azərbaycanlılarının təşkilatlanmasını müstəqil Azərbaycan dövlətinin inkişafı baxımından vacib hesab etdiyi və bu sahədə əlindən gələni etməyə hazır olduğu da bəyan edilmişdir.

TADF-in təsisçiləri Türkiyədəki həmvətənlərimizi bir araya gətirmək, onların Azərbaycanla əlaqələrini daha da möhkəmləndirmək amalına sadiq qalaraq, eyni zamanda dünya azərbaycanlılarının vahid bir təşkilatda birləşdirilməsinin tarixi zərurət olduğunu qeyd edərək, TADF-in Avropa Azərbaycanlıları Konqresinin tərkibinə daxil olmasını məqsədəuyğun hesab etmişlər.

Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının təsis olunması ilə bağlı rəsmi razılıq protokolunu qardaş ölkənin 18 şəhərindəki Azərbaycan Kültür və Dayanışma mərkəzlərinin rəhbərləri imzalamış və Türkiyədə fəaliyyət göstərən digər Azərbaycan dərnək və qurumlarını da federasiya ətrafında sıx birləşməyə çağırmışlar. Hazırda təşkilatın üzvlərinin sayı 20-yə çatmışdır.

-U-

**Ukrayna Azərbaycanlıları Konqresi (UAK)**

UAK 1999-cu ilin ümummilli lider Heydər Əliyevin dəstəyi ilə 21 martında təsis edilib. UAK-ın yaranmasında Ukraynadakı Azərbaycan səfirliyi və tanınmış azərbaycanlıların rolu böyük idi. UAK - 1990-cı ildə Kiyevdə yaradılan Azərbaycanlıların İctimai Mədəni Mərkəzinin (1994-cü ildə N. Gəncəvi adına Ümumukrayna Azərbaycan ictimai mədəni mərkəzinə çevrilib) sələfidir. İlk təsis yığıncağında Ukraynanın 15 vilayətində filialı olan UAK zamanla bu filialların sayı artmağa başladı. Ölkənin ictimai-siyasi, iqtisadi-mədəni həyatında mühüm rol oynayan UAK-ın 27 inzibati ərazi bölgüsünün demək olar ki, hamısında vilayət təşkilatları fəaliyyət göstərir. Fəaliyyət istiqamətlərinə daxildir:

- Azərbaycan mədəniyyətini təbliğ etmək.
- Azərbaycan dilini təbliğ və tədris etmək.
- Kütləvi-mədəni tədbirlər keçirilməsi.
- Ölkəni ictimai-siyasi, iqtisadi-mədəni həyatında dəqiq iştirak etmək.
- Ukrayna-Azərbaycan ikitərəfli münasibətləri inkişaf etdirmək
- İnformasiya-təhqiqat işi ilə məşğul olmaq.
- Azərbaycan naminə lobbiçilik etmək və s.

**Ukrayna diasporu**

XIX-əsrin ortalarından formalşmağa başlayan Ukrayn diasporunun əsasın 1930-cü illərə qədər ABŞ, Kanada, Avropa və s. ərazilərə əmək miqrasiyasına qoşulanlar təşkil edir. Təxminən Moldova v Qazaxıstanda 300, Kanadada 1milyon, ABŞ, Qərbi Avropa və Polşada 300 min, Latın Amerikası,





Rumuniya, Slovakiya, Avtsraliya və s ölkələrdə də 300 mindən çox ukraynlı məskunlaşıbdır. Gənc olmasına baxmayaraq təşkilatı və həmrəylik baxımdan Ukrayn diasporu MDB ölkələri içərisində ön yerlərdən birin tutur.

Ukrayna müstəqillik əldə etdikdən sonra miqrasiya prosesləri intensiv şəkildə davam etməyə başladı. Təkcə 1990-92-ci illərin statistikasına nəzər salsaq ölkədən gedənlərin arasında nə qədə çox artım olduğunu görə bilərik. 1990-cı ildə 79,3 min Ukraynadan köçmüşdürsə, 1992-ci ildə bu rəqəm 288,1 mini göstərirdi. Bu ölkədaxilində baş verən sosial-iqtisadi böhranla sıx bağlı idi. 1995-1996-cı illərdə Ukrayna MDB və xarici ölkələrə göndərdiyi zəkaların sayı 209 min idi. Və hər il bu rəqəm artmaqdadır. Ölkədən gedən zəkaların yoxluğu Ukraynada ciddi elmi kadr çatışmazlığı yaradıb.

2006-cı ilin məlumatına əsaslanaraq hazırda 7 milyon ukraynalının xaricdə yaşadığını və çalışdığı qeyd edə bilərik ki, onların 35 %-ni ziyalı kütləsi təşkil edir.

1991-ci ildə 39, 1992–57, 1993–68, 1994–90 elmlər doktoru vətəni tərk ediblər. Bu rəqəm 2005-ci ilə qədər sürətlə artmağa başlayıb. Ukrayna elmlər doktorları hazırda ABŞ, Fransa, İsrail, Almaniya, Rusiya Federasiyası kimi dövlətləri seçiblər. Elmlər namizədlərinin axın etdiyi dövlətlər isə Şərqi Avropa, ABŞ, Finlandiya, MDB ölkələri, Avstraliya və digərləri üstünlük təşkil edir. Xaricdə ehtiyac duyulan ukraynalı alimlər əsasən riyaziyyat, fizika, mexanika, cərahiyyə və iqtisadiyyat sahələrində ölkə elminin elitası sayılırlar.

**Urbanizasiya (Urbanus-latıncadan şəhərli, urbs-şəhər )**

Kənd əhalisinin şəhərlərə axını. Ölkənin və ya rayonun həyatında şəhərlərin əhəmiyyətinin artması, sosial-iqtisadi inkişafla əlaqədar şəhər əhalisinin çoxalması prosesi.

Urbanizayia tarixi prosesdir. İnsanlığın inkişafı ilə sıx bağlıdır. Onun tarixi e.ə. 3-1 minillikdə Misir, Mesopotamiya, Suriya, Kiçik Asiya, Çin, Hindistan və digər ərazilərdə baş verən

hadisələrlə əlaqəlidir. Zamanla iri şəhərlər inkişaf etdikcə insanların prosesə qoşulma fəallığı da artmışdır.

Urbanizasiya tarixən pul-əmtəə münasibətlərinin məlum səviyyəsindən sonra baş vermişdir. Həmin münasibətlərdə hər hansı müvəqqəti geri çəkilmə belə urbanizasiya proseslərinə öz təsirini göstərir. İqtisadi fəallığın "coğrafiyası" səmərəliyin təhlili və imkanların qiymətləndirilməsi üçün dəyərli informasiya mənbəyidir. Bununla belə, iqtisadi fəallıq ocaqlarının yerdəyişmələrinin klassik təhlili onların vektorlarının müəyyənləşdirilməsi üçün kifayət qədər ilkin məlumat vermir.





## -Ü-

**ÜAK (Ümumrusiya Azərbaycanlıları Konqresi)**

2001-ci ilin 4 oktyabrında təsis edilib. ÜAK-ın məqsəd və vəzifələrinə daxildir: Azərbaycan Respublikasının vətəndaşı olub, Rusiya Federasiyasında yaşayan azərbaycanlıların vətəndaş hüquqlarının müdafiəsi, sosial-mədəni inkişafa yardım etməklə reallaşdırmaq; Rusiya Federasiyasındakı azərbaycanlıların milli əlaqələrini, kimliyini və dinini, mədəni irsini qoruyub saxlamaq və inkişaf etdirmək; Rusiya və Azərbaycan xalqları arasında dostluq münasibətlərini inkişaf etdirmək, milli-mədəni tədbirlərin reallaşdırılmasında iştirak, mədəni və milli əlaqələri müxtəlif formalarda (mədəniyyət mərkəzləri, icmalar, tarixi abidələrin və məzarların qorunması, milli təhsilin inkişafı) inkişaf etməsinə dəstək; Rusiya azərbaycanlılarının vətəndaş, siyasi-iqtisadi, sosial-mədəni hüquqları və azadlığının, azərbaycanlıların şərəf və milli dəyələrinin qorunub saxlanması və reallaşdırılması.

Bu gün Rusiya Federasiyasının 73 subyektində Ümumrusiya Azərbaycanlıları Konqresinin 73 regional təşkilatı uğurla fəaliyyət göstərir. Bu regional təşkilatların fəaliyyətini əlaqələndirərək, onlar arasında əlaqələri tənzimləmək məqsədilə Rusiya Federasiyasının federal dairələrində dairə şuraları yaradılmışdır. Hazırda ətrafında Ümumrusiya Azərbaycanlıları Konqresinin 14 regional təşkilatını toplayan Privoljsk, 5 regional təşkilatı birləşdirən Ural, 11 regional təşkilatdan ibarət Şimal-Qərb, 16 regional təşkilata aid Sibir və Uzaq Şərq dairə şuraları təsis edilərək uğurla fəaliyyət göstərirlər. Onu da qeyd edək ki, Ümumrusiya Azərbaycanlıları Konqresi regionda fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının birləşdirilməsi istiqamətində də fəaliyyəti genişləndirməkdədir. Bu qurumların fəaliyyətinin əlaqələndi-

rilməsi və həmvətənlərimiz arasında həmrəyliyin möhkəmləndirilməsi, onların maraqlarının müdafiəsinin təminatı məqsədilə Azərbaycan diaspor təşkilatlarının Koordinasiya Şurası təsis edilmişdir.

2004-cü ilin oktyabrında keçirilmiş Ümumrusiya Azərbaycan Konqresinin II qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə birgə iştirakı diaspor quruculuğuna Azərbaycanın dövlət siyasətinin ən mühüm istiqamətələrindən biri olduğuna daha bir əyani sübutdur.

Qurultayda Rusiyada yaşayan həmvətələrimizin təşkilatlanması, onların tarixi Vətənlə əlaqələrinin daha da inkşaf etdirilməsi, soydaşlarımızın Rusiya Federasiyasının ictimai-siyasi həyatında daha fəal iştirakı məsələləri müzakirə edilmiş və müvafiq qərarlar qəbul olunmuşdur. Rusiya Prezidenti Vladimir Putin tədbirdə çıxış edərək Azərbaycanla münasibətlərə xüsusi önəm verdiyini və Rusiyadakı azərbaycanlıların problemlərinin həlli üçün hökümət tərəfindən zəruri tədbirlər görüləcəyini bəyan etmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev də iki ölkə arasındakı münasibətlərin indiki səviyyəsini müsbət qiymətləndirməklə yanaşı, yeni nailiyyətlər əldə etmək üçün imkanların tükənmədiyini vurğulamışdır. Dövlət başçımız Rusiyada yaşayan azərbaycanlıların bu ölkənin bərabər hüquqlu vətəndaşları olmasından məmnunluğunu bildirmiş, Azərbaycanda da ruslara qarşı çox mərhəm münasibətin olduğunu xatırlatmışdır. Cənab İlham Əliyev bir daha qeyd etmişdir ki, Rusiyada, eləcə də bütün digər ölkələrdə məskunlaşmış azərbaycanlıların təşkilatlanması, onlar arasında milli-mənəvi birilyin təmin olunması bu gün mühüm məsələlərdəndir. Azərbaycan Prezideti ÜAK-ın fəaliyyətindən də razı qaldığını və konqresin ötən dövrdə səmərəli fəaliyyət göstərdyini vurğulamışdır.





**Ümumdünya Hind mənşəli Amerikalılar Assosiasiyası**

ABŞ-da Hindistan, Mavriki, Trinidad və Tobaqo, Surinam, Fici və s. ölkələrdən olan hindliləri ətrafında birləşdirən Assosiasiyanın əsas fəaliyyət istiqaməti hind mədəniyyətinin və ədəbiyyatının təbliğ olunması, biznes sahəsində uğur qazanmaq istəyən həmvətənlərinə yardımçı olmaqdır. Dünyanın bir çox ölkələrində fəaliyyət göstərən varlı hindlilər və onlara məxsus şirkətlərlə əlaqəsi olan Assosiasiya lobbiçiliklə də məşğul olur.

-V-

**Vahidlik**

Təcridolmanın alternativi, cəmiyyətdən ayrılmanın alternativi milli birliyin yaradılmasıdır, yəni şəxsi sferanın ictimai sferadan ayrılmasının qarşısının alınması uğrunda mübarizədir. Bu variantın tərəfdarları şəxsi və ictimai sferaların ayrılmasından imtina olunmasına qarşı çıxış edirlər. Onların fikrincə, bu, süni və zərərlidir, ona görə də onlar təcrid olunmaqdansa, sistemi dəyişməyə çalışırlar. Bu zaman belə təəssürat yaranır ki, onlar nə qədər çox itirirlərsə, bir o qədər əzmlə mübarizə aparırlar. Başqa sözlə, onlar cəmiyyətdə nə qədər çox plüralizm görürlərsə, daha yüksək tələblər irəli sürməyə çalışırlar.

**Vəkillik**

Siyasət, qanun, praktika və davranışları dəyişmək, onlara təsir etmək və ya yenilərini irəli sürmək məqsədi ilə aparılan demokratik, sistemli və məqsədyönlü təşkil olunmuş cəhddir.

Vəkillik cəhdi kiçik mənada təcrid olunmuş qrupların, geniş mənada isə bütün vətəndaşların mənafeyi naminə müəyyən edilmiş məsələnin, səbəb-nəticənin həllinə nail olmaqla dəyişiklik və ya fərqin yaradılmasıdır.

Qərar qəbulu proseslərini hədəf götürmək və onlara təsir etmək vəkilliyi başqa inkişaf yönümlü yanaşmalardan fərqləndirən əsas prinsipdir.

Vəkillik layihələri və ya proqramları deyil, əsasən kampaniya formasında fəaliyyət kursunu nəzərdə tutur. Kampaniya isə müəyyən məqsədin əldə olunmasını nəzərdə tutan bir sıra təkrar olunan və hədəf seçilmiş proseslərdən / fəaliyyətlərdən ibarətdir.





**Vətəndaş cəmiyyəti**

A. Vətəndaş cəmiyyəti- dövlətdən müstəqil və müxtariyyət demokratik cəmiyyət çərçivəsində inkişaf edən iqtisadi, mədəni və digər sferalardakı münasibətlərin cəmidir.

B. Vətəndaş cəmiyyəti - əvvəlcədən qurulmuş vətəndaş və hüquqi xarakterli qaydalar çərçivəsində təşkilati və məsuliyyətli kollektiv hərəkətlərə cəmiyyət üçün əhəmiyyətli olan qeyri-hökümət institutları və özünü realizə edən vasitəçi qrupların cəmi formasında realizə edir.

C. Vətəndaş cəmiyyəti - azad isanların özlərinin, onların könüllü birliklərinin və cəmiyyətlərinin dövlət hakimiyyətinin müdaxiləsi olmadan istibdadından uyğun qanunlar tərəfindən qorunan özünü ifadə etmək sahəsidir. "Vətəndaş cəmiyyəti" ifadəsini ilk dəfə, müasir elmdə qəbul edilmiş şəkildə, Qobbs işlətmiş, Hegel isə inkişaf etdirmişdir.

D. Elə bir cəmiyyətdir ki, burada mahiyyətcə müxtəlif olan vətəndaş birlikləri (partiyalar, həmkarlar ittifaqları, kooperativlər, qruplar) vətəndaşlarla dövlət arasında vasitəçilik edir və dövlətin şəxsiyyət üzərində hökmranlığına mane olur.

**Vətəndaş qrupları**

Lobbiçilik məqsədi ilə birləşən vətəndaşlar. Siyasi məsələlərlə oz gəlirləri üçün deyil insanların ehtiyaclarını ödəmək məqsədi ilə məşğul olurlar. İctimaiyyətə kömək etmək əsas iş istiqamətləridir.

**Vətəndaşlıq**

Şəxsin müəyyən dövlətə mənsubiyyəti və bunun nəticəsində həmin dövlətin qanunvericiliyinin müəyyən etdiyi hüquq və vəzifələrinin ona şamil edilməsi. Vətəndaş sözü latın sözü olan "civis" dən əmələ gəlib.Mənası şəhərin sakini deməkdir. Romalılarda vətəndaşlığa yunanlara nisbətən daha geniş baxış vardı. Roma imperiyası öz sərhədlərini genişləndirirdi, həm də idarəetməyə həqiqətən kosmopolitik yanaşma işləyib hazırlamışdı. Bu

o demək idi ki, vətəndaşlığın müxtəlif formalarının qurulması köməyi ilə, müxtəlif həcmli hüquq və vəzifələrlə doldurulması, müxtəlif etnik, dil, dini qruplara dövlətin həyatında iştiraka icazə verilirdi.

Kosmopolitizm siyasi cəmiyyətin ən geniş əhali kütləlari hesabına maksimal genişlənməsidir. Lakin bu sistem gələcəkdə hər şeyi əhatə edən və səxavətli olan, yüksək sosial təbəqələşmə ilə xarakterizə olunan cəmiyyətin formalaşmasına gətirib çıxartdı.

Roma imperiyasında vətəndaşlığın univerilizasiya tendensiyası var idi, III əsrdə isə edikt (fərman) ilə vətəndaşlıq bütün azad kişilərə (qullardan başqa) aid edilidi. İmperiya genişləndikdən sonra isə vətəndaşlıq sivilizasiya və onların fikrincə yer üzündə ən qabaqcıl dövlətə məxsusluq simvolu kimi hesab olunurdu. Romalılar vətəndaşları hüquqları və azadlıqları onların vəzifələri üzərində prioritet təşkil edən insanalar hesab edirdilər.

Nə qədər ki, vətəndaşlıq Roma tarixində genişlənirdi, onun əhəmiyyəti azalırdı. Demək olar ki, o, ucuz oldu və buna görə də aşağı qiymətləndirilirdi. Vətəndaş demək olar ki, insanla eyni oldu. Bu proses orta əsrlərdə Avropada daha da dərinləşdi. Feodal lordlar öz mülklərində yaşayan insanları idarə edirdilər və kilsə güclü siyasi lider gücə çevrildi. Demokratiya geriyə addım atdı. Yalnız İntibah dövründə cəmiyyətin siyasi həyatda aktiv iştirakı yenidən Makiavelli tərəfindən səsləndirildi. Sonralar, əsasən XVIII əsrdə aktiv ictimai iştirakı geniş yayıldı.

Bu əsasən Birləşmiş Statlarda baş verirdi. Orada başa düşürdülər ki, demokratiyanı həyata keçirmək üçün hər bir insanın aktivliyi lazımdır. Bu o demək idi ki, kimin səs vermək hüququ var idi, səs verməli idi və təkcə seçilmişlərin fəaliyyəti üzərində nəzarəti həyata keçirməyi deyil həm də onları öz işlərini yerinə yetirməməyə görə cavab verməyə çağırmaq hüququna malik idilər.

Uzun illər ABŞ-da 2 kateqoriya insanlar tamhüquqlu vətəndaş kimi baxılmırdı. Bunlar qullar, əsasən Afrikadan satılan





və ABŞ-a satılan zəncilər və onların nəsilləri; qadınlar idilər. Sonda isə vətəndaşlıq qullara, XX əsrdə qadınlara verildi.

**Vətəndaşlıq anlayışı**

Vətəndaşlıq fiziki şəxsin dövlətlə sabit hüquqi əlaqəsidir ki, bu da onların qarşılıqlı hüquq və vəzifələri ilə ifadə olunur. Bəzən vətəndaşlığı şəxsin dövlətə mənsubiyyəti adlandırırlar. Vətəndaşlıq sabit hüquqi əlaqədir, belə ki, vətəndaşın xarici ölkəyə getməsi ilə də onun vətəndaşlığı bir qayda olaraq avtomatik itmir.

Bir sıra ölkələrin qanunvericiliyində şəxsin dövlətə mənsubiyyətini göstərmək üçün müxtəlif terminlər işlədilir. Respublika tipli dövlətlərdə adətən "vətəndaş", monarxiya dövlətində isə "təbəə" terminindən istifadə edilir.

Amerika, Böyük Britaniya və bir sıra ölkələrdə şəxsin dövlətə mənsubiyyətini bildirən külli miqdarda termin və islahlar mövcuddur.

**Vətəndaşlığın əldə edilməsi və itirilməsi**

Vətəndaşlığın əldə edilməsi üsullarını şərti olaraq iki böyük qrupa bölmək mümkündür. birinci qrup vətəndaşlığın ümumi qaydada, ikinci qrup isə istisna qaydasında əldə olunmasını əhatə edir. Vətəndaşlığın ümumi qaydada əldə edilməsi-beynəlxalq hüquqda müəyyən dərəcədə sabit və ənənəvi üsul sayılır. Vətəndaşlığın əldə edilməsi dobulma (törəmə) nəticəsində və ya vətəndaşlığa qəbuletmə (naturalizasiya) yolu ilə ola bilər. Bunlar həmçinin dövlətlərin təcrübəsində az təsadüf olunan vətəndaşlığın bəxş edilməsi üsuluna da aid edilə bilər.

Vətəndaşlığın istisna qaydasında əldə edilməsi üsullarına aşağıdakılar aiddir: vətəndaşlığı qrup halında qəbuletmə və ya kollektiv naturalizasiya (tarnsfert); optasiya (vətəndaşlığı seçmək); reinteqrasiya (vətəndaşlığın bərpası) və s.

Vətəndaşlığın doğulma nəticəsində əldə etdiyi iki əsas prinsipi məlumdur: "qan hüququ" prinsipi (Juc conjuinis) və

"Torpaq hüququ" prinsipi (Juc coli). Hüquq nəzəriyyəsində bunlar bəzən müvafiq olaraq vətəndaşlığın törəmə yolu əldə edilməsi və vətəndaşlığa qəbuletmə yolu ilə əl edilməsi adlanır.

**Vətənpərvərlik**

Əsas məzmunu vətənə məhəbbət və sədaqətdən bütün fəaliyyətilə onun mənafeyinə xidmət etməkdən ibarət ictimai hiss. Xaricdə diasporların güclü qalması üçün hiss.

**Viza**

lat.visus-görülmüş mənasını verir. Şəxsin bir ölkəyə gəlməsinə, oradan getməsinə, yaxud keçməsinə icazəni bildirməklə pasporta edilən qeyd.





## -Y-

**Yapon diasporu**

Dünya diasporları içərisində xüsusi yeri olan Yapon diasporunun formalaşmasının zəngin və maraqlı tarixi var. Dünyanın müxtəlif dövlətlərində məskunlaşan Yapon mühacirlərinin diaspor yaratmaları bir çox çətinliklərlə baş verib. Digər Asiya diasporlarından fərqli olaraq daha çox assimilyasiyaya məruz qalan yapon diasporu daim Yaponiya tərəfindən dəstəklənməsi, maliyyələşməsi, məskunlaşdıqları dövlətlərdə sosial-iqtisadi, siyasi fəaliyyəti, hadisələrə soyuqqanlı yanaşması onların digərlərindən fərqləndirmişdir.

Yapon diasporunu formalaşdırmış mühacirlərin Yaponiyanı tərk edib müxtəlif dövlətlərdə məskunlaşması XII-XIII əsrlərə təsadüf edir. XV-XVII əsrlərdə Yapon ticarət gəmilərində Cənubi-Şərqi Asiya regionuna, Çinə, Rusiyaya və Hindistana tez-tez səfərləri nəticəsində Yapon tacirləri, dənizçiləri və fəhlələri bu regionlarda qalıb yaşamalı olublar. Onlar yapon diasporunun təməlini bu dövlətlərdə qoyan şəxslər hesab edilirlər. Lakin onların siyasi-sosial fəaliyyətinin passiv olması diasporun möhkəmlənməsinə əsas səbəb idi.

XVII əsrdən başlayaraq Yaponiyada hakimiyyəti ələ alan Tokuqova seyqunluğu ölkənin hərbi-iqtisadi, siyasi gücünün möhkəmləndirilməsi, daxili çəkişmələrin aradan götürülməsi və ölkənin mərəkzləşdirilməsi məqsədilə Yaponiyada mühacirət prosesinin qadağan edilməsi barədə qanunlar qəbul etdi. XIX əsrin ortalarına qədər ciddi surətdə verilən qanunlara rayət edilirdi. Lakin XIX əsrin ortalarından etibarən ölkədə başlayan iqtisadi xarakterli mühacirət prosesi kütləvi şəkildə Amerika qitəsinə, Avstraliya, Rusiya, Çin, Hindistan və Cənubi-Şərqi Asiya dövlətlərinə başlandı.

Çin, Koreya, Cənubi-Şərqi Asiya dövlətlərində siyasi maraqları olan Yaponiya bu dövlətlərdəki diasporları ilə intensiv iş aparır

1952-ci ildə Konqres 1924-cü ildə yaponların ölkəyə daxil olmasını əngəlləyən qanunun qüvvədən düşməsi barədə qərar imzaladı. Bu qərarın qəbul edilməsindən sonra Amerikaya yapon mühacirlərinin yeni dalğası başlandı. Yeni İsseylər adlanan yeni dalğa Yaponiyanın müharibədən sonra üzləşdiyi iqtisadi səbəblərlə əlaqəli olaraq ABŞ-a köçmüşlər. Yeni İsseylər artıq Amerikanın formalaşan diasporları ilə əlaqə qurur, onların acı taleyi ilə yaxından maraqlanırdılar. Lakin Yapon diasporu ABŞ-dakı digər diasporlardan fərqli olaraq özləri barədə danışmağı xoşlamır, onlara qarşı törədilmiş haqsızlıqlarla barışan yaponlar öz sakitçilikləri ilə seçilirlər. Digərləri kimi səsli-küylü etiraz aksiyalar, kampaniyalar, KİV-də populist çıxışlar etməyən yaponlar problemləri soyuqqanlıqla qarşılayır və professional səviyyədə həll edirlər.

Amerika Yapon diasporuna qarşı törətdiyi haqsızlıqların unudulmasına çalışır. Bir çox məsələlərdə onlara güzəştə gedir və ictimaiyyətə adaptasiya olunmasına geniş şərait yaradır. Biznes sahəsində yaponlar aktivliklərini göstərərək iri şirkətlər və inhisarçı birliklər yaratdılar. Etnik iqtisadiyyatla məşğul olmayan Yapon diasporu Amerika ictimaiyyəti tərəfindən aşağıdakı vasitələrlə daha tez Assimilyasiya olunur:

- Qeyri-yaponlarla nigah əlaqəsi;
- Yaponiya ilə əlaqələrin kəsilməsi.

Assimilyasiya olunmasına baxmayaraq Yapon diasporu hələ də anti-yapon çıxışlarının bir də təkrarlanacağından qorxurlar. Bu səbəblə diaspor daxilində milli-adət ənənələrin rəhbərliyi hələ də hiss olunur.

Amerikada Yapon diasporunun himayədarı ölkə iqtisadiyyatında və daxili bazarında uğurla inkişaf edən yapon böyük biznesidir.





Yapon iş adamları sahib olduqları iri şirkətlərə əsasən yaponları işə götürür. Məhz onların maliyəsi nəticəsində Yapon diasporu müxtəlif Kütləvi İnformasiya Vasitələrinə mətbəə və nəşriyyatlara sahibdir. (KİV), ABŞ-da Yapon diasporu "Asahi Shimbun", "Capan Times", "Tokyo Weekly" və s. qəzetlər, "Capan Echo", "The Weeklyrost" jurnallar nəşr etdirir. Yapon və ingilis dillərində "Live-Radio Net" "Radio Capan" radio kanalları Yapon diasporu barədə məlumatların ABŞ-da yayılmasında böyük rol oynayır.

Bunlarla bərabər Amerikada Yapon diasporuna müxtəlif təşkilatlar, cəmiyyətlər və assosiasiyalar məxsusdur. Sosial-iqtisadi və mədəni-maarifçilik istiqamətdə iş aparan bu birliklər aşağıdakılardır:

1. **Amerika Yaponlarının Vətəndaş Liqası** - 1970-ci ildə təsis olunub. Əsas fəaliyyət istiqaməti Amerikanın ictimai həyatına yaponların adaptasiyasını təmin etməkdir. Bir çox iri şirkətlər tərəfindən maliyyələşən liqanın 40 mindən çox üzvü var. Liqa ABŞ yaponlarının hüquqlarını müdafiə edir, yaranan problemlərin aradan götürülməsinə çalışır.

2. **Yapon-Amerika Dostluq Komissiyası** - ABŞ-da Yapon Fondunun himayəsi altında yaranıb və yapon dilinin Assimilyasiya olunmasının qarşısını alması ilə məşğul olur. Yapon dilini təbliğ edən komissiya Yaponiya Xarici İşlər Nazirliyi və qeyri-hökumət təşkilatları ilə sıx əlaqəsi var. Amerikanın bir çox ştatlarında filialları fəaliyyət göstərir. Yapon dili ilə əlaqəli bir çox kitablar nəşr etdirib.

3. **Yapon-Amerika Cəmiyyətləri Milli Assosasiyası** - 1960-cı ildə Amerikada fəaliyyət göstərən 9 yapon diaspor təşkilatlarının birləşməsi nəticəsində yaradılıb. Amerikanın bütün ştatlarında şöbələri olan assosiasiyanın əsas fəaliyyət istiqamətinə daxildir:

- Elm və təhsil sahəsində diaspora kömək;
- Biznes forumlar təşkil etmək;
- Mədəni tədbirlər keçirmək;
- Yapon dilinin təbliği;

- ABŞ və Yaponiya əlaqələrinə aid olan seminar, konfrans, simpozium və müxtəlif görüşlər keçirtmək.

Assosasiyanın tərkibi günü-gündən genişlənir. Assosasiya bir neçə KİV orqanına sahibdir.

4. **Qərbi Kaliforniyada Yapon Cəmiyyəti** - 1905-ci ildə yaradılıb. Əsas fəaliyyət istiqaməti yaponların hüquqi müdafiəsi və maariflənḍirilməsidir. 10 minə yaxın üzvü var. Yapon gənclərinin ali məktəblərə daxil olmasına köməklik göstərir. Təhsil və mədəniyyətlə əlaqəli müxtəlif tədbirlər hər ay keçirən cəmiyyətin diasporda böyük nüfuzu var.

5. **Şərqi Kaliforniyada Yapon-Amerika cəmiyyəti** - 1960-cı ildə təsis edilən cəmiyyət Amerika-Yaponiya əlaqələrinin möhkəmləndirilməsi istiqamətində fəaliyyət göstərir. 10 mindən çox üzvü olan cəmiyyətin yapon bankları ilə sıx əlaqəsi var. Üzvlərinin əksəriyyəti bank işçiləri, biznesmenlər, tacirlər olan cəmiyyət yapon fondu ilə əməkdaşlıq edir.

Adları çəkilənlərdən əlavə Amerikada "Yapon cəmiyyəti "Yapon Dostluq Assosiasiyası", "Amerikanın Yaponiyalı Dostları" və s. birliklər də fəaliyyət göstərir.

Yapon diasporunun müasir dövrdə əsasını ziyalılar, biznesmen və sənətkarlar təşkil edir. Sosial-iqtisadi və mədəni həyatında mühüm rol oynayan Yapon diasporu siyasi fəaliyyətlə passiv məşğul olur. Diasporun maraqlarını siyasi dairələrdə "Nissey lobbi" şirkəti təmsil edir. Yapon inhisarçıları ilə sıx əlaqəsi olan "Nissey lobbi" şirkəti əssən biznes maraqlarının müdafiəçisidir. Konqresdə ərəb lobbisi ilə əlaqələri olması səbəbi ilə Yəhudi lobbisinin narazıçılığı ilə qarşılanan Nissey lobbi onları neytrallaşdırmaqla məşğuldur. Konqresdə Nissey lobbi əsasən aşağıdakı problemlərin həll edilməsi ilə məşğuldur:

Yapon koorparasiyalarına Yaponiya tərəfindən edilən siyasi-iqtisadi dəstəyə qarşı bu ölkədə narazıçılıqların aradan götürülməsi;

ABŞ-a Yaponiyadan idxal məsələlərində olan çətinlikləri həll etmək;





Amerika iqtisadiyyatına Yapon kapital qoyuluşunu təmin etmək;

Texnologiya sahəsində üstün olan yapon mallarının bazarda liderliyini qoruyub saxlamaq;

Yapon biznesmenlərinin ABŞ maliyyə sisteminə təsirini gücləndirmək;

Yapon turistlərinin ABŞ-da təhlükəsizliyini təmin etmək;

Perl-Harbor hadisəsinin bir daha təkrar olmayacağını Amerika ictimaiyyətini inandırmaq;

Yapon dənizçilərinin hüquqlarının müdafiəsi və s.

Amerikanın müasir həyatında Yapon diasporunun özünəməxsus yeri vardır. İşgüzar etnik diaspor kimi özünü sübut edən Yapon diasporu Amerika ictimaiyyəti üçün daha yad hesab edilmir. Sosial-iqtisadi proqramlarda aktiv iştirak edən Yapon diasporu əsasən bank-maliyyə və texnologiya sahələrində çalışırlar.

Yapon diasporu arasında birləşdirici faktorların çox olmasına baxmayaraq son zamanlar daxili çəkişmələr hiss olunur. Yapon diasporunun bir hissəsi Amerikada onlara qarşı haqsızlıqların bir daha törədilməyəcəyinə inanır və ictimaiyyətə adaptasiya məsələlərində onlara əngəl olan anklavların aradan götürülməsini tələb edirlər. Onlar Yapon ədəbiyyatı və mətbuatıyla yanaşı Amerika ədəbiyyatı və mətbuatını oxumağın tərəfdarlarıdır. Yapon adət-ənənələrinin köhnəldiyini iddia edən bu qrup digər diasporlardan olan şəxslərlə nigah əlaqəsinə girməyi zəruri hesab edir. Yaponiyanın lazımi qədər qüdrətli dövlət olduğunu bildirən bu qrup "etnik iqtisadiyyatla"-deyil özlərini maddi rifahlarını yaxşılaşdırmağı vacib sayır.

Diaspor daxilində digər bir qrup isə 1924 və 1941-ci ilin hadisələrinin bir daha təkrarlayacaqlarından qorxaraq anklavların vacibliyini bildirirlər. Xirosima və Naqasaki hadisələrinin unudulmasını tələb edən bu qrup yapon milli adət-ənənələrinin qorunub saxlanmasını zəruri hesab edir.

Diasporun başqa bir qanadı isə Amerika ictimaiyyəti tərəfindən assimilyasiya olunmağın tərəfdarı olmaqla eyni zamanda yapon milli adət-ənənələrinə hörmətlə yanaşmağı zəruriliyini bildirir. Yaponiya ilə əlaqələrin möhkəmləndirilməsini vacib hesab edən bu qrup siyasi fəaliyyətlə məşğul olmağı da tələb edir.

**Yapon hərbi düşərgələri**

1941-ci ilin 7 dekabrında baş vermiş Perl-Harbor hadisəsindən sonra Amerikada yapon diasporunun üzləşdiyi çətin dövr. 19 fevral 1941-ci ildə Ruzvelt 9066 saylı fərman imzalayıb Müdafiə Nazirliyinə strateji şəhərlərdən yaponların köçürülərək hərbi düşərgələrdə yerləşdirlməsi barədə göstəriş vermişdir.

Vaşinqton, Oreqon və Kaliforniya ştatı strateji ərazilər elan edildi. 21 mart 1941-ci ildə Konqres prezident fərmanına əməl etməyənlərin cinayətkar hesab olunması barədə qanun qəbul etdi. 10 hərbi düşərgə yaradıldıqdan sonra yaponları ora köçürdülər. Hərbi düşərgələr aşağıdakılar idi:

- Kaliforniya ştatı: - Mansanar və Tuli Leyke düşərgələri;
- Arizona ştatı: - Postoi və Xiromiri düşərgələri;
- Aydaho ştatı: - Mi - Nidoke düşərgəsi;
- Veyminq ştatı: - Hart-Mauntine düşərgəsi;
- Yuta ştatı: - Topaz düşərgəsi;
- Arkanzas ştatı: - Rouer və Çerome düşərgələri.

Naqasaki və Xirosima faciələrindən sonra, 1946-cı ildə bağlanıb.

**Yerdəyişmə**

Müəyyən ərazidən köçmək kimi miqrasiya ona gətirib çıxarır ki, azlıqda qalanlar xarici aləmdən daha dəqiq təcridolunma yolu ilə müdafiə olunmağa çalışır və nəticədə fundamentalist əlamətlər özünü göstərir. Müəyyən əraziyə immiqrasiya kimi miqrasiya hər iki tərəfdən fundamentalist





aksiyalara gətirib çıxara bilər. Çünki immiqrasiya etmiş azlıq ona yad olan mühitdən müdafiə olunmaq, eyni zamanda, qarşı tərəfə təsir etmək istəyir, yerli əhali isə öz növbəsində hesab edir ki, immiqrantlar onlar üçün təhlükə mənbəyidir.

**Yerli əhali**

Mühacirlər və başqa qrup insanların məskunlaşdıqları ərazidə potensial baxımdan yaxınlıqda yaşayan, onlarla resurs şərikliyi olmayan insanlar.

**Yudenşlegerlər**

XIV əsrin 30-cu illərində arşalederlər - adlanan qrup özlərini "yudenşlegerlər" (yəhudilərin qatilləri) kimi qələmə verərək yəhudilərə qarşı təzyiqləri gücləndirdilər. 1348-ci ildə "qara ölüm" adlanan gündə Almaniyada çoxsaylı yəhudi qətlə yetirildi.

**Yeni Yerusəlim - proqramı**

1968-ci ilin 22 iyunundan XXVII Sionist Konqresində ümumdünya yəhudi diasporunun qəbul edilmişdir. Amerikadakı yəhudi diasporu "Yeni Yerusəlim - proqramının yerinə yetirilməsində xüsusi fəallıq göstərir. "Yeni Yerusəlim" proqramı müasir mərhələdə sionizmin və yəhudi diasporunun qarşıda duran vəzifələrini aşağdakı kimi formalaşdırır:

1. Dünya yəhudilərinin İsrail dövləti ətrafında birləşməsi;
2. Yəhudilərin tarixi vətənlərinə dönməsi;
3. İsrail dövlətinin qüvvətlənməsi;
4. Özünün müqəddəratını müstəqil təyin etmə hüququna malik olma;
5. Yəhudi mədəniyyətinin təbliği.

Bu proqramın diaspor tərəfindən xüsusi rəğbətə malik olması, varlı yəhudi kapitalının ümumi dövlət kimi işində bir araya gətirilməsinə səbəb olmuşdur.

## Yerində qaçqınlar

Qaçqın olmaq üçün şəxsin öz ölkəsinin hüdudlarından kənarda qalması tələbi heç də hökmən onun ölkəni qeyri-qanuni yolla və ya tam əsaslı ehtiyatlar üzündən tərk etməsini nəzərdə tutmur. Bir müddət xaricdə qaldıqdan sonra o, qaçqın statusu almaq üçün müraciət etməyi qərara ala bilər. Ölkəni tərk etdiyi zaman qaçqın olmayan, lakin sonralar qaçqına çevrilən şəxs «yerində» qaçqın adlanır. Şəxs mənşəcə mənsub olduğu ölkədə olmadığı dövrdə baş vermiş hadisələr nəticəsində «yerində» qaçqına çevrilir. Diplomatlar, xaricdə işləyən başqa rəsmi şəxslər, hərbi əsirlər, tələbələr, miqrant fəhlələr və digər şəxslər xaricdə yaşadıqları dövrdə qaçqın statusu almaq üçün müraciət etmiş və qaçqın kimi tanınmışlar.Şəxs artıq statusu tanınmış qaçqınlarla birləşmək və ya yaşadığı ölkədə öz siyasi baxışlarını ifadə etmək kimi hərəkətlər nəticəsində «yerində» qaçqına çevirə bilər. Bu cür hərəkətlərin təqib qurbanı olmaq barədə tam əsaslı ehtiyatların təsdiqi üçün kifayət edib-etmədiyi bütün amillər mükəmməl öyrənildikdən sonra müəyyənləşdirilməlidir. Xüsusi diqqət bu cür hərəkətlərin onun mənsub olduğu ölkənin hakimiyyət orqanlarının xəbəri ola-ola edilib-edilmədiyinə və bu hərəkətlərə hakimiyyət orqanlarının verə biləcəyi reaksiyaya yetirilməlidir.

## Yəhudi diasporu

Yəhudilərin diaspor formalaşdırma tarixi də qədim dövrlərə təsadüf edir. Dünyanın hər tərəfinə səpələnən yəhudilər qısa zamanda icmalarını quraraq diaspor formalaşdırmış, təşkilatı strukturlarını yaratmışlar. Diaspor–qədim ibrani dilində Qalut - sürgün deməkdir.

Bu termin bütün dünya yəhudiləri arasında müxtəlif dillərdə danışmalarına baxmayaraq, eyni mənada işlədilir. Yəhudilər Qalutda-diasporda yaşamağı "ağır, əzabverici həyat və qul vəziyyəti" kimi qəbul edirlər. Bu termin Bibliyanın yəhudilik hissəsində 15 dəfə, aramey hissəsində 4 dəfə və kumran mətnlərində 1 dəfə işlədilir.





Qalut-diaspor halında yaşamaqla yəhudi milli kimliyini, doğma torpağa Eres-İsrailə - (İsrail torpağına) qayıdaraq qədim İsrail dövlətinin yenidən bərpa edilməsi ötən əsrin 50-ci illərinə qədər yəhudilər arasında böyük plan qəbul olunmuşdur. Qalut-diasporda yaşayan yəhudilər İsrail dövləti qurmağa qədər bir mifik anlayışa öz aralarında əməl edirdilər:

- Yəhudiləri Allah qarğayıb;
- Qarğışdan qurtarmaq üçün yəhudilər Allahın qoyduğu qaydalara riayət etməlidirlər;
- Mükafat əvəzi olaraq Allah onları sonda vətənlərinə geri dönmələrinə şərait yaradacaq.

Bu anlayışın müəllifi olan Yeremiya peyğəmbərin sözləri diasporda yaşayan yəhudilər üçün müvəqqəti yaşam tərzinin qanunu olmuşdur. Bu gün üçün də yəhudi diasporunda qədim dövrlərdən qoyulmuş "böyük plan-yaşam" qanunları zamanla müəyyən dəyişikliyə uğrasa da hələ də aşağıdakı formada qalmaqdadır.

- Yəhudi ibadət zamanı üzünü Yerusəlimə - Qüdsə tərəf tutmalıdır.
- İbadət anında yəhudilər daim Qalut halında yaşamalarını özlərinə xatırlatmalı və bu səbəbdən də Allaha yalvararaq, sürgünə son verilməsini və sürgün olunanları vətənə geri qaytarmalarını Allahdan xahiş etməlidir.
- Yəhudilər onların qeyri-düzgün yaşam tərzlərini daim onlara xatırladan ailə və icma ənənələri işləyib hazırlamalıdırlar. Toyda mütləq qədəh qırılmalıdır ki, bu onlara Məbədi xatırlatsın, ev tikən zaman divarın bir hissəsini təmir etməməlidirlər. Yəhudi xalq mahnıları kimi bu ənənələr nəsildən-nəsilə keçərək yəhudilərə tərk edilən vətənlərini xatırladacaq.
- Hər bayramı keçirən zaman yəhudilər İsrail torpağı və Məbədi (hansı ki, onlar tərəfindən itirilib və gələcəkdə onlar tərəfindən geri qaytarılacaq) xatırladacaq xüsusi ritual elementləri daxil etməlidirlər.

Əvvəllər Məbəddə keçirilən aşağıdakı ənənələr daha sonradan ailə və icma həyatına daxil olub:

1. "Arba minim" - Sykkot bayramında Eres-İsraildə bitən 4 bitki növünü silkələmə ritualı;

2. Pesax bayramına qədər qış aylarında yığım üçün oxunan dua;

3. Tu bi - ievat: ağaclarının xatırlanması;

4. Pesax və Şavuot bayramları arası yeddi həftənin keçirilməsi.

Bu qoyulmuş qanunlar diasporda - Qalutda yaşayan hər bir yəhudi üçün məcburi xarakter daşıyır. Yəhudi əgər öz milli kimliyini və özünü böyük xalqın təmsilçisi hesab edirsə, mütləq bu qanunlara riayət etməlidir. Qoyulan qanunlarla paralel olaraq yəhudilərin vətənlə əlaqələrinin qurulması üçün aşağıdakı işlər də görülür:

- Eres-İsrail torpaqlarını görmək üçün bir çox yəhudi bura ziyarətə gəlməlidir.

- Vətəndə yaşamaq üçün bura gələn yəhudilər - aliyanı bitirir.

- Eres-İsraildəki icmalara yardım və köçmək üçün Qalut yəhudilərə daim pul köməkliyi edir.

Göründüyü kimi, yəhudi xalqının və diasporunun tarixən və bu gün də öz *qüvvəsini, həmrəyliyinin, birliyinin* qorunması üçün ideoloji iş yüksək səviyyədə aparılıb və aparılmaqdadır. Çox güclü iqtisadi və siyasi qüvvəyə malik olan Yəhudi diasporunun formalaşma tarixi qədim dövrlərə təsadüf edir. Bir çox səbəblər yəhudi xalqının diasporda yaşamasına səbəb olub və bütün bunlara baxmayaraq, öz qüvvəsini itirməyəcək tarixi ərazilər hesab etdikləri torpaqlarda İsrail dövlətini qurmalarını yəhudilərin böyük qələbəsi hesab etmək olar. Lakin hələ açıqlanmayası bir çox işlər var ki, yəhudilər onların həyata keçirilməsi istiqamətində fəaliyyətlərini davam etdirirlər. İndi isə Yəhudi diasporunun formalaşması tarixini, səpələnmə coğrafiyasını, iqtisadi və siyasi fəaliyyətini və digər məsələləri geniş surətdə araşdıraq:





Yəhudilər öz tarixlərinin 4000 il bundan əvvəl başladıqlarını qeyd edirlər. Bu *tarixin İbrahim peyğəmbər, onun oğlu* İshaq və nəvəsi Yəqubla bağlayan yəhudilər qədim sivilizasiyanın nümayəndələri kimi qəbul olunur.

İbrahim "küllü miqdarda xalqlar atası" - mənasını verir. Dinə görə Allah İbrahim peyğəmbərə deyir; «Sənə göstərəcəyim ölkəyə get. Mən səndən böyük xalq yaradıb, səni mübarək qılacam, adını yüksəldəcəm»

Kənan deyilən torpağa gələn İbrahim peyğəmbər "Mamre Palıdı" - adlanan yerdə məskən saldı. İbrahim peyğəmbərin nəvəsi Yəqub peyğəmbər ailəsindən uzaq düşüb, daha sonra evinə qayıdan zaman yolda başına gələn bir hadisədən sonra Allah ona "İsrail - Allah və insanlarla döyüşüb qalib gələn" - adını verməsindən sonra yəhudilər bu cür adlanmağa başladı.

Yəhudilərin məskunlaşdıqları ərazilərindən zorla köçürülən digər ərazilərə səpələnməsi barədə iki versiya var. Birinci versiyaya görə Assuriya çarı II Sorqon tərəfindən eramızdan əvvəl 732-ci ildə yəhudilərin zorla Şimali Suriya və Midiya ərazilərinə köçürülməsi qeyd olunur. İkinci versiyaya da Babilistan çarı II Novudhonosar İudeya Çarlığını işğal etdikdən sonra 10 mindən çox yüksək və orta sinfin nümayəndələrin özü ilə Babilistana apararaq, qalanların digər bölgələrə və az qismin öz torpaqlarında qalmasına razlıq verməsi qeyd olunur.

Bu iki versiyanı da tarixi ardıcıllıq üzrə yəhudi diaspor tarixinin başlanğıcı hesab etmək olar. Bu tarixə qədər də yəhudilərin səpələnməsi və qalutda yaşamaları faktları da olub. Ancaq bu barədə hələlik tarixi faktlar azlıq təşkil edir. Bu səbəbdən də, tədqiqatçılar adları çəkilən iki versiyanı diaspor tarixinin başlanğıcı kimi götürürlər.

İslam dini yaranan zamana qədər yəhudi diasporunun yayılma coğrafiyası və tarixi inkişaf dövrü bir çox mərhələlərdən keçib.

* Misir - Bu ərazidə yəhudilərin məskunlaşması və diaspor formalaşdırması bəzi mənbələrdə Babilistan əsirliyindən öncəki

dövrə təsadüf edir. Elnfantani adlanan ərazinin yaxınlığında yəhudilərin Allah evi - fəaliyyət göstərirdi. Yəhudilər Misirin bütün ərazilərində yaşayırdılar. Filosof Filonun "İudey tarixi" kitabına inansaq, qədim Misirdə yəhudilərin sayı 1 milyona çatmış idi.

* Ellin dünyası - Bu ərazilərdə yəhudilərin diaspor formalaşdırması onların yaşam tərzinin ayrılmaz tərkib hissəsi idi. Ellinlərə məxsus bütün şəhər və bölgələrdə yəhudi diasporlarının sinaqoqları, qəbiristanlıqları, cəmiyyətləri var idi. Ticari işlərlə məşğul olan yəhudilər Ellin dünyasının inkişafında mühüm rol oynamışlar.

* Roma imperiyası dövründə - (e.ə. 63 - bizim eranın 313). Bu tarixdə yəhudi diasporuna qarşı xüsusi rəğbət bəsləyən Yuli Sezar və Oktavian Avqust onlara geniş səlahiyyətlər vermişlər. Yəhudilər imperiya ərazilərində şəxsi iş qurmaq, ticari əlaqələr qurmaq, torpaq əldə etmək və digər sahələrdə muxtariyyətə malik idilər. Dini etiqad məsələsində yəhudi diasporu azad idi. Yalnız Kaliqula (e.ə. 37-41) yəhudilərin bir Allah kimi ona sitayiş etmələrini tələb etməsi səbəbilə yəhudilərin Roma tarixində ilk dəfə olaraq kütləvi dağıntılar törətməyə başlamasına digər ərazilərdəki yəhudilər də qoşuldu. İmperator elan edilən Klavdi bu səbəbdən onların hüquqlarını yenidən bərpa etməklə əlavə güzəştlər verdi.

Coğrafiyaşünas-alim, yunan Strabonun e.ə. I əsrdə «yəhudi olmayan elə bir ölkə tapmaq olmaz» fikrinə əsaslanaraq, yəhudilərin yayılma ərazisinin geniş olduğuna əmin olmaq olar. Tarixçi Yosif Flaviy də Antixon, Dəməşq, Amate və Kiçik Asiyada e.ə. I əsrdə yəhudi diasporunun olması faktını təsdiqləyib.

* Bizans imperiyası dövründə (313-636) - IV əsrin sonuna yaxın xristianlıq dininin qəbul edilməsindən sonra yəhudilərin əraziləri hesab olunan yerlərdə, Viflemey, Yerusəlim, Qalisdə kilsələr tikildi. Yəhudiləri muxtariyyət hüququndan məhrum elədilər. Yəhudilər yalnız ildə bir gün Yerusəlimi ziyarət edə bilərdilər. İctimai vəzifə daşımaq onlara qadağan edildi. Bu səbəbdən də yəhudi diasporu Bizans imperiyası dövrünü ağır illər hesab edirlər.





* İslam hakimiyyəti dövründə - (622-99) - Bu illərdə yəhudi diasporunun mövqeyi və durumu yaxşı idi. Yerusəlimə köçmək üçün onlara icazə verildi. Qeyri-müsəlman statusu altında yəhudilərin əmlak toxunulmazlığı və dini azadlıq hüququ var idi. İqtisadi və ticari işlərdə yəhudilər ərəb xilafətində yüksək mövqe tuturdular. Hasday ibn Şaqrul yəhudi diasporunun xilafətdə tanınan nümayəndəsi idi. Talmud xilafət işlərində yəhudilərin həyatını istiqamətləndirdi.

XI - əsrdən etibarən dini müharibələr, səlib yürüşləri, nəticəsində Qərbi Avropa Dövlətlərinin siyasi, hərbi və iqtisadi yüksəlişi başlandı. Xristianlar yəhudilərin İsa peyğəmbər gələnə qədər seçilmiş bir xalq olduğuna inanırdılar. Onların təsəvvüründə yəhudilər İsanı qəbul etməyib, onu öldürdükdən sonra seçilmiş din xristian dini olubdur.

Zamanla xristian ideoloqlar yəhudilərə nifrət toxumu səpməyə başladılar. Onlar yəhudilərdən İsa peyğəmbərə verdikləri "əzab-əziyyətə" görə intiqam almağa başladılar.

Onlara qarşı təzyiq və nifrət yüksək dərəcəyə çatdı. Yəhudi diasporu məcburən xristianlıqla qəbul etdirilməyə başlandı. Papa İnnokentinin dövründə yəhudi diasporu ən aşağı mövqedə tutulurdular. Yəhudiləri "Bizim tacın qulları" (Kamerknext) adlandıran alman imperatoru II Fridrix onları maddi və mənəvi cəhətdən sıxışdırırdı.

Avropa dövlətlərində yəhudilərə qarşı edilən təzyiqlər diasporun zəifləməsinə səbəb oldu. Burada baş verən bəd hadisələrin günahkarları yəhudilər hesab olunurdu. Avropada çox insanın ölümünə səbəb olan taun xəstəliyinin yaranması səbəbini yəhudilərdə görən xristianlar onları su quyularını zəhərləməkdə ittiham edib, kütləvi qırğınlar törətdilər.

1881-ci ildən başlayaraq yəhudi diasporunda demoqrafiyanın sürətlə inkişaf etməsi kütləvi mühacirət prosesinin

başlanmasına təkan verdi. Dünya üzrə sayı 2,5 milyona yaxın olan yəhudilərin siyasi, iqtisadi və sosial durumu qüvvətləndi. Fond birjası, İngiltərə Bankı, Avropa və Amerikada maliyyə qruplarını, veksel və s. ixtira sahibləri olan yəhudi diasporu artıq öz məqsədləri olan Eres-İsrail dövlətinin yaradılmasına başladılar.

I və II Dünya müharibələri arası Avropa və Amerikada yəhudi diasporu demoqrafik inkişaf səviyyəsinə və siyasi-iqtisadi mövqeyinə görə digər xalqlardan seçilirdi. Balfur deklarasiyası 1922, "Ağ kitab" - 1933 və Pittisburq platforması 1937 bu illər arası Yəhudi diasporunun həm qələbəsi həm də məğlubiyyətinin nəticəsi idi.

1947-ci ilin 29 noyabr yəhudi diasporunun və yəhudi xalqının həyatında dönüş yaratdı. BMT-nin 56 üzv dövlətinin iştirakı ilə çağrılan Baş Assambleyanın iclasında 33 səsə qarşı, 13 əleyhinə və 10 bitərəf səs çoxluğu ilə Fələstin ərazisində yəhudilərə dövlət qurulması üçün 5500 kvadrat kilometr, ərəblərə isə 4500 kv. km ərazi ayrılması üçün qətnamə qəbul edildi.

1948-ci il 15 mayda İsrail medinştinin (dövləti) yaradıldığı ölkənin ilk prezidenti Ben-Qurion tərəfindən beynəlxalq aləmə elan edildi. Dövlətin İsrail və ya İudeya adlandırılması uzun sürən mübahisələrdən sonra birincisinin qələbəsilə adlanmağa başlandı. İsrail dövləti elan edildikdən 11 dəqiqə sonra ABŞ prezidenti Harri Trumen bu dövlətin müstəqilliyini tanıyan bəyanat verdi.

Baxmayaraq ki, İsrail dövləti elan edildikdən sonra ərəb dövlətlərilə müharibə döyüş meydanları ilə paralel olaraq iri dövlətlərin qanunverici orqanlarında və beynəlxalq təşkilatlarda aparılırdı, bu hadisə yəhudi diasporunun həyatında dönüş yaratdı.

İsrail dövləti qurulduqdan sonra milli özünü dərk etmə xarakteri də tamamilə dəyişdi. Özlərinin "seçilmiş xalq" olduqlarını bütün xalqlar tərəfindən qəbul olunması üçün





fəaliyyət başlandı. Bütün dövlətlərdə yəhudi diasporu sosial və siyasi mövqeləri nəzarətə almağa çalışırdılar. Yəhudilərin yayılma coğrafiyası genişləndi. Yəhudi diasporu XIX əsrdən başlanan yeni mühacirət dalğaları ilə yanaşı qədimdən onların məskunlaşdığı dövlətlərdə fəaliyyətini genişləndirdi. 90-cı illərin əvvəllərindən başlayaraq yəhudi diasporu qüvvətli mövqeyini bərkitdi. Ancaq diasporda müxtəlif fikir ayrılıqları yarandı. Diasporda sionizm tərəfdarı olan qüvvələr diaspor və muxtariyyət tərəfdarı olanlardan yaxa qurtarmağı tələb edirlər. Onlar iddia edirlər ki, yəhudi xalqı səpələnmiş halda bir xalq kimi inkişaf edə bilməz. Əgər yəhudilər qeyrətli dövlət qurmaq və mədəniyyətlərini yüksək mövqedə qalmasını istəyirlərsə, diasporda yaşamaqdan əl çəkib assimilyasiya olunmasınlar. Bir qrup isə diasporda yaşamağı üstün tutaraq, məskunlaşdıqları dövlətlərin İsrail ilə əlaqələrinin güclü qalması üçün diasporun əhəmiyyətli olduqlarını bildirirlər.

Hal-hazırda yəhudi diasporunda dini qaydalar, diasporda yaşamaq konsepsiyası ilə yanaşı 12 müdrik Sion alimlərinin protokolları və Sionizmin 13 tezisinə əməl olunur. Yəhudi diasporu ən güclü lobbi strukturuna malikdir. İstənilən dövlətin xarici və daxili siyasətinə təsir göstərmək iqtidarındadırlar. Ən güclü transmilli şirkətlər KİV orqanları, partiya və ictimai birliklərə sahib olan yəhudi diasporunun yayılma coğrafiyası geniş masştablıdır. Hal-hazırda yəhudilərin sayı 17 milyona yaxındır. Bunların 40% - Şimal və Cənubi Amerikada 30% İsrailə, 35% Avropaya, qalanları isə digər dövlətlərin payına düşür.

**Yəhudi Milli Fondu**

Yəhudi Milli Fondu – Keren Xa Kayemet - 1901-ci ildə Fələstin torpaqlarının alınması üçün yaradılmışdır. Yəhudi dövlətinin əsası qoyulduğu zaman Fond tərəfindən alınmış torpaqların ümumi sahəsi 24000 kv. km olur (96000 ha) təşkil edirdi.

**Yəhudi və Ərəblər Amerikada**

Amerika ictimaiyyətində ərəblərlə-yəhudilərə münasibətdə aşağıdakı fikirlər mövcuddur:

- Amerikalıların çox hissəsinin yəhudilər kimi Bibliyaya inanması (İslam bir çox amerikalı üçün yaddır).
- Avropada güc sisteminin bölünməsi (Avropanın bir çox dövləti ərəbləri dəstəkləyir).
- İsrailin siyasi sisteminin demokratik mahiyyət daşıması (ərəb dövlətlərin çox hissəsi monarxiya üsul-idarəlidir).
- İsrailin Amerika ilə müttəfiq olması (ərəblər etibarsız dostlar imici formalaşdırıblar).
- Amerikalıların yəhudilərə bir qurban kimi baxmaları (ərəblər öz neft silahları ilə Amerika iqtisadiyyatını istismar edirlər).

**Yunan diasporu**

Yunanlar və yaxud onların özlərini adlandırdıqları Ellinlər dünyanın ən qədim xalqlarından biridir. Ellinlər fəal xalq olaraq dünya mədəniyyətinə, arxitekturasına, elminə və s. sahələrinə böyük zənginliklər qoyublar. Əfsanəvi Zevs, Herakl, Aristotel, Homer, Prometey, Esxil, Sofokl, Aristofen və s. şəxsiyyətlərin vətəni olan Yunanıstan eyni zamanda hərbi yürüşlərilə də tarixdə izlər qoyublar. Yunanlar əsrlər öncə başladıqları hərbi yürüşlər zamanı dünyanın müxtəlif bölgələrinə səpələnmiş və burada öz icmalarını yaratmışlar. Zamanla bu icmalar diaspora çevrilmişdir. Bu səbəbdən də beynəlxalq münasibətlər sisteminin ayrılmaz tərkib hissəsi olan diaspor termini də onların dilindən yaranmışdır.

Ellin dünyası, Homerin adlandırdığı "Ellas"- mərkəzi Yunanıstan, Epir, Frakiya və Makedoniyanı əhatə edirdi. Bu ərazidə həyat əlamətləri eramızdan əvvəl daş dövrə təsadüf edir. Zamanla sivilizasiyalı inkişaf dövrü başlandıqca onların məskunlaşma dairəsi də genişlənirdi. Məşhur Yunan polis (şəhər-





dövlətləri)ləri Sparta, Afina, Arqos, Fivv, Korinf yarandıqca yunanların mühacirət prosesləri güclənirdi.

Makedoniyalı İsgəndərin dövründə (e.ə. 336-323) yunanlar dünyanı fəth etmək üçün onun rəhbərliyi altında Asiyaya yürüşə başladılar. Bu yürüşlər zamanı çoxsayda yunan Mərkəzi Asiyada, Qafqazda, Kiçik Asiyada qalmalı oldular. Onların burada əllərində olan torpaq sahələrində öz qohum-əqrabaları ilə yaşayırdılar.

Zamanla polis-şəhərlər arasında başlanan mübarizə nəticəsində Ellin dünyası zəiflədi. Nəticədə bura daxil olan dövlətlər və ərazilər nəzarətdən çıxdı.

VIII əsrdən başlayaraq yunanlar kütləvi şəkildə İtaliya, Rusiya, müasir Ukrayna ərazilərinə mühacirət etməyə başladılar. İtaliya ərazisində "Böyük Ellas" məhəllələrinin yaranması Yunan diasporunun bu dövlətdəki mövqeyindən xəbər verir.

XV əsrə qədər Bizans imperiyası tərkibində olan yunanların mühacirəti yalnız dini-missionerlik xarakter daşıyırdı. Yunan rahiblərinin qonşu dövlətlərə xristian dinin yaymaq məqsədilə etdikləri mühacirət burada əvvəlcədən formalaşmış icmaların güclənməsinə təkan verdi.

Ancaq XV əsrdən etibarən Osmanlı imperiyasının Avropaya doğru zəfərli yürüşləri səbəbilə yunanlar mühacirət prosesini gücləndirməli oldular. Osmanlı imperiyası tərkibindəki olan ərazilərini qoyub Rusiya, Qafqaz, Krım, Odessaya köçən yunanlar bu ərazilərdə say etibarilə artırdılar.

XVIII əsrin sonları XIX əsrin əvvəllərində Osmanlı imperiyasının zəifləməsi səbəbilə Böyük Britaniya Yunanıstanı ələ keçirtdi. Bu işdə xüsusi rolu olan Britaniyadakı Yunan diasporu aktivlik göstərmişdir. Onlar Yunanıstan dövlətinin yaradılmasına çalışırdılar.

1821-ci ildən başlayaraq Avropa dövlətlərinin Osmanlı imperiyasını daxildən parçalamaq üçün apardıqları mübarizə nəticəsində 1829-cü ildə Yunanıstan dövləti yarandı. 1832-ci ildə

Prussiya şəhzadəsi Otto Yunanıstan monarxiyasına rəhbərlik edirdi. 1834-cü ildə Afina Yunanıstanın paytaxtı elan edildi.

Yunanıstana Rusiya, Fransa, Böyük Britaniya, Prussiya kimi dövlətlərin mövqeyinin müsbət olmasında xüsusi köməyi olan Yunan diasporu idi. Bu dövlətlərdə güclü mövqeyə malik olan yunanlar Yunanıstanın dirçəldilməsi istiqamətində hər tərəfli köməklik göstərirdilər.

I Dünya müharibəsindən sonra Yunanıstan diasporun və hökumətin bütün səylərinə baxmayaraq Avropanın inkişaf etmiş dövlətləri sırasına daxil ola bilmədi. Ölkədə isə iqtisadi böhran səbəbilə Amerika və Avropa dövlətlərinə mühacirət edənlərin sayı artırdı. 1922-ci ildən başlayaraq yunanlar Afrika qitəsinə də köçürdülər.

İngilisdilli dövlətlərə daha tez adaptasiya olunan yunanlar bir çox sahələrdə çətinliklər görmürdülər. Onlar öz milli adət-ənənələrini təbliğ etməklə və ictimai həyatda aktivlik göstərməklə özlərinə müsbət rəğbət qazanırdılar. Yunan diasporunu ictimaiyyətdə mövqeyini qoruyub saxlamaqda əsas işi kilsə görürdü.

1967-74-cü illərdə Yunanıstanda hökumət çevrilişi yunan ziyalılarınan və digərlərinin Avstraliya, ABŞ, Sovetlər Birliyi, Kanadaya mühacirət etmələrinə səbəb oldu. 1970-ci illərdən sonra güclü hesab olunan Yunan diasporu öz lobbiçilik fəaliyyətini genişləndirirdi.

Müasir dövrdə Yunan diasporu dünya diasporları içərisində güclü və aktivlərdən biri hesab olunur. İnformasiya və maliyyə sahələri istiqamətində Yunan diasporu liderlərdən hesab olunur.

Böyük Britaniya və Fransadakı yunanlar varlı və kosmopolit, Avstraliya və ABŞ-da sosial cəhətdən güclü, Almaniyada sahibkar, bəzi Afrika və Avropa dövlətlərində ictimai sahədə aktiv, Rusiyada dini və imkanlı şəxslər hesab olunur.

1990-cı ilin əvvəllərindən başlayaraq Yunanıstan diaspora qarşı yeritdiyi siyasətdə dəyişiklik etməli oldu. Yunanıstan diasporunun iri dövlətlərdəki olan gücünü və mövqeyini dövlətin





xarici siyasət prinsiplərinə daxil etdi. Buna görə diasporun maraqlarına daxil olan bir sıra tədbirlər həyata keçirdi. 1996-cı ildə xaricdə yaşayan yunanları əlaqələndirmək məqsədilə Xaricdə Yaşayan Yunanlar Şurası (SAF) yarandı. Əsas məqsəd Yunan diasporunun mərkəzləşdirilməsi və əlaqələndirilmək olan Şura əsas şüar kimi "Ana Vətən", "Ellin dünyası"nı götürmüşdür. Yunan lobbisi kimi güclü bir qüvvəni nəzarət edən Yunanıstan diaspor da birliyin qorunması məqsədilə kilsədən istifadə edir. Kilsələrdə tez-tez diaspor nümayəndələrilə görüşlər keçirən Yunanıstan rəhbərliyi problemlərin əksəriyyətini həll edə bilir.

Son dövrdə Yunan diasporu məskunlaşdığı ölkələrdə öz fəaliyyətini genişləndirməkdədir. Bir çox sahələrdə aparıcı mütəxəssislər olan yunanlar orta və iri burjaziya sinfinə aiddir. Diasporun müəyyən hissəsini Assimilyasiya olunmasına baxmayaraq milli adət-ənənələr, musiqi və mədəni varlıqları unutmayan Yunan diasporu informasiya təbliğatçılığında uğurlar əldə edirlər.

## -Z-

### Zəka axını formulu

Zəka axını nəticəsində ölkəyə dəyən iqtisadi ziyan $Y=(R+P+K)N_1-(V+E+D)N_2$ formulu ilə ölçülməlidir. Zəka axını prosesində maraqlı tərəf kimi çıxış edən xarici fondlardan birinin tədqiqatçıları Q.Bumovskiyə və C.Lanorin BMT formulunu aşağıdakı kimi açıqlmasına verirlər:

R - Alim və mütəxəssisin peşəkarlığını artırmaq və təhsilini gücləndirmək, tərbiyəsi və təlimi üçün çəkilən xərc.

P - İtirilmiş mənafe

K - Təxmini itki (elmi-texniki potensialın azalması, elmi kadrların hazırlanmasında keyfiyyətin itməsi)

$N_1$ - Geri qayıtmayan mütəxəssis və alimlərin sayı

V - Zəka axınına qoşulan, lakin sonradan vətənə geri dönən düşünən beyinlərin sayəsində əldə edilən mənafe.

E - Keçmiş miqrantların ölkənin iqtisadi-elmi həyatına ikinci dəfə cəlb edilməsindən sonra dövlətin qazandığı mənafe.

D - Düşünən beyinlərin qazancları, pul köçürmələri, elmi-texniki kəşfləri, dövlət büdcəsinə verdikləri xeyir, qurduqları biznes, aldıqları qonorar və s. dövlətin əldə etdiyi mənfəət.

$N_2$ - Geri dönən mütəxəssis və alimlərin sayı.

### Zəif qruplar

Başqaları ilə müqayisədə cins, etnik mənsubiyyət, yaş, fiziki və ya əqli çatışmazlığı, ağır iqtisadi və ya sosial vəziyyəti ilə əlaqədar olaraq köçürmənin daha çox təsirinə məruz qala bilən və köçürmə zamanı yardıma və müvafiq müavinətə ehtiyac olduğunu iddia etmək və ya belə yardımdan yararlanmaq imkanları məhdud olan şəxslər deməkdir.





### Ziyalı

Ziyalılar-peşəyə görə zehni əməklə məşğul olan sosial qrup. İlk zamanlar savadlı şəxslərə şamil olunurdu. Ziyalının formalaşmasının ilkin şərtləri zehni əməyin fiziki əməkdən ayrılmasıdır. Əvvəllər ziyalılar termini ümumiyyətlə, savadlı adamlara aid edilirdi. Ziyalılar hələ quldarlıq və feodalizm cəmiyyətində meydana gəlmiş, renessans dövründə elmi, ədəbi-bədii, mühəndis-texniki ziyalıların sayı çoxalmışdır. Kapitalizm dövründə bu proses sürətlənmişdi. Elmi-texniki inqilab nəticəsində ziyalıların sayı, onların cəmiyyətdəki rolu daha da artmışdır.

Diasporlarda ziyalıların rəhbərlik etməsi siyasi, sosial-iqtisadi və hüquqi təmsilçilikdə irəliləyişlərin olmasına təkan verir.

# ƏLAVƏ 1

## XARİCDƏ FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN DİASPOR TƏŞKİLATLARI

### *ABŞ*

**Vaşinqton-Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr: Bədir Məmmədli
Vaşinqton DC
bedir_memmedli@yahoo.com

**Amerika-Azərbaycan Ticarət Palatası**
(1995-ci ildə təsis edilib)
İcraçı direktor: Mahir İskəndər
1212 Potomac st, N.W.
Vaşinqton DC 20007
chamber@usacc.org
www.usacc.org

**Hyuston Azərbaycanlıları cəmiyyəti**
**Sədr: Natalya Kassenyeva**
P.O. Box 631341, Houston, TX 77263-1341
natalienmk@yahoo.com
president@HoustonAzerbaijanis.org
www.HoustonAzerbaijanis.org

**Amerika-Azərbaycan Şurası**
(1994-cü ildə təsis edilib)
Sədr: Ceyhun Mollazadə





Vaşinqton DC
info@usazerbaijancouncil.orgwww.usazerbaijancouncil.org

**Azərbaycan-Amerika Cəmiyyəti**
(1956-cı ildə təsis edilib)
Sədr:Tomris Azəri
Nyu-York
tomris@att.net
www.usa.azeris.org

**Qafqaz Yəhudiləri Cəmiyyəti**
2002-ci ildə təsis edilib
Sədr:Yakov Abramov
orkhan85@aol.com
Nyu-York
347 Ocean Parkway, Brooklyn, NY 11218 USA

**Amerika Azərbaycan Mədəniyyət Assosiasiyası**
Sədr: Töhfə Eminova
Mayami/ Florida
azhemi@msn.com

**Azərbaycan Nyu-York Assosiasiyası**
(2005-ci ilin yanvar ayında təsis edilib)
Sədr: Əli Nəsibov
Nyu-York 1270 East 19th St., Apt 6B, Brooklyn, NY 11230
Ali.Nasibov@gmail.com
www.azeri.ru

**Hyuston-Bakı Qardaş Şəhər Assosiasiyası**
Sədr: İradə Axundova
HBSCA c/o Houston İnternational Protocol Alliance
901 Bagby, Suite 100, Houston, NX 77002

iakhoundova@houstonbaku.com
www.houstonbaku.com

**Şimali Azərbaycan Mədəniyyət Mərkəzi**
2002-ci ildə təsis edilib
Sədr: Samir Lütfəliyev
San Fransisko

**Şimali Kaliforniya Azərbaycan Mədəniyyət Ocağı**
Sədr: Həmid Əhmədi
(1992-ci ildə təsis edilib)
16400 Lark Ave. Suite #260
San-Xose Kaliforniya
www.acsnc.org
azerbaijancsnc@msn.com

**Amerika-Azərbaycan Şurası**
Sədr: Cavid Hüseynov
P.O. Box 11943
Newport Beach
Los-Anceles /Kaliforniya
www.azeris.org

**«Muğam» Mədəniyyət Mərkəzi**
1993-cü ildə təsis edilib
Sədr: Cefri Verbok
Nyu-Cersi
www.mugham.org

**«Novıy Rubej» - "New Frontier" (qəzet)**
Baş redaktor: Nobert Yevdayev
2003-cü ildən nəşr olunur.
Nyu-York NY
newfront777@yahoo.com





**Azerbaijan İnternational (jurnal)**
1993-cü ildən nəşr olunur.
Betti Bleyr
Kaliforniya Van-Nays
P.O. Box 5217
USA Sherman Oaks, CA 91413·

*Kanada*

**Kanada-Azərbaycan Əməkdaşlıq Assosiasiyası**
2002-ci ildə təsis edilib
Kanada Azərbaycan Assosiasiyalar Assambleyasının üzvü
Sədr: İlham Axundov
Ontario, Hamilton
akhund@mcmaster.ca
canadaazerbaijan@sympatico.ca

**Kvebek Azərbaycanlıları Assosasiyası**
1 iyul, 1989-cu ildə təsis edilib
Kanada Azərbaycan Assosiasiyalar Assambleyasının üzvü
Sədr: Məsud Əliyev
750 Bulvar Montpellier, suite 1101, Montreal, Saint-Laurenti, Quebec H4L5A7
aliev1@nm.ru
nurlana_bagirova@yahoo.com

**Kanada Azərbaycan Dostluq Cəmiyyəti**
2000-ci ildə təsis edilib
Kanada Azərbaycan Assosiasiyalar Assambleyasının üzvü
Sədr: Esmira Əsədova
11 Finch Avenue, West suite, 350 Toronto, Ontario M3J2E5
baku94@hotmail.com

**Ontario Azərbaycanlıları Assosiasiyası**
2000-ci ildə təsis edilib
Kanada Azərbaycan Assosiasiyalar Assambleyasının üzvü
Sədr: Cavad Zərrin
1111 Finch Ave. West North York, M3H 5T5
acao@yahoo.com

**Kanada Azərbaycan Ticarət Mərkəzi**
Kanada Azərbaycan Assosiasiyalar Assambleyasının üzvü
Sədr: Roman İbrahimov
Toronto
roman456@hotmail.com
www.roscaz.com

**Kanadalı Azərbaycanlılar Assosiasiyası**
01 avqust, 2001-ci ildə təsis edilib
Sədr: Dr. Yulduz Rəhimov
Kanada, Toronto
174 Founders Way, Markham, Ontario, Canada L6C1R6
acazerb@rogers.com

**Alberta Azərbaycan Mədəniyyət Mərkəzi**
2006-cı ildə təsis edilib
Sədr: Səbinə İskəndərova
12112-18 AVe SW, Edmonton, AB, Canada T6W 1T5
isk_sabina@hotmail.com
contact@alacs.biz
www.alacs.biz

**Kanada Azərbaycan Alyansı**
(07 iyul, 1997-ci ildə təsis edilib)
Kanada Azərbaycan Assosiasiyalar Assambleyasının üzvü
Sədr: Rüfət Əmrəliyev
45 Rockford Rd, Toronto, ON M2R 3A4





H8Y 3E8 Canada
azeralliance@hotmail.com

**«Odlar Yurdu» radiokanal**
Sədr: Əlirza Miyyanalı
Kanada Vankuver
azer@azer-bc.com
www.azer-bc.com
radioodlar@radioodlaryurdu.com

**Qaflantı adına Azərbaycan Kanada Cəmiyyəti**
Sədr: Sadıx Təyyar
Kanada Vankuver

**Azərbaycan Kültür Ocağı**
2005-ci ildə təsis edilib
Sədr: Məhəmməd Reza Rismani
Kanada Vankuver

**Azərbaycan Yazıçılar Birliyi**
Sədr: Həmid Dadizadə Təbrizi
Kanada Vankuver

**Strateji Araşdırmalar Mərkəzi**
Sədr: Aslan Xalidi
Kanada Vankuver

***Avstraliya***

**"Avstraliya Azərbaycanlılar Cəmiyyəti "**
( 1996-ci il )
Cəmiyyətin sədri: İmamməddin Qasımov
Avstraliya, Sidney

**"Avstraliya Azərbaycan Assosiasiyası"**
( 2003-cü il)
Cəmiyyətin sədri: Mikayıl Oyta

## *Yaponiya*

**Yaponiya - Azərbaycan Dostluq Cəmiyyəti**
21 noyabr 2002-ci ildə Yaponiyanın Naqoya şəhərində təsis edilib.
Cəmiyyətin sədri - Rəhman Şahhüseynli
Ünvan: 560-0043, 1-18 Machikaneyama-cho, Osaka Daigaku Kokusai Kouryu Kaikan C-321 Toyonaka-shi, Osaka-fu, Yaponiya
Web: www.aydc.tk
Email: dostluqcemiyyeti@yahoo.com

## *Yeni Zelandiya*

**Azərbaycan – Yeni Zelandiya Dostluq Cəmiyyəti**
(2004-ci il)
Cəmiyyətin sədri: Mirnasim Zeynalov

## *Avstriya*

**Azərbaycan Akademik Birliyi**
Sədr: Elman Muradov
Ünvan: Quadenstrasse 8/35/14 A1220 Wien
E-Mail: asakverein@yahoo.de
http://www.avstriya.com/

**Azərbaycan Mədəniyyət Cəmiyyəti**
1990-cl ildə Vyanada təsis edilib.
Sədr - Səttar Piran.
Ünvan: PF 97, A-1164 Wien





**Azərbaycan Mədəniyyət Cəmiyyəti**
Qrats şəhərində fəaliyyət götərir.
Sədr -Tofiq Fərzi
Ünvan: Madellstrasse 28, A-8010 Graz

**Avstriya-Azərbaycan Ticarət Cəmiyyəti (ASOV)**
Qrats şəhərində fəaliyyət göstərir.
Həmsədrlər – Mir Hesabi, Fərhad Abtin.
Ünvan: Schillerstrasse 4, A-8020 Graz

**Əlibəy Məscidi və Mədəniyyət Cəmiyyəti**
Zalsburq şəhərində fəaliyyət göstərir.
Sədr – Cəfər Oruc
Ünvan: Mulbacherhofweg 2, A-5020 Salzburq

## *Almaniya Federativ Respublikası*

**Odlar Yurdu**
Azərbaycan Mədəniyyət və Təhsil Cəmiyyəti
Sədr - Cəfərzadə Məmmədcəfər Cahangir oğlu
Ünvan: Reuterstr, 92 12053 Berlin – Neuköln

**Azərbaycan Cəmiyyətləri Federasiyası**
1996-cı ildə Almaniyada fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin əlaqələndirici qurumu kimi təsis edilib. Mərkəzi Berlində yerləşir.
Federasiyanln sədri - Nüsrət Delbəstə
Ünvan: Schlesishestr, 19 - 10997 Berlin
Web: www.friden-feoderation.de

**"Bakı" Cəmiyyəti**
1997-ci ilin iyun ayının 7-də Maynts şəhərində təsis edilib.
Sədr - Ə.Heybətov (Azərbaycanın əməkdar rəssamı)
Ünvan: Hohenzollernamtstr 150 - 56068 Koblents

**Berlin Azərbaycan-Türk Mədəniyyət Mərkəzi**
2000-ci ilin noyabr ayında Berlin şəhərində təsis edilib.
Sədr - Nüsrət Delbəstə.
Ünvan: Schlesishestr. 19 - 10997 Berlin

**Azərbaycan-Almaniya Alimlər Birliyi**
Təşkilat 1986-cl ildə Berlinda təsis edilib.
Sədr - doktor Əhməd Ümid Yəzdani.
Ünvan: Lehrterstr. 56A - 10557 Berlin

**"Ocaq" Cəmiyyəti**
Cəmiyyət 1988-ci ildə Berlində təsis edilib.
Sədr - Mirqadir Mənsur.
Ünvan: Oranienstr. 159 - 10969 Berlin

**"Xəzər" Cəmiyyəti**
Cəmiyyət 1997-ci ildə Hannoverdə təsis edilib.
Rəhbəri - Hüseynağa Qəniyev
Ünvan: Plaunerstr. 31 - 30179 Hannover

**Azərbaycan Türklərinin Mədəniyyət Mərkəzi**
1997-ci ildə təsis edilib.
Rəhbəri -Kənan Günaydın
Cəmiyyət əsasən Frankfurt-Mayn şəhərində fəaliyyət göstərir.
Ünvan: Münchbruchstrasse 57 - 65450 Kelsterbach

**Maynts Azərbaycan Cəmiyyəti**
1993-cü ildə Maynts şəhərində təsis edilib.
Rəhbəri - Başar Kömür.
Ünvan: Heidelberqer Fassdasse 11 - 55116 Maynts

**Azərbaycan Kültür Cəmiyyəti**
1990-cı ildə Stutqart şəhərində təsis edilib.





Rəhbəri - Cumali Turan
Ünvan: Landuerstrasse 29 - 70499 Stutqart

**Azərbaycan Kültür və Dayanışma Cəmiyyəti**
1990-cı ildə Köln şəhərində təsis edilib.
Rəhbəri - İbrahim Alev
Ünvan: Karolinqerstr. 25 - 50676 Köln

**Azərbaycan Akademik Birliyi**
2001-ci ildə Boxum şəhərində təsis olunub.
Rəhbəri - Qurban Ələkbərov
Ünvan: P.O. Box 25 01 12 D - 44739 Boxum
Web - www.asav.org
e-mail - kourban.alekperov@asav.org

## *Belçika*

**Avropa Azərbaycanlılar Mərkəzi**
(European Azerbaijanian Centre)
Cəmiyyətin prezidenti: Fatma Əliyeva
Ünvan: Chaussee de Haecht 201, 1030 Schaerbeek-Bruxelles
e-mail: avropa.azerbaycanlilar.merkezi@skynet.be

**Belçika Azərbaycan Evi**
Cəmiyyətin prezidenti: Bülənt Gürçam
Ünvan: Rue du Fajteur 3, 1080 Bruxelles.
Web: www.diaspora-az.com.

## *Niderland*

**Benilüks Azərbaycanlıları Konqresi**
Sədr - Sahil Qasımov
16.11.2006-cı il tarixində Amsterdam şəhərində yaradılıb.
Ünvan: P.O.Box 93516

1090 EA Amsterdam The Netherlands
E-mail: caspint@planet.nl

**Azərbaycan - Türk Mədəniyyət Mərkəzi**
1993-cu ildə Haaqa şəhərində yaradılıb.
Sədr: İlhan Aşqın
Ünvan: Shcalkburger str. 198 2572 VD Den Haag, Hollanda
Web: www.turkazned.com

**Azərbaycan-Hollandiya Həmrəylik Cəmiyyəti**
Sədr: Elsevər Məmmədov
Ünvan: Monanstrat - 90, 3094GL Rotterdam
E-mail: e.mammadov@hotmail.com

### *Böyük Britaniya*

**Azərbaycan Cəmiyyəti**
2005-ci ilin yanvar ayında yarıdılıb.
Londonun İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin nəzdində fəaliyyət göstərir.
Rəhbəri: Tale Heydərov

**Vətən, Azərbaycan İnkişaf Cəmiyyəti**
Rəhbəri -Murad Oğuz-Həsənli.
Ünvan: 29 Whitley House, Churchill Gardens, London SW1V 3BH, United
E-mail: info@vatan.org.uk
Web səhifəsi: www.vatan.org.uk

**Britaniya Azərbaycan İcması**
Ünvan: P.O.Box 3527 Brajknell Berkshire RG12 8 LC
Rəhbəri -Fərəməz Əkbəriya





**Azərbaycan Türkləri Cəmiyyəti**
Sədr: Şahrux Məzhəri

**Azərbaycanlı Gənclərin Klubu**
Cəmiyyət 2005-ci ilin iyul ayından fəaliyyət göstərir
Rəhbəri: Vüsal Həmzəyev
Ünvan: 108 The Mall Harrow, Middlesex HA3 9TG

**Caspian-Khazri (London Azərbaycan Məktəbi)**
Rəhbəri: Simuzər Baloğlanova
Ünvan: 76 B/C Fore Street, Edmonton, London N18 2SL
E-mail: info@caspian-khazri.com
Web: www.caspian-khazri.com

### *Fransa Respublikası*

**"Azərbaycan evi" Assosiasiyası**
Parisdə fəaliyyət göstərir.
Rəhbəri – Səid İsmayılov

**Azərbaycan Kültür Mərkəzi**
Strasburqda fəaliyyət göstərir.
Rəhbəri – Əhməd Mehribani

**Fransada Azərbaycanlı Tələbələr Assosiasiyası**
1999-cu ildən Strasburqda fəaliyyət göstərir.
Rəhbəri – Məmməd İsmayılov
Ünvan: Maison des Associations 1 a, place des Orphelins 67000 Strasburq, Franse.

**Azərbaycan - Fransa Azad Mübadilələr Assosiasiyası**
Qrenobl şəhərində fəaliyyət göstərir.
Rəhbəri – Ağasəlim Rəsulov

**Təhsil və Tədqiqatların İnkişafı Üzrə Fransa - Azərbaycan Tələbə Assosiasiyası**
2001-ci ildə Qrenobl şəhərində yaradılıb.
Rəhbəri – Fazil Zeynalov
Ünvan: 11, rue General Mangin, appt 121, 38100 Qrenoble

**"Azərbaycan Fransız Gənclik Assosasiyası" - AFGA**
2003-cü ilin oktyabr ayında təsis olunub.
Rəhbəri - Mirvari Fətəliyeva
Ünvan: Paris, 55/61, rue de l'Assamption, 75016
E-mail: afajparis@yahoo.fr

**Fransa-Azərbaycan Assosiasiyası**
2006-cı ilin may ayında Tuluza şəhərində təsis olunub.
Rəhbəri - Rəşad Əliyev

**Azərbaycan Türk Mərkəzi**
05.05.2006-cı ildə təsis olunub.
Rəhbəri: Ali Alxan
Ünvan: 8, rue des Pigeons 67200, Strassbourg, France

**"Azərbaycan Tələbələr Assosiasiyası"**
Rəhbəri – Fərhad Rəhimli
E-mail: ragimli@azerbaijan.com.fr

**Strazburqda Azərbaycanlı Gəncləri Klubu**
Rəhbəri: Nahid Ramazanov
Ünvan: 10 Avenue, d' alsace 67000, Strasburq, Fransa
E-mail: club67000@yahoo.fr

**Strasburq "Azərbaycan Evi" Cəmiyyəti**
2006-cı ildə Strasburqda təsis edilib.
Rəhbəri: Mustafa Alınca





Ünvan: Maison de l'Azerbaidjan Azerbaycan Evi 7, rue Geiler 67000 Strasbourg-France
Web: http://www.maisondelazerbaidjan.fr

**Fransız - Azərbaycan Mədəni Əlaqələr Assosiasiyası "ARAZ"**
Paris şəhəri (2006-cı il),
Rəhbəri – Qulam Abiyar

**"Fransada Azərbaycanlıların Diaspora Mərkəzi" (FADM)**
2006-cı ilin oktyabr ayında Metz şəhərində təsis olunub.
Rəhbəri: Natella Abbasova

***İslandiya***

**İslandiya-Azərbaycan "Azəri"Cəmiyyəti**
Sədr: Zakir Jon Gasanov
Ünvan: Lundargata 9 Akureyri 600 İceland

***İspaniya***

**"Azərbaycanın Dostları Cəmiyyəti"**
Yaranma tarixi: 1980-ci il
Sədr: Cəlal Erkin
Ünvan: PO BOX 50851 28080-İspaniya, Madrid
E-mail: azeri-oguz@terra.es

**"Azəri" Cəmiyyəti**
Sədr: Hilal Məmmədov
Ünvan: C/. Pino, 99-Los Balcones 03180 Torreviexa (Alicante)

**"Dostluq" İspaniya-Azərbaycan Assosiasiyası**
Prezidenti: Cavid Səmədov - Barselona şəhəri

E-mail: s_cavid@hotmail.com
derenelli@yahoo.com

## *İtaliya*

**İtaliya-Azərbaycan "Dostluq" assosiasiyası**
Prezident: Zaur Fərhadov
Ünvan: 35137Padova, İtalia via Savonarola 176
E-mail: italia@diaspora.az

**"İtaliya-Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti"**
Milan şəhəri.
Rəhbər: Hüseynov Nürəddin İsmayıl oğlu
E-mail: huseynov58@yahoo.it

**"Nizami" Cəmiyyəti**
Rəhbər: Aynur Əliyeva
Roma şəhəri.
E-mail: aliyeva.aynur@yahoo.it

## *Danimarka*

**Danimarka-Azərbaycan Mədəniyyət Mərkəzi**
Arhus şəhərində fəaliyyət göstərir.
Sədr - Kərim Xan (Yaşar Azəroğlu)
İnternet saytı: www.indvndr-erradio.dk.

**Danimarka-Azərbaycan Cəmiyyəti**
Kopenhagen şəhərində fəaliyyət göstərir.
Sədr - Abbas Səidlər

## *İsveç*

**Azərbaycan Dərnəyi - Stokholm**
1996-cı ildə təsis edilib





Sədr: Məmməd Azər
E-mail: azerbaycan@azerbaycan.se
azerbaycan_1@hotmail.com
Web: www.azerbaycan.se

**Xəzər - Azərbaycan-İsveç Dostluq Cəmiyyəti**
İsveçin Malmö şəhərində fəaliyyət göstərir.
Sədr - Leyli Kiani
E-mail: leila_kiani@hotmail.com
leila.kiani@malmo.se

**Qarabağ**
Stokholm şəhərində fəaliyyət göstərir.
Sədr - Abdulla Amir Haşimi
Ünvan: Klockarvagen 7, bv 141 61 Huddinge, Söeden
E-mail: abdulla_amir_hashimi@hotmail.com
abdulla_55@yahoo.com

**Azərbaycan İsveç Komitəsi**
Azərbaycan İsveç Komitəsi 2001-ci ildə Malmö şəhərində təsis olunub.
Ünvan : Parternasgqand 9:21, 226 47 Lund, İsveç
Sədr - Manaf Səbabi

**"Araz" Cəmiyyəti**
Malmö şəhərində fəaliyyət göstərir
Sədr - Səyid Cabbar Səyidzadə
E-mail: beledir.cabbar.settaroglu@malmo.com

**"Ərk" Cəmiyyəti**
Stokholmda fəaliyyət göstərir.
Sədr - Səttar Sayın Sevigin
E-mail: sayin.sevigin@telia.com

**"Savalan" dərnəyi**
Höteburq şəhərində fəaliyyət göstərir
Sədr - Dadaş Aslanzadə

**"Durna" Cəmiyyəti**
Stokholmda fəaliyyət göstərir.
Sədr – Ruhəngiz Həddadi

**"Mişov" Dərnəyi**
Yösdal şəhərində fəaliyyət göstərir.
Sədr – Xəlil Fədai

**"Günəş" Qadınlar Dərnəyi**
Stokholmda fəaliyyət göstərir.
Sədr: Əfsanə

**"Azərbaycan naminə"**
20 oktyabr 2005-ci ildə Stokholmda təsis edilib
Sədr: Nadir Hollenbrand
E-mail: nadirhollenbrand@yahoo.com

**İsveç-Azərbaycan Kültür və Humanitar Dərnəyi**
10 oktyabr 2005-ci ildə təsis edilib
Sədr: Babək Tağızadə
Ünvan: Grevddersvdden 4k 222 28 Lund Sweeden
E-mail: kanazali@yahoo.com

**Azərbaycan Kültür Dərnəyi (Malmö şəhəri)**
1989-cu ildə Malmö şəhərində təsis edilib
Sədr: Əjdər Tağızadə
Ünvan: Skelpundstorget 10c 234 37 Lomma Sweeden
E-mail: vahid1az@hotmail.com





**"Babək" kurslar dərnəyi**
Höteburq şəhərində fəaliyyət göstərir.
Sədr: Azər Heydər qızı Farroukhi Adl

**Azərbaycan akademik birliyi**
Höteburq şəhərində fəaliyyət göstərir.
Sədr: Bəhram Atabəyli
E-mail: ata@chalmers.se
b.atabeyli@telia.com

*İsveçrə*

**İsveçrə-Azərbaycan Dostluq Cəmiyyəti**
Rəhbəri: Kamil Tağısoy
Ünvan: Zürih şəhəri
E-mail: kamiltagisoy@hotmail.com

**Azərbaycan Kültür Dərnəyi**
1992-ci ildə təsis olunub
Rəhbəri: Fərhad Ulduz
Ünvan: Tcalaturn (Bern şəhərindən 50-60km.)

**İsveçrə Azərbaycan Türkləri Kültür Dərnəyi (İATKD)**
2003-cü ildə Bern şəhərində təsis olunub
Sədr: Elçin Cəfərov
E-mail: turkculuk@bluemail.ch
rahimazad@yahoo.com
azeri_turan@hotmail.com

**"İsveçrə-Azərbaycan" dərnəyi**
Sədr-Rəhim Sulduz
DAK-ın Dj. Deraxti qanadının İsveçrə bölgə nümayəndələri.
E-mail: rahimazad@yahoo.com
isvecre_dostluq@yahoo.com

**"Azərbaycan Türkləri" Kültür Dərnəyi**
1992-ci ildə yaradılıb.
Ünvan: Zukhwulerstr. 16 Schweiz Soloxum
Sədr-Nürəddin Turan
Ünvan: Brüqqmoosstrasse 4, 4500 Solothurn
E-mail: ekber.qence@ hotmail.com

**İsveçrədə "Azərbaycanın Demokratik Tələbə və Gənclər Birliyi"**
Sədr – Rəşad Cəfərov
Landoltstrasse 1, 3007 Bern, Switzerland.
E-mail: turan@iatkd.ch

**"İsveçrədəki Azərbaycanlıların Mədəniyyət Mərkəzi"**
Sədr – Qasım Nəsirov
Bern şəhəri
E-mail: udugey@bluewin.ch

*Norveç*

**Norveç Azərbaycan Mədəniyyət Mərkəzi**
1989-cu ildə Oslo şəhərində yaradılıb.
Sədr -Yaqub Cahid (6 aydan bir sədr dəyişilir)

**"ANA" -Azərbaycan-Norveç Assosiasiyası**
Oslo şəhərində fəaliyyət göstərir.
Sədr: Toğay Əhmədzadə

**Norveç-Azərbaycan mədəni cəmiyyəti**
22 may 2002-ci ildə Stavanger şəhərində təsis edilib.
Sədr: İraj Esmailli
E-mail: zeinalova@sff.no
esmaely@gmail.com





*Çexiya Respublikası*

**Azər-Çex Cəmiyyəti**
2002-ci il 28 may tarixində təsis edilib.
Sədr - Elşən S. Nəzərov
Ünvan: Hlivicka 417/22 181 00 Prague Czech Republic
E-mail: info@diaspora.cz
Web: www.diaspora.cz

*Rumıniya*

**Azərbaycan Mədəniyyət və Gənclər Assosiasiyası**
2001-ci ildə Buxarestdə təsis edilmişdir.
Prezidenti - Fərid Rəhmanov

*Belarus Respublikası*

**Belarus Azərbaycan icmaları Konqresi.**

Belarus Respublikasında fəaliyyət göstərən Azərbaycan Cəmiyyətləri nümayəndələrinin iştirakı ilə 23 noyabr 2002-ci ildə Minsk şəhərində təsis edilmişdir.

Konqresin sədri - Natiq Bağırovdur.
Unvan: Minsk şəhəri, Radujnaya küç., ev 13, m. 8

**Belarus Azərbaycan icmaları Konqresinin regional təşkilatları:**
"Qobustan"Mədəni-Maarif İctimai Birliyi
1990-cı ilin sentyabr ayında Minsk şəhərində yaradılmışdır.
Birliyin prezidenti - Natiq Bağırovdur.
Ünvan: 220020, Minsk şəhəri, Radujnaya küç., ev13, m. 8

**"Xəzər " Azərbaycan İctimai Birliyi**
2001-ci ilin iyun ayında Mogilyov şəhərində yaradılmışdır.

Cəmiyyətin sədri - Tapdıq Ahuşovdur.
Ünvan: 220040, Mogilyov şəhəri, Dmitrov prospekti, ev 55, m. 235

**Azərbaycan Tarix və Mədəniyyət Cəmiyyəti**
2000-ci ildə Bobruysk şəhərində yaradılmışdır.
Cəmiyyətin sədri - Ədalət Həsənovdur.
Ünvan: Bobruysk şəhəri, Tolstoy küçəsi, ev 74

**Azərbaycanlıların "Dostluq" İctimai Birliyi**
2001-ci ildə Qrondo şəhərində yaradılmışdır.
Birliyin sədri - Vahid Hüseynovdur.
Ünvan: Qrondo şəhəri, Folyuş küçəsi, ev 192, m. 24

## *Moldova Respublikası*

**Moldova Azərbaycanlıları Konqresi**
2001-ci ildən Kişinyov şəhərində fəaliyyət göstərir.
Konqresin prezidenti - Vüqar Novruzov
Ünvan: Kişinyov şəhəri, Burcuresti, 91
E-mail: vnovruzov@azmol.org

## *Latviya Respublikası*

**"Azəri Vəhdət" Cəmiyyəti**
Sədr-Əlirza Hüseynov
Ünvan: Alberta iela 12, of 13 Riqa, LV-1010, Latviya
E-mail: azeri-vahdat@mail.ru

**Latviya-Azərbaycan Kültür Assosiasiyası**
1988-ci il tarixində yaradılıb.
Sədr-Faiq Səfərov
Ünvan: P\K 42, Riqa, LV-1076, Latvia
E-mail: latvia-Azerbaijan@ inbox.lv





## *Litva Respublikası*

**Litva Azərbaycanlıları Cəmiyyəti**
1988-ci ildən Vilnüsdə fəaliyyət göstərir.
Cəmiyyətin Sədri -Mahir Həmzəyev
Ünvan: Raugyklos 25, LT - 2001, Vilnius, Lithuania
E-mail: tbn@takas.lt

**"Günəş" Assosiasiyası**
2006-ci il tarixində yaradılıb.
Sədr-Sadıx Nurullayev

## *Estoniya Respublikası*

**Estoniya Azərbaycan İcması**
1988-ci ildən Tallinda fəaliyyət göstərir.
İcmanın fəxri sədri - Niyazi Hacıyev
İcmanın sədri - Oktay Zeynalov
Ünvan: 10505, Tallin ş. p/k 3272
İnternet saytı: www.azeri.ee.

## *Türkiyə Respublikası*

Türkiyə Respublikasında 3 milyona yaxın azərbaycanlı yaşayır.

**"İzmir Azərbaycan Kültür Evi və Dayanışma Dərnəyi"**
(2002-ci il)
Cəmiyyətin sədri - Turqut Arat

**"Manisa Azərbaycan Kültür və Dayanışma Dərnəyi "**
(2002-ci il)
Cəmiyyətin sədri - Seyfeddin Ayakyay

**"İzmir–Azərbaycan Kültür Mərkəzi və Dayanışma Dərnəyi"**
(2003-cü il)
Cəmiyyətin sədri - Latif Sav

**"Kocaeli Azərbaycan Evi Dərnəyi"**
(2003-cü il)
Cəmiyyətin sədri - Bilal Dündar

**"Çanakkale Azərbaycan Evi Dərnəyi"**
(2003-cü il)
Cəmiyyətin sədri - Sadetdin Gündüz

**"Balıkesir Azərbaycan Evi Dərnəyi"**
(2003-cü il)
Cəmiyyətin sədri - Ayhan Candemir

**"Aydın Azərbaycan Evi Dərnəyi"**
(2003-cü il)
Cəmiyyətin sədri - Yunus Zaman

**"Muğla Azərbaycan Evi Dərnəyi"**
( 2002-ci il)
Cəmiyyətin sədri - Atacan Sayılan

**"Adana Azərbaycan Kültür və Dayanışma Dərnəyi"**
(2002-ci il)
Cəmiyyətin sədri - Yakup Bulut

**"Antalya Azərbaycan Evi Dərnəyi "**
(2002-ci il)
Cəmiyyətin sədri - Oktay Dinç

**"Ankara Azərbaycan Kültür və Dayanışma Dərnəyi"**
(2001-ci il)
Cəmiyyətin sədri - Yakup Deniz





**"Iğdır Azərbaycan Kültür və Dayanışma Dərnəyi "**
(2002-ci il)
Cəmiyyətin sədri - Veli Teberrü

**"Hatay Azərbaycan Türk Kültür Mərkəzi"**
(2001-ci il)
Cəmiyyətin sədri - Bayram Türkoğlu

**"Manisa Turqutlu Azərbaycan Kültür və Dayanışma Mərkəzi"**
(2002-ci il)
Cəmiyyətin sədri - Bayram Balo

**"Hatay Dörtyol Azərbaycan Türk Kültür Dərnəyi"**
(2003-cü il)
Cəmiyyətin sədri - Kenan Yücə

**"İstanbul Azərbaycan Kültür və Dayanışma Dərnəyi"**
(2002-ci il)
Cəmiyyətin sədri - Mübariz Mənsimov

**"Azərbaycanlılar Dayanışma Dərnəyi"**
(2003-cü il)
Cəmiyyətin sədri - Timur Selçuk

**"Edirnə Azərbaycan Evi Dərnəyi "**
(2002-ci il)
Cəmiyyətin sədri - Tamer Karadağ

**"Türk–Azərbaycan Dostluq, Kültür və Dayanışma Dərnəyi"**
(2002-ci il)
Cəmiyyətin sədri - Salih Bayraktar

**"Şimali Kipr Türk Respublikasında Azərbaycan Dərnəyi"**
(2005-ci il)
Cəmiyyətin sədri - Fəxrəddin Məmmədov

## *Özbəkistan Respublikası*

**Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyası**
Sədr- Akif Ağatalıbov
Daşkənd şəhəri

**"Qardaşlıq" Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr- Mobil Məmmədov
Daşkənd şəhəri

**"Azərbaycan-Özbəkistan" mədəni-iqtidadi əlaqələr mərkəzi**
Sədr- Səxavət Hacıyev
Səmərqənd şəhəri

**Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr- Teyyub Qasımov
Kaqan şəhəri

**Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr- Fazil Həmidov
Fərqanə şəhəri

**Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr- Alim Babayev
Buxara şəhəri

**Azərbaycan Gənclər Təşkilatı**
Sədr- Məmməd Əsgərov
Daşkənd şəhəri





**Azərbaycan Qadınlar Şurası**
Sədr- Stella Rəhmanova
Daşkənd şəhəri

## *Qazaxıstan*

**Azərbaycanlıların sayı:**
**Rəsmi statistikaya görə – 130 000**
**Qeyri-rəsmi məlumata görə- 300 000**

**"Turan" Azərbaycan Mədəniyyət Mərkəzi**
1992-ci ildə Almatı şəhərində təsis edilib.
Sədr –Əbülfəz Xamedov
Almatı şəhəri

**"Ozan" Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr- Eyvaz Məmmədhəsənov
Almatı şəhəri

**"Naxçıvan" Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr-Fəxrəddin Məhərrəmov
Taldıqurqan şəhəri

**"Azəri" Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr- Əli Nəcəfov
Taraz şəhəri

**"Xəzər" İctimai Birliyi**
Sədr- Vidadi Ağayev
Astana şəhəri

**"Birlik" Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr- Niyazi Mirzəyev
Uralsk şəhəri

**"Namus" Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr-Aqif Məmmədov
Karaqanda şəhəri

**"Heydər" Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr- Fəyaz Axundov
Ustanay şəhəri

**"Dostluq" Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr- Yusif Quliyev
Aktau şəhəri

**"Vətən" Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr- Cəfər Mahmudov
Pavlodar şəhəri

**"Novruz" Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr- Gülağa İldırımov
Petropavlovsk şəhəri

**"Novruz" Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr-Eldar Əhmədov
Atrau şəhəri

**"Dostluq-Azərbaycan" Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr- Fərhad Tağıyev
Aktubinsk şəhəri

**Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr- Nizami Məmmədov
Çu şəhəri

**Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr- İslam Qurbanov
Şimkənd şəhəri





**Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr- Mirəli Bünyadov
Ekubastus şəhəri

**Azərbaycan Gənclər Təşkilatı**
Sədr- Adil Şəkərəliyev
Almatı şəhəri

***Qırğızıstan Respublikası***

**"Azəri" İctimai Birliyi**
Sədr – Akif Allahverdiyev
Bişkek şəhəri

**"Azərbaycanın Dövlət Siyasətinə Dəstək Fondu"**
Sədr- Nüsrət Məmmədov
Bişkek şəhəri

**"Azərbaycan" Gənclər Təşkilatı**
Sədr- Qoşqar Əsədov
Bişkek şəhəri

***Tacikistan Respublikası***

"Dostluq" Azərbaycan Mədəniyyət Mərkəzi
Sədr- Müslüm Həmidov
Düşənbə şəhəri

***Gürcüstan***

**Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr – Məmməd Gülməmmədov
Tibilisi şəhəri

**"Qeyrət" Xalq Hərəkatı**
Sədr – Əlibaba Əsgərov
Marenuli şəhəri

**Gürcüstan Azərbaycanlıların Ziyalılar Birliyi**
Sədr – Novruz Bayramov
Marenuli şəhəri

**Acarıstan Gürcü-Azərbaycan Xeyriyyə Cəmiyyəti**
Sədr – Vidadi Axundov
Batumi şəhəri

**"Birlik" Ümümgürcüstan Azərbaycan Cəmiyyəti**
Sədr – Süleyman Süleymanov
Tibilisi şəhəri

**"Ozan" cəmiyyəti**
Sədr – Kamil Musayev-Kirəcli
Tibilisi şəhəri

**"Azərbaycan Gənclər Birliyi"**
1997-ci ildə Tbilisidə yaradılıb.
Prezident – Emiliya Xəlilova

**Gürcüstan Azərbaycanlılarının «Yeni Yol» İttifaqı**
Sədr – Kamal Muradxanlı
Tibilisi şəhəri
**Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr – Fazil Həsənov
Marneuli şəhəri

**"Ədalət" cəmiyyəti**
Sədr – Şahin Quliyev
Qardaban rayonu





**"Gürcüstan mənim vətənimdir" cəmiyyəti**
Sədr – Əli Babayev
Tibilisi şəhəri

**Gürcüstandakı Azərbaycan İcmasının İnkişaf Mərkəzi**
Sədr – Mübariz Qarayev
Tibilisi şəhəri

**Dayaq Assosiasiyası**
Sədr – Əlixan Abbasov
Qardaban şəhəri

**"Gürcüstan-Azəri" Qadınlar Cəmiyyəti**
Sədr – Leyla Süleymanova
Tibilisi şəhəri

**"Azəri Türkləri" Birliyi**
Sədr – Akif Qarayev
Marneuli şəhəri

**Gürcüstan Azərbaycanlılarının Milli Assambleyası**
Sədr – Daşqın Gülməmmədov
Tibilisi şəhəri

### *Pakistan*

**Pakistan - Azərbaycan Dostluq Cəmiyyəti**
2003-ci ildə təsis edilib.
Cəmiyyətin sədri - Xalid Mahmud
Ünvan: İslamabad şəhəri, F-8/2, 25-ci küçə, ev 20
Email: ambkmahmood2002@hotmail.com

*Misir Ərəb Respublikası*

"Vətən Tələbə Təşkilatı"
(2002-ci il)
Cəmiyyətin sədri: Pərviz Musayev

*Birləşmiş Ərəb Əmirliyi*

**Azərbaycan Cəmiyyəti**
2004-ci ildə Dubay şəhərində təsis edilib.
Cəmiyyətin sədri - Samir İmanov
Ünvan: P.O. Box 14618 Dubai UEA
Email: samir_iman@yahoo.com

*Çin Xalq Respublikası*

**"Çin azərbaycanlıları" İctimai Birliyi**
Sədr- Nizami Mirzəliyev
Pekin şəhəri
E-mail: az_diaspora_cn@yahoo.com

*Rusiya Federasiyası*

**"AZERROS" Rusiyada Azarbaycanıların Federal Milli-Mədəni Muxtariyyatı**
1999-cu ilin oktyabr ayında Moskva şəhərində yaradılıb.
Sədr - Söyün Sadıqov
Ünvan: Moskva ş., Xavskaya küç., 26
www.azerros.ru

**Ümumrusiya Azərbaycan Konqresi**
2001-ci ilin mart ayında Moskva şəhərində təsis edilib.
Prezident - Məmmədbağır Əliyev
Ünvan: Moskva ş., Leninqrad pr-ti, 31





**ÜAK-ın regional bölmələri:**

*Adıgey Respublikası*
2001-ci ilin fevral ayında Maykop şəhərində yaradılıb.
Sədr - Qabil Rizayev
Ünvan: Maykop ş., Jukovski küç., ev 40
*Başqırdıstan Respublikası*
2001-ci ilin fevral ayında Ufa şəhərində yaradılıb.
Sədr - Etibar Haqverdiyev
Ünvan: Ufa ş., Rossiyskaya küç. 31, mən 67
*Buryatiya Respublikası*
1997-ci ilin noyabr ayında Ulan-Ude şəhərində yaradılıb.
Sədr – Yusif Jəfərov
Ünvan: Ulan-Ude ş., 50-letiya Oktyabrya pr-ti, ev 20/39
*Dağıstan Respublikası*
2001-ci ilin mart ayında Dərbənd şəhərində yaradılıb.
Sədr-Seyran Rəhimov
Ünvan: Dərbənd ş. Avain küç., ev 2, korp.7
*Kabardino-Balkar Respublikası*
Sədr – Ağabala Dadaşov
*Qaraçay-Çərkəz Respublikası*
2001-ci ilin mart ayında Çerkask şəhərində yaradılıb.
Sədr - Bulud Fətullayev
Ünvan: Çerkask ş., Şirşov küç., 120
*Kareliya Respublikası*
Sədr – Gürşad Gülmalıyev
*Komi Respublikası*
2001-ci ilin fevral ayında Uxta şəhərində yaradılıb.
Sədr – Akif Mikayılov
Ünvan: Uxta ş., Puşkin küç., 2
*Mariy-El Respublikası*
2001-ci ilin fevral ayında Yoşqar-Ola şəhərində yaradılıb.
Sədr – İsa Ağamalıyev
Ünvan: Yoşqar-Ola ş., Severnaya küç., 59

*Saxa (Yakutiya) Respublikası*
Sədr - Rafiq Qafarov
Ŏnvan: Lensk şəhəri. Dzerjinskiy küç,25, ev 9
*Şimali Osetiya Respublikası -Alaniya*
2001-ci ilin fevral ayında Vladiqafqaz şəhərində yaradılıb.
Sədr – Vaqif Əliyev
Ünvan: Vladiqafqaz ş., General Pliyev küç., 28
*Tatarıstan Respublikası*
Sədr - Elman Həsənov
*Tuva Respublikası*
Sədr - Veysəl Ələkbərov
*Udmurt Respublikası*
2001-ci ilin mart ayında Qlazov şəhərində yaradılıb.
Sədr – Arzu İsmayılov
Ünvan: Qlazov ş., Tretya küç., ev 29
*Çuvaş Respublikası*
2001-ci ilin fevral ayında Çeboksar şəhərində yaradılıb.
Sədr – Əziz Bədirov
Ünvan: Çeboksar ş., Kalinin küç., ev 104 mən. 25
*Altay Diyarı*
2001-ci ilin fevral ayında Barnaul şəhərində yaradılıb.
Sədr – Şahhüseyn Salmanov
Ünvan: Barnaul ş., Lenin pr-ti, 135, mən. 61
*Krasnodar diyarı*
2001-ci ilin fevral ayında Krasnodar şəhərində yaradılıb .
Sədr - Fikrət Qasımov
Ünvan: Krasnodar ş., Krasnoarmeyskaya küç., 53
*Krasnoyarsk diyarı*
Sədr – Taleh Mahmudov
*Primorsk diyarı*
2001-ci ilin mart ayında Vladivostok şəhərində yaradılıb.
Sədr – Mərdan Novruzov
Ünvan: Vladivostok ş., Russkaya küç., 94 mən. 810





*Stavropol diyarı*
2001-ci ilin fevral ayında Stavropol şəhərində yaradılıb.
Sədr – Rüfət Əlizadə
Ünvan: Stavropol ş., Kovalyov küç., 19
*Xabarovsk diyarı*
2001-ci ilin fevral ayında Xabarovsk şəhərində yaradılıb.
Sədr - İmran Məmmədov
Ünvan: Xabarovsk ş., Şironov küç., 60 k.1, mən. 42
*Amur vilayəti*
Sədr – İldırım Məmmədov
*Arxangelsk vilayəti*
2001-ci ilin fevral ayında Arxangelsk şəhərində yaradılıb.
Sadr - Cəmil Əliyev
Ünvan: Arxangelsk ş., Oktyabryat küç., 42
*Həştərxan vilayəti*
2001-ci ilin fevral ayında Həştərxan şəhərində yaradılıb.
Sədr - Ədalət Hüsseynov
Ünvan: Həştərxan ş., Zvyozdnaya 47, k 3, mən. 53
*Belqorod vilayəti*
2001-ci ilin fevral ayında Belqorod şəhərində yaradılıb.
Sədr - Nəcəf Həsənov
Ünvan: Belqorod ş., Xmelnitskiy, 86
*Bryansk vilayəti*
2001-ci ilin fevral ayında Bryansk şəhərində yaradılıb.
Sədr - Şəhriyar Heydərov
Ünvan: Bryansk ş., Orlovskaya küç., 21
*Vladimir vilayəti*
2001-ci ilin fevral ayında Vladimir şəhərində yaradılıb.
Sədr - Elman Tukanov
Ünvan: Vladimir ş., Lakin küç., 153
*Voloqda vilayəti*
2001-ci ilin fevral ayrnda Çerepovets şəhərində yaradılıb.
Sədr - Ataş Əliyev
Ünvan: Çerepovets ş., Molodyojnaya küç., 33/46, mən. 23

*İvanov vilayəti*
2001-ci ilin fevral ayında İvanovo şəhərində yaradılıb.
Sədr - Sərraf Məmmədov
Ünvan: İvanovo ş., P.Kommuna küç., 15
*İrkutsk vilayəti*
Sədr - Əlirza Salayev
Baykalsk şəhəri, Qaqarin küç 30/35
*Kalininqrad vilayəti*
2001-ci ilin mart ayında Kalininqrad şəhərində yaradılıb.
Sədr - Tofiq Rzayev
Ünvan: Kalininqrad ş., Dm.Donskoy küç. 7, mən. 121
*Kalucsk vilayəti*
Sədr – Ramazan Paşayev
Tarussk rayonu, İnşaatçılar qəsəbəsi, ev 29
*Kamçatka vilayəti*
2001-ci ilin fevral ayında Petropavlovsk-Kamçatsk şəhərində yaradılıb.
Sədr – Saleh Ələkbərov
Ünvan: Petropavlovsk-Kamçatsk ş., Larin küç., 10/2
*Kirov vilayəti*
2001-ci ilin fevral ayında Kirov şəhərində yaradılıb.
Sədr - Ramiz Əfəndiyev
Ünvan: Kirov ş., Nekrasov küç., 32 mən. 36
*Kostroma vilayəti*
2001-ci ilin mart ayında Kostroma şəhərində yaradılıb.
Sədr – İbadulla Babayev
Ünvan: Kostrama ş., İvanovsk küç., 23, mən. 4
*Kurqan vilayəti*
2001-ci ilin fevral ayrnda Kurqan şəhərində yaradılıb.
Sədr - Ərşad Çuvarlinski
Ünvan: Kurqan ş., Konstitusiya pr-ti, 35
*Leninqrad vilayəti*
Sədr - Elsevan Mirzəyev





*Lipeçk vilayəti*
Sədr – Zakir Şabanov
Lipetsk şəhəri,ev 28,mən 30
*Maqadan vilayəti*
Sədr – Nazim Mirzəyev
*Moskva vilayəti*
2001-ci ilin mart ayında Dzerjinsk şəhərində yaradılıb.
Sədr - Mirzəbala Musayev
Ünvan: Dzerjinsk ş., Uqrejskaya ku9., 14
*Murmansk vilayəti*
Sədr – Mirrafiq Bədirov
*Nijneqorodsk vilayəti*
2001-ci ilin fevral ayında Nijni - Novqorod şəhərində yaradılıb.
Sədr - Məmmədcamal Məmmədov
Ünvan: Nijni-Novqorod ş., İnternasional küç., 19, mən. 7
*Novqorod vilayəti*
Sədr – Elşad Qurbanov
*Novosibirsk vilayəti*
2001-ci ilin fevral ayında Novosibirsk şəhərində yaradılıb.
Sədr – Elman Əliyev
Ünvan: Novosibirsk ş., İnskaya küç., 1 a
*Omsk vilayəti*
Sədr – Vahid Həsənov
*Orenburq vilayəti*
Sədr - Ələddin Məmmədov
*Orlov vilayəti*
Sədr – Namiq Hajıyev
*Penza vilayəti*
Qalib Zeynalov
*Perm vilayəti*
2001-ci ilin mart ayında Perm şəhərində yaradılıb.
Sədr - Camal Məmmədov
Ünvan: Perm ş., Belyayev küç., 33

*Rostov Vilayəti*
2001-ci ilin fevral ayında Volqodonsk şəhərində yaradılıb.
Sədr - Şakir Allahverdiyev
Ünvan: Volqodonsk ş., Entuziast küç., 3 otaq 125
*Ryazan vilayəti*
2001-ci ilin fevral ayında Ryazan şeherinde yaradılıb.
Sədr - Bəhram Ömərov
Ünvan: Ryazan ş., Novoselov küç.,19, mən. 99
*Samara vilayəti*
2001-ci ilin fevral ayında Samara şəhərində yaradılıb.
Sədr – Şirvan Kərimov
Ünvan: Samara ş., Revolyutsionnaya küç., 75
*Saratov vilayəti*
2001-ci ilin fevral ayında Saratov şəhərində yaradılıb.
Sədr - Vladimir Muradov
Ünvan: Saratov ş., Çernışevski küç., 160/164
*Sverdlov vilayəti*
2001-ci ilin mart ayında Yekaterinburq şəhərində yaradılıb.
Sədr – Şahin Şıxlinski
Ünvan: Yekaterinburq ş., Qoqol küç., 25
*Smolensk vilayəti*
Sədr – Yusif Quliyev
*Tambov vilayəti*
Sədr – Rəhim Hüseynov
*Tver vilayəti*
2001-ci ilin mart ayında Tver şəhərində yaradılıb.
Sədr – Sərdar Abdullayev
Ünvan: Tver ş., Pobeda küç., 9
*Tomsk vilayəti*
2001-ci ilin fevral ayında Tomsk şəhərində yaradılıb.
Sədr – Ələkbər Rəhimov
Ünvan: Tomsk ş., Safinıx küç., 5
*Tula vilayəti*
2001-ci ilin mart ayında Tula şəhərində yaradılıb.





Sədr - Lətif Abbasov
Ünvan: Tula ş., Volkov küç., 1
*Tümen vilayəti*
Sədr – Fizuli Burjuyev
Tümen şəhəri, Şirotniy küçəsi 107,mən 66
*Ulyanovsk vilayəti*
2001-ci ilin fevral ayında Ulyanovsk şəhərində yaradılıb.
Sədr – İslam Hüseynov
Ünvan: Ulyanovsk ş., Lenin küç., 95
*Çelyabinsk vilayəti*
Sədr – Rəfael Quliyev
Çelyabinsk şəhəri, Qələbənin 40 il küçəsi 24, mən 69
*Yaroslav vilayəti*
Sədr – Ceyhun Soltanov
*Moskva şəhəri*
2001-ci ilin fevral ayında Moskva şəhərində yaradılıb.
Sədr - İlyar Hacıyev
Ünvan: Moskva ş., Usiyeviy kay., 12/14
*Taymır Muxtar Diyarı*
Sədr – Əligüşad Kərimov
*Xanti-Mansiysk Muxtar Diyarı*
2001-ci ilin mart ayında Megion şəhərində yaradılıb.
Sədr - Hacı Seyidov
Ünvan: Megion ş., Zareynaya küç., 15
*Yamalo-Nens Muxtar Diyarı*
Sədr – İlham Əliyev
*Sankt-Peterburq şəhəri*
2001-ci ilin fevral ayında Sankt- Peterburq şəhərində yaradılıb.
Sədr - Əlixan Musayev
Ünvan: Sankt-Peterburq ş., Telejnaya kay., 37

## Ukrayna

**Ukrayna Azərbaycanlıları Konqresi:**

Ukraynada fəaliyyət göstərən Azərbaycan Cəmiyyətləri nümayəndələrinin iştirakı ilə 21 mart 1999-cu ildə Kiyev şəhərində təsis edilmişdir.

Konqresin sədri: Akif Gülməmmədov

Ünvan: Kiyev şəhəri, Xorevaya küç.,3 a

**Ukrayna Azərbaycanlıları Konqresinin regional təşkilatları:**

*Vinnitsa vilayət regional təşkilatı:*

8 avqust 2000-ci ildə qeydiyyatdan keçmişdir.

Təşkilatın sədri Eyvaz Quliyevdir.

Ünvan: 21000, Vinnitsa şəhəri, 1-ci Kiyev döngəsi, ev 62, m. 16

*Volın vilayət regional təşkilatı:*

15 dekabr 2000-ci ildə qeydiyyatdan keçmişdir.

Təşkilatın sədri Əliheydər Bağırovdur.

Ünvan:43000, Lutsk şəhəri, Kravçuk küç., ev 2, m.53

*Dnepropetrovsk vilayət regional təşkilatı:*

18 aprel 2000-ci ildə qeydiyyatdan keçmişdir.

Təşkilatın sədri Qüdrət Hacıyevdir.

Ünvan:32006, Dnepropetrovsk şəhəri, Levanevsk küç., ev 70, m.1

49009, Dnepropetrovsk şəhəri, Metrostro-yevsk küş., ev 3, m.212

*Dnepropetrovsk vilayət regional təşkilatının Novomoskovsk şəhərində yerli mərkəzi:*

2000-ci ildə qeydiyyatdan keçmişdir.

Təşkilatın sədri Şikar Hüseynovdur.

Ünvan: 51210, Novomoskovsk şəhəri, Ukrainskaya küç., ev 1, m. 20





*Dnepropetrovsk vilayət regional təşkilatının Pavloqrad şəhərində yerli mərkəzi:*

2000-ci ildə qeydiyyatdan keçmişdir.

Təşkilatın sədri Maksud Şükürovdur.

Ünvan: 64541, Pavloqrad şəhəri, Xarkovskaya küç.,72

*Dnepropetrovsk vilayət regional təşkilatının Dneprodzerjinsk şəhərində yerli mərkəzi:*

2000-ci ildə qeydiyyatdan keçmişdir.

Təşkilatın sədri Ramil Əliyevdir.

Ünvan: 51900, Dneprodzerjinsk şəhəri,Lenin prospekti,15

*Donetsk vilayət regional təşkilatı:*

11 oktyabr 2000-ci ildə qeydiyyatdan keçmişdir.

Təşkilatın sədri Etibar Orujov

Ünvan: 83086, Donetsk şəhəri, Kobzev küç., 48

*Jitomir vilayət regional təşkilatı:*

1 dekabr 1999-cu ildə qeydiyyatdan keçmişdir.

Təşkilatın sədri Saatxan Hasılovdur.

Ünvan: 10031, Jitomir şəhəri, Kroşinskaya küç., ev 51, m.100

*Zakarpatye vilayət regional təşkilatı:*

1 mart 2000-ci ildə qeydiyyatdan keçmişdir.

Təşkilatın sədri Zakir Göyüşovdur.

Ünvan: 28000, Ujqorod şəhəri, Leqodsk küç., ev 76, m. 16

*Zaporojye vilayət regional təşkilatı:*

19 oktyabr 1999-cu ildə qeydiyyatdan keçmişdir.

Təşkilatın sədri Həbib Həsənlidir.

Ünvan: 69035, Zaporojye şəhəri, Rekordnaya küç., 26 a

Web: www.fort-sema.zp.ua

*İvano-Frankovsk vilayət regional təşkilatı:*

15 may 1999-cu ildə qeydiyyatdan keçmişdir.

Təşkilatın sədri Mətləb Nəzirovdur.

Ünvan: 76000, İvano-Frankovsk şəhəri, Naberejnaya küç., ev 26, m. 15

*Kiyev vilayət regional təşkilatı:*
8 yanvar 2000-ci ildə qeydiyyatdan keçmişdir.
Təşkilatın sədri Namiq Quliyev
Ünvan:Kiyev şəhəri.
*Kirovoqrad vilayət regional təşkilatı:*
30 mart 2000-ci ildə qeydiyyatdan keçmişdir.
Təşkilatın sədri Vilatət Məmmədovdur.
Ünvan: 25009, Kirovoqrad şəhəri, Revolyusiya küç., ev 17, m. 65
*Krım regional təşkilatı:*
11 fevral 2000-ci ildə qeydiyyatdan keçmişdir.
Təşkilatın sədri Rəhim Hümbətovdur.
Ünvan: 98676,Alupka şəhəri, a/q. 26.
Təşkilatın sədr müavini: Əli Orucov
Ünvan:95044, Simferopol şəhəri, Oktyabrın 60 illiyi küçəsi.
*Luqansk vilayət regional təşkilatı:*
24 sentyabr 2000-ci ildə qeydiyyatdan keçmişdir.
Təşkilatın sədri Mürvət Səididir.
Ünvan: 91000, Luqansk şəhəri, Volkov kvartalı, ev 35, m. 6
*Lvov vilayət regional təşkilatı:*
14 iyul 2000-ci ildə qeydiyyatdan keçmişdir.
Təşkilatın sədri Məcid Nuxiyevdir.
Ünvan: 79000, Lvov şəhəri, Puliy küç. Ev 9, m.61
*Nikolayev vilayət regional təşkilatı:*
2 fevral 2000-ci ildə qeydiyyatdan keçmişdir.
Təşkilatın sədri Ələddin Məhərrəmovdur.
Ünvan:54034, Nikolayev şəhəri, Stroitel küç., ev18, m. 77; 54034, a/q 108.
*Odessa vilayət regional təşkilatı:*
21 sentyabr 2001-ci ildə qeydiyyatdan keçmişdir.
Təşkilata rəhbərliyi şura tərəfindən həyata keçirilir.
Ünvan: 65000, Odessa şəhəri, Preobrajenskaya küş., 43
*Poltava vilayət regional təşkilatı:*
15 mart 2001-ci ildə qeydiyyatdan keçmişdir.





Təşkilatın sədri Telman Mahmudovdur.
Ünvan: 36000, Poltava şəhəri, Polzka küç., 45
*Rovno vilayət regional təşkilatı:*
10 may 2000-ci ildə qeydiyyatdan keçmişdir.
Təşkilatın sədri Yüsif Sadıüovdur.
Ünvan: 26000, Rovno şəhəri,Melnik küç., ev 14, m. 160 .
*Sevastopol vilayət regional təşkilatı:*
1 dekabr 2000-ci ildə qeydiyyatdan keçmişdir.
Təşkilatın sədri Çıngiz Bədəlovdur.
Ünvan: 98435, Sevastopol vilayəti, Baxçasaray rayonu, Uqlavoy qəsəbəsi, Lenin küş., 150
*Sum vilayət regional təşkilatı:*
21 yanvar 2000-ci ildə qeydiyyatdan keçmişdir.
Təşkilatın sədri Babazadə Bayramovdur.
Ünvan: 40000, Sum şəhəri, Kolesnikovsk küç., 1
*Ternopol vilayət regional təşkilatı:*
30 may 2001-ci ildə qeydiyyatdan keçmişdir.
Təşkilatın sədri Hidayət İbrahimovdur.
Ünvan: 46000, Ternopol şəhəri, Kiyevsk küç., ev 14, m.140
*Xarkov vilayət regional təşkilatı:*
3 mart 2000-ci ildə qeydiyyatdan keçmişdir.
Təşkilatın sədri Qurban Abbasovdur.
Ünvan: 61052, Xarkov şəhəri, Dmitriyevsk küç, ev28, m.61
*Xerson vilayət regional təşkilatı:*
25 sentyabr 2000-ci ildə qeydiyyatdan keçmişdir.
Təşkilatın sədri Əlimərdan Kərimovdur.
Ünvan: 73006, Xerson şəhəri, Sadovaya küç., 17a, 2-3-1
*Xmelnitski vilayət regional təşkilatı:*
21 mart 2001-ci ildə qeydiyyatdan keçmişdir.
Təşkilatın sədri Ceyhun Qasımovdur.
Ünvan: 29000, Xmelnitsk şəhəri,ev 3,m.18
*Çerkassk vilayət regional təşkilatı:*
18 oktyabr 2000-ci ildə qeydiyyatdan keçmişdir.
Təşkilatın sədri Tofiq Həsənov

Ünvan: 18000, Çerkassk şəhəri, Pasterovsk küç., 21

*Çerniqov vilayət regional təşkilatı:*

12 aprel 1999-ci ildə qeydiyyatdan keçmişdir.

Təşkilatın sədri Tahir Həsənovdur.

Ünvan: 14000, Çerniqov şəhəri,Krasnoselsk küç., ev 83, m.
112

*Çernovitsa vilayət regional təşkilatı:*

29 iyul 2000-ci ildə qeydiyyatdan keçmişdir.

Təşkilatın sədri Namiq Əliyevdir.

Ünvan: 58000, Çernovitsa şəhəri, Qaqàrin küç., ev 6, m. 4



# ƏLAVƏ 2

## DİASPOR VƏ LOBBİ MÖVZUSU İLƏ BAĞLI AZƏRBAYCANDA NƏŞR EDİLƏN KİTABLARIN ADLARI


1. Abdullayev Ç. Almaniya-Azərbaycan əlaqələri. Bakı, 2000.
2. Abdinov T. M. Ah, İstanbul... İstanbul...: Türkiyə-İstanbul 1993-1998. I kitab: Mühacirlik, mühacirlər və sairə... ; II kitab : İstanbul notları.. - Bakı : AVROPA, 2005. - 496 s.
3. Arzumanlı V. Azərbaycan diasporu: reallıqlar, qayğılar, problemlər. Bakı: Qartal, 2001, 800 s.
4. Arzumanlı V. Tarix siyasətin-siyasət tarixin dili ilə. Bakı: Qartal, 1999, 442 s.
5. Arzumanlı V., Hüseynov A. Azərbaycan ünvanlı... (xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan mədəniyyət mərkəzləri və cəmiyyətləri). Bakı: Qorqud, 1994, 110 s.
6. Arzumanlı V., Ağayev İ. Dünya Azərbaycanlıları Konqresi, dünən, bu gün və sabah. Bakı: Qartal, 2007. 188 s.
7. Azərbaycan diasporu: Böyük yolun başlanğıcı. Bakı: Çaşıoğlu, 2006. 208 s
8. Azərbaycan diasporu: tarix və nəzəriyyə. I buraxılış / AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu; red. Y. Mahmudov, elmi red. M. Seyidbəyli. - Bakı : Aspoliqraf LTD, 2005. - 92
9. Azərbaycan diasporuna dövlət qayğısı. Müasir mərhələ. Bakı: "Çaşıoğlu" 2006. - 172 səh.
10. Azərbaycan diasporuna dövlət qayğısı. İkinci nəşri. Bakı: "Çaşıoğlu" 2006. - 304 səh., şək.

11. Azərbaycan-Türkiyə: Bir millət iki dövlət Vahid diaspor. Bakı: Çaşıoğlu, 2007. 116 s.
12. Cəfərli M. Azərbaycan legion ədəbiyyatı. Bakı, 2005, Qapp-Poliqraf, 372 s.
13. Cəfərov N.Q. Azərbaycanşünaslığa giriş. Bakı: BNK, 2001. 119 s.
14. Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası. Bakı, 2005, 29 s.
15. Dünya Azərbaycanlılarının I Qurultayı / Ramiz Mehdiyevin redaktəsi ilə. Bakı, Azərbaycan nəşriyyatı, 2002, – 351 s.
16. Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı şəhəri 9-10 noyabr 2001-ci il. Məruzə. Bakı: 2001, 69 s.
17. Dünya Azərbaycanlılarının II Qurultayı. Bakı, "Çaşıoğlu", 2006, – 191 s.
18. Əlisa S. Neva sahillərində görüş. Bakı, Əbilov, Zeynalov və oğulları, 2003, 368 s.
19. Əliyev Z.B. Beynəlxalq münasibətlərdə diasporların rolu. Bakı: Nurlan, 2001, 150 s.
20. Əliyev Z.B. Dünya diasporları. Bakı: Qismət, 2005, 349 s.
21. Əsgəroğlu Ə. Özüm qürbətdə, gözüm vətəndə. Bakı, 2001
22. Həbiboğlu V. Azərbaycan diasporu yeni mərhələdə. Bakı, "Elm", 2006, 264 s.
23. Həbiboğlu V. Heydər Əliyev və Azərbaycan diasporu, Bakı, Qartal, 1999
24. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: Azərbaycan Nəşriyyatı, 2005, 752 s.
25. Həsənova Ş. Mühacirət irsimizdən səhifələr. Bakı, 1995
26. İsmayılov İ. Z. Dünya azərbaycanlıları XX əsrdə. Bakı: Azərb. DNA Mətbəsi, 1997, 270 s
27. Kəngərli Q.N. Erməni lobbisi. Azərbaycan faciəsi. Bakı: Yazıçı, 1992, 280 s.





28. Kərimli E.X. Moskvada Azərbaycan diasporu - nəzəriyyə və praktika. Bakı: Şuşa, 2001, 240 s.
29. Mehdiyev Ə.T. Millətin səsi: Azərbaycanlılar MDB məkanında I hissə .- Bakı : ŞƏMS, 2006. - 314 s
30. Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı: XXI-Yeni Nəşrlər Evi, 2005, 464 s.
31. Məmmədov İ. Avstriyanın qısa tarixi və Avstriya-Azərbaycan münasibətləri. Bakı, 2000.
32. Məmmədov R. Azərbaycan diasporu və milli mətbuat. Bakı: Qartal, 2004, 167 s.
33. Məmmədov R.H. Bakıdan Moskvaya və uzaqlara. Bakı, Şirvannəşr, 1996
34. Məmmədov R.H. Rusiya: ziyalılarımız, mətbuatımız, münasibətlərimiz. Bakı, Şirvannəşr, 2003, 105 s.
35. Məmmədov R.H. Səfərnamə - Putşestvie. Bakı, Şirvannəşr, 2001
36. Musabəyov R., Rzayev F. Lobbizm. Bakı: İnam, 1999, 28 s
37. Oruclu M. Azərbaycanda və mühacirətdə Müsavat partiyasının fəaliyyəti (1911-1992). Bakı: Azərnəşr, 2001, 221 s.
38. Qiyasi C. Yaxın-uzaq ellərdə: (orta əsr Azərbaycan memarlığının beynəlxalq əlaqələri haqqında). Bakı: İşıq, 1985, 92 s.
39. Rəhmanzadə F. Yol. Bakı: Azərbaycan Ensiklopediyası Nəşriyyat Poliqrafiya Birliyi, 1994, 592 s.
40. Rizvan N. Azərbaycan diasporası tarixindən. Bakı: Borçalı NRM, 2000, 208 s.
41. Seyidzadə D. Azərbaycan deputaları Rusiyanın dövlət dumasında. Bakı, 1991
42. Starodumova K.İ. Mövqe. Bakı, 2005, Nurlan, 144 s.
43. Tahirli A. Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991). Bakı, 2005, BDU, 528 s.
44. Yaqublu N.Q.Azərbaycan legionerləri. Bakı: Çıraq, 2002, 332 s.

45. Xarici ölkələrdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin həyata keçirilməsi sahəsində görülən işlər. Bakı, Yurd, 2006, 61 s.

46. Xaricdə yaşayan azərbaycanlıların milli-mədəni təşkilatları (sorğu kitabçası). Bakı, 2001, 70 s.

47. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi. Bakı, 2002, 8 s.

48. Аскеров Ю. Азербайджан-Ханты Мансийск (дружба, культура, сотрудничество) Том 1, Баку, 2000

49. Ахундова Т. Немцы - Колонисты Азербайджана XIX - начала XX в. Баку, 1999.

50. Гулиев Г. Литература Кавказа. Емигрантское литература Азербайджана. Баку, 2004, Нурлан, 284 с.

51. Гусейнова Л.Дж. Национальное меньшинства в странах Централной и Восточной Европы 1945-2002. Справочник. Баку, Адилоглу, 80 с.

52. Мамедов Р. Москва: Они родом из Азербайджана. Баку, Ширваннешр, 2002, 190 стр.

53. Пириев Й. Америка глазами русскоязычных газет США. Баку, 2004, Книга Алями, 82 с.



# ƏLAVƏ 3

## DİASPOR MÖVZUSU İLƏ BAĞLI İNTERNET SAYTLARININ ADLARI

1. http://www.azeri-diaspora.com
2. http://azlink.info/gallery/igallery.asp
3. http://www.ermenisorunu.gen.tr
4. http://azerall.info/ts_gen/azl/index.php
5. http://www.human.az
6. http://www.january20.net
7. http://www.pressdiaspora.com
8. http://www.radioodlaryurdu.com
9. http://www.karabakh.gen.az
10. http://www.karabakh.org
11. http://www.kongressaz.kiev.ua
12. http://www.karabakh-doc.gen.az
13. http://www.khojahlı.org
14. http://www.sayt.ws/iatkd/tarix.htm
15. http://www.yurd.cjb.net
16. http://216.75.14.16/websites//santa_clara/Santa%20Clara/ana/index.html
17. http://azerbaijan-kazaxstan.sayt.ws/
18. http://azeri.dk/
19. http://bgb.sayt.ws/
20. http://hostel.aznet.org/borchali/menu25.shtm
21. http://irs.azerall.info/
22. http://usa.azeris.org/
23. http://w3.gazi.edu.tr/~pekacar/kumresim.html
24. http://www.alacs.biz/
25. http://www.angelfire.com/az/tabriz/
26. http://www.asav.org/

27. http://www.avstriya.com/
28. http://www.aydc.tk/
29. http://www.azatyurt.com/
30. http://www.azerbaijan.8m.com/
31. http://www.azerbaijanis-congress.com/
32. http://www.azerbaycan.ru/
33. http://www.azer-bc.com/
34. http://www.azeri.dk/en/daca.htm
35. http://www.azeri.ee
36. http://www.azeri.ru/
37. http://www.azeriler.de/
38. http://www.azfi.org
39. http://www.baku-info.de
40. http://www.birlik.ru/
41. http://www.birlikinfo.com
42. http://www.borchali.net
43. http://www.diaspora.az/
44. http://www.diaspora.cz/
45. http://www.1997.com
46. http://www.ascsnc.org
47. http://www.azeru.lv
48. http://www.bous.sitecity.ru/
49. http://www.dak.see
50. www.dunazhak.net
51. http://www.igdirli.com/
52. http://www.virtualmonitor.org
53. http://vwww.camoh.org
54. www.rosazcongress.ru.
55. http://www.gunay.org
56. http:// www.azeridilli-kurumu.com
57. http://www.xazar.net
58. http://www.veten.be/
59. http://www.indvandrerradio.dk
60. http://www. aliyevheritage.org



# ƏLAVƏ 4

## DÜNYA ÖLKƏLƏRİNDƏ YAŞAYAN AZƏRBAYCANLILARIN SAYI

1. ABŞ -1.000.000
2. Albaniya - 12.000
3. Almaniya - 300.000
4. Argentina - 12.000
5. Avstraliya - 8.000
6. Avstriya - 19.00
7. Azərbaycan Respublikası - 7.000.000
8. Banqladeş - 175.000
9. Belarusiya - 7.000
10. Belçika - 13.000
11. Birləşmiş Ərəb Əmirlikləri - 55.000
12. Birma - 8.000
13. Bolqarıstan - 65.000
14. Böyük Britaniya - 170.000
15. Braziliya - 75.000
16. Butan - 1500
17. Danimarka - 60.000
18. Estoniya - 3.000
19. Finlandiya - 12.000
20. Fransa - 70.000
21. Gürcüstan - 600.000
22. Hindistan - 300.000
23. İndoneziya - 44.000
24. İordaniya - 450.000
25. İran - 30.000.000
26. İraq - 1.000.000
27. İrlandiya - 4.000

28. İspaniya - 14.000
29. İsveç - 2.000
30. İtaliya - 33.000
31. Kanada - 170.000
32. Küveyt - 19.000
33. Latviya - 4.000
34. Litva - 2.000
35. Macarıstan - 27.000
36. Malta - 2500
37. Meksika - 27.000
38. Misir - 900.000
39. Moldova - 5.000
40. Monqolustan - 5.000
41. Norveç - 50.000
42. Omman - 19.000
43. Pakistan -650.000
44. Polşa - 12.000
45. Portuqaliya - 7.000
46. Qazağıstan - 100.000
47. Qırğızıstan - 16.000
48. Rumıniya - 45.000
49. Rusiya Federasiyası - 3.000.000
50. Səudiyyə Ərəbistanı - 40.000
51. Slovakiya - 2.000
52. Sudan - 17.000
53. Suriya - 95.000
54. Tacikistan - 14.000
55. Türkiyə - 3.000.000
56. Türkmənistan - 45.000
57. Ukrayna - 500.000
58. Yaponiya - 10.000
59. Yəmən Demokratik Respublikası - 27.000
60. Yəmən Ərəb Respublikası - 35.000
61. Yunanıstan - 13.000





62. Yuqoslaviya - 6.000
63. Çexiya - 2.000
64. Çin - 30.000
65. Özbəkistan - 60.000
66. Əfqanıstan - 50.000
67. Əlcəzair - 260.000

***Bütün dünyada yaşayan azərbaycanlıların sayı 50.000.000 nəfərdən çoxdur.***

**QEYD:** Məlumat 2006-cı ilindir.

# ƏLAVƏ 5

## DİASPOR: MARAQLI İNFORMASİYALAR

**Qardaşlaşmış Şəhərlərin adları:** Bakı ilə qardaşlaşmış şəhərlər - İzmir(Türkiyə), Neapol(İtaliya), Dakar(Seneqal), Sarayevo(Bosniya və Hersoqovina), Bordo(Fransa), Basra(İrak), Hyuston(ABŞ), Maynz(Almaniya), Vunqtau-Kondao(Vyetnam), Aberdin.

Şamaxı ilə İğdır, Almaniyanın Ştutqart şəhəri ilə Gəncə, Gəncə-Nyuark, Quba-Bruklin, Şəki və Qabrovo qardaşlaşmış şəhərlərdir.

**"Ginnesin Rekordlar Kitabına" düşən azərbaycanlılar:**

Cəbrayıl rayonunda anadan olmuş, hazırda Belçikada yaşayan *Fəxrəddin Vəliyev* 2004-cü ildə adı "Ginnesin rekordlar kitabı"na düşmüş ilk azərbaycanlıdır. Həmvətənimiz 5 dəqiqəyə 20 nəfərin kölgəsini (siluetini) çəkməklə bu şərəfə nail olub.

F. Vəliyev həyatının 25 ilini qrafika sənətinə və kölgə rəsmləri çəkməyə həsr edib. Onun 1992-ci və 1995-ci illərdə Afinada və İstanbulda fərdi sərgiləri təşkil edilib. Həmyerlimiz 2003-cü ilin dekabr ayında Brüsseldəki məşhur "Belqium" muzeyində Belçika kraliçası Fabiolanın rəsmini çəkib. Əsər kraliçanın çox xoşuna gəlib və o, həmyerlimizə məktub vasitəsi ilə öz təşəkkürünü bildirib. Vətənimizin Belçikada tanınması sahəsində yorulmadan təbliğat aparan F.Vəliyev həm də bu ölkədə fəaliyyət göstərən Avropa-Azərbaycan diaspor mərkəzinin vitse-prezidentidir.

Lənkəran rayonu Aşağı Nüvədi kəndinin sakini *Ələsgər Rəhim oğlu Həsənzadə* dünyada ilk azyaşlı "Ginnesin Rekordlar Kitabına" düşən şəxsdir. O, 1 saat 45 dəqiqə ərzində





barmaqlarının ucu ilə sinəsini yerə vurmamaq şərti ilə 3 min dəfə qalxıb enib. Qeyd edək ki, onun adı rekordçuların siyahısına 7 yaşı olanda düşüb.

*Stanislav Şpanin* "Ginnesin Rekordlar Kitabına" planetin ilk gənc professional rəssamı kimi düşübdür. Bakı şəhərində anadan olan Stanislav bir çox beynəlxalq mükafatların sahibdir.

Cənubi azərbaycanlı *Hüseyn Rezazadə* "Ginnesin Rekordlar Kitabına" planetimizin ən güclü pəhlivanı kimi daxil olub. 263 kiloqram ağrlığı başı üzərinə qaldıran həmyerlimiz 2004-cü ildə 263.5 kq. ağırlıq qaldırmaqla özünün müəllifi olduğu dünya rekordunu təzələyibdir.

# ƏLAVƏ 6

## AZƏRBAYCAN İCMA VƏ BİRLİKLƏRİN NƏZDİNDƏ YARADILMIŞ DÖVRÜ NƏŞRLƏRİN VƏ ELEKTRON KİV-LƏRİN SİYAHISI: (2002-2005-Cİ İLLƏR)

| Yaradıcı təşkilat | Yarandığı ölkə | KİV-in adı | KİV-in növü | Yaranma ili | Yeni KİV-lərin cəmi sayı |
|---|---|---|---|---|---|
| *Azərbaycan Akademik Birliyi* | Almaniya Federativ Respublikası | Azərbaycan | radio | 2002 | |
| *Avstriya—Azərbaycan Akademik Birliyi* | Avstriya Respublikası | Orange FM | Radio | 2002 | |
| *Avstriya-Azərbaycan Akademik Birliyi* | Avstriya Respublikası | www.avstriya.com | İnternet səhifəsi | 2002 | |
| *Belçika Azərbaycan Evi* | Belçika Krallığı | www.diaspora-az.com | İnternet səhifəsi | 2002 | |
| *"Vətən" Cəmiyyəti* | Böyük Britaniya | www.vatan.org.uk | İnternet səhifəsi | 2002 | |
| *Kanada-Azərbaycan Əməkdaşlıq assosiasiyası* | Kanada Respublikası | www.canadaazerbaican.org | İnternet səhifəsi | 2002 | |
| *"Araz" topluluğu Tələbə Birliyi* | Türkiyə Cümhuriyyəti | www.araztoplulugu.8m.net | İnternet səhifəsi | 2002 | |
| *"Birlik" cəmiyyəti* | Rusiya Federasiyası | Birlik | jurnal | 2002 | |
| *Dnepropetrovsk Azərbaycanlıların Liqası* | Ukrayna Respublikası | Oqni Azerbaidcana | qəzet | 2002 | |





| | | | | | |
|---|---|---|---|---|---|
| *Nizami Gəncəvi adına Azərbaycan Mədəniyyət Mərkəzi* | Almaniya Federativ Respublikası | www.nourida.com | İnternet səhifəsi | 2003 | 2003-cü il üçün 6 KİV |
| *Bolqarıstan-Azərbaycan Dostluq Cəmiyyəti* | Bolqarıstan Respublikası | www.azbul.8m.com | İnternet səhifəsi | 2003 | |
| *"Azər-Çex" əmiyyəti* | Çexiya Respublikası | www.diaspora.cz www.nazarov.cz | İnternet səhifəsi | 2003 | |
| | Rusiya Federasiyası | Turan | qəzet | 2003 | |
| *UAK-ın* Sverdlovsk *filialı* | Rusiya Federasiyası | Azerbaydjan | qəzet | 2003 | |
| *UAK-ın Lugansk filialı* | Ukrayna Respublikası | XXI vek-XXI əsr | qəzet | 2003 | |
| *Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi* | Azərbaycan | Azərbaycan Diasporu | jurnal | 2004 | 2004-cü il üçün 17 KİV |
| *Azərbaycan-Amerika Təhsil və Mədəniyyət Fondu* | ABŞ | www.aacef.org | İnternet səhifəsi | 2004 | |
| *Nizami Gəncəvi adına Azərbaycan Mədəniyyət Mərkəzi* | Almaniya Federativ Respublikası | Yeni Körpü | jurnal | 2004 | |
| *Azərbaycan Evi* | Belçika Krallığı | EU Xəbər | qəzet | 2004 | |
| *Avropa Türk dilli və Qavqaz Xalqları Assosiyasiyası* | Estoniya Respublikası | Türk və Qavqaz Dünyası | jurnal | 2004 | |
| *Estoniya - Azərbaycan "Dostluq" cəmiyyəti* | Estoniya Respublikası | www.az.ee | İnternet səhifəsi | 2004 | |
| *Azərbaycan-Fransa Gənclik Assosiyasiyası* | Fransa Respublikası | Körpü LePont | jurnal | 2004 | |
| *Azərbaycan Evi* | Fransa Respublikası | Azərbaycanın səsi | radio | 2004 | |
| *İsveçrə-Azərbaycan Dostluq Cəmiyyəti* | İsveçrə Konfederasiyası | Azərbaycanın səsi | radio | 2004 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| *Niderland-Azərbaycan Cəmiyyəti* | Niderland Krallığı | Benilüks | qəzet | 2004 | |
| *"Xəzər" İctimai Birliyi* | Qazaxstan Respublikası | Ekspress Turan | qəzet | 2004 | |
| *Azərbaycan Milli-Mədəni Muxtariyyəti* | Rusiya Federasiyası | Dialoq Sivilizasii | | 2004 | |
| *İstanbul Azərbaycan Kültür və Dayanışma Dərnəyi* | Türkiyə Cümhuriyyəti | Azərbaycan Dünyası | jurnal | 2004 | |
| *UAK-ın Krivoy Roq filialı* | Ukrayna Respublikası | Abşeron | qəzet | 2004 | |
| *Ukrayna Azərbaycanlıları Konqresi* | Ukrayna Respublikası | www.kongressaz.kiev | İnternet səhifəsi | 2004 | |
| *Xarkov vilayət Azərbaycan-Ukrayna "Dostluq" Cəmiyyəti* | Ukrayna Respublikası | www.dostlug.org.ua | İnternet səhifəsi | 2004 | |
| *Azərbaycan-Yaponiya dostluq cəmiyyəti* | Yaponiya | www.aydc.tk | İnternet səhifəsi | 2004 | |
| *Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi* | Azərbaycan | www.diaspora.gov.az | İnternet portalı | 2005 | 2005-ci il üçün 7 KİV |
| *Azərbaycan Evi* | Belçika Krallığı | Euro News | qəzet | 2005 | |
| *Azərbaycan Gənclər Klubu* | Böyük Britaniya Krallığı | Salam Gətirmişəm | "London Türk Radiosunda" veriliş | 2005 | |
| *Azərbaycan Evi* | Fransa Respublikası | www.azmaizon.fr | İnternet səhifəsi | 2005 | |
| | ABŞ | GÜNAZ | TV | 2005 | |
| *ÜAK-ın Moskva regional təşkilatı* | Rusiya Federasiyası | Azerbaydjanskiy konqress | qəzet | 2005 | |
| *"Türkel" ictimai birliyi* | Qırğızstan Respublikası | Türkel | qəzet | 2005 | |



# ƏLAVƏ 7

## DÜNYA AZƏRBAYCANLILARI ƏLAQƏLƏNDİRMƏ ŞURASININ TƏRKİBİ

1. **İlham Əliyev** - Azərbaycan Respublikasının Prezidenti
2. **Akif Allahverdiyev** - Qırğızıstandakı Azərbaycanlıların "AZƏRİ" ictimai birliyinin prezidenti, tibb elmləri namizədi, Qırğızıstan Respublikasının Əməkdar həkimi
3. **Ağamusa Axundov** - Azərbaycan Milli Elmlər Akademiyası İctimai və Humanitar Elmlər Bölməsinin akademik-katibi
4. **Araz Ağalarov** - "Krokus-İnternational" şirkətinin prezidenti
5. **Abbas Abbasov** - Azərbaycan Respublikası Baş nazirin birinci müavini
6. **Akif Gülməmmədov** - Ukrayna Azərbaycan Konqresi sədrinin birinci müavini, Avropa Azərbaycanlıları Konqresinin vitse-prezidenti
7. **Abel Məhərrəmov** - Baki Dovlət Universitetinin rektoru
8. **Akif Ağatalıbov** - Özbəkistan, Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyasının (AMMA) sədri
9. **Azay Quliyev** - Azərbaycan Respublikasi Milli Məclisin deputatı, Qeyri-Hökümət Təşkilatları Forumunun sədri
10. **Anar Rzayev** - Azərbaycan Respublikası Milli Məclisin deputatı, Azərbaycan Respublikası Yazıçılar Birliyinin sədri
11. **Aslan Aslanov** - Azərbaycan Teleqraf Agentliyinin (AzərTAC) baş direktoru
12. **Afaq Məsud** - Yazıçı
13. **Bahar Muradova** - Milli Məclis sədrinin müavin
14. **Bəhəddin Kaya** - Berlin, Avropa Azərbaycanlıları Konqresinin üzvü

15. **Başar Kömür** - Almaniya, Mayns Azərbaycan Cəmiyyətinin sədri, Avropa Azərbaycanlıları Konqresinin İdarə Heyətinin üzvü

16. **Bəhram Atabəyli** - İsveç, Akademik Birliyinin sədri

17. **Bülənt Gürçam** - Belçika-Azərbaycan Evinin sədri

18. **Bəxtiyar Vahabzadə** - Xalq şairi

19. **Cəlal Əliyev** - Azərbaycan Respublikası Milli Məclisinin deputatı

20. **Cəmil Əliyev** - Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitunda kafedra müdiri, Respublika milli Onkoloji Mərkəzinin direktoru

21. **Cavad Derəxti** - İsveç, Dünya Azərbaycanlıları Konqresinin sədri

22. **Elçin Əfəndiyev** - Azərbaycan Respublikası Baş nazirinin müavini

23. **Etibar Babayev** - "Spase" Teleradio şirkətinin prezidenti

24. **Eldar Əəfəndiyev** - Estoniya Parlamentinin deputatı, "Bakı" klubunun həmsədri

25. **Elman Muradov** - Avstriya, Avstriya Akademik Birliyinin sədri

26. **Eldar Qasımov** - İsveçrə, həkim-vertobroloq, professor

27. **Elmar Məmmədyarov** - Azərbaycan Respublikasının Xarici İşlər Naziri

28. **Əli Əhmədov** - Azərbaycan Respublikası Milli Məclisinin deputatı

29. **Əlirza Hüseynov** - Latviya, Azəri-Vəhdət Cəmiyyətinin sədri

30. **Əflatun Amaşov** - Azərbaycan Mətbuat Şurasının sədri

31. **Əkrəm Əylisli** - Azərbaycan, Milli Məslisin deputatı, xalq yazıçısı

32. **Əli Həsənov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-Siyası şöbəsinin müdiri

33. **Əli Abbasov** - Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları naziri

34. **Əbülfəz Qarayev** - Azərbaycan Respublikası Mədəniyyət və Turizm naziri





35. **Əbülfəz Xamedov** - Qazaxıstandakı Azərbaycanlıların "Turan" Konqresinin sədri

36. **Fərid Mənsurov** - Olimpiya çempionu

37. **Fatma Abdullazadə** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar Siyasət şöbəsinin müdiri

38. **Firidun Səfərov** - Azərbaycan və Özbəkistan Respulikasının Xalq artisti, Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyasının İdarə Heyyətinin üzvü

39. **Gülçöhrə Məmmədova** - Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, Azərbaycan Respublikası Milli Məclisinin deputatı

40. **Gülşən Kazımova** - Hollandiya, Avropa Qafqaz Elm və Mədəniyyət Mərkəzinin sədri

41. **Gültəkin Hacıyeva** - Milli Məclisin deputatı

42. **Hacıbala Abutalıbov** - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

43. **Havar Məmmədov** - Azərbaycan Texniki Universitetinin rektoru

44. **Hidayət Orucov** - Azərbaycan Respublikası Milli Siyasət Məslələri Üzrə dövlət müşaviri

45. **Həvva Məmmədova** - Milli Məclisin deputatı, Dünya Azərbaycanlıları Konqresinin Qadınlar Şurasının sədri, tarix elmləri namizədi

46. **İsa Həbibbəyli** - Azərbaycan Respublikası Milli Məclisin deputatı, Naxçıvan Dövlət Universitetinin rektoru

47. **İlham Axundov** - Kanada-Azərbaycan Əməkdaşlıq Assosiyasiyasının sədri, Hamelton Universitetinin professoru

48. **İsgəndər Xəlilov** - Rusiya, Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti, "Lukoyl" Neft Şirkətinin vitse-prezidenti

49. **İqbal Hacıyev** - Rumıniya, Rumıniya Azərbaycan Gənclər və Mədəniyyət Assosiasiyasının sədri

50. **İsmayıl Ömərov** - İctimai Televiziya və Radio Yayım Şirkətinin baş direktoru

51. **Kamal Avdullayev** - Slavyan Universitetinin rektoru

52. **Kərim Rismankar (Urmulu)** - Danimarka-Azərbaycan Kültür Dərnəyinin idarə heyətinin sədri
53. **Qulamrza Səbri Təbrizi** - Böyük Britaniya, Edinburq Universitetinin professoru
54. **Mehriban Əliyeva** - Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, YUNESKO-nun Xoşməramlı səfiri
55. **Məmmədbağır Əliyev** - I Ümumrusiya Azərbaycan Konqresinin prezidenti, Rusiya Tibb Akademiyasının müxbir üzvü Rusiya Dövlət Mükafatı Laureatı
56. **Məsud Əliyev** - Kvebek Azərbaycanlıları Assosiasiyasının sədri, Kanada
57. **Mikayıl Oyta** - Avstraliya Azərbaycan Cəmiyyətinin sədri, Sidney
58. **Mahir Həmzəyev** - Litva Azərbaycanlıları Cəmiyyətinin sədri
59. **Müslüm Həmidov** - "Dostluq" cəmiyyətinin sədri, Tacikistan
60. **Maqsud İbrahimbəyov** - Azərbaycan Respublikası Milli Məclisinin deputatı
61. **Mahmud Kərimov** - Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti
62. **Mübariz Mənsimov** - İstanbul Azərbaycan Kültür və Dayanışma Dərnəyinin sədri
63. **Natiq Bağırov** - Belarus-Azərbaycan İcmaları Konqresinin sədri
64. **Natiq Ağamirov** - Avropa Azərbaycanlıları Konqresinin birinci vitse-prezidenti
65. **Nizami Cəfərov** - Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət məsələləri daimi Komissiyasının sədri, Beynəlxalq Atatürk Mərkəzinin direktoru
66. **Nüsrət Delbəstəh** - Almaniyadakı Azərbaycan Cəmiyyətləri Federasiyasının sədri
67. **Nazim İbrahimov** - Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri
68. **Novruz Məmmədov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Xarici Əlaqələr şöbəsinin müdiri





69. **Niyazi Hacıyev** - Estoniya, Azərbaycan İcmasının fəxri sədri
70. **Nizami Xudiyev** - Azərbaycan Respublikası Milli Məclisin deputatı,
71. **Nəbi Xəzri** - Xalq şairi
72. **Oqtay Əfəndiyev** - Ukrayna Azərbaycanlıları Konqresinin sədri
73. **Rafiq Əliyev** - Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri
74. **Ramiz Mehdiyev** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri
75. **Rəfael Hüseynov** - Azərbaycan Respublikası Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun direktoru
76. **Rauf Zeyni** - Milli QHT Forumu Diaspora Mərkəzinin sədri, "Diaspora" jurnalının baş redaktoru
77. **Firəngiz Əlizadə** – Bəstəkar
78. **Səid İsmailov** - Fransa, Azərbaycan Evi Assosiasiyasının sədri
79. **Sevil Əliyeva** - "Sevil" Qadınlar Məclisinin sədri, Bakı "SOS" Uşaq Kəndi prezidenti
80. **Svetlana Abdullayeva** - Macarıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri
81. **Səttar Mehbalıyev** - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Azərbaycan Respublikası Milli Məclisin deputatı
82. **Sahil Qasımov** - Hollandiya, Niderland-Azərbaycan Cəmiyyətinin sədri
83. **Sabir Rüstəmxanlı** - Azərbaycan Respublikası Milli Məclisin deputatı, DAK sədr müavini
84. **Söyün Sadıxov** - Rusiya Federasiyası, Azərbaycan Milli - Mədəniyyət Muxtariyyətinin sədri
85. **Səməd Seyidov** - Azərbaycan Respublikası Milli Məclisin deputatı, Azərbaycan Dövlət Dillər Universitetinin rektoru
86. **Siyavuş Kərimi** - Azərbaycan Milli Konservatoriyasının rektoru

87. **Şirin Məlikov** - Paris Beynəlxalq Diplomatiya Akademiyasının əməkdaşı, filologiya elmlər doktoru

88. **Şahin Şıxlinski** - Ümumrusiya Azərbaycan Konqresi Ural Federal Dairəsinin sədri

89. **Şamil Ayrım** - Türkiyə Azərbaycan Dostluq və Əməkdaşlıq Fondunun vitse-prezidenti, TBMM sabiq millət vəkili

90. **Şakir Göyüşov** - Avropa Azərbaycanlıları Konqresinin vitse-prezidenti

91. **Turqut Arat** - İzmir Azərbaycan Kültür Evi və Dayanışma Cəmiyyətinin sədri, Avropa Azərbaycanlıları Konqersinin Şurasının üzvü

92. **Tuqay Əhmədzadə** - Norveç, ANA Azərbaycan-Norveç Assosiasiyasının sədri

93. **Təranə Nəzərova** - Finlandiya, Azərbaycan-Finlandiya Dostluq Cəmiyyətinin sədri

94. **Telman İsmayılov** - Rusiya, Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti, "ACT" holdinq Şirkətinin prezidenti

95. **Tofiq Mirzəyev** - İsrail, Haifa-Bakı Cəmiyyəti, nümayəndə

96. **Tağı İbrahimov** - "Azad Azərbaycan" Teleradio Şirkətinin prezidenti

97. **Tomriz Azəri** - ABŞ, Amerikanın Azərbaycan Cəmiyyətinin sədri

98. **Taleh Heydərov** - London Azərbaycan Cəmiyyətinin sədri

99. **Vaqif Səmədoğlu** - Xalq yazıçısı, Azərbaycan Respublikası Milli Məclisinin deputatı

100. **Vasif Talıbov** - Naxçıvan Muxtar Respublikası Ali Məclisnin sədri

101. **Vaqif Məmişov** - Sankt-Peterburq Azərbaycan Milli Mədəni Muxtariyyətinin prezidenti

102. **Valeh Hacıyev** - Gürcüstan, S.Orbeliani adına Tbilisi Pedoqoji Universitetinin kafedra müdiri, professor

103. **Vahid Mustafayev** - "ANS" Müstəqil Teleradio və Yayım Şirkətinin prezidenti





104. **Vüqar Qaradağlı** - "Media" Holdinqin baş direktoru

105. **Yücəl Artantaş** - Türkiyə Böyük Millət Məclisinin deputatı

106. **Yaqub Mahmudov** - Azərbaycan Respublikası Milli Məclisin deputatı, Bakı Dövlət Universitetinin professoru

107. **Zeynal Nağdəliyev** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

108. **Zeynəb Xanlarova** - Azərbaycan Respublikası Milli Məclisin deputatı, Xalq artisti

109. **Zəlimxan Yaqub** - Xalq şairi

## DÜNYA AZƏRBAYCANLILARINI ƏLAQƏLƏNDİRMƏ ŞURASININ İDARƏ HEYƏTİNİN TƏRKİBİ

1. **Anar Rzayev** - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Respublikası Yazıçılar Birliyinin sədri

2. **Azay Quliyev** - Azərbaycan Respublikası Milli Məclisin deputatı, Qeyri-Hökümət Təşkilatları Forumunun sədri

3. **Başar Kömür** - Almaniyadakı Mayns Azərbaycan Cəmiyyətinin sədri

4. **Cavad Derəxti** - Dünya Azərbaycanlıları Konqresinin sədri, İsveç

5. **Eldar Əfəndiyev** - Estoniya Parlamentinin deputatı, Estoniya - Azərbaycan Dostluq Qrupunun sədri, "Bakı" klubunun həmsədri

6. **Elmar Məmmədyarov** - Azərbaycan Respublikası Xarici İşlər naziri

7. **Əli Həsənov** - Azərbaycan Respublikası Prezidentinin İcra Apartının İctimai-Siyasi şöbəsinin müdiri

8. **Əli Əhmədov** - Azərbaycan Respublikası Milli Məclisin deputatı, YAP İcra katibi

9. **Əbülfəz Qarayev** - Azərbaycan Respublikası Mədəniyyət və Turizm naziri
10. **Əbülfəz Xamedov** - Qazaxıstan Azərbaycanlılarının Turan Konqresinin sədri
11. **İsa Həbibbəyli** - Azərbaycan Respublikası Milli Məclisin deputatı, Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA müxbir üzvü
12. **Kamal Abdullayev** - Bakı Slavyan Universitetinin rektoru
13. **Qulamrza Səbri Təbrizi** - Böyük Britaniyadakı Edinburq Universitetinin professoru
14. **Mahmud Kərimov** - Azərbaycan Milli Elimlər Akademiyasının prezidenti
15. **Məmmədbağır Əliyev** - Ümumrusiya Azərbaycan Konqresinin prezidenti
16. **Nazim İbrahimov** - Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri
17. **Natiq Bağırov** - Belarus Azərbaycan İcmaları Konqresinin sədri
18. **Natiq Ağamirov** - Avropa Azərbaycanlıları Konqresinin prezidenti
19. **Oktay Əfəndiyev** - Ukrayna Azərbaycanlıları Konqresinin sədri
20. **Rafael Hüseynov** - Azərbaycan Respublikası Milli Məclisin deputatı, Nizami adına Ədəbiyyat Muzeyinin direktoru
21. **Səid İsmailov** - Fransadakı Azərbaycan Evi Assosiasiyasının sədri
22. **Tomris Azəri** - Amerika Azərbaycanlıları Cəmiyyətinin sədri
23. **Yücel Artantaş** - Türkiyə Böyük Millət Məclisinin deputatı



# ƏLAVƏ 8

## "XARİCDƏ YAŞAYAN AZƏRBAYCANLILARLA BAĞLI DÖVLƏT SİYASƏTİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsəd və prinsiplərini və bu siyasətin həyata keçirilməsi ilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin əsaslarını müəyyən edir.

**Maddə 1.** "Xaricdə yaşayan azərbaycanlılar" anlayışı.

**1.1.** Bu Qanunun məqsədləri üçün "Xaricdə yaşayan azərbaycanlılar" dedikdə, Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan və özünü azərbaycanlı hesab edən aşağıdakı şəxslər başa düşülür:

**1.1.1.** Azərbaycan Respublikasının vətəndaşları və onların övladları;

**1.1.2.** Əvvəllər Azərbaycan SSR-nin və ya Azərbaycan Respublikasının vətəndaşları olmuş şəxslər və onların övladları;

**1.2.** "Xaricdə yaşayan azərbaycanlılar" anlayışı həmçinin bu Qanunun 1.1.1və 1.1.2-ci maddələrində göstərilmiş kateqoriyalara aid olmayan, lakin etnik dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü azərbaycanlı hesab edən şəxslərə və onların övladlarına da şamil olunur.

**Maddə 2.** Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin məqsədləri

**2.0.** Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin məqsədləri aşağıdakılardan ibarətdir:

**2.0.1.** Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, eləcə də müvafiq xarici dövlətlərin qanunvericiliyi nəzərə alınmaqla, xaricdə yaşayan azərbaycanlıların əsas hüquq

və azadlıqlarının həyata keçirilməsinə və onların öz milli özgünlüyünü qoruyub saxlamasına və inkişaf etdirilməsinə kömək göstərmək;

**2.0.2.** Xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının dövlət orqanları, eləcə də Qeyri-Hökumət Təşkilatları ilə sıx əlaqələr qurmasına və inkişaf etdirilməsinə, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, ölkənin iqtisadi, sosial və mədəni həyatı haqqında informasiya almasına şərait yaratmaq;

**2.0.3.** Xaricdə yaşayan azərbaycanlıları Azərbaycan Respublikasının dövlət müstəqilliyinin və suverenliyinin qorunmasına və möhkəmləndirilməsinə, iqtisadi, sosial və mədəni inkişafına, cəmiyyətin və dövlətin siyasi həyatına, habelə Azərbaycan Respublikası ilə digər dövlətlər arasında qarşılıqlı surətdə faydalı münasibətlərin qurulması və inkişaf etdirilməsinə cəlb etmək;

**2.0.4.** Beynəlxalq hüquq normalarına və müvafiq dövlətlərin qanunvericiliyinə uyğun olaraq, xaricdə yaşayan azərbaycanlıların milli-mədəni muxtariyyətlər və ictimai birliklər yaratmaq hüququnun həyata keçirilməsinə yardım göstərmək.

**Maddə 3.** Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin prinsipləri

**3.1.** Azərbaycan Respublikası xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətini həyata keçirərkən beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə, o cümlədən insan hüquq və azadlıqlarına hörmət və digər dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanır.

**3.2.** Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti Azərbaycan Respublikasının daxili və xarici siyasətinin ayrılmaz tərkib hissəsidir.

**Maddə 4.** Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin əsasları

**4.1.** Azərbaycan Respublikası onun vətəndaşı olan və onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan azərbaycanlıların hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir.

**4.2.** Azərbaycan Respublikasının vətəndaşı olan və onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan azərbaycanlılar Azərbaycan Respublikasının ərazisində yaşayan Azərbaycan Respublikası vətəndaşları ilə bərabər hüquqlara malikdir və bərabər vəzifələr daşıyırlar.





**4.3.** Azərbaycan Respublikası digər dövlətin vətəndaşı olan və ya vətəndaşlığı olmayan xaricdə yaşayan azərbaycanlılarla bütün sahələrdə əlaqələrin saxlanmasına və inkişaf etdirilməsinə kömək göstərir, onların əsas hüquq və azadlıqlarının müdafiəsi üçün müvafiq tədbirlər görür.

**4.4.** Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinin I hissəsinə uyğun olaraq, digər dövlətin vətəndaşı olan və ya vətəndaşlığı olmayan xaricdə yaşayan azərbaycanlılar Azərbaycan Respublikasının ərazisində olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər.

**Maddə 5.** Xaricdə yaşayan azərbaycanlılarla bağlı vətəndaşlıq məsələləri

**5.1.** Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin ərazisində yaşaması Azərbaycan Respublikası vətəndaşlığının xitamına səbəb olmur.

**5.2.** Digər dövlətin vətəndaşı olan və ya vətəndaşlığı olmayan xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikası vətəndaşlığını əldə etməsi və Azərbaycan Respublikası vətəndaşlığına bərpa edilməsi qaydası "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**5.3.** Azərbaycan Respublikası vətəndaşlığına qəbul edilməsi barədə vəsadət qaldıran xaricdə yaşayan azərbaycanlı müvafiq dövlət rüsumunu ödəməkdən azad edilir.

**Maddə 6.** Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının iqtisadi və sosial siyasəti

**6.1.** Xaricdə yaşayan azərbaycanlılarla bağlı iqtisadi sahədə dövlət siyasətinin reallaşması məqsədi ilə Azərbaycan Respublikasının dövlət orqanları aşağıdakı tədbirləri həyata keçirir:

**6.1.1.** Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən kommersiya təşkilatları ilə xaricdə yaşayan azərbaycanlıların kommersiya təşkilatları arasında əməkdaşlığı təşviq edir;

**6.1.2.** Xaricdə yaşayan azərbaycanlıların iştirak etdiyi birgə müəssisələrin yaradılmasına kömək göstərir;

**6.1.3.** Xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının iqtisadiyyatına investisiya qoymaları və Azərbaycan Respublikasının ərazisində sərbəst surətdə fəaliyyəti ilə məşğul olmaları üçün əlverişli şərait yaradır.

**6.2.** Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları xaricdə yaşayan aztəminatlı azərbaycanlılara sosial yardım göstərə bilirlər.

**6.3.** Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsədləri üçün, xaricdə yaşayan azərbaycanlılara maliyyə yardımı edən fiziki və hüquqi şəxslərə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq vergi, gömrük güzəştləri və digər güzəştlər verilə bilər.

**6.4.** Təbii fəlakətlər, ekoloji və digər qəzalar baş vermiş yerlərdə yaşayan azərbaycanlılara Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada humanitar yardım göstərilə bilər.

**Maddə 7.** Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının mədəniyyət, dil və təhsil siyasəti

**7.1.** Azərbaycan Respublikasının dövlət orqanları xaricdə yaşayan azərbaycanlılara öz mədəni irsinin və dilinin qorunub saxlanmasında və inkişaf etdirilməsində, öz ana dilində təhsil almaq imkanının həyata keçirilməsində yardım göstərir və bu məqsədlə zəruri tədbirlər görür.

**7.2.** Azərbaycan Respublikasının dövlət orqanları digər dövlətlərdə yaşayan azərbaycanlıların milli-mədəni muxtariyyəti ilə hərtərəfli əməkdaşlıq həyata keçirir.

**7.3.** Xaricdə yaşayan azərbaycanlılara öz mədəni, el-mi və informasiya tələbatını ödəmək üçün Azərbaycan Respublikasının digər dövlətlərdə olan elm və mədəniyyət mərkəzlərindən istifadə etmək imkanı verilir.





**7.4.** Xaricdə yaşayan azərbaycanlılara öz mədəni irsinin qorunub saxlanmasında və inkişaf etdirilməsində yardım məqsədi ilə Azərbaycan Respublikasının dövlət orqanları aşağıdakı tədbirləri həyata keçirir:

**7.4.1.** Xaricdə yaşayan azərbaycanlıların mədəniyyət mərkəzlərinə, mədəni-maarif təşkilatlarına, kitabxanalarına, arxivlərinə, muzeylərinə, teatrlarına, musiqi ansambllarına və digər yaradıcı kollektivlərinə yardım göstərir;

**7.4.2.** Xarici ölkələrdə Azərbaycan dilində fəaliyyət göstərən məktəblərin tədris-metodik və maddi-texniki təminatına və inkişafına, eləcə də həmin məktəblər üçün kadrların hazırlanmasına yardım göstərir;

**7.4.3.** Xaricdə yaşayan azərbaycanlıların mədəni irsinin öyrənilməsinə kömək göstərir;

**7.4.4.** Xaricdə yaşayan azərbaycanlılara öz ana dilini saxlamaqda, ana dilinin öyrənilməsinə, təhsil almaq və informasiya əldə etmək üçün bu dildən istifadəyə şərait yaradılmasında kömək göstərir;

**7.4.5.** Xaricdə yaşayan azərbaycanlıların Azərbaycan tarixini və Azərbaycan mədəni irsinin öyrənilməsinə şərait yaradılmasında onlara kömək göstərir;

**7.4.6.** Xaricdə yaşayan azərbaycanlılara Azərbaycan Respublikasında təhsil almaq, elmi və digər yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq üçün güzəştli şərtlərlə yardım göstərir.

**Maddə 8.** İnformasiya sahəsində xaricdə yaşayan azərbaycanlılara kömək göstərilməsi

**8.0.** Azərbaycan Respublikasının dövlət orqanları xaricdə yaşayan azərbaycanlılara informasiya sahəsində kömək məqsədi ilə aşağıdakı tədbirləri həyata keçirir:

**8.0.1.** Xaricdə yaşayan azərbaycanlılara ana dilində informasiya almaqda və yaymaqda, informasiya vasitələri yaratmaqda, müvafiq xarici dövlətlərlə Azərbaycan Respublikası arasında informasiya əlaqələrinin qurulmasında və inkişaf etdirilməsində yardım göstərir;

**8.0.2.** Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasəti haqqında yaşadıqları dövlətlərdə

azərbaycanlıların vəziyyəti haqqında informasiyanın yayılmasını təmin edir;

**8.0.3.** Azərbaycan Respublikasından ana dilində televiziya, radio, dövrü mətbuat, internet və digər vasitələrlə informasiyanın yayılması üçün zəruri şərait yaradır;

**8.0.4.** Xaricdə yaşayan azərbaycanlıların məlumatlandırılmasını həyata keçirən Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq maliyyə və maddi-texniki vəsaitlər verir;

**8.0.5.** Xaricdə yaşayan azərbaycanlılara məxsus olan kütləvi informasiya vasitələri yardım göstərir;

**8.0.6.** Diaspora ilə işin təşkil olunması və aparılması sahəsində digər ölkələrin təcrübəsinin öyrənilməsinə və tətbiq olunmasına yardım göstərir.

**Maddə 9.** Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikası dövlət orqanlarının fəaliyyətinin maliyyələşdirilməsi.

**9.1.** Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikası dövlət orqanlarının fəaliyyəti dövlət büdcəsindən maliyyələşdirilir. Bu vəsaitlərdən istifadə qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**9.2.** Azərbaycan Respublikasının yerli özünüidarə orqanları xaricdə yaşayan azərbaycanlılarla bağlı həyata keçirdikləri tədbirlərin maliyyələşdirilməsi üçün zəruri olan vəsaitlərin həcmini və onlardan istifadə qaydalarını müstəqil müəyyən edir.

**9.3.** Xaricdə yaşayan azərbaycanlılara və onların təşkilatlarına maddi yardım edilməsi məqsədi ilə dövlətin, fiziki və hüquqi şəxslərin ödəmələri hesabına təşkil olunan dövlət fondları və ya ictimai fondlar yaradıla bilər.Dövlət fondlarının vəsaitlərindən istifadə qaydaları.

**9.4.** Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının və digər dövlətlərin fiziki və hüquqi şəxslərinin xeyriyyəçilik fəaliyyəti həvəsləndirilir.





**Maddə 10.** Xaricdə yaşayan azərbaycanlılarla bağlı monitorinqin aparılması.

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı xaricdə yaşayan azərbaycanlıların vəziyyəti haqqında informasiyanın toplanmasını, təhlilini və qiymətləndirilməsini və bu məqsədlə xüsusi məlumat bankının yaradılmasını təmin edir.

**Maddə 11.** Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət *siyasətinin həyata keçirilməsi ilə əlaqədar* Azərbaycan Respublikası dövlət orqanlarının vəzifələri

Azərbaycan Respublikasının dövlət orqanları öz səlahiyyətləri daxilində bu Qanunda göstərilmiş tədbirləri həyata keçirirlər.

**Azərbaycan Respublikasının**
**Prezidenti Heydər Əliyev**
***27 dekabr 2002-ci il***

## "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsinin təmin edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasınm Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan

Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikanın Prezidentinə məlumat versin;

- "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun 9.3-cü maddəsində nəzərdə tutulmuş xaricdə yaşayan azərbaycanlılara və onların təşkilatlarına maddi yardım edilməsi məqsədi ilə yaradılan dövlət fondlarının vəsaitlərindən istifadə qaydalarını müəyyən etsin;

- həmin Qanunun 6.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"na dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- öz səlahiyyətləri daxilində "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki,

- "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

- Həmin Qanunun 6.4-cü və 9.3-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi həyata keçirir.

***Heydər ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 fevral 2003-cü il***



# ƏLAVƏ 9

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MİQRASİYA PROQRAMI (2006-2008-Cİ İLLƏR)

Bu Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı"na uyğun olaraq hazırlanmışdır və ölkədə mövcud miqrasiya proseslərinin təhlili əsasında bu sahənin gələcək inkişaf istiqamətlərini və həyata keçirilməli olan zəruri tədbirləri özündə əks etdirir.

Dövlət Proqramının əsas məqsədi miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya idarəetmə sisteminin inkişaf etdirilməsi, miqrasiya proseslərinin tənzimlənməsi və proqnozlaşdırılması, bu sahədə qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, qanunların tətbiqinin effektivliyinin təmin edilməsi, miqrasiya sahəsində vahid məlumat bankının, müasir avtomatlaşdırılmış nəzarət sisteminin yaradılması, qeyri-qanuni miqrasiyanın qarşısının alınması, miqrantlarla bağlı sosial müdafiə tədbirlərinin həyata keçirilməsindən ibarətdir.

**I. Azərbaycan Respublikasında miqrasiya proseslərinin xüsusiyyətləri**

Miqrasiya sahəsində Azərbaycan Respublikasının dövlət siyasətinin müəyyən edilməsi üçün ilk növbədə ölkədə miqrasiya proseslərinin mövcud vəziyyəti nəzərə alınmalıdır.

Miqrasiya proseslərinin təhlili aşağıdakı miqrasiya axınlarını müəyyən etməyə imkan verir:

- daxili miqrasiya;
- xarici miqrasiya.

Azərbaycan Respublikasında daxili miqrasiya axınlarının məcburi miqrasiya və sosial-iqtisadi miqrasiya kimi formaları mövcuddur.

Azərbaycan keçmiş SSRİ respublikaları arasında qaçqın və məcburi köçkün problemi ilə üzləşən ilk ölkə olmuşdur. 1987-ci ildən başlayaraq Dağlıq Qarabağ ətrafında cərəyan edən hadisələrdən sonra Ermənistan SSR-in ərazisində azərbaycanlılara qarşı aparılan kütləvi etnik təmizləmə siyasəti və torpaqlarımızın 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi nəticəsində bir milyondan artıq soydaşımız öz doğma ev-eşiyindən didərgin salınaraq respublikamızın müxtəlif bölgələrində sığınacaq tapmışdır.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlardan qovulmuş, habelə Ermənistan Respublikası ilə həmsərhəd rayonların həyat üçün təhlükəli yaşayış məntəqələrini tərk etmiş məcburi köçkünlər ölkədaxili məcburi miqrasiyanın başlıca subyektləridir.

Sosial-iqtisadi miqrasiyanın subyektini isə iqtisadi islahatların həyata keçirilməsi, özəlləşdirmə prosesi, vaxtilə bəzi yaşayış məntəqələrinin enerji ehtiyatları ilə təmin olunmasında yaranan problemlərlə bağlı və mövcud olmuş digər sosial-iqtisadi səbəblərdən rayonlardan iri şəhərlərə, xüsusilə Bakıya və Abşeron yarımadasına köçən əhali təşkil edir. Qeyd olunmalıdır ki, son illər regionların sosial-iqtisadi inkişafı proqramı çərçivəsində görülən tədbirlər daxili miqrantların öz yaşayış yerlərinə qayıtması üçün şərait yaratmışdır.

Daxili miqrasiya axınlarının tənzimlənməsi ilə bağlı tədbirlər Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" və Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə





Dövlət Proqramı"nda təsbit edildiyindən, hazırkı Dövlət Proqramında əsas diqqət xarici miqrasiya proseslərinin tənzimlənməsi ilə bağlı tədbirlərə yönəlmişdir.

Xarici miqrasiya immiqrasiya və emiqrasiya formalarında mövcuddur. Xarici miqrasiyanın subyektlərinə qaçqınlar, qaçqın statusu almaq niyyətində olan və sığınacaq axtaran şəxslər, əməkçi miqrantlar, tranzit miqrantlar, qeyri-qanuni miqrantlar daxildir.

Qeyd edildiyi kimi 80-ci illərin sonunda - 90-cı illərin əvvəlində qaçqınların axını Ermənistanın dövlət səviyyəsində keçən əsrin əvvəlindən apardığı deportasiya siyasəti nəticəsində həmin ərazidə yaşamış 250 mindən artıq azərbaycanlının öz yurdlarından qovulması ilə başlamışdır.

Sovet İttifaqı dağıldıqdan sonra yaranmış siyasi, sosial-iqtisadi tənəzzül, milli münaqişələrin genişlənməsi bir sıra keçmiş sovet respublikalarında olduğu kimi, Gürcüstanda da ciddi siyasi, sosial, etnik problemlər yaratmış, milli azlıqların sosial-siyasi həyat şəraitinə mənfi təsir göstərmiş və orada yaşayan minlərlə azərbaycanlının Azərbaycan Respublikasına köçməsinə səbəb olmuşdur.

Bununla yanaşı, əvvəllər Gürcüstandan deportasiya olunaraq Orta Asiya respublikalarında yerləşdirilmiş, 1989-cu ildə isə orada baş vermiş milli münaqişə zəminində didərgin düşmüş məshəti türkləri də Azərbaycan Respublikasında qaçqın kimi məskunlaşmışlar.

Azərbaycanda həmçinin müxtəlif xarici dövlətlərdən, xüsusilə də Əfqanıstandan, İran İslam Respublikasından, Rusiya Federasiyasından (əsasən Çeçenistan Respublikasından) qaçqın statusu almaq niyyətində olan və sığınacaq axtaran şəxslər də vardır.

Azərbaycan Respublikasında xarici miqrasiyada əmək miqrasiyasının xüsusi çəkisi daha çoxdur. Ölkə iqtisadiyyatı inkişaf etdikcə, daxili əmək bazarında iştirak edən əcnəbilərin sayı artmaqdadır. Azərbaycan Respublikasının əlverişli geosiyasi

mövqeyi, ölkədə aparılan iqtisadi islahatlar, dünyanın aparıcı şirkətləri ilə imzalanmış müqavilələr, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə düşməsi, tarixi "İpək Yolu"nun bərpası və digər beynəlxalq kommunikasiya layihələrinin həyata keçirilməsi əmək miqrasiyası axınlarının artmasına səbəb olmuşdur.

Miqrasiya proseslərinin dövlət tənzimlənməsi üçün miqrantların dəqiq qeydiyyatının və statistikasının aparılması zəruridir. Ölkə ərazisindəki əcnəbilər barədə rəsmi statistika orqanlarında olan məlumatlar isə bir çox hallarda real vəziyyəti tam əks etdirmir.

Eyni zamanda Azərbaycan Respublikasının ərazisində müvafiq qanunvericiliyin tələblərinə uyğun olmadan ölkəyə gələn, burada qalan və ya işləyən əcnəbilər - qeyri-qanuni miqrantlar da vardır. Azərbaycan Respublikasının bir sıra dövlətlərlə vizasız gediş-gəliş rejiminin mövcud olması, ölkəmizin ərazisindən tranzit qaydasında keçən və ya Azərbaycan Respublikasına qısa müddətə gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə kifayət qədər nəzarət edilməməsi və aidiyyəti dövlət orqanları tərəfindən qanunların tətbiqində nöqsanlara yol verilməsi nəticəsində qanunsuz olaraq ölkəmizin ərazisindən üçüncü dövlətlərə getmək məqsədi ilə istifadə etməyə cəhd edən və ya Azərbaycan Respublikasında qanuni əsaslar olmadan daimi yaşayan əcnəbilərin sayı artmaqdadır.

Müstəqilliyinin ilk illərində ölkəmizdən emiqrant axını müəyyən dərəcədə siyasi, milli və etnik xarakter daşıyırdısa, sonrakı illərdə emiqrasiyanın başlıca səbəbini iqtisadi motivlər təşkil etmişdir. Əgər 90-cı illərin əvvəlində əmək miqrasiyası Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrə axını ilə xarakterizə olunurdusa, hazırkı dövrdə ölkədəki siyasi sabitlik və sosial iqtisadi inkişaf xaricə miqrasiya axınını kəskin surətdə azaltmış, əksinə həmin şəxslərin ölkəyə qayıtması üçün şərait yaratmışdır.





**II. Miqrasiya sahəsində dövlət siyasətinin prioritet istiqamətləri**

Dövlət miqrasiya siyasətinin əsas məqsədi Azərbaycan Respublikasının milli təhlükəsizliyini və milli maraqlarını qorumaqla miqrasiya axınlarının tənzimlənməsi, nəzarətsiz miqrasiya proseslərinin neqativ nəticələrinin qarşısının alınması, miqrantların öz hüquqlarını həyata keçirmək üçün şəraitin yaradılmasıdır.

Miqrasiya siyasətinin əsas vəzifələri aşağıdakılardır:

- miqrasiya proseslərindən ölkənin inkişafı üçün səmərəli istifadə olunması;
- miqrasiya proqramlarının və tədbirlərinin həyata keçirilməsində dövlətin, cəmiyyətin və insanların mənafelərinə riayət edilməsi;
- qeyri-qanuni miqrasiyanın qarşısının alınması;
- miqrantların mövcud sosial-iqtisadi vəziyyətə adaptasiyasını sürətləndirən şəraitin yaradılması;
- miqrantların hüquqlarının müdafiəsi.

Dövlət miqrasiya siyasəti qanunlara riayət edilməsi və miqrantlar arasında irsi, dini, cinsi mənsubiyyətinə, vətəndaşlığına, yaşına, hər hansı sosial qrupa aidiyyətinə və ya siyasi baxışlarına görə ayrı-seçkiliyin yolverilməzliyi prinsipləri əsasında həyata keçirilməlidir.

Dövlət miqrasiya siyasətinin həyata keçirilməsi aidiyyəti dövlət orqanlarının bu Dövlət Proqramı çərçivəsində aşağıdakı əsas istiqamətlər üzrə fəaliyyətini nəzərdə tutur:

- miqrasiya proseslərinin proqnozlaşdırılması, siyasi və iqtisadi vəziyyətdə dəyişikliklər nəzərə alınaraq səmərəli dövlət miqrasiya siyasətinin formalaşdırılması, miqrasiya sahəsində idarəetmə mexanizminin təkmilləşdirilməsi;
- miqrasiya sahəsində qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması, qanunlarda olan boşluqların və ziddiyyətlərin aradan qaldırılması, miqrantların və dövlətin qarşılıqlı hüquq və vəzifələrini müəyyən edən hüquqi bazanın yaradılması;

- miqrasiya sahəsinin dövlət tərəfindən tənzimlənməsinin səmərəliliyinin artırılması, funksiyaların təkrarlanmasının qarşısının alınması məqsədi ilə müvafiq tədbirlərin həyata keçirilməsi, aidiyyəti dövlət orqanlarının miqrasiya sahəsində fəaliyyətinin əlaqələndirilməsi;
- immiqrantların qəbulu zamanı daxili əmək bazarının tələbatı nəzərə alınaraq kvotaların tətbiqi;
- miqrasiya sahəsinin tənzimlənməsi ilə bağlı aidiyyəti dövlət orqanlarının məsuliyyətinin artırılması, qanunlara əməl edilməsi, qanun pozuntularına yol vermiş şəxslərin cəzalandırılması və neqativ halların aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsi;
- qeyri-qanuni miqrasiyanın qarşısının alınması üçün kompleks tədbirlərin həyata keçirilməsi;
- miqrasiya problemlərinin həlli məqsədi ilə xarici ölkələrin miqrasiya xidmətləri və beynəlxalq təşkilatlar ilə qarşılıqlı əməkdaşlığın həyata keçirilməsi;
- Azərbaycan Respublikasında yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin cəmiyyətə inteqrasiyası və yerli şəraitə uyğunlaşdırılması sisteminin yaradılması.

Qeyri-qanuni miqrasiyanın qarşısının alınması Azərbaycan Respublikasının təhlükəsizliyinin təmin edilməsinin və Azərbaycan vətəndaşlarının maraqlarının müdafiəsinin vacib şərtlərindən biridir.

Miqrasiya nəzarəti sistemi qeyri-qanuni miqrasiya ilə bağlı mövcud vəziyyətə adekvat olmalıdır. Buna görə də miqrasiya prosesləri üzrə idarəetməni təşkil edərkən Azərbaycan Respublikası tərəfindən beynəlxalq öhdəliklərin yerinə yetirilməsinin, insan hüquq və azadlıqlarının müdafiəsinin və dövlətin milli maraqlarının qorunmasının, o cümlədən onun milli təhlükəsizliyinin təmin edilməsinin zəruriliyi nəzərə alınmalıdır.

Qeyri-qanuni miqrasiyanın qarşısının alınması üçün bu problemin həllinə hərtərəfli yanaşma və aidiyyəti dövlət orqanlarının aşağıdakı istiqamətlər üzrə birgə fəaliyyəti zəruridir:





- səmərəli fəaliyyət göstərən vahid miqrasiya nəzarəti sisteminin yaradılması prosesinin sürətləndirilməsi;
- miqrantların qanuni mənafelərinin müdafiəsi ilə yanaşı, Azərbaycan Respublikasının qanunvericiliyini pozmuş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində tədbirlər görülməsi, o cümlədən onların deportasiyasını nəzərdə tutan qanunvericiliyin təkmilləşdirilməsi;
- həmsərhəd dövlətlərlə müqavilə prosesinin aktivləşdirilməsi və qeyri-qanuni miqrasiya ilə mübarizədə öhdəlikləri və məsuliyyəti nəzərdə tutan müvafiq sazişlərin bağlanması;
- əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı, olma yerləri, məşğulluğu barədə və digər zəruri məlumatları özündə əks etdirən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vahid uçotu sisteminin (miqrasiya informasiya mərkəzinin) formalaşdırılması.

**III. Beynəlxalq əməkdaşlıq**

Miqrasiya proseslərinin tənzimlənməsi beynəlxalq təcrübənin öyrənilməsini və ondan istifadə olunmasını, ölkə daxilində miqrasiya qaydalarının beynəlxalq standartlara uyğun təkmilləşdirilməsini, iki və çoxtərəfli əsaslarda beynəlxalq müqavilələrin bağlanmasını, digər ölkələrlə qarşılıqlı şəkildə miqrasiya siyasətinin uzlaşdırılmasını şərtləndirir.

Bununla əlaqədar Dövlət Proqramı çərçivəsində miqrasiya sahəsində beynəlxalq müqavilələrə Azərbaycan Respublikası tərəfindən qoşulmanın məqsədəuyğunluğu məsələsinin öyrənilməsi, bu sahədə xarici ölkələrlə müqavilə bağlanması prosesinin aktivləşdirilməsi, qeyri-qanuni miqrasiya ilə mübarizədə xarici ölkələrin müvafiq strukturları ilə əməkdaşlığın həyata keçirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi üçün müvafiq təlim kurslarının təşkil edilməsi və beynəlxalq təşkilatlarla, xüsusilə Beynəlxalq Miqrasiya Təşkilatı ilə əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

## İÇNDƏKİLƏR

Ön söz ........................................................................3
Terminlər....................................................................... 5
Əlavə 1: Xaricdə fəaliyyət göstərən Azərbaycan Diaspor təşkilatları.................................................294
Əlavə 2: Diaspor və lobbi mövzusu ilə bağlı Azərbaycanda nəşr edilən kitabların adları.................337
Əlavə 3: Diaspor mövzusu ilə bağlı internet saytlarının adları ...................................................341
Əlavə 4: Dünya ölkələrində yaşayan azərbaycanlıların sayı ..............................................343
Əlavə 5: Diaspor: maraqlı informasiyalar...................346
Əlavə 6: Azərbaycan icma və birliklərin nəzdində yaradılmış dövrü nəşrlərin və elektron KİV-lərin siyahısı: (2002-2005-ci illər).......................................348
Əlavə 7: Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının tərkibi.......................................................351
Əlavə 8: "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu..........................................359
Əlavə 9: Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər)....................367

*ƏLİYEV ZAUR BİLAL oğlu*

# DİASPOR

## İZAHLI SÖZLÜK VƏ MƏLUMAT KİTABI

**Əliyev Zaur Bilal oğlu 1976-cı ildə Ağdam rayonunda anadan olub. Bakı Dövlət Universitetinin "Beynəlxalq münasibətlər və beynəlxalq hüquq" fakültəsinin bakalavr və magistr təhsil pilləsini fərqlənmə ilə bitirib. 2002-2005-ci illər arası Azərbaycan MEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun aspiranturasında təhsil alıb. "Beynəlxalq münasibətlərdə diasporların rolu" (Bakı, 2001) və "Dünya diasporları" (Bakı, 2005) kitablarının müəllifidir.**

***Korrektor:*** *Aynur Əliyeva*
***Bilgisayar yığıcısı:*** *Aytən Əliyeva*
***Bilgisayar tərtibatçısı:*** *Müşfiq Qurbanov*

*Çapa imzalanıb: 05.09.2007*
*Formatı: 60x84 1/32 F.ç.v. 11,2*
*Ofset kağızı. Ofset çap üsulu.*
*Sayı: 500. 376 səh.*

Azərbaycan Yazıçılar Birliyi
**"YURD" Nəşriyyat-Poliqrafiya Birliyi**

Bakı, Xaqani küç.25
**Tel: 598-27-13**